BULUDXAN XƏLİLOV
*filologiya elmləri doktoru, professor*

# Müasir Azərbaycan dili:

***fonetika***
***yazı***
***əlifba***
***qrafika***
***orfoqrafiya***
***orfoepiya***

İKİNCİ NƏŞR

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Azərbaycan dili və ədəbiyyatı" bölməsinin 28.XII.2006-cı il tarixli 33 nömrəli iclasının qərarına əsasən dərslik kimi təsdiq olunmuşdur.*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri: əmr №22, 15.01. 2007-ci il.*

**Bakı - 2013**

downloaded from KitabYurdu.org

Redaktorlar:

**İsmayıl MƏMMƏDOV,**
*filologiya elmləri doktoru, professor*

**Cəfər CƏFƏROV,**
*filologiya elmləri doktoru, professor*

Rəyçilər:

**Müseyib MƏMMƏDOV,**
*filologiya elmləri doktoru, professor*

**Sayalı SADIQOVA,**
*filologiya elmləri doktoru, professor*

Buludxan Xəlilov. **MÜASİR AZƏRBAYCAN DİLİ:** *fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya.*
Bakı, "Bakı Çap Evi" nəşriyyatı, 2013, 310 səh.

Dərslikdə müasir Azərbaycan ədəbi dili anlayışı, müasir Azərbaycan ədəbi dili fənni və onun başqa elmlərlə əlaqəsi, müasir Azərbaycan ədəbi dili fənninin şöbələrində öyrənilən məsələlər şərh olunur.

Fonetika, onun məqsəd və vəzifələri, növləri, əhəmiyyəti, Azərbaycan dilinin fonetik quruluşu və fonemlər sistemi, fonetik transkripsiya, səs, səsin fiziki (akustik), fizioloji, ictimai əlamətləri, danışıq səsləri və onların təsnifi, Azərbaycan dilinin saitlər və samitlər sistemi, heca, vurğu, avazlanma, intonasiya, Azərbaycan dilində fonetik hadisə və qanunlar geniş izah olunur.

Dərslikdə yazı, əlifba, qrafika, orfoqrafiya və orfoepiya şöbələrinin öyrəndiyi məsələlər də öz əksini tapır.

Dərslikdən ali məktəblərin tələbələri, müəllimləri, magistrlər, elmi işçilər, orta məktəb müəllimləri faydalana bilərlər.

Dərslik barədə qeyd və təkliflərini çatdıracaq oxuculara müəllif qabaqcadan öz minnətdarlığını bildirir.

**© B.XƏLİLOV, 2013**

downloaded from KitabYurdu.org

# Giriş

Dil sözünü iki mənada başa düşürük. Birincisi, ağızda olan bir üzv, ikincisi, insanlar arasında ünsiyyətin vasitəsi. Dilin ikinci mənası onun danışıq üzvü vəzifəsini yerinə yetirməsindən sonra meydana gəlmişdir.

Dil ictimai hadisə olduğundan cəmiyyətin hər bir üzvünə eyni dərəcədə xidmət göstərir. Ona görə də anlaşma vasitəsi kimi cəmiyyətin hər bir üzvünün köməyinə çatır. Əgər belə olmasa, insanlar bir-birini başa düşməz, nəsillər arasındakı əlaqələr qırılar, cəmiyyət öz yerində sayar, elmi-texniki, mədəni, iqtisadi əlaqələr genişlənə bilməz və s.

Hazırda dünyanın rəsmi dövlət dillərindən biri də Azərbaycan dilidir. Oğuz qrupu türk dillərinə daxil olan Azərbaycan dilindən dünyanın müxtəlif yerlərində yaşayan 51 milyondan çox azərbaycanlı istifadə edir, bu dil vasitəsilə ünsiyyət qurur və öz arzu, istəklərini bir-birinə çatdırırlar. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların sayı aşağıdakı kimidir:

| | | | |
|---|---|---|---|
| 1) | ABŞ | - 100.000 | nəfər |
| 2) | Avstraliya | - 8000 | nəfər |
| 3) | Avstriya | - 10.000 | nəfər |
| 4) | Albaniya | - 12.000 | nəfər |
| 5) | Argentina | - 12.000 | nəfər |





downloaded from KitabYurdu.org

| | | | |
|---|---|---|---|
| 6) | Əlcəzair | - 260.000 | nəfər |
| 7) | Əfqanıstan | - 450.000 | nəfər |
| 8) | Banqladeş | - 175.000 | nəfər |
| 9) | Belçika | - 13.000 | nəfər |
| 10) | Birma | - 8000 | nəfər |
| 11) | Bolqarıstan | - 65.000 | nəfər |
| 12) | Braziliya | - 75.000 | nəfər |
| 13) | Butan | - 1500 | nəfər |
| 14) | Böyük Britaniya | - 170.000 | nəfər |
| 15) | Macarıstan | - 27.000 | nəfər |
| 16) | Yunanıstan | - 13.000 | nəfər |
| 17) | Danimarka | - 6.000 | nəfər |
| 18) | Misir | - 900.000 | nəfər |
| 19) | İndoneziya | - 44.000 | nəfər |
| 20) | İordaniya | - 450.000 | nəfər |
| 21) | İraq | - 1.000.000 | nəfər |
| 22) | İran | - 30.000.000 | nəfər |
| 23) | Hindistan | - 300.000 | nəfər |
| 24) | İrlandiya | - 4.000 | nəfər |
| 25) | İspaniya | - 14.000 | nəfər |
| 26) | İtaliya | - 33.000 | nəfər |
| 27) | Yəmən Ərəb Respublikası | - 62.000 | nəfər |
| 28) | Kanada | - 170.000 | nəfər |
| 29) | Çin | - 30.000 | nəfər |
| 30) | Küveyt | - 19.000 | nəfər |
| 31) | Malta | - 25 | nəfər |
| 32) | Meksika | - 27.000 | nəfər |
| 33) | Monqolustan | - 5000 | nəfər |
| 34) | Norveç | - 50.000 | nəfər |
| 35) | Birləşmiş Ərəb Əmirliyi | - 55.000 | nəfər |



downloaded from KitabYurdu.org

| | | |
|---|---|---|
| 36) Oman | - 19.000 | nəfər |
| 37) Pakistan | - 650.000 | nəfər |
| 38) Polşa | - 12.000 | nəfər |
| 39) Portuqaliya | - 7000 | nəfər |
| 40) Rumıniya | - 45.000 | nəfər |
| 41) Səudiyyə Ərəbistanı | - 40.000 | nəfər |
| 42) Suriya | - 95.000 | nəfər |
| 43) Sudan | - 17.000 | nəfər |
| 44) Türkiyə | - 3.000.000 | nəfər |
| 45) Finlandiya | - 12.000 | nəfər |
| 46) Fransa | - 70.000 | nəfər |
| 47) Almaniya | - 300.000 | nəfər |
| 48) Çexiya | - 2000 | nəfər |
| 49) Slovakiya | - 2000 | nəfər |
| 50) İsveç | - 2000 | nəfər |
| 51) Keçmiş Yuqoslaviya | - 6.000 | nəfər |
| 52) Yaponiya | - 10.000 | nəfər |
| 53) Ukrayna | - 500.000 | nəfər |
| 54) Belarus | - 7000 | nəfər |
| 55) Rusiya Federasiyası | - 3000.000 | nəfər |
| 56) Özbəkistan | - 60.000 | nəfər |
| 57) Qazaxıstan | - 100.000 | nəfər |
| 58) Gürcüstan | - 600.000 | nəfər |
| 59) Litva | - 2000 | nəfər |
| 60) Moldova | - 5000 | nəfər |
| 61) Latviya | - 4000 | nəfər |
| 62) Qırğızıstan | - 16.000 | nəfər |
| 63) Tacikistan | - 14.000 | nəfər |
| 64) Türkmənistan | - 4500 | nəfər |
| 65) Estoniya | - 300 | nəfər |
| 66) Azərbaycan Respublikası | - 8.300.000 | nəfər. |





downloaded from KitabYurdu.org

Azərbaycan dilinin adı bəzən **türk**, bəzən **tatar**, bəzən **azəri** adları ilə də adlandırılmışdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə dövlət dili türk dili elan olunmuşdur. 1937-ci ildə qəbul olunmuş konstitusiyada dövlət dili haqqında maddə olmamışdır. 1956-cı ildə Azərbaycan Respublikasının Ali Soveti 1937-ci il konstitusiyasına Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması barədə əlavə etmişdir. 1978-ci il konstitusiyasına Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə daxil edilmişdir. 1992-ci ilin dekabr ayında Milli Məclisdə dövlət dili məsələsi müzakirə olunmuş və Azərbaycanın dövlət dilinin türk dili adlandırılması barədə qərar qəbul edilmişdir. 1995-ci il konstitusiyasında qəbul olunmuşdur ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. 18 iyun 2001-ci il tarixdə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı imzalanmışdır. Fərmanın tələbindən irəli gələn ən vacib məsələlərdən biri də kargüzarlığın 2001-ci il avqust ayının 1-dən latın qrafikası ilə aparılmasını təmin etmək olmuşdur.

Azərbaycanlıların XIII əsrə qədər yazısı, yazılı ədəbi dili və əlifbası olmuşdur. Lakin bu əraziyə müxtəlif istiqamətlərdən olan talanlar, basqınlar Azərbaycana aid mənbələrin izini itirmişdir. Xüsusilə, ərəb işğalçılarının maddi-mədəniyyət abidələrimizi məhv etmələri Azərbaycan dilinin tarixi ilə bağlı bir çox dəyərli məlumatları əlimizdən almışdır.

Qeyd etmək lazımdır ki, son dövrlərdə XI əsrə aid dilimizin və ədəbiyyatımızın nadir abidəsi tapılmışdır. Bu, XI əsr şairi İsanın Azərbaycan dilində yazdığı "Mehri və Vəfa" poemasıdır. Klassik məsnəvi tərzində yazılmış bu əsərdə Mehri və Vəfanın bir-birinə olan məhəbbəti tərənnüm olunur. "Mehri və Vəfa" poemasının iki əlyazması dövrümüzə gəlib çatmışdır. Əlyazmalardan biri Əbdülqəni Nüxəvi Xalisəqarizadə tərəfindən 1834-cü ildə, ikinci əlyazma isə 1827-ci ildə Qazaxlı Məhəmməd Kəminə tərəfindən köçürülmüşdür. Əbdülqəni Nüxəvinin köçürdüyü əlyazmanın həcmi 1574 misradan ibarətdir. Qazaxlı



downloaded from KitabYurdu.org

Məhəmməd Kəminənin köçürdüyü əlyazma isə 1490 misradır. Qazaxlı Məhəmməd Kəminənin köçürdüyü nüsxədə ixtisarlara, müəyyən təhriflərə yol verilmişdir.

XIII əsrdən başlayaraq Azərbaycan ədəbi dilinin təşəkkülündə ikinci mərhələ başlamışdır. Hələ bu dövrə qədər Q.Təbrizinin, Ə.Xəqaninin, N.Gəncəvinin və farsca yazan digər sənətkarların yaradıcılığında Azərbaycan milli düşüncə tərzi ilə yanaşı, Azərbaycan sözləri də işlənmişdir. Şirvanşah Axsitanın "Leyli və Məcnun" poemasını türkcə (Azərbaycanca) deyil, farsca yazmağını N.Gəncəvidən tələb etməsi ədəbi bir faktdır. Bu hadisədən N.Gəncəvinin "Beyninə qan vurması, dodağı əsməsi" fikri bir daha Azərbaycan dilinin o dövrdə güclü olmasını göstərir. "Kitabi-Dədə Qorqud" dastanı, İ.Həsənoğlunun yaradıcılığı, "Əhməd Hərami" dastanı və digərləri o dövrdə Azərbaycan dilinin fəaliyyət göstərdiyini sübut edir. Yeri gəlmişkən qeyd edək ki, Q.Bürhanəddinin, İ.Nəsiminin, M.Füzulinin və digərlərinin yaradıcılığı da qədim Azərbaycan dilini səciyyələndirən abidələrdir.

Dil hər bir xalqın milli varlığını təsdiq etdiyi kimi, Azərbaycan dili də xalqımızın milli varlığını müəyyən edən başlıca amillərdən biridir. Azərbaycan dili fikrimizin, duyğumuzun, düşüncəmizin ən incə çalarlarını ifadə etmək gücünə malikdir. Dilimiz dünya dilləri sırasında həmişə nüfuzunu qorumuş, hətta Avropada geniş yayılmış dillərlə müqayisə olunmuşdur. Məsələn, M.Y.Lermontov Azərbaycan dilini fransız dilinin işləkliyi ilə müqayisə etmişdir. Onun fikrincə, fransız dili ilə Avropanı gəzib dolaşmaq mümkün olduğu kimi, Azərbaycan dili ilə də Asiyanı bütövlükdə gəzib dolaşmaq olar. Deməli, Avropada fransız dilini bilmək nə qədər zəruridirsə, Asiyada da (o cümlədən Qafqazda) Azərbaycan dilini bilmək o qədər zəruridir.

Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Bu dilin əsasını qədim dövrlərdən Azərbaycan torpağında məskunlaşmış türkəsilli boyların və soyların dili təşkil etmişdir. Azərbaycandakı ayrı-ayrı türkəsilli boy və soy birləşmələri ümumi anlaşma vasitəsi kimi bu dildən istifadə etmişdir. Azər-





downloaded from KitabYurdu.org

baycan dili IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır.

Zəngin şifahi ədəbiyyat nümunələri olan dastanlar, nağıllar, bayatılar, laylalar, nanaylar, tırınqılar və sair Azərbaycan şifahi ədəbi dilinin erkən dövrlərdə formalaşması üçün şərait yaratmışdır. Xalq şifahi ədəbi dildə yaratdıqlarını sonradan yazıya köçürmək üçün ümumxalq dili əsasında Azərbaycan ədəbi dilinin yazılı qolunu da yaratmışdır. Ədəbi dilimizin yazılı qolu uzun bir hazırlıq mərhələsi dövrünü keçirmişdir. Düzdür, Azərbaycan dilinin ilk yazılı abidələri dövrümüzə gəlib çatmamışdır. Ancaq "Kitabi-Dədə Qorqud" dastanının dili, İ.Həsənoğlunun, Q.Bürhanəddinin, Nəsiminin və digərlərinin sənətkarlığı sübut edir ki, Azərbaycan dili dərin tarixi köklərə malik olmuş, belə zəngin bünövrə üzərində ədəbi dil səviyyəsinə yüksəlmişdir.

XVI əsrdə Azərbaycan ədəbi dilinin mövqeyi daha da güclənmiş, onun statusu Səfəvilər dövlətinin rəsmi dövlət dili səviyyəsinə yüksəlmişdir.

XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dilində xəlqilik, sadəlik meyilləri güclənmiş və dilimizin inkişafında Molla Pənah Vaqifin yaradıcılığı əsasında yeni bir mərhələ başlanmışdır.

XIX əsr o dövrün ictimai-siyasi hadisələri ilə bağlı olaraq ədəbi dilimizin inkişafında yeni bir mərhələ kimi daha əlamətdar olmuşdur. Maarifçi ziyalılarımız ana dilində dərsliklər, dərs vəsaitləri, lüğətlər yazmışlar. Məsələn, bu mənada Mirzə Kazım bəyin, Mirzə Şəfi Vazehin, Seyid Əzim Şirvaninin, Aleksey Çernyayevskinin, Mirzə Əbülhəsən bəy Vəzirovun, Seyid Ünsizadənin, Rəşid bəy Əfəndiyevin, Sultan Məcid Qənizadənin, Məmmədtağı Sidqinin, Nəriman Nərimanovun, Üzeyir Hacıbəyovun, Abdulla Şaiqin və digərlərinin xidmətləri əvəzsiz olmuşdur.

XIX əsrdə Azərbaycan ədəbi dilinin tətbiqi işinə tələbat daha da artmışdır. Odur ki, bu dövrdə ədəbi dilin normalarının müəyyənləşməsi işi ortalığa çıxmış və Mirzə Fətəli Axundovun dilçilik görüşləri mühüm rol oynamışdır. Bu əsrdə "Əkinçi" qəzeti ilə milli mətbuatın bünövrəsi qoyulmuşdur.

downloaded from KitabYurdu.org

XX əsr Azərbaycan ədəbi dilinin inkişafında yüksək bir zirvədir. Bu dövrdə (1945-ci ildə) Dilçilik İnstitutu yaranmış, dilçiliyin müxtəlif sahələrinə dair zəngin tədqiqat işləri aparılmış, dilçi alimlərin ordusu yaranmışdır. Dilçi alimlər sırasında Bəkir Çobanzadənin, Məmmədağa Şirəliyevin, Əbdüləzəl Dəmirçizadənin, Muxtar Hüseynzadənin, Əliheydər Orucovun, Səlim Cəfərovun, Əlövsət Abdullayevin, Fərhad Zeynalovun və digərlərinin dilçiliyimizin inkişafında böyük xidmətləri olmuşdur.

Hazırda XXI yüzillikdə dövlətimizin rəsmi dövlət dili olan Azərbaycan dili öz güclü mövqeyini cəmiyyətimizin bütün sahələrində göstərə bilir. Ana dilimiz vasitəsi ilə müxtəlif dövlətlərlə danışıqlar aparılır və Azərbaycan dili rəsmi danışıq dili kimi, mövcud olan imkanları ilə bütün tələblərə cavab verir.

Azərbaycan ədəbi dilinin formalaşması dövrü neçə-neçə minillik tarixi bir dövrlə bağlıdır. Belə ki, uzun bir tarixi dövr ərzində qəbilə dilindən tayfa dili, tayfa dilindən ümumxalq dili, ümumxalq dilindən milli dil formalaşmışdır. Milli dil bir sıra xüsusiyyətlərinə görə xalq dilindən fərqlənir. Məsələn, dil xalq dili kimi mövcud olduqda dialekt və şivə sözlərindən geniş şəkildə istifadə olunur. Ancaq milli dil dövründə dialekt və şivə sözlərindən istifadə imkanları məhdudlaşır. Ona görə ki, ayrı-ayrı dialekt və şivələr arasındakı fərqlər milli dil dövründə getdikcə azalır. Bundan başqa, xalq dili dövrü ilə müqayisədə milli dil dövründə dilin normaları, qayda-qanunları tam şəkildə sabitləşir. Hazırda Azərbaycan dili milli dil olmaqla qayda-qanunlarını, dil normalarını sabitləşdirə bilmişdir.

Azərbaycan dilinin iki qolu vardır: 1) **danışıq dili,** 2) **ədəbi dil.**

**1) Danışıq dili.** Ədəbi dil normalarını özündə yaşatmayan, cilalanmamış, təkmilləşməmiş, loru sözləri üstünlük təşkil edən dildir. Bu dilin tarixi çox qədimdir. Qəbilə, tayfa dövründən başlayaraq bu dildən istifadə edilmişdir. Danışıq dilinin yazısı olmur, ən qədim dil xüsusiyyətlərini daha çox qoruyub saxlayır, ayrı-ayrı dialekt və şivələrin özünəməxsus xüsusiyyətlərini yaşadır və s.

**2) Ədəbi dil.** Cilalanmış, təkmilləşmiş, müəyyən normaya sa-



downloaded from KitabYurdu.org

lınmış, qayda-qanunları özündə sabitləşdirmiş, seçmə və əvəzetmə əməliyyatı ilə formalaşmış dildir. Ə.Dəmirçizadənin sözləri ilə desək, ədəbi dildə "dürüstlük, düzgünlük, dəqiqlik, asanlıq, sadəlik, vahidlik, eynilik, sabitlik, ahəngdarlıq, səlistlik, fəsihlik, davamlılıq" olmalıdır[1].

Ədəbi dilin iki qolu vardır: 1) **şifahi ədəbi dil;** 2) **yazılı ədəbi dil.**

**1) Şifahi ədəbi dilin** tarixi yazılı ədəbi dilin tarixindən çox qədimdir. Ona görə ki, insanlar əvvəlcə şifahi şəkildə danışmış, sonralar (yazı yarandıqdan sonra) yazıdan istifadə etmişlər. Əvvəlcə arzularını, istəklərini, duyğularını, düşüncələrini şifahi şəkildə ifadə etmiş, sonralar yazının tələbata çevrildiyini və yarandığını nəzərə alaraq onları yazıya köçürmüşlər.

**2) Yazılı ədəbi dil** yazının əmələ gəlməsi ilə bağlıdır və şifahi ədəbi dildən gec yaranmışdır. Şifahi ədəbi dillə yazılı ədəbi dil arasında müəyyən fərqləndirici xüsusiyyətlər vardır. Şifahi ədəbi dil şifahi, yazılı ədəbi dil yazılı şəkildə mövcuddur. Şifahi ədəbi dilin lüğət tərkibindəki sözlər hamıya eyni dərəcədə məlumdur və aydındır, yazılı ədəbi dil isə belə deyildir. Yazılı ədəbi dil yazının köməyi ilə bütün məlumatları gələcək nəslə çatdıra bildiyi halda, şifahi ədəbi dilin bu imkanı yazılı ədəbi dillə müqayisədə olduqca məhduddur və s.

**Müasir Azərbaycan ədəbi dili fənninin başqa elmlərlə əlaqəsi.** Müasir Azərbaycan ədəbi dili fənninin ədəbiyyat, tarix, fəlsəfə, məntiq, psixologiya, fiziologiya, fizika və s. elmlərlə əlaqəsi vardır.

**Müasir Azərbaycan ədəbi dili fənninin ədəbiyyatla əlaqəsi əsasən bunlardır:**

**1)** Hər hansı bir ədəbi əsər konkret bir tarixi dövrdə yazılır və həmin dövrdəki ədəbi dilin qayda-qanunlarını özündə yaşadır. Deməli, istənilən bir ədəbi-bədii nümunə yazıldığı

1. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Bakı, "Maarif" nəşriyyatı, 1972, s.5.



downloaded from KitabYurdu.org

dövrün ədəbi dilinin xüsusiyyətlərini qoruyub saxlayır. Bu da ədəbiyyatla ədəbi dilin əlaqəsini təsdiq edir.

**2)** Dilimizin lüğət tərkibinə daxil olan sözlər ədəbi əsərlərdə daha yaxşı mühafizə olunub saxlanılır. Yaxud, dilimizdə tarixən işlənmiş və hazırda arxaikləşmiş sözlər, şəkilçilər ədəbi əsərlər vasitəsi ilə bizə gəlib çatmışdır. Məsələn, **ol, xaçan, tamu** (cəhənnəm), **sayru** (xəstə, xəstəlik), **yaşırmaq** (gizləmək) və s. sözlər indi arxaikləşmişdir. Yenə də bu tipli misallar ədəbiyyatla ədəbi dilin əlaqəli olduğunu göstərir.

**3)** Dilimizin lüğət tərkibinin zənginləşməsini şair və yazıçılarımızın yazıb yaratdıqları bədii əsərlər vasitəsilə öyrənirik. Bu da ədəbiyyatla ədəbi dilin (konkret desək, ədəbi dilin lüğət tərkibinin) əlaqəli olduğunu təsdiq edir.

***Müasir Azərbaycan ədəbi dili fənninin tarixlə əlaqəsindəki ən xarakterik məqamları belə göstərmək olar:***

Xalqın dili onun tarixi ilə əlaqəli şəkildə inkişaf etmiş , zənginləşmişdir. Yəni xalqın tarixi (iqtisadi-siyasi, mədəni, etnoqrafik və s.) onun dilinin inkişafına güclü təsir göstərmişdir.

Azərbaycan ərazisi ərəblərin, farsların, monqolların işğalına məruz qaldığından dilimizə həmin dillərdən çoxlu sözlər keçmişdir. *Məsələn, qayda, rahat, adam, kitab, katib, şəhər, sinif, təmiz, rahat və s. sözlər ərəb-fars dillərindən dilimizə keçmiş və dilimizin qayda-qanunlarına uyğunlaşmışdır.* Deməli, tarixi yaxşı bilmədən dilimizə yad dillərdən sözlərin daxil olması səbəbini də öyrənmək olmaz. Odur ki, hər bir xalqın tarixi ilə dili əlaqəli şəkildə öyrənilərsə, bu, daha böyük fayda verə bilər.

**Müasir Azərbaycan ədəbi dili fənninin fəlsəfə ilə əlaqəsi.** Fəlsəfədə təbiətdə və cəmiyyətdə baş verən proseslər, fəlsəfi qanun və hadisələr öyrənildiyi kimi, dildə də dilin öz qanunları, hadisələri və onda baş verən proseslər öyrənilir. Bu mənada dildəki qanun və hadisələri yaxşı mənimsəmək üçün fəlsəfədəki qanun və hadisələri dərindən bilmək lazımdır. *Məsələn, fəlsəfənin öyrəndiyi obyektiv zaman dildə öz ifadəsini qrammatik zaman (keçmiş, indiki, gələcək) vasitəsilə tapır. Əgər obyektiv*





downloaded from KitabYurdu.org

*zaman yoxdursa, onda heç qrammatik zamandan da danışmağa dəyməz.*

**Müasir Azərbaycan ədəbi dili fənninin məntiqlə əlaqəsi** olduqca zəruri bir əlaqədir. Bu əlaqə təbii şəkildə meydana çıxır və onsuz sözdən söz birləşməsi, söz birləşməsindən cümlə yarana bilmir. Ona görə ki, sözlərin bir-biri ilə əlaqəsi təkcə qrammatik cəhətdən deyil, həm də məzmun baxımından olur. Forma ilə məzmunun vəhdəti bir-birini tamamlayır. *Məsələn, yaşıl yarpaq, şirin çörək və s. dediyimiz halda, yaşıl söhbət, şirin divar deyə bilmirik.* Ona görə məzmun baxımından belə birləşmələr özünü doğrultmur. Odur ki, hər hansı bir birləşmə yalnız qrammatik baxımdan deyil, məzmun baxımından da tamamlanmalıdır. Bu da məntiqin qaydalarına uyğun olan bir hal kimi dildə özünü göstərir. Deməli, məntiqsiz söz, söz birləşməsi, cümlə, mətn, nitq və s. yoxdur.

Məntiq elminin tələbinə görə iki inkar təsdiq məzmunu bildirir. Məsələn, *Ocaq yanmasa, tüstü çıxmaz cümləsində iki inkar (yanmasa, çıxmaz) olduğundan bu cümlə təsdiq məzmunu bildirir. Yaxud, bilmədən danışma, görməmiş söz vermə* və s. nümunələr də təsdiq məzmunundadır.

**Müasir Azərbaycan ədəbi dili fənni psixologiya** elmi ilə də əlaqəlidir. Belə ki, insan psixoloji proseslərdən - sevincdən, kədərdən, qəzəbdən, nifrətdən, heyrətdən, qorxudan və s.-dən təcrid olunmuş halda yaşamır. Psixoloji proseslər psixologiya elmində öyrənilir. Ancaq bu psixoloji proseslərlə bağlı olan söz qrupları (məsələn, nidalar- aha, oho, oy, ax... ) isə Müasir Azərbaycan dili fənnində tədris olunur. Bu da psixologiya elmi ilə Müasir Azərbaycan ədəbi dili fənninin  nə qədər əlaqəli olduğunu təsdiq edir.

**Müasir Azərbaycan ədəbi dili fənninin fiziologiya** elmi ilə əlaqəsi barədə onu demək olar ki, danışıq üzvlərini həm Müasir Azərbaycan ədəbi dili fənninin  fonetika şöbəsi, həm də fiziologiya elmi öyrənir. Ancaq fonetika şöbəsində danışıq səslərinin yaranmasında danışıq üzvlərinin rolu, funksiyası əsas götürülür, məsələyə bu baxımdan diqqət yetirilir. Fiziologiya elmində isə



downloaded from KitabYurdu.org

danışıq üzvlərinin fizioloji və bioloji vəzifəsi öyrənilir. Hər halda danışıq üzvləri hər iki elmin tədqiq etdiyi bəhsdir, obyektdir. Ona görə də hər iki elmin bu baxımdan əlaqəli şəkildə öyrənilməsi olduqca vacibdir.

**Müasir Azərbaycan ədəbi dili fənni fizika elminin** müəyyən mövzuları, bəhsləri ilə də əlaqəlidir. Belə ki, səs mövzusu həm Müasir Azərbaycan ədəbi dili fənninin fonetika şöbəsində, həm də fizika elmində öyrənilir. Ancaq fonetika şöbəsində səsin (danışıq səsinin) ictimai xüsusiyyətləri, onların növləri (saitlər, samitlər) və s. məsələlər öyrənildiyi halda, fizika elmində isə (akustika bölməsində) onun akustik xüsusiyyətlərini bilmək lazımdır. Fonetika şöbəsi yalnız danışıq səslərini (ictimai mahiyyətli səsləri), fizikanın akustika bölməsi isə digər səsləri də (məsələn, küləyin səsi, maşının səsi, suyun səsi və s.) öyrənir.

**Müasir Azərbaycan ədəbi dili fənninin şöbələri.** Müasir Azərbaycan ədəbi dili fənninin şöbələri aşağıdakılardır:

**Fonetika.** Azərbaycan ədəbi dilinin fonetikası, səs quruluşu, fonetik hadisə və qanunlar, heca, vurğu və s. məsələlər bu şöbədə öyrənilir.

**Yazı.** Burada yazı, onun növləri və s. məsələlər təhlil olunur.

**Əlifba.** Əlifba, onun tarixi, Azərbaycan əlifbası və s. məsələlər burada izah olunur.

**Qrafika.** Əlifbadakı hərflərin qrafik işarəsi göstərilir.

**Orfoqrafiya.** Orfoqrafiyanın prinsipləri, indiyə qədər çap olunmuş orfoqrafiya lüğətləri, sözlərin düzgün yazılış qaydaları və sətirdən-sətrə keçirilməsi və s. məsələlər burada şərh olunur.

**Durğu işarələri.** Durğu işarələrinin növlərindən və istifadə qaydalarından bəhs edilir.

**Orfoepiya.** Müasir Azərbaycan ədəbi dilinin tələffüz normaları bu şöbədə təhlil olunur.

**Leksikologiya.** Burada Azərbaycan ədəbi dilindəki sözlərdən, onların işlənmə dairəsinə görə hansı qruplarda olmasından, mənşəyindən və s. -dən bəhs olunur.

**Onomalogiya.** Dilimizdəki xüsusi adlardan bəhs edir.





downloaded from KitabYurdu.org

**Semasiologiya.** Dilimizdəki sözlərin məna qruplarından bəhs edir.

**Frazeologiya.** Burada frazeoloji vahidlər öyrənilir.

**Leksikoqrafiya.** Bu şöbədə lüğətlər, onların növləri, tərtibi prinsipləri öyrənilir.

**Derivatologiya.** Sözyaradıcılığı yollarından bəhs olunur.

**Morfologiya.** Sözlərin leksik mənasına, morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə müəyyən qruplara ayrılması, onların morfoloji formalara yiyələnməsi və s. məsələlər öyrənilir.

**Sintaksis.** Sintaktik əlaqələr, söz birləşmələri, cümlə və onun növləri, mətn bu şöbədə öyrənilir.



downloaded from KitabYurdu.org

# Fonetikaya giriş

**Fonetikanın mövzusu.** Fonetika dilçiliyin şöbələrindən biridir. Bu söz (yəni fonetika sözü) yunan mənşəli sözdür və mənası "səs" deməkdir. Yunanca **phone** "səs", **tika//tikos** isə "elm" (məhz səs haqqında elm) mənasındadır. Dilçilik elminin ilk inkişaf mərhələsində fonetika sözü "səs" mənasında işlənsə də, indi bu məna köhnəlmişdir. Daha doğrusu, fonetikanın öyrəndiyi məsələlərin obyekt dairəsi yalnız səslə məhdudlaşmır. Burada danışıq səsi (nitq səsi), fonem, fonetik hadisə və qanunlar, heca, vurğu, avazlanma, intonasiya və s. məsələlər öyrənilir.

Dilçilik elmi ümumi və xüsusi olduğu kimi, fonetika da **ümumi** və **xüsusi** olmaqla iki yerə ayrılır. **Ümumi fonetikada** fonetikanın öyrəndiyi, tədqiq etdiyi bütün məsələlər ümumi izahını tapır. Yəni səs, fonem, fonetik hadisə və qanunlar, heca, vurğu, avazlanma, intonasiya və s. məsələlər ümumi dilçilik istiqamətində öyrənilir. **Xüsusi fonetikada** isə konkret bir dilin materialları əsasında fonetikanın öyrəndiyi məsələlər araşdırılır. Bu istiqamətdə fonetikanın öyrəndiyi məsələlər xüsusi fonetikanın materiallarına aid olur. Nəticədə hər bir dilin fonetikası yaranır: Azərbaycan dilinin fonetikası, türk dilinin fonetikası, türkmən di-





downloaded from KitabYurdu.org

linin fonetikası və s. Bunların hər birinin fonetikası, o cümlədən Azərbaycan dilinin fonetikası xüsusi fonetikaya aiddir.

**Qeyd:** Fonetika dilçiliyin müstəqil bir şöbəsidir. Ancaq fonetikanı qrammatikanın tərkib hissəsi (məsələn, V.A.Boqoroditski, A.M.Zenski və başqaları) hesab edənlər də olmuşdur.

**Fonetikanın məqsəd və vəzifələri.** Fonetika elmi qarşıya qoyduğu məqsəd və vəzifə baxımından dilçiliyin digər şöbələrindən fərqlənir. Bu elmin məqsədi Azərbaycan dilinin fonetikasını öyrənməkdir. Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilir:

**1)** Dilin səs sisteminin və fonemlər sisteminin müəyyənləşdirilməsi;

**2)** Danışıq səslərinin fiziki, fizioloji və ictimai əlamətlərinin üzə çıxarılması;

**3)** Dilin özünəməxsus səs sistemini və səs quruluşunu öyrənmək;

**4)** Fonetik hadisə və qanunlar, heca, vurğu, intonasiya və digər məsələləri öyrənmək və s.

Yeri gəlmişkən onu da qeyd edək ki, fonetikanın məqsəd və vəzifələrindən orfoqrafiya qaydalarının tənzimlənməsində, əlifbanın tərtibində, düzgün tələffüz qaydalarında geniş istifadə olunur.

**Fonetikanın növləri.** Fonetika bir elm kimi dilçiliyin müstəqil şöbələrindən biri olmaqla üç növə ayrılır: təsviri fonetika, tarixi fonetika, müqayisəli fonetika.

**Təsviri fonetika.** Təsviri fonetika müasir Azərbaycan dilinin fonetikasını təsvir etmək yolu ilə öyrənir. Yəni bu-





downloaded from KitabYurdu.org

rada dilin fonetikasının müasir səviyyəsi araşdırılır. Bu fonetikanın tədqiqat obyekti müasir Azərbaycan ədəbi dili və onun dialekt, şivələridir. Təsviri fonetikanın tədqiqat metod və üsullarına eksperiment, müşahidə, müsahibə ilə yanaşı, laboratoriya (elmi-tədqiqat laboratoriyaları) daxildir.

Yeri gəlmişkən onu da qeyd edək ki, **təsviri fonetika** bir müddətdən sonra tarixi fonetikanın tərkib hissəsinə çevrilir. Məsələn, Azərbaycan ədəbi dilinin XIII, XIV, XV, XVI və s. əsrlərdəki fonetikası indi tarixi fonetika olsa da, öz dövrü üçün təsviri fonetikadır.

**Tarixi fonetika.** Tarixi fonetika konkret olaraq hər bir dilin tarixən keçdiyi inkişaf dövrlərinin fonetikasını öyrənir. Azərbaycan yazılı ədəbi dilinin tarixi XIII əsrdən götürüldüyü üçün tarixi fonetika da bu dövrdən başlayır.

**Tarixi fonetika** dilin fonetik quruluşunda baş verən dəyişməni, inkişafı tədqiq etməklə məşğul olur. Fonetika sahəsinin görkəmli tədqiqatçısı Ə.Dəmirçizadə tarixi fonetikanın tədqiq obyekti, mövzu və məqsədi barədə yazır: "İnkişaf tarixi boyu müəyyən dilin səs tərkibində, fonetik qanun və qaydalarında baş vermiş dəyişmələri öyrənib, həmin dilin fonetik sisteminin inkişaf tarixini müəyyənləşdirmək tarixi fonetikanın mövzu və məqsədini təşkil edir. Tarixi fonetikada səs tərkibinin təkmilləşməsi, müəyyən səsin və ya fonetik qanunun tədricən geniş dairədə işləkolma prosesi, yeni bir səsin törəmə, digər bir səsin yoxolma prosesi tədqiq olunur"[1].

Tarixi fonetikanın tədqiqat obyekti təsviri fonetikadan fərqlənir. Təsviri fonetikanın obyekti müasir dil olduğu halda,

1 Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Fonetika. Bakı, 1972, s. 9.





downloaded from KitabYurdu.org

tarixi fonetikanın obyekti isə dilin tarixidir. Yəni dilin müasir səviyyəsinə qədər mövcud olan yazılı ədəbi dil və yazılı abidələrdir. Bir sözlə, **tarixi fonetika** ilə **təsviri fonetika** arasında aşağıdakı fərqləri ümumiləşdirmək olar:

**a)** Təsviri fonetika müasir ədəbi dili, canlı danışıq dilini, dialekt və şivələri tədqiq edərək nəticələr çıxarır. Ancaq tarixi fonetika isə dilin fonetikasını tarixilik baxımından öyrənir. Bununla da təsviri fonetika ilə tarixi fonetika öz mənbələri baxımından fərqlənirlər. Təsviri fonetikanın mənbəyi müasir ədəbi dil, canlı danışıq dili, dialekt və şivələrdir. Tarixi fonetikanın mənbəyi isə dilin fonetik quruluşunun minillik tarixidir.

**b)** Təsviri fonetika hazırda işlənən, səslənən dili öyrəndiyi üçün təsviri metod, təcrübi və eksperimental üsullardan (laboratoriya şəraitində alətlərdən, avadanlıqlardan, texniki vasitələrdən istifadə etməklə) istifadə edir. Tarixi fonetika isə müqayisəli-tarixi metod və ona məxsus olan üsullara istinad edir.

**c)** Təsviri və tarixi fonetika məzmun və həcm baxımından da bir-birindən fərqlənir. Belə ki, təsviri fonetika müasir ədəbi dilin fonetik quruluşunu, tarixi fonetika isə dilin fonetik quruluşunun minillik tarixini öyrənir.

Tarixi fonetikanın öyrənilməsi Azərbaycan dilinin tarixinin, xüsusən tarixi fonetikasının, tarixi morfologiyasının dərindən öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Məsələn, müasir Azərbaycan ədəbi dilində **h** səsi ilə başlayan **hamısı** əvəzliyi XV əsrə qədər **q** səsi ilə, XVIII əsrə qədər **x** səsi ilə, XVIII əsrdən etibarən **h** səsi ilə işlənmişdir: **qamusu-xamusu-hamısı.** Bunu və bu tipli digər məsələləri tarixi fonetika öyrənməklə dilimizin tarixinin dərindən tədqiq olunmasına köməklik göstərir. Tarixi fonetika mənbə kimi yazılı abidələrdən, ədəbi əsərlərdən, tarixi sənədlərdən və sairdən istifadə edir. Məlumdur ki,



downloaded from KitabYurdu.org

dilimizin yazılı abidələrinin bir qismi ərəb əlifbası ilə yazılmışdır. Ərəb əlifbası isə dilimizin səs tərkibinin bütün incəliklərini tam şəkildə ifadə edə bilmir. Məsələn ərəb dilindəki sait səsləri bildirmək üçün istifadə olunan üç hərf Azərbaycan dilindəki 9 saiti ifadə edə bilməmişdir. Bu da ərəb əlifbası ilə yazılmış mənbələrin oxunmasında çətinlik yaratmışdır. Yaxud, ərəb dilindən alınmış **ğələt, ğalib, ğəyz** sözlərinin ilk səslərinin **ğ** və **q** kimi tələffüz mümkünlüyü, bəzi sözlərin sonunda **b** samitinin **gəlib, yazıb,** bəzisində **gəlip, yazıp** şəklində yazılması və bunların hansının doğru olmasını müəyyən etmək çətinlik törətmişdir. Bu mənada ərəb əlifbasının yazıda və oxuda törətdiyi çətinlikləri mütərəqqi adamlar və tədqiqatçılar həmişə hiss etmişlər. XVI əsrin görkəmli şairi M.Füzuli savadsız katiblərdən şikayətlənərək yazırdı: **Qələm olsun əli ol katibi-bəd təhririn Ki fəsadi qələmi sözümüzü şur eylər. Gah bir hərf süqutilə qılur nadiri nar, Gah bir nöqtə qusurilə gözü nur eylər.**

Deməli, tarixi fonetikanı öyrənərkən bir sıra çətinliklərin və nöqsanların mövcud olduğunu nəzərdən qaçırmaq olmaz.

**Müqayisəli fonetika.** Müqayisəli fonetika həm təsviri, həm də tarixi fonetikanın öyrəndiyi nəzəri məsələləri müqayisə, qarşılaşdırma, tutuşdurma yolu ilə tədqiq edir. Bu zaman qohum dillərin və qohum olmayan dillərin fonetik quruluşu müqayisə oluna bilər. Bundan başqa, müqayisəli fonetika qohum və qohum olmayan dillərin fonetikasını ayrı-ayrı tarixi dövrlər üzrə müqayisəli şəkildə tədqiq edib öyrənir.

Təsviri və tarixi fonetikanın tədqiqat metod və üsulları fonetikanın **təcrübi** və ya **eksperimental** və **fizioloji fonetika** növlərini də yaradır.

**Təcrübi** və ya **eksperimental fonetika** daha çox təsviri fonetikaya xidmət edir. Ona görə ki, təcrübi və eksperi-



downloaded from KitabYurdu.org

mental yolla müasir dili öyrənmək daha asandır, eyni zamanda düzgündür. Təcrübi və ya eksperimental fonetikada laboratoriya şəraitindən geniş istifadə olunur.

**Fizioloji fonetika** danışıq səslərinin yaranmasında iştirak edən danışıq üzvlərinin aldığı vəziyyəti öyrənir. Bu fonetikadan da ən çox təsviri fonetika faydalana bilir. Belə ki, təsviri fonetika fizioloji fonetikaya əsaslanaraq danışıq səslərini (saitləri və samitləri) tələffüz edərkən danışıq üzvlərinin aldığı vəziyyəti müəyyən edir.

**Fonetikanın əhəmiyyəti.** Fonetikanı öyrənməyin bir sıra əhəmiyyəti vardır:

**Birincisi**, əlifbanın tərtib olunmasında fonetika mühüm rol oynayır. Belə ki, fonetikanın tədqiq edib öyrəndiyi danışıq səsləri əlifbada müəyyən qrafik işarələrlə əks olunur. Bu mənada danışıq səslərinin mükəmməl öyrənilməsi onların qrafik işarələrinin əlifbada dürüst, dəqiq əks olunmasına gətirib çıxarır.

**İkincisi**, orfoqrafiya qaydalarının tənzimlənməsində fonetikanın əhəmiyyəti böyükdür. *Məsələn, sözlərin sətirdən-sətrə keçirilməsində sözkökü vahidliyi prinsipi, heca vahidliyi prinsipi və qrafik vahidlik prinsipindən istifadə olunur ki, bu da fonetikada öyrədilir.* Bundan başqa, tələffüzü ilə yazılışı arasında fərq olan danışıq səslərinin də orfoqrafiya qaydaları gözlənilir. *Məsələn, **qonaq** (qonax), **çiçək** (çiçəx[1]), **çörək** (çörəx[1]) və s. tipli sözlərdə **q**, **k** samitlərinin tələffüzü ilə yazılışı fərqlənir.* Odur ki, orfoqrafiya qaydalarına riayət etmək üçün tələffüzü ilə yazılışı fərqlənən bu cür səsləri ayırd etməkdə fonetikanın rolu böyükdür.



downloaded from KitabYurdu.org

**Üçüncüsü,** düzgün tələffüz qaydalarının müəyyənləşdirilməsində fonetikadan istifadə olunur. Belə ki, elə səslər və sözlər vardır ki, onların tələffüzü ilə yazılışı fərqlənir. *Məsələn,* ***qızlar, günlər*** *yazılır, amma* ***qızdar, günnər*** *tələffüz olunur.* Məhz səslərin tələffüz normalarını fonetikada öyrənməklə orfoepik qaydalara riayət etmiş oluruq.

**Dördüncüsü**, dili qüsurlu olan, danışanda kəkələyən adamların nitqindəki qüsurları müəyyən etməkdə fonetikanın əhəmiyyətli rolu vardır. Hər hansı bir səsi tələffüz edərkən danışıq üzvləri müəyyən vəziyyət alır. Bu zaman səsin məxrəci yaranır. Səs öz məxrəcində tələffüz olunmadıqda istər-istəməz qüsur ortalığa çıxır. Bu da fonetika ilə bağlı bir məsələ olduğu üçün burada fonetikanın rolunu inkar etmək olmur.

**Beşincisi**, fonetikanın əhəmiyyətini fizika elmində, radiotexnikada, rabitədə və s. sahələrdə görmək mümkündür.

**Altıncısı**, deklomasiya, natiqlik və vokal sənətində fonetikadan, fonetik qanunauyğunluqdan istifadə olunur.

**Yeddincisi**, fonetikanı öyrənmədən dilin səs tərkibini müəyyənləşdirmək, nitq səslərini və onların səciyyəvi xüsusiyyətlərini ayırd etmək olmaz. Bununla da dildəki fonemlərin kəmiyyətini müəyyən etmək çətinlik yarada bilər. Odur ki, fonetikada nitq səsləri, onların səciyyəvi xüsusiyyətləri, dildəki fonemlərin sayı və s. məsələlər də müəyyən olunur.

**Səkkizincisi**, fonetikanı öyrənməklə dilimizin tarixində mövcud olmuş, hal-hazırda işlənməyən və ya başqa səslə



downloaded from KitabYurdu.org

əvəz olunmuş səsləri də dəqiqləşdirmək olur. Bu da dilimizin tarixinin öyrənilməsində, sözlərin etimologiyasının açılmasında əvəzsiz rol oynayır.

**Doqquzuncusu**, dilə başqa dillərdən daxil olmuş sözlərin bir qismi daxil olduğu dilin səs sisteminə uyğunlaşır. Bu, dilin fonetik quruluşu sayəsində baş verir ki, fonetikanın imkanları burada da mühüm rol oynayır.



downloaded from KitabYurdu.org

# Azərbaycan dilinin fonetik quruluşu

Azərbaycan dilinin fonetik quruluşu dedikdə bu dilin özünəməxsus səs sistemi, səs quruluşu başa düşülür. Dilimizin səs sistemi, səs quruluşu ayrı-ayrı tarixi dövrlərdən keçərək cilalanmış şəkildə müasir dövrümüzə gəlib çıxmışdır. Ona görə də dilin fonetik quruluşunu yaxşı başa düşmək üçün dilin tarixinə diqqət yetirmək lazımdır. Bu mənada qədim Azərbaycan dilinin fonetik quruluşu ilə müasir Azərbaycan dilinin fonetik quruluşu az da olsa, bir-birindən fərqlənir. Düzdür, dilin lüğət tərkibinə nisbətən fonetik quruluşu az dəyişir. Amma qismən də olsa, dilin tarixi inkişafında müəyyən fonetik fərqlər özünü göstərir. *Məsələn, müasir dilimizdəki* ***hamısı*** *əvəzliyi tarixən* ***qamusu, xamusu*** *şəklində işlənməklə qədim dövrlərdə* ***h****-ya nisbətən* ***q*** *və* ***x*** *samitinin aparıcı rol oynadığını təsdiq edir.*

Azərbaycan dilinin fonetik quruluşu aşağıdakı xüsusiyyətlərə malikdir:

**1)** Azərbaycan dilinin fonetik quruluşu türk dillərində olduğu kimi, ahəng qanununun qorunması ilə xarakterizə olunur. Dilimizin musiqili olmasını yaradan amillərdən biri ahəng qanunu ilə sıx bağlıdır. Ahəng qanunu danışıq səslərinin sistemli düzümünə münbit şərait yaradır. Danışıq səslərinin sistemli düzümü



downloaded from KitabYurdu.org

morfoloji cəhətdən cilalı dil vahidi formalaşdırır. Morfoloji cəhətdən cilalanmış dil vahidi musiqili və axıcı olur. Ahəng qanunu həm də təbiətdəki səslərlə ictimai mahiyyətli danışıq səslərinin fərqlənməsində mühüm rol oynayır. *Məsələn, təbiətdəki ağacların xışıltı, çayların axma, yağışın yağma səslərində harmoniya və ahəngdarlıq yoxdur*. Bu harmoniya və ahəngdarlıq danışıq səslərinə, onların yaratdığı hecalara və hecalardan yaranmış sözlərə aiddir.

**2)** Dilimizin fonetik quruluşunda sait və samit səslərin ardıcıl sıralanması, bir-birinin ardınca gəlməsi mühüm xüsusiyyətlərdən biridir. Bu mənada Azərbaycan dilində samit + sait (məs.: de, ye, su, nə və s.), sait + samit (məs.: al, et, en, iş və s.), samit + sait + samit (məs.: gəl, get, yaz, dur və s.) quruluşlu söz kökləri bir daha samit + sait, sait + samit... sıralanmasının dilimizin özünəməxsus fonetik quruluşu ilə bağlı olduğunu təsdiq edir. Sait + samit, samit + sait... sıralanması ilə qurulan sözlərin fonetik quruluşu axıcılıq yaradır. Bununla da eşidilən söz dinləyicini yormur. Ona görə də Azərbaycan dili musiqili dildir. Bu dilin musiqililiyini, ahəngdarlığını yaradan maddi baza həm də sözlərimizdə mövcud olan fonetik quruluşun sait + samit, samit + sait... sıralanması üzərində qurulmasıdır. Təbii ki, fonetik quruluşun belə sıralanması axıcılıq yaradır, nəticədə rəvan və səlis fonetik quruluş üzərində qurulmuş sözü dinləmək insanı yormur. Səsli dilin bədii dəyəri də bununla bağlıdır. Bədiilik, şeiriyyət, musiqililik, ritm, ahəngdarlıq, rəvanlıq, axıcılıq, rəngarənglik dilin fonetik quruluşu ilə sıx əlaqəlidir. Dilin zənginliyi lüğət tərkibi və qrammatik quruluşla bağlı olsa da, melodikliyi fonetik quruluşla bağlıdır. Azərbaycan dili melodik dildir, ona görə ki, onun fonetik quruluşu melodikdir. Melodiyanın yaranması isə dilimizin fonetik quruluşunda dərin kök salan ahəng qanununu ilə bağlıdır. Dilimizin melodikliyini, axıcılığını yaradan səbəblərdən biri də samit + sait, sait + samit... sıralanmasının, ardıcıllığının mövcud olmasıdır. Yeri gəlmişkən qeyd edək ki, hind-avropa dillərində belə bir xüsusiyyət yoxdur. Bu da həmin dillərin fonetik və qrammatik quruluşu ilə bağlı

downloaded from KitabYurdu.org

olan məsələlərdən biridir.

**3)** Azərbaycan dilinin fonetik quruluşunda iki saitin, yaxud da iki samitin yanaşı gəlməsi halı xarakterik deyildir. Buna baxmayaraq, belə sözlər dilimizdə vardır. *Məsələn, **saat, camaat, müəllim, qorx, qırx, hürk, dörd** və s. Bu qəbildən olan sözlərin bir qismi alınma olsa da (məs.: saat, camaat, müəllim və s.), bir qismi isə öz dilimizə (məs.: qırx, qorx, dörd, hürk və s.) mənsubdur.* Öz dilimizə mənsub olanlarda isə yanaşı gələn samitlərdən biri sonordur. Sonorları isə samitlərə yaxınlaşdıran xüsusiyyətlə yanaşı, saitlərə yaxın edən keyfiyyətlər də vardır. Məsələn, bəzi dillərdə sonorların heca düzəltməsi, az-çox musiqili olması və s. xüsusiyyətlər onları saitlərə yaxınlaşdırır. Odur ki, **qorx, dörd** və s. tipli sözlərdə yanaşı gələn samitlərdən biri sonordur.

**4)** Dilimizin fonetik quruluşunda özünəməxsusluq həm də ondan ibarətdir ki, bir sıra başqa dillərdə müşahidə olunmayan spesifik səslər dilimizdə işlənir. *Məsələn, **ö, ə, ü, g, h.***

Müqayisə üçün qeyd edək ki, bu səslər rus dilində yoxdur. Yaxud, **ə, x** səsləri qohum dillərində - türk dilində işlənmir.

**5)** Dilimizdəki danışıq səslərinin fonem rolunda çıxış etməsi lüğəvi vahidlərin yaranması ilə nəticələnir. *Məsələn, **al, at, az, ad, an, ax** sözlərindəki **l, t, z, d, n, x** fonemləri fərqləndirici məna yaradır.* Ancaq **a** fonemi bu sözlərin hamısında ümumi olsa da, ***l, t, z, d, n, x*** fonemləri isə fərqli mənalar yaradan fonemlərdir.





downloaded from KitabYurdu.org

## Azərbaycan dilinin fonemlərini müəyyənləşdirməyin üsul və vasitələri

Dil əhəmiyyəti kəsb edən səslərin sayı danışıq səslərinin sayından qat-qat azdır. Danışarkən istifadə olunan, tələffüz olunan səslərin sayı çoxdur. Bununla müqayisədə dil üçün vacib olan səslər isə azdır.

Dil üçün vacib olan danışıq səslərini iki yerə ayırmaq olar: I. Dil üçün əhəmiyyəti olan danışıq səsləri; II. Dil üçün əhəmiyyəti olmayan danışıq səsləri.

**I. Dil üçün əhəmiyyəti olan danışıq səsləri.** Dil üçün əhəmiyyəti olan danışıq səsləri sözlərdə məna fərqləri yaradan səslərdir. *Məsələn,* ***al, əl, ol, öl*** *sözlərində* ***a, ə, o, ö*** *saitləri,* ***an, ad, az, ax*** *və s. sözlərdə isə* ***n, d, z, x*** *samitləri sözlərin mənalarını bir-birindən fərqləndirir.* Ona görə də dil üçün əhəmiyyəti olan belə səslərə **fonem** deyilir.

Dil üçün əhəmiyyəti olan danışıq səsləri (fonemlər) **sait** və **samit** olmaqla iki yerə ayrılır. Sait və samit fonemləri müəyyənləşdirmək üçün onlara aid müəyyən xüsusiyyətləri bilmək vacibdir.

Sait fonemlərin müəyyənləşməsində istifadə olunan qaydalar, əlamətlər, üsul və vasitələr aşağıdakılardır:

**1)** Bəzi sait fonemləri müəyyənləşdirmək üçün birhecalı söz kökünə diqqət yetirmək lazım gəlir. Yəni yalnız sait səsə görə fərqlənən birhecalı söz kökləri qarşılaşdırılır, nəticədə fərqlənən sait fonem müəyyənləşir. *Məsələn,* ***qal-qul-qol*** *(a-u-o fone-*



downloaded from KitabYurdu.org

*mi), **dər-dur-dür** (ə-u-ü fonemi), **çal-çul** (a-u fonemi) və s.*

**2)** Əgər sözləri bir-birindən fərqləndirən sait səslər varsa, onlar sait fonem hesab olunur. *Məsələn, **al, ol, öl** və s. Bu sözləri bir-birindən **a, o, ö** saitləri fərqləndirir.*

**3)** Sözlərdə iki sait səs yanaşı gələrsə, həmin saitlər bir hecaya daxil olduqda bir fonem olur. Yanaşı gələn saitlər ayrı-ayrı hecalara daxil olduqda isə onların hər biri ayrılıqda müstəqil fonem olur. *Məsələn, qohum-**qoum**, toyuq-**toux**, neft-**nöüt** və s. sözlərdə diftonqlaşmış **o͡u, ö͡ü** səsləri bir hecaya daxil olur və bir fonem olur.* Qoşa saitli **saat, maaş, maarif, camaat** və s. sözlərdə qoşa **aa** saitinin hər biri müstəqil fonemdir. Ona görə ki, onların hər biri ayrı-ayrı hecalara daxildir: **sa-at, ma-aş** və s.

Bəzi sözlərdə sözün sonunda eynicinsli qoşa saitlər gəlir. *Məsələn, **bədii, əmtəə, mətbəə, təbii.*** Belə sözlərdə eynicinsli qoşa saitlərin hər biri müstəqil fonemdir.

**4)** Ahəng qanununa tabe edilərək yalnız qalın saitlə yazılan sözlərdə qalın saitlərin hər biri müstəqil fonemdir. *Məsələn, **qala, qadağan, babat, davam, nağıl, taxta, xırman, kaman** və s.*

**5)** Ahəng qanununa tabe edilərək yalnız incə saitlərlə yazılan sözlərdə incə saitlərin hər biri müstəqil fonemdir. *Məsələn, **dənə, tərəzi, xəmir, bəxtəvər, təqsir, mətbəx, səhhət** və s.*

**6)** Ahəng qanununa tabe edilməyərək incə və qalın saitlə yazılan sözlərdə incə və qalın saitlərin hər biri fonemdir. *Məsələn, **zəmanə, qərar, bərabər, istirahət, kənar, macəra, məxsus, xatirə, həya, cəfa** və s.*

**7)** Müxtəlif hecalarında **ia, io** saitləri olan beynəlmiləl sözlərdə **ia, io** saitlərinin hər biri fonemdir. *Məsələn, **material, materializm, prinsipial, aksiom, dialekt, dialektika, imperializm** və s.* Bu cür sözlərdə **ia, io** saitlərinin hər biri müxtəlif hecalarda olduqlarından müstəqil fonem olurlar.

Samit fonemlərin müəyyənləşməsində də müəyyən qaydalar, əlamətlər, üsul və vasitələr mövcuddur:

**1)** Birhecalı sözləri bir-birindən fərqləndirən samitlər varsa, onlar samit fonem kimi götürülür. *Məsələn, **ad, az, al, at** və s. sözlərini bir-birindən **d, z, l, t** samitləri fərqləndirir.*



downloaded from KitabYurdu.org

**2)** Eynicinsli qoşa samitlər sözün ortasında gəldikdə onların hər biri fonem kimi çıxış edir. *Məsələn,* ***addım, ləzzət, ədəbiyyat, millət, minnət, müxəmməs, səkkiz, tappıltı, xarrat, əvvəl, izzət, müəllim*** *və s.* Bu tipli sözlərdə qoşa samitlərin hər biri müstəqil fonem kimi müxtəlif hecalarda işlənir. Nəticədə onların hər biri özünü müstəqil fonem kimi təsdiq edir.

**3)** Eynicinsli qoşa samitlər sözün sonunda gəldikdə onların hər ikisi bir fonem kimi çıxış edir. *Məsələn,* ***tibb, sirr, fənn, haqq, hədd, həll, zənn, rədd, xətt, zidd*** *və s.*

Bu qəbildən olan sözlərdə eynicinsli qoşa samitlər bir hecada qurulur. Və onlara samitlə başlayan şəkilçi əlavə olunduqda söz kökündəki qoşa samitdən biri düşür. *Məsələn,* ***zid-dir, sirdaş, fən-lər, xət-siz*** *və s.* Qoşa samitlərdən biri düşərkən sözün kökünün fonetik tərkibi dəyişsə də, mənası dəyişmir. Səbəb onunla bağlıdır ki, söz sonundakı qoşa samitlər bir fonem kimi özünü göstərir. Ona görə də bu qəbildən olan sözlərə samitlə başlayan şəkilçi artırdıqda qoşa samitlərdən biri düşsə də, ancaq söz kökünün mənası dəyişmir.

Qeyd: Azərbaycan dilində sonu qoşa samitlə qurtaran **hiss** sözü istisnalıq təşkil edir. Belə ki, bu sözün sonundakı qoşa samitin hər ikisi fonemdir. Əks təqdirdə, onda **his** və **hiss** sözlərini fərqləndirmək olmaz.

Dilimizdəki **küll** sözünün sonundakı qoşa samitlər də fonemdir. Müqayisə et: **kül, külliyyat.**

**4)** Azərbaycan dilində müxtəlif hecalarında eynicinsli qoşa samit olan alınma sözlərdə qoşa samitlərin hər biri fonem olur. *Məsələn,* ***klassik, operetta, rejissor, sessiya, libretto, ballada, vassal, kapella, assimilyasiya, assisent*** *və s.*

**5)** Yanaşı gələn müxtəlif samitlərin hər biri fonem kimi çıxış edir. *Məsələn,* ***işğal, məşğələ, təbliğat, yarpaq, qəşəng, tüfəng, cəng, ahəng, pələng*** *və s.* Azərbaycan dilində sait və samit fonemlər aşağıdakı tərkibdədir.

Sait fonemlər: **a, a:, ı, o, u, u:, ü, e, e:, ə, ə:, i, i:, ö, ö:**



downloaded from KitabYurdu.org

**Qeyd:** Sait səsdən sonra qoyulan (:) işarə uzanmanı göstərir: Azərbaycan dilində ***a, ə, e, ö, i, u*** saitlərinin uzun tələffüz olunan variantı vardır. *Məsələn,* ***Arif, Adil, Akif, elan, Etibar, etiraz, tətil, təsir, təmir, mötərizə, möcüzə*** *və s. sözlərdə qeyd olunan saitlərin adi və uzun tələffüzünü müqayisə edək*

**A** saitinin tələffüzü

| **Uzun tələffüzü:** | **Adi tələffüzü:** |
|---|---|
| Adil | Araz |
| Arif | Aygün |
| Akif | Aytən |

**Ə** saitinin tələffüzü

| **Uzun tələffüzü:** | **Adi tələffüzü:** |
|---|---|
| tətil | tələ |
| təsir | təpə |
| təmir | təzə |

**E** saitinin tələffüzü

| **Uzun tələffüzü:** | **Adi tələffüzü:** |
|---|---|
| elan | ertə |
| Etibar | eniş |
| etiraz | eşik |

**Ö** saitinin tələffüzü

| **Uzun tələffüzü:** | **Adi tələffüzü:** |
|---|---|
| mötərizə | möhkəm |
| möcüzə | mövzu |
| Şölə | şövkət |

Azərbaycan dilində **ı, o, ü** saitlərinin uzanan variantı yoxdur.

**Samit fonemlər.** Samit fonemlərə gəldikdə isə qeyd edək ki, 23 samitin hər biri fonemdir: b, v, q, ğ, d, j, z, y, k, g, l, m, n, p, r, s, t, f, x, h, ç, c, ş. Bunların içərisində **k** samitinin iki fonem variantı var:

**1) K** samiti bəzi sözlərdə **y** samiti kimi səslənir və şərti olaraq $\mathbf{x}^1$ kimi işarə olunur. *Məsələn,* ***məktəb-məx'təb, məktub-***



downloaded from KitabYurdu.org

***məx'tub, külək-küləx', ürək-ürəx', çörək-çörəx'*** *və s.*

**2) K** samiti **"ka"** səsini bildirir. Və şərti olaraq $k^1$ kimi işarə olunur. *Məsələn, kolxoz-k'olxoz, kombayn-k'ombayn, komsomol-k'omsomol, kommunist-k'ommunist və s.*

**Qeyd: K** samiti **kino, kitab, kələm, kənd** və s. tipli sözlərdə isə **k** səsini bildirir.

Azərbaycan dilində sait, samit fonemləri və fonem variantlarını ümumiləşdirsək, onların sayı 41 olur. Yeri gəlmişkən qərb qrup dialekt və şivələrində işlənən *ŋ* (sağır nun) fonemi də bura daxildir. *Məsələn, mənə-**maŋa**, sənə-**saŋa** və s.* Bir sözlə, Azərbaycan dilindəki fonemlərin tərkibini belə göstərmək olar.

**Sait fonemlər:**

a
a: (fonem variantı)
ı
o
u
u: (fonem variantı)
ü
e
e: (fonem variantı)
ə
ə: (fonem variantı)
i
i: (fonem variantı)
ö
ö: (fonem variantı)

**Samit fonemlər:**

b
v
q
ğ
d
j
z
y
k
x' (fonem variantı)
k' (fonem variantı)
g
l
m
n
p
r
s
t
f
x
h
ç
c
ş
*ŋ* (sağır nun)



downloaded from KitabYurdu.org

**Qeyd:** Hər bir dilin öz fonemi, fonem sistemi vardır. Yəni dillərin hər birində sait və samit fonemlərin sayı müxtəlifdir. *Məsələn, rus dilində 6 sait, 37 samit, ingilis dilində 20 sait, 24 samit fonem vardır.* Azərbaycan dilində isə sait fonemlərin sayı (sait fonemlərin variantlarını nəzərə alsaq) 15, samitlərinki isə (samit fonemlərin variantlarını nəzərə alsaq) 26-dır (bura sağır nun fonemi də daxildir).

Danışıq səsləri ilə fonemlər arasında eynilik və fərqli cəhətlər vardır. Yəni bəzən danışıq səsləri ilə fonemlər bir-birinə uyğun gəldiyi halda, bəzən isə uyğun gəlmir. *Məsələn, **al** sözündə iki səs, iki fonem olduğundan burada danışıq səsi ilə fonem arasında fərq yoxdur.* Ancaq **maaş** sözündə danışıq səsi ilə fonem bir-birinə uyğun gəlmir. Belə ki, bu sözün tələffüzü ilə yazılışı arasında fərq vardır: **maaş** kimi yazılır, **ma:ş** kimi tələffüz olunur. Göründüyü kimi, **maaş** sözündə dörd fonem, üç danışıq səsi özünü göstərir. Yaxud, **kitab** sözünün sonunda **b** samiti fonemdir, ancaq **kitap** kimi tələffüz olunduğundan **p** danışıq səsidir. Yəni **kitab** sözünün sonundakı **b** və onun tələffüz variantı **p** ayrı-ayrı fonem deyildir. Belə ki, bu sözün sonundakı **p** samiti **b** samit foneminin tələffüz variantıdır və ona görə də danışıq səsidir (p samiti).

**II. Dil üçün əhəmiyyəti olmayan danışıq səsləri.** Dil üçün əhəmiyyəti olmayan danışıq səsləri sözdə məna fərqi yaratmayan səslərdir. Sözdə məna fərqi yaratmayan səslər isə **fonem variantı, fonem çalarlığı** və ya **çalarlıq** adlanır. *Məsələn, **çiçək, çörək, inək** və s. sözlərdə **k** samitinin **x**[1] variantı (tələffüzü) fonem variantı, fonem çalarıdır.* Yaxud, **qonaq, otaq, dodaq** və s. sözlərdə **q** samitinin **x** variantı (tələffüzü) fonem variantı, fonem çalarıdır.





downloaded from KitabYurdu.org

# Fonetik transkripsiya

**Fonetik transkripsiya və transkripsiya işarələri.** Dildə olan səsləri və səs variantlarını, eləcə də onun bütün incəliklərini yazıya köçürmək mümkün deyil. Ona görə də dildə olan bütün səsləri və səs variantlarını yazıya köçürmək üçün onların transkripsiyasından istifadə olunur. Bunun üçün dildəki bəzi səs və səs variantlarını ifadə etməkdə müəyyən işarələrdən istifadə olunur. Həmin işarələr fonetik transkripsiya adlanır. Transkripsiya sözü latın mənşəli sözdür, **trans** "köçürmə", **criptio** "yazı" deməkdir. *Məsələn, saitin uzun tələffüzünü göstərmək üçün (:) və (-) işarələrindən istifadə olunur.* Bu işarələrdən (:) saitin qarşısında, (-) isə saitin üstündə qoyulur: **a:lim, ālim**. Fonetik transkripsiyaya belə tərif vermək olar: **Dildə olan səsləri dəqiq və düzgün yazıya köçürmək üçün istifadə olunan xüsusi hərflər və işarələr sistemi ümumiləşmiş halda fonetik transkripsiya adlanır.**

Dildə fonetik transkripsiya üçün şəraitin yaranması bir sıra səbəblərlə bağlıdır:

**Birincisi,** dil inkişaf edir, dəyişir. Dilin leksik, qrammatik quruluşu ilə yanaşı, onun fonetik quruluşu da cüzi olsa da, dəyişməyə, inkişafa məruz qalır. Bu zaman fonetik quruluşdakı dəyişiklik, inkişaf bəzi səslərin variantlarını yarada bilir. *Məsələn, **qamusu-xamusu-hamısı** əvəzliyində **q-x-h** samitlərinin bir-*



downloaded from KitabYurdu.org

*birini əvəz etməsi dilin fonetik quruluşundakı inkişafla bağlı bir prosesdir.*

**İkincisi,** əlifbanın dəyişməsi səsləri təsvir edən qrafik sistemin, işarənin dəyişməsinə gətirib çıxarır. *Məsələn, Azərbaycan yazı sistemi kiril əlifbasından istifadə edərkən ilk mərhələdə* ***я, ю*** *və s. hərflərdən istifadə olunsa da, sonralar bunlar dəyişdirilmişdir.* Yaxud tərkibində **ц** olan alınma sözlər iki cür yazılmışdır: a) ümumi isimlər **s** ilə yazılmışdır: **sex, sirk, dosent, konsert** və s.; b) xüsusi isimlər **ts** ilə yazılmışdır: Kuzne**ts**ov, Voron**ts**ov, **Ts**etkin, **Ts**aryov, Mo**ts**art və s. Bundan başqa, tərkibində **щ** olan alınma sözlər iki cür yazılmışdır: a) sözün əvvəlində və sonunda **щ** əvəzinə **ş** yazılmışdır. Şerba, Şors, şotka, bor**ş** və s.; b) söz ortasında **щ** əvəzinə iki **ş (şş)** yazılmışdır: me**ş**-**ş**an, Qu**şş**in, Vere**şş**agin.

Beləliklə, qeyd olunan bu və digər səbəblər səs və onun variantlarının yaranmasına şərait yaratmışdır. Bununla da fonetik transkripsiya işarələri ortaya çıxmışdır.

Dilimizdə olan müxtəlif səs variantlarının işarələr sistemini əlifbaya gətirmək mümkün deyil. Eləcə də dilimizdə mövcud olan müxtəlif səslərin fonetik incəliklərini əlifbada əks etdirmək imkan xaricindədir. Məhz bu mənada əlifbada çətinlik yaratmamaq və əlifbadakı qrafik işarələrin sayını az etmək üçün transkripsiya işarələrindən istifadəyə ehtiyac vardır. Deməli, əlifbanı tərtib edərkən dildə olan səslərin variantına və fonetik incəliklərinə tam yer verilə bilməz. Əks təqdirdə, əlifbadakı hərflərin sayı xeyli artar, bu da əlifbanı öyrətməkdə çətinlik yarada bilər. Bundan başqa, yazı maşınlarında və kompyuterlərdə klaviatura (klavişlər, dillər, toxmaqcıqlar) nə qədər yığcam olarsa, onda klaviaturada yazı yazmaq bir o qədər asan olar. Hərflərin çoxluğu yazı prosesini ağırlaşdıra bilər. Bir sözlə, əlifba nə qədər yığcam, asan və qrafik işarələrin sayı baxımından az olarsa, bir o qədər yazı prosesini də asanlaşdıra bilər. Məhz bu mənada müxtəlif səslərin variantını əlifbaya gətirmək yox, transkripsiyanı yaratmaq daha məqbuldur.

Beləliklə, səslərin müxtəlif variantlarını və fonetik incəlik-





downloaded from KitabYurdu.org

lərini yazıya köçürmək üçün transkripsiya işarələrinə ehtiyac vardır. Transkripsiya işarələri müəyyən qaydalar əsasında düzəldilir: dilin öz əlifbasındakı hərflərdən, eyni zamanda başqa əlifbadakı hərflərdən istifadə olunur, hərfaltı və hərfüstü şərti işarələrə yer verilir, diakritik, dəqiqləşdirici, sətiraltı və sətirüstü işarələr yaradılır və s. Azərbaycan dilində istifadə olunan transkripsiya işarələri aşağıdakılardır.

*ŋ* - Bu, sağır nun səsini bildirir. *Məsələn,* ***maŋa*** *- mənə,* ***saŋa-*** *sənə və s.* Sağır nun səsi Azərbaycan dilinin qərb qrup dialekt və şivələrində işlənir. Hələ XI əsrdə M.Kaşğari yazırdı ki, türk olmayan kəslər bu səsi (yəni sağır nun səsini) tələffüz edə bilməzlər.

Tarixən ədəbi dilimizdə diffuz samit sayılan **nq** və ya **(ng)** və sağır *ŋ* samiti həm canlı danışıq dilində, həm də klassiklərimizin dilində çox işlənmişdir[1].

XVIII əsrin axırlarında diffuz samit **nq** (və ya ng) yazılı dilimizdən tədricən çıxmışdır. Sağır *ŋ* samiti isə XX əsrin 30-cu illərinin sonuna qədər əlifbamızda mövcud olmuşdur. Konkret desək 1938-ci ildən sağır *ŋ* samiti əlifbamızdan çıxarılmışdır. Ancaq canlı danışıq dilinin bəzi dialekt və şivələrində indiyə kimi işlənməkdədir.

**Nq** (və ya **ng**) samitinin və sağır *ŋ* samitinin tarixən ədəbi dilimizdə işlənməsini təsdiq edən dil faktlarını nəzərdən keçirək: **manqa, sanqa, denqiz** (M.Kaşğarinin "Divani lüğət-it-türk" əsərindən); **Onga...** Ağanın vəsfindən bəyan etməkdən madər mehribanəmdəki **onga...** təəşşüq yetiri ola (A.Bakıxanovun "Kitabi-əsgəriyyə" əsərindən); **Yengicə** əhli İran hələ **yengicə** iməkləmək başlayır (M.F.Axundovdan); "Kitabi-Dədə Qorqud" dastanlarında: **Qaranqu** axşam olanda qayğılı çoban!; Dünya Aləm kafirin başına **qaranqu** oldu; Ordumun xəbərin bilirmisən degil **manqa**; Alabaşlı keçimcə gəlməz **maŋa**; Azərbaycan dilinin Muğan qrupu şivələrində: **sonqra**, **donquz** və s.;

---

1 Bax: Azərbaycan dilinin tarixi fonetikasına dair seminar məşğələləri. Bakı, 1979 (tərtib edəni: dos. Bilal İbrahimov), s. 15-17.



downloaded from KitabYurdu.org

Qazax şivəsində: **doŋar, maŋa, əliŋi, aldıŋız** və s. ; M.Füzulinin yaradıcılığında: Yarəb, həmişə lütfünü et rəhnuma **maŋa**, Göstərmə ol təriqi ki, getməz **saŋa maŋa!** ; Oldur mənə murad ki, oldur sənə murad, haşa ki, səndən özgə ola müddəa **maŋa**; Xətainin yaradıcılığında: Ey pəri, şirin ləbin eşqində fərhad olmuşam. Ta **saŋa** qul olmuşam, aləmdə azad olmuşam; Ta səni gördü Xətai bilməz özün xandadır, ta **saŋa** mən aşina buldum, özüm yad olmuşam.

**>, ~.** Bu işarələr səs əvəzlənməsini göstərir və səslər arasında qoyulur. *Məsələn: **d>y, r~z** və s.*

***//.*** Bu işarə sözlərin müxtəlif variantlarda tələffüzünü göstərir. *Məsələn: **ana//nənə//ciji//mama** və s.*

**$K^1$** - Bu, **ka** səsini bildirir. *Məsələn: **$k^1$omsomol, $k^1$ommunist, $k^1$olxoz** və s.*

**$X^1$** - Azərbaycan dilində bəzi sözlərdə **k** samiti **y (iy)** samiti kimi səslənir və **$x^1$** kimi işarə olunur. *Məsələn: çiçək - **çiçə$x^1$**, çörək - **çörə$x^1$** və s.*

**Qeyd:** Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan dilindəki kar **k** samiti üç səsi bildirir:

**a) K** samiti k-**ke** səsini bildirir. Bu səsin qrafik işarəsi əlifbamızda **k** kimi işarə olunur: **kitab, kino, iki** və s.

**b) K** samiti **ka** səsini bildirir. Bu səsin isə əlifbamızda qrafik işarəsi yoxdur. Ancaq transkripsiya işarəsi vardır: **$k^1$ombayn, $k^1$omsomol** və s.

**c) K** samiti **y** (iy) səsini bildirir. Bu səsin də əlifbamızda qrafik işarəsi yoxdur. Ona görə də fonetik transkripsiya işarəsi ilə bu səsi bildirmək üçün **$x^1$** işarəsindən istifadə olunur. Bu, həm də **q** samitinin **x** kimi səslənməsini işarə edir. *Məsələn, dodaq-doda$x^1$, qulaq-qula$x^1$, qonaq-qona$x^1$ və s.*

**(:),** yaxud (-). Bu işarələrdən səsin uzanması zamanı istifadə olunur. *Məsələn, a:min.* Uzun saiti işarə edən (:) işarə sait səsdən sonra qoyulur. **A:**rif. (-) işarəsi uzanmanı göstərərkən saitin üstündə olur: s**ā**t (saat), **ā**lim və s.





downloaded from KitabYurdu.org

**(.),** yaxud **(v).** Sait səsin yanında tək nöqtə işarəsi qoyulursa, həmin sait səs qısa tələffüz olunur. *Məsələn, dayısı-day**ı.**sı, əmisi-əm**i.**si və s.* v *işarəsi isə qısaltmanı göstərmək üçün saitin üzərinə qoyulur. Məsələn, sinif-sĭnif, fikir-fĭkir və s.*

**(.),** yaxud (^). Bu işarənin hər ikisi samitin altında qoyulmaqla kar samitin cingiltiləşdiyini, cingiltili samitin isə karlaşdığını göstərir. *Məsələn, doqquz-doqquz, səkkiz-səkkiz, kənd və s.*

**⌒.** Bu işarədən diftonqlaşmanı göstərmək üçün istifadə olunur. *Məsələn, qohum-**qoum**, qovurğa-**qourğa**, neft-**nöüt** və s.*

**h**, yaxud **c**. Bu işarə samitin nəfəsli tələffüz olunduğunu bildirir. *Məsələn, pul-**p**ᶜul, sap-sa**p**ᶜ, tikan-**t**ʰ**ikan** və s.*

**~,** yaxud **≈**. Bu işarələr səsin burunda (uzadılaraq) tələffüz olunduğunu göstərmək üçün istifadə olunur. *Məsələn, mənə-***m**ã, *sənə-***s**ã, *əlini-əlĩ və s.* Burun saitləri dialekt və şivələrdə *ŋ* burun sonorunun düşməsi ilə ondan əvvəl gələn saitin burunda tələffüz olunması ilə yaranır. Bunun dialekt və şivələrdə mövcudluğu barəsində oxuyuruq ki, "Burun saitləri Azərbaycan dilinin bütün şivələrində deyil, daha çox şimal, qismən də cənub qrupu şivələrində təsadüf edilir. Şərq qrupu şivələrində bu hadisənin təsadüfi hallarda işləndiyini görürük. 1926-cı ildə burun saitləri haqqında... N.İ.Aşmarin geniş məlumat vermişdir... Və öz əsərində (Н.И.Ашмарин. Общий обзор народных тюркских говоров город Нухи, 1926) "e" və "ə" saitlərindən başqa, qalan saitlərin burun səslisinə çevrilməsi fonetik şəraitlərinin səbəbini ətraflı izah etmişdir.

Bəzi şivələrdə sağır " *ŋ* " samitinin zəifləyərək düşməsi ilə ondan əvvəldə gələn sait burun səslisinə çevrilir. Bu hadisə Qutqaşen (Qəbələ - B.X.), Vartaşen (Oğuz-B.X.), Şəki, Zaqatala, Qax, Naxçıvan, Ordubad rayon şivələrində daha qabarıq şəkildə özünü göstərir"[1]. Burun saitlərinin dialekt və şivələrimiz-

1 Bax: Azərbaycan dilinin tarixi fonetikasına dair seminar məşğələləri. Bakı, 1979 (tərtib edəni: dos. Bilal İbrahimov), s. 11 - 12.



downloaded from KitabYurdu.org

də mövcud olan variantları eyni deyildir. Bəzilərində **e,ə** saitlərindən başqa digərlərinin burun variantı olur. Bəzilərində isə ancaq **a, ı, u** saitlərinin burun variantı vardır. *Məsələn, bu barədə oxuyuruq: "Şəki şivəsində "ə", "e" saitlərindən başqa qalan saitlərin burun variantı olduğu halda, başqa şivələrdə yalnız* ***"a, ı, u"*** *saitlərinin burun variantı vardır.* Bu vəziyyət çox güman ki, həmin şivələrdə velyar **n** samitinin geniş yayılmaması ilə, ya da az işlənməsi halları ilə əlaqədardır"[1].

$^{0}$. Bu işarə dodaqlanmanı göstərir. *Məsələn, d$^{0}$ol, d$^{0}$on və s.*

$^{1}$. Bu işarə samitin incələşdiyini göstərir. *Məsələn, dil$^{1}$, din$^{1}$ və s.*

**Fonetik transkripsiya işarələrinin tərtibi qaydaları.** Fonetik transkripsiya işarələrini müəyyənləşdirərkən aşağıdakı qaydalardan istifadə olunur:

**Birincisi,** fonetik transkripsiya işarələri hər bir dilin əlifbası əsasında qurulur. Yəni hər bir dilin əlifbası transkripsiya işarəsi üçün mənbə olur.

**İkincisi,** fonetik transkripsiya işarələrini seçərkən başqa xalqların əlifbalarına da müraciət oluna bilir. Və müəyyən şərti işarələr fonetik transkripsiyanın göstəricisi kimi götürülür.

**Qeyd:** Hər bir dilin fonetik transkripsiyası olduğu kimi, bütün dillər üçün məqbul hesab olunan ümumi transkripsiya işarələri də vardır. Buna beynəlxalq fonetik transkripsiya deyilir. Beynəlxalq fonetik transkripsiya işarələrini seçərkən latın qrafikalı əlifbadan istifadə olunur.

**Üçüncüsü,** dildə səs deformasiyaları gedə bilir. Bu, dildə təbii olaraq yox, kənar amillərin təsiri ilə yaranır. *Məsələn,* ***kolxoz, kombayn, kommunist*** *və s. sözlərin tələffüzü yazılışından fərqlənir.* Bu sözlərdəki **k** samiti **ka** kimi tələffüz olunur. Hər halda bu, kənar dilin-rus dilinin təsiri ilə bağlıdır. Əgər bu tipli sözləri gördüyümüz, yazdığımız kimi tələffüz etsək, onda səhvə yol verməklə canlı danışıq dilində tələffüz normalarını poz-

---

1 Bax: Azərbaycan dilinin tarixi fonetikasına dair seminar məşğələləri. Bakı, 1979 (tərtib edəni: dos. Bilal İbrahimov), s. 12.







downloaded from KitabYurdu.org

muş olarıq. Ona görə də kənar dilin təsiri ilə yaranmış **ka** səsinin transkripsiyasını **k**[1] kimi göstərməliyik.

**Dördüncüsü,** yazılışla tələffüz arasındakı ziddiyyətlər, fərqlər də fonetik transkripsiyanın yaranmasına şərait yaradır. Belə olduqda canlı nitqdə bəzi səslərin tələffüzü imkan yaradır ki, fonetik transkripsiyaya müraciət olunsun. *Məsələn, **saat** sözünün **sa:t** kimi tələffüzü göstərir ki, yazılışla tələffüz arasındakı fərq **a** saiti ilə bağlıdır.*

**Beşincisi,** dialektlərin mövcudluğu da bəzi səslərin müxtəlifliyinə imkan verməklə, həm də fonetik transkripsiya üçün münbit şərait yaradır. *Məsələn, sait səsin burunda uzadılaraq tələffüz olunması (mã, sã) buna misal ola bilər.*

**Qeyd:** Orfoqrafiya qaydaları ilə tam təmin olunmuş dillərdə fonetik transkripsiya işarələri az olur. Ona görə ki, belə dillər ədəbi dilin tələblərinə cavab verir. Ədəbi dil tələblərinə cavab verən dillər isə lüğət tərkibi və qrammatik quruluşu ilə yanaşı, fonetik quruluşu baxımından da cilalanmış dillər kimi özünü göstərir.

Fonetik transkripsiyalar milli və beynəlmiləl olur. Beynəlmiləl fonetik transkripsiya beynəlxalq fonetik transkripsiya olmaqla 1881-ci ildə beynəlxalq fonetik assosiasiya tərəfindən yaradılmışdır. Bu transkripsiyanın əsasında latın əlifbası dayanır. Bundan başqa, beynəlxalq fonetik transkripsiyaya xüsusi seçilmiş işarələr də daxil edilir. Ona görə ki, latın əlifbası müxtəlif dillərdəki bütün səsləri, onların fonetik transkripsiyasını göstərmək üçün qane etmir. Belə olduğundan beynəlxalq fonetik transkripsiyada xüsusi seçilmiş işarələrdən istifadə olunmağa ehtiyac yaranır.





downloaded from KitabYurdu.org

# Səs

**Səs nədir?** Səs mürəkkəb və geniş anlayışdır. Təbiətdə və cəmiyyətdə qulaq vasitəsilə nəyi eşidiriksə, səs adlandırırıq. Ümumi şəkildə desək, qulaq adlı eşitmə üzvünün qəbul etdiyi, analiz etdiyi hər bir şey səsdir. Yeri gəlmişkən onu da qeyd edək ki, təbiətdə və cəmiyyətdə mövcud olan bütün səsləri qulaq qəbul edə bilmir. Qulaq saniyədə rəqslənmənin sayı 16 hers olan ən alçaq səs dalğalarını və saniyədə rəqslənmənin sayı 20000 hers olan ən yüksək səs dalğalarını qəbul edir. Səs dalğalarının saniyədə sayı 16 hersdən aşağı olanını qulaq eşitmir. Eyni zamanda saniyədə rəqslənmənin sayı 20000 hersdən çox olan səs dalğalarını da qulaq qəbul edə bilmir. Əks təqdirdə, qulaq pərdəsi rəqslənmənin sayı saniyədə 20000 hersdən çox olan səs dalğalarının təsiri altında partlaya bilər. Bu mənada güclü partlayışların nəticəsində insanın qulağı kar olur. Ona görə ki, güclü partlayış zamanı rəqslənmənin saniyədə sayı 20000 hersdən çox olduğundan qulaq pərdəsi buna dözmür və partlayır.

**Qeyd:** Səs telləri bir saniyə ərzində 40-dan 1700-ə qədər titrəyiş yaradır, rəqs edir. İnsan səsinin ən aşağı və ən yüksək diapazonu var. Ən yüksək diapazon 40-1700 hers arasında olur. Orta səs diapazonu qadınlarda və kişilərdə fərqlənir. Qadınlarda orta səs diapazonu 160-340, kişilərdə 85-200 hersə bərabərdir.



downloaded from KitabYurdu.org

Təbiətdə mövcud olan səslər çoxdur: suyun şırıltısı, küləyin vıyıltısı, iki bərk cismin bir-birinə dəyməsindən çıxan səs, şimşəyin çaxmasından yaranan səs, yağış yağanda yaranan səs və s. Bu səslər təbiətdə mövcud olan səslər kimi fizikanın akustika (səs) bölməsində öyrənilir. Təbiətdəki səslər üç yerə bölünür: **1)** zərbələr; **2)** gurultular; **3)** tonlar.

**1) Zərbələrdə** rəqslənmə bircə dalğadan ibarət olur. *Məsələn, atəş açılışı buna misal ola bilər.*

**2) Gurultularda** rəqslənmənin zaman vahidi qeyri-periodik olur. *Məsələn, ağacın sınmasından yaranan səs gurultulara aiddir.*

**3) Tonlarda** rəqslənmənin zaman vahidi periodik olur. *Məsələn, buna musiqi səslərini misal göstərmək olar.*

Fonetikanın öyrəndiyi səslər təbiətdə mövcud olan səslərdən fərqlənir. Belə ki, fonetikada danışıq səsləri tədqiq olunur. Danışıq səsləri təbiətdəki səslərdən fərqli olaraq ictimai xarakter daşıyır, insanlar arasında ünsiyyətə xidmət edir. Deməli, danışıq səslərinin ictimai xarakteri onu təbiətdəki səslərdən fərqləndirir.

Danışıq səsləri **dil** və **keçici səslər** olmaqla iki yerə ayrılır. **Dil səsləri** o səslərdir ki, onların yaranmasında danışıq üzvləri fəal iştirak edir. Eyni zamanda bu səslərin akustik mahiyyəti olur və onun tələffüz dəqiqliyinə diqqət yetirilir. Yeri gəlmişkən qeyd edək ki, nitqin rəvan olması dil səslərinin tələffüz dəqiqliyindən asılıdır və onunla bağlıdır. Bir sözlə, dil səsləri dil üçün əhəmiyyətli olan səslərdir.

**Keçici səslər** dil səslərindən fərqlənir. Onların yaranmasında vahid mənbə yoxdur. Başqa sözlə, **keçici səslərin** yaranmasında danışıq üzvləri fəal iştirak etmir. **Keçici səsləri** yalnız **dil səslərini** tələffüz edərkən bir səsin məxrəcindən başqa bir səsin məxrəcinə keçən zaman müşahidə etmək olur. Lakin keçici səslərdə akustik mahiyyət olmadığı üçün **bu səslər** real şəkildə üzə çıxa bilmir. Deməli, **keçici səslər** dildə ciddi əhəmiyyət kəsb etməyən səslərdir.





downloaded from KitabYurdu.org

**Qeyd:** Təbiətdə mövcud olan səslərin sayı çox olduğundan onların sayını müəyyənləşdirmək mümkün deyildir. Bununla müqayisədə danışıq səslərinin sayı təxmini olsa da, müəyyən olunmuşdur. Məsələn, müasir Azərbaycan dilində 40-41 danışıq səsi (nitq səsi) vardır. Bu danışıq səsləri (nitq səsləri) sözlərdə müxtəlif mövqedə çıxış edir, onların kombinasiyası yolu ilə müxtəlif sözlər formalaşır. Dünya dillərində danışıq səslərinin (nitq səslərinin) sayı müxtəlif olur. Belə hesab olunur ki, inkişaf etmiş dillərdə danışıq səslərinin (nitq səslərinin) sayı az, inkişaf etməmiş dillərdə isə çoxdur.

Danışıq səslərinin yaranması üçün şərait, mühit mühüm rol oynayır. Bu mənada hava, su, qaz mühiti səsin törədiyi münbit mühitdir. Ancaq bu, səsin törəməsində mühüm, ilkin göstəricilərdən biridir. Səsin törəməsi üçün ikinci əsas şərt cismə təsir edən qüvvənin olması ilə bağlıdır. Deməli, səsin yaranmasında birinci mühit, ikinci isə həmin mühitdəki zərrəcikləri rəqslənməyə, hərəkətə gətirən təsirin (qüvvənin) mövcud olmasıdır. Bir sözlə, **mühit** (qaz, hava, su mühiti) + **təsir** (qüvvə) → **rəqslənmə → səs.**

**Qeyd:** Səs havada 30 saniyə ərzində 10 km məsafə gedir.

Səsin yaranması üçün əsas şərt cismə təsir edən qüvvədir. Qüvvənin təsiri nəticəsində mühitdəki zərrəciklər (qaz, su, hava zərrəcikləri) rəqslənir, hərəkətə gəlir. Mühitdəki zərrəciklərin rəqsli hərəkətinin yaranması üçün təsir (qüvvə) onlara (zərrəciklərə) toxunmalıdır. Təsir (qüvvə) nə qədər güclü olarsa, zərrəciklərin rəqsli hərəkəti də bir o qədər davamlı və güclü olar. Bunu yaxşı başa düşmək üçün su mühitində səsin yaranmasına aid belə bir misal nəzərdən keçirək: hər hansı bir gölməçəyə daş atırıq. Bu zaman gölməçədə daşın təsiri ilə dalğalar yaranır. Gölməçəyə atılmış daş yerə çatana qədər dalğaların sayı



downloaded from KitabYurdu.org

çoxalır, dairəsi isə genişlənir. Və daşın çəkisi nə qədər ağır olarsa, dalğaların sayı çox, dairəsi isə böyük olar. Daşın çəkisi nə qədər yüngül olarsa, dalğaların sayı az, dairəsi isə kiçik olar. Deməli, dalğaların sayının çox, dairəsinin geniş olması üçün təsirin (qüvvənin) böyük rolu vardır. Hava və qaz mühitində də rəqslənmənin, səsin yaranması prosesi bu cür olur. Ancaq hava və qaz mühitinə nisbətən su mühitində prosesi daha aydın müşahidə etmək mümkündür.

Beləliklə, bu və ya digər mühitdə (hava, qaz, su mühitində) yayılan səsi qulaq qəbul edir, eşidir. Eyni zamanda qulağın səs barəsində təəssüratı olur, səsləri bir-birindən fərqləndirə bilir. Yəni danışıq səsini musiqi səsindən, musiqi səsini qeyri-periodik və qeyri-ritmik səsdən (xaosdan) ayırd edir.

Bütün bu deyilənləri nəzərə alaraq səsə məqbul hesab olunan belə bir tərif vermək olar: "Səs bu və ya digər mühitdə (adətən, havada) yayılıb eşitmə üzvü ilə qəbul olunan və beyində müəyyən təəssürat yaradan rəqslənmədir"[1].

Göründüyü kimi, səsin qəbul olunmasında və müəyyən təəssürata çevrilməsində qulağın rolu böyükdür.

**Qeyd:** Səs dalğalarının müxtəlif cisimlərdə yayılma sürəti müxtəlif olur. *Məsələn, səsi hava, metal, su, yer, ağac və s. daha yaxşı keçirir.* Bunu həmin cisimlərə toxunaraq səs yaratmaqla müşahidə etmək mümkündür. Müqayisə üçün qeyd edək ki, səs havada 30 saniyə ərzində 10 km məsafə gedirsə, dənizdə buna nisbətən 1,5 dəfə böyük sürətlə yayılır. Ümumiyyətlə, səs suda bir saniyə ərzində təqribən 1,5 km, poladda 5 km yayıla bilir.

**Qulaq və onun hissələri.** Qulaq üç hissədən ibarətdir: **çöl, orta, iç** hissələr.

Rəqslənmiş səs dalğaları əvvəlcə çöl qulağa - qulaq seyva-

---
1 Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili . Bakı, 1972, s. 16



downloaded from KitabYurdu.org

nına daxil olur. Və çöl qulaqla orta qulaq arasında yerləşən qulaq pərdəsinə toxunaraq onu rəqsləndirir. Rəqslənmə oynaq sümüklər (çəkic, zindan, üzəngi) sistemi ilə uzunsov pəncərəyə ötürülür. Burada qulağın daxili hissəsini örtən sinir ucları yerləşir. Bu mühit endoloifm deyilən maye ilə doludur. Burada həm də membran vardır. Membran çoxlu sayda liflərdən (təqribən 4 min 500-ə qədər müxtəlif uzunluqlu liflər) təşkil olunmuşdur. Liflərin hər biri müəyyən tonlar üzərində köklənmişdir. Müəyyən tonlar üzərində köklənmiş bu liflərin rəqslənməsi qıcıqlanmaya daha tez məruz qalan əsəb ucları vasitəsi ilə beyinə ötürülür. Beləliklə, ən xaotik səslər barədə belə, təəssürat əldə olunur. Hətta, insan eyni zamanda bir neçə səsi qulaq vasitəsi ilə qəbul edərək ayırd edə bilir. Həmin səslərin yarandığı yeri, səsin hansı istiqamətdən gəldiyini dəqiq müəyyənləşdirə bilir. Yalnız bu işdə qulağı yaxşı eşitməyən, qulaqlarından biri kar olan adamlar səhvliyə yol verə bilərlər.

## Səsin fiziki (akustik) əlamətləri

Səs dalğalarının forma, xarakter və mahiyyətini nəzərə alaraq onları üç növə ayırmaq olar: **zərbələr; küy** və ya **gurultular; tonlar,** yaxud **musiqi (musiqili)**, **avazlı səslər.**

**Zərbələr.** Zərbələrdə rəqslənmə bircə dalğadan ibarət olur. Rəqslənmə ani bir müddətdə baş verir və sona yetir. *Məsələn, **zərbələr** atəş açılışından, partlayışdan, elektrik qığılcımından və s.-dən baş verə bilər.* Zərbələrdə rəqslənmə bir dalğadan ibarət olduğuna görə rəqslənmənin zaman vahidindəki dəyişkənliyini hesablamaq olmur.

**Küy və ya gurultular.** Küy və ya gurultular qeyri-periodik (xaotik) səslərdir. Burada rəqslənmənin zaman vahidindəki dəyişkənliyi qeyri-periodik olur. Təbiətdə zəlzələ, tufan, ağac sınarkən çıxan səs və s. buna misal ola bilər.





downloaded from KitabYurdu.org

**Qeyd:** Danışıq səslərindən samitlər küylü səslərdir. Danışıq üzvlərindən isə qırtlaq, udlaq, dil, dilçək, diş, ağız, burun boşluğu və s. küylü səslərin yaranmasında iştirak edə bilir. Samitlərdə əsas meyar küyün olmasıdır. Ona görə də onlar (samitlər) küy meyarına üstünlük verərək küyün kəmiyyətinə görə, küyün yaranma yerinə görə və küyün yaranma üsuluna görə təsnif olunur.

**Tonlar, yaxud, musiqi (musiqili), avazlı səslər.** Tonlarda, musiqili, avazlı səslərdə rəqslənmənin zaman vahidindəki dəyişkənliyi periodik olur. *Məsələn, musiqi səsləri, müğənninin səsi və s. buna misal ola bilər.*

**Qeyd:** Danışıq səslərindən saitlər (qismən də sonorlar) tonlu, musiqili səslərdir. Danışıq üzvlərindən isə ağız boşluğu, burun boşluğu, səs telləri, dodaqlar və s. tonlu səslərin yaranmasında iştirak edə bilir. Konkret olaraq saitlərin dilin üfüqi və şaquli vəziyyətinə, dodaqların vəziyyətinə görə təsnif olunması təsdiq edir ki, dil və dodaqlar tonlu səslərin (saitlərin) yaranmasında daha fəaldır.

Zərbələr, küy və ya gurultular, tonlar, yaxud, musiqi (musiqili), avazlı səslər səsin fiziki (akustik) əlamətləri sırasına daxildir. Bundan başqa, səsin fiziki (akustik) əlamətləri sırasına **səsin ucalığı, səsin gücü, səsin uzunluğu, əsas ton, oberton ton, səsin tembri, səs rezonansı, səs rezonatoru** da daxildir.

**Səsin ucalığı.** Səsin ucalığı rəqslənmənin zaman vahidindəki tezliyindən asılıdır. Yəni rəqslənmənin bir saniyədə miqdarı nə qədər çox olarsa, səsin ucalığı da bir o qədər artar. Rəqslənmənin bir saniyədə miqdarı nə qədər az olarsa, səsin ucalığı da bir o qədər azalar.

**Qeyd:** Tezlik rəqslənmənin bir saniyədəki sayıdır. Belə ki, bir saniyə müddətində rəqslənmənin sayı nə qədər çox olarsa, səs bir o qədər uca olar. Əksinə olduqda isə səs bir o qədər azalar, alçalar.



downloaded from KitabYurdu.org

**Səsin gücü.** Səsin gücü də səsin fiziki əlamətləri sırasına daxildir və rəqslənmənin amplitudundan asılıdır. **Amplitud** latın mənşəli söz olub, **amplitudo** sözündən götürülmüş "genişlik" mənasındadır. Bu mənada amplitud rəqslənmənin bir ucundan o biri ucuna qədərki genişlənmiş sahədir. Konkret desək, səs dalğalarının qalxıb-düşmə nöqtələri arasındakı məsafədir. Qeyd etmək lazımdır ki, rəqslənmə amplitudu nə qədər böyük olarsa, səs də bir o qədər güclü olar. Və rəqslənmənin amplitudu nə qədər kiçik olarsa, səs də bir o qədər zəif olar.

**Səsin uzunluğu.** Səsin uzunluğu rəqslənmənin davametmə müddəti ilə bağlıdır. Rəqslənmənin davametmə müddəti çox olduqda səsin uzunluğu çox, əksinə olduqda isə səsin uzunluğu az olur. Danışıq səslərinin uzunluğu rəqslənmənin davametmə müddəti ilə ölçülür. Bu baxımdan saitlərin davamlılıq dərəcəsi samitlərdən güclüdür. Yəni sait səslərin uzunluğu samitlərdən böyükdür.

**Əsas ton.** Əsas ton mürəkkəb musiqi səsindəki ən aşağı tondur.

**Oberton ton.** Oberton ton ən yüksək ton deməkdir. **Oberton** alman dilində olan **oberton** sözündəndir, mənası "yüksək ton" deməkdir. Səsin dolğunluğu və zənginliyi əsas və oberton tondan asılıdır. Əsas tonla oberton tonun bir-birinə qarışması səsin dolğun və zəngin olmasını təmin edir.

**Səsin tembri.** Hər bir səsin özünəməxsusluğu vardır. Yəni hər bir səsin özünəməxsus keyfiyyəti, xüsusi boyaları mövcuddur ki, bu da səsin tembri adlanır. **Tembr** fransızca **timbre** sözündəndir və "zəng giləsi, zəng vuran" mənasını bildirir.

Bir-birinin eyni olan səs yoxdur. Ona görə ki, səslər tembrinə görə bir-birindən fərqlənir. Buna görə də insanların səslərini, xüsusilə, müğənnilərin səslərini bir-birindən fərqləndirmək olur. Deməli, tembr səsin fərdi keyfiyyətidir. Belə olduğuna görə çox nadir hallarda insanların səsi bir-birinə yaxın olur. Təbii ki, bir-birinin tamamilə eyni ola bilmir. Bu mənada eyni bir musiqi alətində müxtəlif şəxslər çalan zaman çıxan səslər bir-birinin eyni olmur. Yaxud, hər hansı bir mahnını müxtəlif müğən-





downloaded from KitabYurdu.org

nilər oxuyan zaman onların səsi bir-birindən fərqli olur. Bunun səbəbi səsin tembri ilə bağlıdır.

**Qeyd:** Hər bir səsin özünəməxsus "boya"sı vardır. Bu özünəməxsusluq səsin tembri adlanır. Başqa sözlə, tembr səsin fərdiləşmiş əlamətidir.

**Səs rezonansı, səs rezonatoru.** Rezonans sözü fransızca **resonanse** sözündəndir və "əks-səda" mənasını bildirir. Səsin əks-səda verməsi üçün mühit lazımdır. Həmin mühitə isə **səs rezonatoru** deyilir. Rezonans (əks-səda) qapalı hava mühitində baş verir. Yəni qapalı hava mühitində hər hansı bir cismin rəqslənməsi başqa bir cismin rəqslənməsinə də səbəb olur. Başqa cismin rəqslənməsi əvvəlcə rəqslənmiş cismə cavab olaraq baş verir. Cavab olaraq baş verən bu rəqslənmə rezonans xarakterli (əks-səda) olur. Bu cür səslərə misal olaraq boş olan otaqda yaranmış rezonansı (əks-sədanı) misal göstərmək olar. Boş otaqda əşya olmadığından çıxarılan hər hansı səs (danışıq səsi, bir əşyanın başqa birisinə vurulmasından çıxan səs və s.) qapalı hava mühitində asanlıqla rezonans yaradır. Ona görə ki, səs dalğalarının belə qapalı mühitdə yayılması və rəqslənmənin yaranması daha asanlıqla baş verir. Yeri gəlmişkən onu da qeyd edək ki, boş otağın sahəsi nə qədər böyük olarsa, orada baş vermiş rezonans (əks-səda) bir o qədər güclü olar.

Səs dalğalarını içərisi boş olan qapalı mühit, yüksəklik daha asanlıqla özünə çəkərək rezonans (əks-səda) yarada bilir. *Məsələn, təpəyə nisbətən dağ daha çox rezonanslı (əks-sədalı) olur.* Yaxud, təpənin, eləcə də dağın səthində nə qədər az ağac olarsa, bir o qədər səs dalğalarının daha çox rezonanslı (əks-sədalı) olduğunu müşahidə etmək olur. Ona görə ki, təpədə və dağda səs dalğalarının qarşısını ağaclar ala bilir. Bu da səs dalğasının yayılaraq rezonans verməsinə imkan yaratmır.

Danışıq səsləri üçün səs rezonatoru ağız və burun boşluğu ola bilər. Ona görə ki, ağız və burun boşluğunda rezonansın (əks-sədasının) yaranması üçün şərait, mühit daha böyükdür.





downloaded from KitabYurdu.org

**Qeyd:** Danışıq səslərinin rezonansı (əks-sədası) və onun yarandığı sahə, mühit (yəni daha çox ağız və burun boşluğu) formant adlanır.

Səsin yuxarıda qeyd olunan fiziki (akustik) əlamətlərini nitq səslərinə tətbiq etməli olsaq, onda nitq səsləri ilə bağlı aşağıdakıları söyləmək olar:

**Birincisi,** danışıq səslərindən saitlər tonlu, samitlər küylüdür. Bunların müqayisəsində isə küylü səslər tonlu səslərdən çoxdur.

**İkincisi,** danışıq səslərinin ucalığı səs tellərinin uzunluğundan və gərginliyindən asılıdır.

**Üçüncüsü,** səsin gücü havanı alıb qurtardıqdan sonra nəfəsvermə zamanı səs tellərində havanın sıxılmasından asılıdır.

**Dördüncüsü,** saitlərin davamlılığı çox, samitlərin davamlılığı az olur. Bu da səsin uzunluğu ilə müəyyənləşdirilir.

**Beşincisi,** səsin özünəməxsus boyası, tembri, ağız və burun boşluqlarının həcmindən, formasından asılı olur.

**Altıncısı,** nitqi qüsurlu olan, kəkələyən adamların səs tembrini fərqləndirmək daha asandır. Burada nitqin fərdi keyfiyyəti, əlaməti tez müşahidə olunur.

## Səsin fizioloji mənbələri və əlamətləri

Danışıq səsləri fizioloji mənbələrlə əlaqədardır. Səsin fizioloji mənbələri dedikdə səsin əmələgəlmə prosesində iştirak edən bədən üzvləri nəzərdə tutulur. Bunlar ümumi halda danışıq üzvləri, yaxud, nitq orqanizmi adlanır. Danışıq üzvləri bunlardır: **ağ ciyər, bronxlar, nəfəs borusu, qırtlaq, səs telləri, ağız boşluğu, burun boşluğu, yuvaqlar, sərt damaq, damaq pərdəsi, dil, dişlər, dodaqlar, alt çənə, udlaq boşluğu** və **əsəb sistemi.**

**Qeyd:** Əsəb sistemi danışıq üzvlərinin idarəedicisidir və buna görə də o, danışıq üzvləri sırasında birinci



downloaded from KitabYurdu.org

yeri tutur. Yəni danışıq üzvləri içərisində ən həssas olanıdır. Ağ ciyər, bronx, nəfəs borusu danışıq üzvləri içərisində ikinci yeri tutur. Bu danışıq üzvləri vəzifələrinə görə iki yerə ayrılır: idarə edən və icra edən üzvlər. İdarə edən üzvə əsəb sistemi, icra edənə isə ağ ciyər, bronx, nəfəs borusu daxildir.

Danışıq üzvləri bədəndə tutduqları mövqeyə görə üç qrupa bölünür:

**1)** Aşağı üzvlər;

**2)** Orta üzvlər;

**3)** Yuxarı üzvlər.

**1) Aşağı üzvlər.** Aşağı üzvlər tələffüz üzvləridir. Bəzən aşağı üzvləri tələffüz cihazı da adlandırırlar. Aşağı üzvlərin vəzifəsi qüvvəni hərəkətə gətirməkdir. Yəni aşağı üzvlər vasitəsilə səsin əmələ gəlməsi üçün lazım olan qüvvə hərəkətə gətirilir. Burada əsas rolu ağ ciyər oynayır. Ağ ciyər səsi əmələ gətirən digər üzvlərə köməkçi və vasitəçi olmaqla iştirak edir.




1. Ağciyər
2. Bronxlar
3. Nəfəs borusu
4. Qırtlaq
5. Səs telləri
6. Ağız boşluğu
7. Burun boşluğu
8. Yuvaqlar
9. Sərt damaq
10. Damaq pərdəsi (yumşaq damaq)
11. Dil
12. Dişlər
13. Dodaqlar
14. Alt çənə
15. Əsəb sistemi (beyin)
16. Udlaq boşluğu

Müxtəlif cür səslərin əmələ gətirilməsi müxtəlif tezlikli rəqslənmələrlə bağlıdır. Belə rəqslənmədə xaricə buraxılan havanın da miqdarı müxtəlif olmalıdır. Xaricə buraxılan havanın miqdarı ağ ciyərdən asılı olur. Ağ ciyər xaricə buraxılan havanın az və çox olmasında mühüm rol oynayır. Yəni ağ ci-





downloaded from KitabYurdu.org

yər xaricə buraxılan havanı mexaniki surətdə artırıb-azalda bilir. Xaricə buraxılan hava ağ ciyər vasitəsilə tənzim olunmadıqda, pozulduqda danışıqda kəkələmə, dilin topuqlaması halları baş verir. Deməli, kəkələmə, topuqlama halları ağ ciyərdən xaricə buraxılan havanın tənzim olunması ilə bağlıdır.

Danışıq zamanı hava ağ ciyərdən xaricə müxtəlif ölçüdə buraxılır. Ağ ciyər havanın bronxlardan və nəfəs borusundan keçərək qırtlağa gəlməsinə təsir göstərir. Bu hava qırtlaqdakı səs tellərini hərəkətə gətirir. Beləliklə, hava dalğası tərkibindəki səslənmiş dalğalar ağız və ya burun boşluğuna keçir, oradan isə xaricə çıxır. Bu prosesdə ağ ciyərlə yanaşı, diafraqma, bronxlar, nəfəs borusu da iştirak edir.

**Qeyd:** Aşağı üzvlərə ağ ciyər, diafraqma, bronxlar, nəfəs borusu daxildir.

**2) Orta üzvlər.** Orta üzvlər, əsasən, boğazda yerləşən üzvlərdən ibarətdir və bunların vəzifəsi rəqslənmə ilə səs törətməkdir. Orta üzvlər, əsasən, qırtlaqdan (xirtdəkdən) ibarətdir. Qırtlaq (xirtdək) qısa borudan ibarət olmaqla bir neçə qığırdağın birləşməsindən əmələ gəlmişdir. Bunlardan ikisi öz şəkli və həcmi etibarilə başqalarından fərqlənir: birincisi, üzükvari qığırdaq, ikincisi isə üzükvari qığırdağın üzərində yerləşən qalxanvari qığırdaqdır. Sonrakı qığırdaq isə qalxanvari, piramidal qığırdaqdır. Bu qığırdaqların hamısı bir-birinə əzələ lifləri vasitəsilə birləşmişdir. Qırtlağın içində, onun hər iki tərəfinə yapışan ət çıxıntısı vardır. Qırtlaqdakı qığırdaqlar hərəkətedicidir. Qığırdaqların hərəkətediciliyinin sayəsində qırtlağın içində olan ət çıxıntılarının ucu bir-birindən uzaqlaşaraq ağ ciyərə gedən və çıxan havanın heç bir maneə ilə qarşılaşmamasına şərait yaradır. Qırtlağın içindəki ət çıxıntılarının ucu bir-birindən uzaqlaşan zaman ağ ciyərə daxil olan və ondan xaricə çıxan hava heç bir səs yaratmır. Ancaq qırtlaqdakı ət çıxıntılarının ucu bir-birinə yaxınlaşa və kipləşə bilir. Bu zaman ağ ciyərdən gələn hava ət çıxıntılarının uclarına toxunur, ona təsir edir və nəticədə ət çıxın-



downloaded from KitabYurdu.org

tılarında rəqslənmə baş verir. Bu da udlaq boşluğundan keçir, ağız və burun boşluğunda müxtəlif səslərin formalaşmasına səbəb olur.

**Qeyd:** Orta üzvlərə qırtlaq (xirtdək), udlaq daxildir.

Ət çıxıntıları **səs telləri** adlanır. Bu **səs telləri** (ət çıxıntıları) arasındakı açıqlığa (boşluğa) **səs keçidi,** çalovvari qığırdaqlar arasındakı açıqlığa (boşluğa) isə **qığırdaq keçidi** deyilir.

Danışıq səslərinin yaranması üçün səs telləri arasındakı keçidin və qığırdaqlar arasındakı keçidin aldığı aşağıdakı vəziyyətlər mühüm rol oynayır:

Şəkil 1.




**Birinci vəziyyət.** İnsan danışmırsa və sərbəst surətdə nəfəs alırsa, bu zaman səs telləri və qığırdaqlar arasında geniş keçidlər əmələ gəlir. Və insan danışmırsa, sərbəst surətdə nəfəs verirsə, bu zaman səs telləri və qığırdaqlar arasındakı keçidlər nisbətən bir qədər daralmış olur (1-ci şəklə bax).

Şəkil 2.



**İkinci vəziyyət.** Hava axını qığırdaqlar arasındakı gen keçiddən çıxır və səs telləri arasındakı dar keçidə düşür. Bu zaman xışıltı və ya xırıltı yaranır. Belə bir vəziyyət, əsasən kar samitlər yarandıqda baş verir (2-ci şəklə bax).

Şəkil 3.



**Üçüncü vəziyyət.** Həm səs telləri arasındakı keçid, həm də qığırdaqlar arasındakı keçid bağlı olduqda hava axını buradan keçərkən təzyiq edərək özünə yol açır. Bu zaman qırtlaqda hıçqırtını xatırladan səs əmələ gəlir. Bununla da boğazda yaranan **h** xarakterli səs-



downloaded from KitabYurdu.org

lər yaranır (3-cü şəklə bax). Səsin yaranmasında üçüncü vəziyyətin rolu vardır.

**Dördüncü vəziyyət.** Qığırdaqlar arasındakı keçid açıq, səs telləri arasındakı keçid bağlı olur. Bu zaman hava axının bu keçidlərdən ötüb keçməsi pıçıltı əmələ gətirir (4-cü şəklə bax). Qığırdaqlar arasındakı keçidin və səs telləri arasındakı keçidin belə bir vəziyyət alması pıçıltı ilə danışan zaman yaranır.

Şəkil 4.



**Beşinci vəziyyət.** Qığırdaqlar arası keçid bağlı olur. Səs telləri arasındakı keçid isə az da olsa, açıq olur. Həm də səs telləri arasındakı keçid gərgin vəziyyəti ilə müşahidə olunur. Bu zaman səs telləri arasındakı keçiddən keçən hava axını səs tellərini rəqsləndirir və nəticədə səs əmələ gəlir (5-ci şəklə bax). Beləliklə, beşinci vəziyyət səsin əmələ gəlməsində mühüm rol oynayan vəziyyətdir.

Şəkil 5.



**Qeyd 1:** Səs tellərinin üçüncü və beşinci vəziyyətləri danışıq səslərinin yaranmasında mühüm rol oynayan əsas vəziyyətlərdir. Yəni səs telləri arasındakı keçidin bağlı olması (üçüncü vəziyyətdə) və səs telləri arasındakı keçidin az da olsa, açıq olması və gərgin olması (beşinci vəziyyət) səsin əmələ gəlməsində əsas rol oynayır. Ona görə ki, üçüncü və beşinci vəziyyətdə səs telləri rəqslənir. Bu da səsin əmələ gəlməsi üçün vacibdir.

**Qeyd 2:** Səs telləri nə qədər böyük olarsa, səs bir o qədər aşağı, əksinə olduqda isə səs bir o qədər yüksək olar. Müqayisə üçün qeyd edək ki, kişi-





downloaded from KitabYurdu.org

lərdə səs tellərinin uzunluğu təqribən 1,5 sm-ə, qadınlarda isə 1,2 sm-ə uyğun ölçüdədir. Ona görə də kişilərin səsi qadınların səsindən fərqlənir.

**3) Yuxarı üzvlər.** Danışıq səslərinin formalaşması üçün yuxarı üzvlərin rolu böyükdür. Bu mənada yuxarı üzvlər danışıq səslərini formalaşdıran üzvlərdir. Buraya ağız boşluğu və orada yerləşən üzvlər, eyni zamanda burun boşluğu daxildir. Bəzən bu üzvləri "ağız üzvləri" də adlandırırlar.

**Ağız** danışıq səslərinin formalaşmasında mühüm rola malikdir. Danışıq üzvləri içərisində o, mürəkkəb bir danışıq cihazı hesab olunur. Ağız dedikdə bura daxil olan aşağıdakı üzvlər nəzərdə tutulur.

**a)** Ağız boşluğu, **b)** dil, **c)** damaq, **ç)** dilçək, **d)** dişlər, **e)** dodaqlar, **ə)** çənələr.

**a) Ağız boşluğu.** Ağız boşluğu səsin formalaşması üçün mühüm bir mühitdir. Burada boğazdan gələn səs öz həcmini dəyişir, eyni zamanda müxtəlifləşir. Ağız boşluğu səsin həm kəmiyyətcə, həm də keyfiyyətcə dəyişməsinə təsir göstərə bilir. Ancaq, ağız boşluğu səsin kəmiyyətcə dəyişməsinə daha çox, keyfiyyətcə dəyişməsinə isə daha az təsir edir. Yeri gəlmişkən qeyd edək ki, ağız boşluğunda olan səsi hələ tam yetkin səs hesab etmək olmaz. Yetkin, tam olmaq üçün gərək səsin formalaşmasında dil, damaq, dilçək, dişlər, dodaq, alt çənə də iştirak etsin.

Ağız boşluğu səsləri formaya salır və bu baxımdan da onu rezonator, səsləri tənzim edən requlyator bir üzv kimi xarakterizə etmək olar. Qırtlaqdan gələn hava axını ağızda yerləşən dil, dodaqlar və dişlərin maneəsinə rast gəlir. Bu da müxtəlif növlü səslərin əmələ gəlməsinə şərait yaradır. Dilin, dodaqların, dişlərin bir-birinə yaxınlaşması, bir-birinə toxunması, onların müxtəlif vəziyyət alması və s. müxtəlif növlü səslərin əmələ gəlməsində mühüm rol oynayır. Belə ki, qırtlaqdan gələn səslərin müxtəlif növləri ağızda formalaşır.





downloaded from KitabYurdu.org

**b) Dil.** Dil danışıq üzvləri içərisində ən fəal olanlardan biridir. O, mütəhərrikliyi və asanlıqla şəklini dəyişməsi ilə digər danışıq üzvlərindən fərqlənir. Dil ağız boşluğunun həcmini dəyişə bilir. Bununla da bəzən ağız boşluğu bərabər olan iki hissəyə, bəzən bərabər olmayan iki hissəyə (bəzən ön hissə böyük ola bilir, bəzən isə arxa hissə böyük ola bilir) bölünür. Nəticədə müxtəlif səslər əmələ gəlir. *Məsələn, dilönü, dilortası və dilarxası saitləri dilin ağız boşluğundakı tutduğu mövqedən asılı olaraq yaranır.*

Dil öz növbəsində üç hissədən ibarətdir: **dilönü, dilortası** və **dilarxası. Dilönü** dilin qabaq, ön hissəsidir. O, ön dişlərin yuvaqları (alveolları) yanında sakit vəziyyətdə yerləşir. Dilönünün ən fəal hissəsi dilucudur. Dilucu dilin ən çevik, fəal və həcmcə kiçik hissəsidir. Səslərin formalaşmasında onun böyük rolu vardır. Ona görə ki,  o, müstəqil şəkildə dişlərə, dodaqlara toxunaraq səslərin formalaşmasına yardım edir.

**Dilortası** dedikdə dilin orta hissəsi nəzərdə tutulur. Dilin orta hissəsi nisbətən mütəhərrikdir. Ona görə də sərt damağa doğru qalxa bilir. Onun qalxma dərəcəsindən asılı olaraq müxtəlif səslər formalaşır. *Məsələn, dilortası saitlər **(e)**, dilortası samitlər **(y, g, k, x′)**.*

**Dilarxası** dedikdə dilin arxa hissəsi başa düşülür. Burada dilin arxa hissəsinin fəaliyyəti əsas götürülür. Dilin arxa hissəsi yumşaq damağa doğru, qismən də sərt damağa doğru hərəkət edir. Eyni zamanda dilarxası arxaya, ya da önə hərəkət edərək müxtəlif səslərin formalaşması üçün imkan yaradır. *Məsələn, dilarxası saitlər **(a, ı, o, u)** dilin arxa hissəsinin fəaliyyəti ilə yaranır.*

**c) Damaq.** Damaq ağız və burun boşluğu ilə əlaqəlidir. Ağız boşluğunun tavanını - üstünü, burun boşluğunun isə fərşini- alt üzünü təşkil edir. Damaq iki hissəyə bölünür: **sərt damaq, yumşaq damaq. Sərt damaq** damağın dilönü və dilarxasına qarşı duran hissəsidir. Damağın ön tərəfdən üçdən ikisi sərt damaqdır.

**Yumşaq damaq.** Yumşaq damaq damağın dilarxasına qarşı



downloaded from KitabYurdu.org

duran hissəsidir. Onun ucu damaq pərdəsi, yaxud dilçəkdir.

**ç) Dilçək.** Dilçək müstəqil surətdə hərəkət edir. O, həm yuxarı, həm də aşağı enə bilir. Dilçək yuxarı qalxdıqda qırtlaqdan burun boşluğuna gedən yolu bağlayır. Aşağı endikdə isə qırtlaqdan burun boşluğuna gedən yol açılır. Beləliklə, ağız boşluğuna gedən yol açıq olduqda ağız səslərinin, burun boşluğuna gedən yol isə açıq olduqda burun səslərinin (m, n) yaranmasına şərait yaradır.

**d) Dişlər.** Dişlər ayrılıqda müxtəlif növ səslərin yaranması üçün müstəqil bir iş görə bilmir. Yalnız köməkçi danışıq üzvləri vasitəsilə danışıq üzvlərinin yaranmasında iştirak edir. Bu mənada dişlər dil və dodaqların köməkçi rol oynaması sayəsində müxtəlif növ səslərin yaranmasının iştirakçısı olur. *Məsələn, **d, t, z, s, l, n** səslərinin əmələ gəlməsində üst çənədəki dişlər dilə köməklik göstərir.*

**e) Dodaqlar.** Dodaqlar danışıq səslərinin formalaşmasında fəal iştirak edən danışıq üzvüdür. O, bəzən dairəvi şəkil alır, bu zaman dodaqlanan saitlər əmələ gəlir. *Məsələn, **o, ö, u, ü.*** Bəzən dodaqlar bir-birinə kipləşir, onda qoşadodaq samitlər yaranır. *Məsələn, **b, p, m.*** Bəzən isə bir-birinə yaxınlaşır və ya uzaqlaşır.

Deməli, dodaqların sait və samitlərin yaranmasında fəal iştirakı vardır.

**ə) Çənələr.** Çənə iki hissədən ibarətdir: **alt çənə, üst çənə.** Alt çənə üst çənə ilə müqayisədə daha mütəhərrikdir. Onun fəaliyyəti daha qabarıq nəzərə çarpır. Alt çənənin mütəhərrikliyi imkan yaradır ki, o, asanlıqla üst çənədən uzaqlaşa bilsin. Bununla da alt çənə saitlərin yaranmasında və bölgüsündə mühüm rol oynayır. Məsələn, açıq və qapalı saitlərin yaranmasında alt çənənin böyük rolu vardır.

Danışıq üzvləri ilə bağlı yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, hər bir danışıq üzvü danışıq səslərinin əmələ gəlməsində müəyyən vəzifə daşıyır. Danışıq üzvlərinin səsi yaradan zaman daşıdığı vəzifənin fəallığını nəzərə alaraq onları üç qrupa ayırmaq olar:





downloaded from KitabYurdu.org

**a)** Fəal (əsas) üzvlər;

**b)** Köməkçi (vasitəçi) üzvlər;

**c)** Avazlayan (rezonator) üzvlər.

**a) Fəal** (əsas) **üzvlər.** Bura **səs telləri, arxa damaq, dil, alt çənə, dilçək, dodaqlar** daxildir.

**b) Köməkçi** (vasitəçi) **üzvlər.** Köməkçi (vasitəçi) üzvlər sırasına **dişlər, yuvaqlar, ön damaq, nəfəs borusu, ağ ciyər** daxildir.

**c) Avazlayan** (rezonator) **üzvlər. Qırtlaq, udlaq boşluğu, ağız boşluğu, burun boşluğu, çənələr** avazlayan (rezonator) üzvlərdir.

**Qeyd 1:** Fəal (əsas), köməkçi (vasitəçi), avazlayan (rezonator) üzvlərin hamısı əsəb sistemi ilə idarə olunur.

**Qeyd 2:** Yuxarıda qeyd olunan üzvlər bioloji və ictimai funksiyanı yerinə yetirir. Məsələn, dişlərin bioloji funksiyası yaşamaq üçün lazım olan qidanı çeynəməyə, üyütməyə xidmət etməsidir. Onun ictimai funksiyası isə danışıq səsi yaranan zaman dilin ön hissəsinin alt və üst dişlərə toxunması ilə hava axınının sərbəst çölə çıxmasına maneə törətməklə səslərin tam formalaşmasına xidmət etməsidir. Bioloji və ictimai funksiya hər bir danışıq üzvünə aid olan funksiyadır. Təbii ki, dildə danışıq üzvlərinin yalnız ictimai funksiyası öyrənilir. Onun bioloji funksiyasını öyrənmək biologiya, anatomiya elmlərinə aiddir.

## Səsin ictimai əlamətləri

Yuxarı üzvlərin köməyilə formalaşmış səslər dil vahidi olmaqla ictimai əlamət kəsb edir. İctimai əlamət kəsb edən bu səslər fonemlər adlanır və həm də səsin ictimai əlamətləri kimi xarakterizə olunur.





downloaded from KitabYurdu.org

**Qeyd:** Müxtəlif dillərdə hər hansı bir səsin əlifbadakı qrafik işarəsi eyni olsa da, onları bir fonem adlandırmaq olmaz. Məsələn, **a** səsi, **b** səsi həm Azərbaycan, həm də rus dilində vardır. Lakin bunların fonem mahiyyəti müxtəlifdir. Hətta bunların məxrəci də bir-birindən fərqlənir. Məxrəc dedikdə səsin məxrəci nəzərdə tutulur. Səsin məxrəcinə belə bir tərif vermək olar: **Bu və ya digər səsin tələffüzü zamanı danışıq üzvlərinin aldığı vəziyyətə səsin məxrəci deyilir.** Hər bir səsin özünəməxsus məxrəci vardır. Bir səsin məxrəci digər səsin məxrəcindən fərqlənir.

Dilimizdə mövcud olan bütün səslər fonem ola bilmir. Fonem sözləri məna cəhətdən fərqləndirən səslərdir. *Məsələn, **al** sözündəki **a** və **l** səslərini fonem adlandırmaq olar.* Ona görə ki, **a** və **l** səsləri **al** sözünü yaratmışdır. **Al** sözündəki **l** samitini **d** samiti ilə əvəz etdikdə yeni bir söz, yəni **ad** sözü əmələ gəlir və burada **d** samiti də fonem hesab olunur. Yaxud, **al** sözündəki **a** səsini **ə** səsi ilə dəyişdirdikdə **əl** sözü yaranır. Və burada da **ə** səsi fonem hesab olunur. Yaxud, **inək** sözünün sonundakı **k** səsi fonemdir. Ancaq tələffüz zamanı **inək** sözünün sonundakı **k** samitinin $\mathbf{x}^1$ kimi tələffüzü göstərir ki, $\mathbf{x}^1$ fonem deyildir. Ona görə ki, o, sözdə fərqləndirici məna yaratmır. Bu, yəni $\mathbf{x}^1$ fonem variantıdır.

Səsin ictimai əlamətləri, yaxud fonem bir sıra xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlər səsin ictimai əlamətlərinə, yaxud fonemə aiddir və aşağıdakılardır:

**1)** Hər şeydən əvvəl fonem səsdir. Yəni fonem ritmik hava dalğaları şəklində qulağımıza təsir edən fiziki təbiəti ilə yanaşı, ictimai mahiyyəti olan səsdir. İnsan qulağına təsir edə biləcək hava dalğaları olmasa, səs də eşidilə bilməz. Səs hava dalğaları vasitəsilə qulağa nəql olunur. Səsin yoxluğu onu nəql edən hava dalğalarının yoxluğu deməkdir.

Deməli, hava dalğaları olmadan (fiziki səs olmadan) heç bir

downloaded from KitabYurdu.org

eşitmə ola bilməz. Eşitmə olmadan da heç bir fonem mövcudluğundan danışmaq olmaz. Buradan görünür ki, fiziki səs olmadan fonem yoxdur. **Fiziki səs fonemin maddi əsasını, onun birinci xarakterik əlamətini təşkil edir.** Fiziki səs dedikdə, nəzərə almaq lazımdır ki, səslər olduqca çox və müxtəlifdir. *Məsələn, şimşək səsləri, göy gurultuları, su şırıltıları, at kişnəməsi və s.* Bu cür səslərin heç biri fonem deyildir. Fonem fiziki səs olsa da, hər cür fiziki səsi fonem hesab etmək olmaz.

**2)** Fonemin xarakterik əlamətlərindən biri də onun **müəyyən keyfiyyət** və **kəmiyyətə malik olan mütəşəkkil səs** olmasıdır. Müəyyən keyfiyyətə və kəmiyyətə malik olma külək nəticəsində əmələ gələn səsdə, metal tellərin titrəməsindən yaranan səsdə, müxtəlif musiqi alətlərindəki səslərdə, heyvanların, quşların çıxardığı səsdə də vardır. Lakin bu səslər insanların çıxardığı səslərdən qeyri-mütəşəkkil olmalarına görə fərqlənir. Yəni insanların çıxardığı səslərdən fərqli olaraq bu səslər mütəşəkkil deyildir. Onlar bir sistem əmələ gətirə bilmir. Ancaq insanın çıxardığı səslər bir sistem yaradır. Belə bir kamillik, mütəşəkkillik təbiətdə mövcud olan digər səslərdə yoxdur. Deməli, fonem mütəşəkkil səsdir. Ancaq hər mütəşəkkil səs fonem deyildir. Belə ki, fonem olmayan mütəşəkkil səslər də mövcuddur. *Məsələn, musiqi səsləri mütəşəkkil səslərdir.* Ona görə də musiqi səsləri bir sistem təşkil edir. Ancaq musiqi səslərini fonem hesab etmək olmaz. Baxmayaraq ki, bu mütəşəkkil, sistemə salınmış səslərlə Çaykovskilərin, Bethovenlərin, Motsartların, Ştrausların, Üzeyirbəylərin ölməz əsərləri yaradılmışdır. Bir sözlə, bu səsləri əmələ gətirən alətlər və səslərin mütəşəkkilliyi, sistemə salınması insanlar tərəfindən yaradılsa da, onları fonem kimi götürmək olmaz.

**3)** Fonemin xarakterik əlamətləri sırasında onun **ictimai və ümumi səs** olmasıdır. Belə ki, səslər ictimai mühitə, ictimai həyatın tələbinə görə əmələ gəldiyindən ictimai səslər adlanır. İctimai əhəmiyyət kəsb edən bu səslər hələ fonem ola bilmir. Fonem olmaq üçün onlar hamı tərəfindən başa düşülməli və hamının malı olmalıdır. Yəni səslər ictimai olmaqla yanaşı, həm də



downloaded from KitabYurdu.org

ümumi olmalıdır. Bunun üçün səslər min dəfələrlə səsləndikdən və eşidildikdən sonra ümumiləşir, hamı tərəfindən eyni şəkildə dərk edilir. Beləliklə, səslərin ictimailiyi cəmiyyətdə əmələ gəlməsilə şərtlənirsə, ümumiliyi isə cəmiyyətin bütün üzvləri tərəfindən eyni şəkildə dərk edilməsi ilə şərtlənir. Yeri gəlmişkən qeyd edək ki, ictimai və ümumi olmaq fonem ola biləcək səslərə aiddir. Deməli, səsin ictimailiyi və ümumiliyi fonemin məzmununa daxildir.

**4)** Fonemin xarakterik əlamətlərindən biri də onun **dil vahidi** olmasıdır. İnsan müxtəlif səslər çıxara bilir: pişik kimi miyoldamaq, it kimi hürmək, xoruz kimi banlamaq və s. Lakin bunlar dil vahidi ola bilmir. Ona görə ki, belə səslər fonem deyildir. Onlar dildə ünsiyyətə xidmət edə bilmir. Ünsiyyətə xidmət etməyən səs isə dil vahidi olmaq qabiliyyətini itirir. Yeri gəlmişkən qeyd edək ki, hər hansı bir dildə **dil vahidi** olan səslər başqa bir dildə **dil vahidi** ola bilmir. *Məsələn,* ***ə, ü, ö, h*** *səsləri Azərbaycan dilindən fərqli olaraq rus dilində olmur, yaxud,* ***ц, щ*** *səsləri rus dilindən fərqli olaraq Azərbaycan dilində dil vahidi olmur.*

**5)** Fonem dil sisteminin həlqəsidir. Bu o deməkdir ki, dil sistemi fonemdən başlayır. Əgər fonem olmazsa, onda **morfem, söz, söz birləşməsi, cümlə** də yarana bilməz. Əyani olaraq dil sisteminin həlqəsini belə göstərmək olar.

**fonem** → **morfem** → **söz** → **söz birləşməsi** → **cümlə**

Beləliklə, fonem, fonem birləşməsi **morfemi;** fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi **sözü;** fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi, söz **söz birləşməsini;** fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi, söz, söz birləşməsi **söz silsiləsini**; fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi, söz, söz birləşməsi, söz silsiləsi **cümləni**; fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi, söz, söz birləşməsi, söz silsiləsi, cümlə **cümlə birləşməsini;** fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi, söz, söz birləş-





downloaded from KitabYurdu.org

məsi, söz silsiləsi, cümlə, cümlə birləşməsi **cümlə silsiləsini;** fonem, fonem birləşməsi, morfem, morfem birləşməsi, söz, söz birləşməsi, söz silsiləsi, cümlə, cümlə birləşməsi, cümlə silsiləsi **nitqi** yaradır.

Dil sistemini, dil həlqəsini yaradan yuxarıda qeyd olunan **dil vahidlərinin** hər biri konkret olaraq dilçiliyin müvafiq bölmələrində öyrənilir. *Məsələn, fonem **fonetikada,** morfem və söz **leksikologiyada, morfologiyada,** söz birləşməsi, cümlə **sintaksisdə** və s.* Bununla belə, dilçilik elminin öyrəndiyi bu dil vahidlərinin hər birinin fonetika ilə əlaqəsi vardır. Bu cəhətdən dil vahidlərinin fonetika ilə əlaqəsini təmin edən fonetik cəhətlər aşağıdakılardır.

**Fonem -** İctimai mahiyyətli səsdən ibarət olan dil vahididir.

**Morfem -** Fonetik cəhətdən səs və hecadan ibarət olan dil vahididir.

**Söz -** Fonetik cəhətdən hecadan ibarət olan və fonetik cəhətdən vurğu qəbul edən dil vahididir.

**Söz birləşməsi -** Fonetik cəhətdən vurğu (vurğu birləşməsi) qəbul edən dil vahididir.

**Söz silsiləsi** - Fonetik cəhətdən vurğu (vurğu silsiləsi) qəbul etmiş dil vahididir.

**Cümlə** - Fonetik cəhətdən müəyyən intonasiya qəbul etmiş dil vahididir.

**Cümlə birləşməsi -** Fonetik cəhətdən intonasiya (intonasiya birləşməsi) qəbul etmiş dil vahididir.

**Cümlə silsiləsi -** Fonetik cəhətdən intonasiyası (intonasiya silsiləsi) olan dil vahididir.

**Nitq** - Fonetik cəhətdən intonasiyası (intonasiya sistemi) olan dil vahididir.

Dildə təcrid edilmiş fonem yoxdur, onlar təklikdə yaşaya bilmir. Odur ki, fonemlər dildə vahid sistem yaradır. Buna dilin fonemlər sistemi deyilir.

**6)** Fonem sözdən kənarda deyil, sözün daxilində olan mənalı vahiddir. Ona görə ki, sözlər bir-birindən təkcə mənasına, quruluşuna görə yox, həm də fonetik tərkibindəki fonemlərə



downloaded from KitabYurdu.org

görə fərqlənirlər. *Məsələn, fonetik tərkiblərinə görə bir-birindən yalnız birinci səslərə görə fərqlənən aşağıdakı sözlərə diqqət yetirək:*

| | | |
|---|---|---|
| **yağ** | **yat** | **bal** |
| **dağ** | **qat** | **sal** |
| **bağ** | **sat** | **qal** |
| **sağ** | **bat** | **şal** |
| **lağ** | **tat** | **mal** |
| | | **lal** |
| | | **hal** və s. |

Bu misallardan göründüyü kimi, birinci sırada **y, d, b, s, l;** ikinci sırada **y, q, s, b, t;** üçüncü sırada **b, s, q, ş, m, l, h** samitləri dəyişmiş, sözün yerdə qalan hissəsi isə sabit qalmışdır. Deməli, birinci sıradakı səslər mənanı dəyişdirən səslərdir və ona görə də fonemdir.

**Qeyd:** Azərbaycan dilində **səs, dad, lal, tat, ana, ata, sus, şiş, did, ara, ala** və s. sözləri sağdan sola, soldan sağa oxuduqda heç bir məna dəyişikliyi yaranmır. Demək lazımdır ki, dildə belə sözlər olduqca azlıq təşkil edir. Bundan başqa, dilimizdə **daş, xal, pat** (şahmat oyununda), **sat** və s. sözləri tərsinə yazsaq, onda yeni mənalı söz alınacaqdır: **şad, lax, tap, tas.** Dilimizdə bu cür sözlər də vardır. Həm də hamı bilir ki, burada **daş** ilə **şad, xal** ilə **lax, pat** ilə **tap** arasında heç bir məna əlaqəsi yoxdur.

**7)** Fonem dildə məna fərqi yaradan ən kiçik dil vahididir. *Məsələn, bir səs fonem olduğu kimi, morfem, söz və cümlə də ola bilər.* Azərbaycan dilində "o" səsini götürək. Bu səs həm fonem, həm söz, həm də cümlə ola bilər. Belə olan təqdirdə "qol" sözündə "o" fonem, "O dedi" cümləsində "o" söz, "kim gəldi?" sualına cavab olan "o" isə cümlədir. Deməli, bu-



downloaded from KitabYurdu.org

rada "o" saiti həm ən kiçik dil vahidi kimi, həm söz kimi, həm də ən böyük dil vahidi (cümlə) kimi xarakterik əlamətlərini qoruyub saxlayır. "O" saitinin müxtəlif dil vahidlərinə - fonemə, sözə, cümləyə keçməsi isə dilin inkişaf tarixi, inkişaf şəraiti ilə bağlıdır. Belə ki, "o" saiti inkişafla bağlı olaraq fonemə, sözə, cümləyə aid xüsusiyyətləri qoruyub saxlamışdır. Fonem sözə, cümləyə aid xüsusiyyətləri itirməmişdir. Ona görə də dilin daxili imkanlarından asılı olaraq "o" saiti fonem, söz, cümlə kimi özünü göstərə bilir. Bunu dildəki bütün səslərə - saitlərə, samitlərə aid etmək olar. *Məsələn, **M.F. Axundov, M.Ə.Sabir** və sairədəki **M.F., M.Ə.** insialları sözə əyani misal ola bilər.* Bütün səslər düşdüyü şəraitdən asılı olaraq fonem, söz olduğu kimi, cümlə də ola bilər. Məsələn:

Müəllim - Bu hansı hərfdir?

Şagird - M.

Şagirdin verdiyi cavabdakı "M" cümlədir.

**8)** Fonem hər bir dilin özünəməxsus əlamətləri ilə seçilir. O, hər bir dilin məxsusi əlamətlərinə görə müəyyən olunur. Əks təqdirdə fonemlər sözü fərqləndirə bilməzdi. *Məsələn, rus dilində samit fonemləri fərqləndirən əlamətlər kimi **yumşaqlıq** (мягкость), **bərklik** (твёрдость) bir ölçü kimi götürülür.* Bu, Azərbaycan dilində samitləri fərqləndirməkdə meyar kimi hesab olunmur. Yaxud, Azərbaycan dilində sait fonemləri fərqləndirmək üçün **qalınlıq, incəlik, dodaqlanmaq, dodaqlanmamaq** bir meyar kimi götürülür.

**9)** Fonemlər qarşılıqlı cütlükdən ibarətdir. *Məsələn saitlərdə qarşılıqlı cütlük: açıq saitlər - qapalı saitlər, qalın saitlər - incə saitlər, dodaqlanan saitlər - dodaqlanmayan saitlər və s.*

Samitlərdə qarşılıqlı cütlük: *kar samitlər - cingiltili samitlər, dilönü samitlər - dilarxası samitlər, ağız samitləri - burun samitləri* və s.

**10)** Fonemlər **monoftonq, diftonq, triftonq** olur. Yəni fonem bir səsdən ibarət olduqda **monoftonq,** iki səsdən ibarət olduqda **diftonq,** üç səsdən ibarət olduqda isə **triftonq** adlanır. Azərbaycan dilindəki fonemlər monoftonqdur: **a, ə, u, b, d, z**





downloaded from KitabYurdu.org

və s. Yalnız iki səsdən ibarət olan **ç** (bu səs **ts** səsləri əsasında formalaşıbdır) və **c** (bu səs **dy** səsləri əsasında formalaşıbdır) fonemləri diftonq fonemlərdir. Bundan başqa, diftonq fonemlərlə bəzi sözlərin tələffüzü zamanı qarşılaşmalı oluruq: toyuq - **to͡ux**, neft - **nö͡üt**, qohum - **qo͡um,** qovurma - **qo͡urma** və s.

**11)** Hər hansı bir fonem düşdüyü mühit, şəraitlə bağlı olaraq fonem variantını formalaşdıra bilir. Fonem variantları isə sözün mənasını dəyişmir. *Məsələn, aşağıdakı sözlərin yazılışı ilə tələffüzü arasındakı fərqə fikir verək. :*

| **Yazılır:** | **Tələffüz olunur:** |
|---|---|
| işləmək | işdəmək |
| çatlamaq | çatdamaq |
| qatlamaq | qatdamaq |
| banlamaq | bannamaq |
| korlamaq | korramaq |
| danlamaq | dannamaq |
| qurtlamaq | qurttamaq və s. |

Misallardan göründüyü kimi, **l** səsi **d, n, r, t** səsləri kimi tələffüz olunmuşdur. Ancaq bu, mənada heç bir dəyişiklik yaratmamışdır. Görünür ki, **l** səsi tələffüz zamanı öz variantlarına, variasiyalarına keçir. Bunu morfoloji prinsip yaratmaqla yanaşı, **l** ilə **d, n, r, t** səslərinin tarixi - etimoloyi kökünün eyni olması da təsdiq edir. Müqayisə üçün qeyd edək ki, bunu digər dillərdə də müşahidə etmək olur. *Məsələn, rus dilində bəzi sözlərin yazılışı ilə tələffüzü arasındakı fərqə diqqət yetirək:*

| **Yazılır:** | **Tələffüz olunur:** |
|---|---|
| вода | вада |
| водица | вадица |
| водичка | вадичка |
| водопровод | вадапровод |
| из класса | искласса |
| из журнала | ижжурнала |
| из школы | ишшколы və s. |



downloaded from KitabYurdu.org

Misallardan göründüyü kimi, rus dilində yazılışı ilə tələffüzü fərqlənən bu qəbildən olan sözlərdə məna fərqi yaranmır. Deməli, qeyd olunan sözlərdə tələffüz sözün mənasını fərqləndirmir. Belə sözlərdə tələffüz ilə yazılışın bir-birindən fərqlənməsi məna müxtəlifliyinin yaranmasına səbəb olmur.

Fonemlərin kəmiyyəti müxtəlif dillərdə müxtəlifdir. Hansı dildə fonemin sayı çoxdursa, həmin dildə kök morfemin tərkibində fonem az olur. *Məsələn, abxaz dilinin bzib şivəsində 81 fonem olduğu üçün söz kökləri əsasən bir fonemdən ibarətdir.* Hansı dildə fonemin sayı azdırsa, həmin dildə kök morfemin tərkibində fonem çox olur. *Məsələn, polineziya dillərində (havay dilində) fonem az olduğundan sözün kökü uzun olur:* ***homohomonukunukuanya*** *sözü "balıq" mənasındadır.*

Fonemin xarakterik xüsusiyyətlərini, əlamətlərini nəzərə alaraq ona belə bir tərif vermək olar: **Fonem tarixən əmələ gəlmiş, ictimai, ümumi, mütəşəkkil, sistemli səsdən ibarət olan, hər bir dilin məxsusi əlamətləri ilə seçilən mənalı dil vahididir.**

## Danışıq səslərinin təsnifi

Danışıq səslərini təsnif edərkən iki meyardan istifadə olunur: **fizioloji meyar, akustik meyar.**

**Fizioloji meyara** görə səsin yaranmasında iştirak edən danışıq üzvlərinin rolu əsas götürülür. **Akustik meyarda** isə danışıq səslərinin küylü, tonlu, avazlı, küylü-tonlu cəhətləri əsas hesab olunur. Yəni akustik meyarda səslənmə diqqət mərkəzində saxlanılır.

Hər iki meyarı nəzərə almaqla danışıq səsləri aşağıdakı kimi təsnif olunur:

**1)** Səs tellərinin iştirakına görə; **2)** Ağız üzvlərinin iştirakına görə; **3)** Tonun və ya küyün üstünlüyünə görə.

**1) Səs tellərinin iştirakına görə.** Səs tellərinin iştirakına görə səslər iki yerə bölünür: **a) ünlü səslər; b) ünsüz səslər.**





downloaded from KitabYurdu.org

**a) Ünlü səslər.** Danışıq səslərinin bəzilərini tələffüz edərkən səs telləri gərginləşir və kipləşmiş bir vəziyyət alır. Bu zaman səs cığırı daralmış olur, hava axını güc, təzyiq göstərərək özünə yol açır. Nəticədə ünlü səslər yaranır.

Saitlər, sonorlar, nisbətən cingiltili samitlər ünlü səslərə daxildir.

**b) Ünsüz səslər.** Danışıq səslərinin bəzilərini tələffüz edərkən səs telləri gərginləşmir, kipləşmir. Bu zaman səs cığırı açıq olur, hava axını səs cığırından sərbəst çıxır. Nəticədə ünsüz səslər yaranır. Kar samitlər, nisbətən cingiltili samitlər ünsüz səslərə daxildir.

**2) Ağız üzvlərinin iştirakına görə.** Ağız üzvlərinin iştirakına görə danışıq səsləri iki yerə ayrılır: a) **sait səslər;** b) **samit səslər.**

**a) Sait səslər.** Hava axını ağız boşluğundan çıxarkən ağız üzvlərinin ciddi maneəsinə rast gəlmirsə, sait səslər yaranır. Deməli, saitlər hava axınının ağız boşluğunda ciddi maneəyə rast gəlməməsi ilə formalaşan səslərdir.

**b) Samit səslər.** Hava axını ağız boşluğundan çıxarkən ağız üzvlərinin ciddi maneəsinə rast gəlirsə, samit səslər yaranır. Deməli, samitlər hava axınının ağız boşluğunda ciddi maneəyə rast gəlməsi ilə formalaşan səslərdir.

**3) Tonun və ya küyün üstünlüyünə görə.** Tonun və ya küyün üstünlüyünə görə səslərin iki növü vardır: a) tonlu səslər; b) küylü səslər.

**a) Tonlu səslər.** Bəzi danışıq səslərində ton üstünlük təşkil edir. Belə səslər tonlu səslər adlanır. Bu mənada sait səslər tonlu səslərdir. Bundan başqa, sonor samitlərdə də (m, n, l, r) saitlərdə olduğu kimi ton üstünlük təşkil edir. Deməli, saitlər və sonorlar tonlu səslərdir.

**b) Küylü səslər.** Danışıq səslərinin bəzilərində küy üstünlük təşkil edir. Samit səslər (sonorları çıxmaqla) küylü səslərdir.

Buradan belə bir nəticəyə gəlmək olur ki, saitlərlə samitlər arasındakı fərqlər aşağıdakılardır:

**1)** Saitlər ağız boşluğunda heç bir maneəyə rast gəlmədən



downloaded from KitabYurdu.org

yaranan səslərdir. Samitlər isə ağız boşluğunda ciddi maneəyə rast gələrək yaranan səslərdir.

**2)** Saitlər tonlu səslərdir, samitlər (sonorlardan başqa) küylü səslərdir.

**Qeyd:** Sonor səslər təsnif edilərkən cingiltili samitlərin tərkibində olsalar da, saitlərə də meyillidir. Belə ki, onlarda da saitlər kimi ton, avaz, ün vardır. Sonorların samitlərə yaxınlığı isə onların azacıq da olsa, küylü olmasıdır.

Sonorlar ağız və burun sonoru olmaqla iki yerə ayrılır. Ağız sonorları yaranarkən hava axını ağız boşluğundan çıxır. Bura **r, l** sonorları daxildir.

Burun sonorlarının formalaşması isə hava axınının burun boşluğundan çıxması ilə əlaqədardır. Buraya **m, n** sonorları daxildir.

Danışıq səslərinin təsnifini aşağıdakı sxemdə belə göstərmək olar:

**Danışıq səslərinin təsnifi**

- Səs tellərinin iştirakına görə
  - Ünlü səslər. Ünlü səslərə **saitlər, sonorlar**, nisbətən **cingiltili samitlər** daxildir.
  - Ünsüz səslər. Ünsüz səslərə **kar samitlər,** nisbətən **cingiltili samitlər** daxildir.
- Ağız üzvlərinin iştirakına görə
  - Sait səslər
  - Samit səslər
- Tonun və ya küyün üstünlüyünə görə
  - Tonlu səslər. Bura **saitlər** və **sonorlar** daxildir.
  - Küylü səslər. Küylü səslərə **samit səslər** (sonorları çıxmaqla) daxildir.



downloaded from KitabYurdu.org

# Azərbaycan dilinin saitlər sistemi

**Saitlərin özünəməxsus xüsusiyyətləri.** Azərbaycan dilinin səslər sistemində saitlərin özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər aşağıdakılardır:

**a)** Saitlər avazlıdır;

**b)** Saitlər ünlüdür;

**c)** Saitlər tonludur;

**ç)** Saitlər hecayaradan səslərdir;

**d)** Saitlər dildə ahəng, musiqi yarada bilir;

**e)** Saitlər ahəng qanununun yaranmasında xüsusi rola malikdir;

**ə)** Saitlər ağız boşluğunda heç bir maneəyə rast gəlmədən yaranan səslərdir;

**f)** Saitlərin yaranmasında dil, dodaq, damaq, alt çənə fəal üzvlər kimi çıxış edir;

**g)** Azərbaycan dilinin saitlər sistemində 9 sait səs vardır: **a, ı, o, u, e, ə, i, ö, ü.** Müqayisə üçün qeyd edək ki, türk dilində 8, özbək dilində 6 sait səs vardır. Saitlərin sayı dillərin hər birində müxtəlifdir.

**ğ)** Saitlərin məxsusi artikulyasiyası vardır. Belə ki, saitləri tələffüz etdikdə ağız açılır. Hətta saitləri nə qədər ucadan tələffüz etməli olsaq, ağız boşluğu bir o qədər daha çox açılmalı olur. Saitlərin bu cür artikulyasiya fərqi samitlərdə yoxdur. Sa-



downloaded from KitabYurdu.org

mitləri tələffüz etdikdə ağız boşluğu bağlanır. Və nə qədər ucadan tələffüz etməli olsaq, ağız boşluğunu bir o qədər daha çox bağlamalı oluruq.

**Sait səslərin təsnifi.** Danışıq səslərinin əmələ gəlməsində danışıq üzvlərinin rolu böyükdür. Bu və ya digər danışıq səsinin əmələ gəlməsində bu və ya digər üzv fəal iştirak edir. Bu mənada sait səslərin əmələ gəlməsində də danışıq üzvlərinin fəal rolu vardır. Danışıq üzvlərinin fəal rolunu nəzərə alaraq saitlər aşağıdakı kimi təsnif olunur:

**a)** Dilin üfüqi vəziyyətinə görə;
**b)** Dilin şaquli vəziyyətinə görə;
**c)** Dodaqların vəziyyətinə görə;
**ç)** Məxrəc sabitliyinə görə;
**d)** Kəmiyyətə görə;
**e)** Gərginliyə görə.

**Qeyd:** Azərbaycan dilindəki saitlər müxtəlif prinsiplər əsasında təsnif olunmuşdur. Ə.Dəmirçizadə altı prinsip əsasında: 1) dilin üfüqi vəziyyətinə görə, 2) dilin şaquli vəziyyətinə görə, 3) dodaqların vəziyyətinə görə, 4) məxrəc sabitliyinə görə, 5) kəmiyyətə görə, 6) gərginliyə görə; A.Axundov üç prinsip əsasında: 1) saitlərin əmələgəlmə yerinə, yaxud dilin üfüqi vəziyyətinə görə, 2) əmələgəlmə üsuluna, yaxud dilin şaquli vəziyyətinə görə, 3) dodaqların vəziyyətinə görə; H.Həsənov dörd prinsip əsasında: 1) dilin üfüqi vəziyyətinə görə, 2) dilin şaquli vəziyyətinə görə, 3) dodaqların iştirakına görə, 4) kəmiyyətə görə.

**a) Dilin üfüqi vəziyyətinə görə.** Dilin üfüqi vəziyyətinə görə saitlər dilönü, dilarxası, dilortası olmaqla təsnif olunur. Saitlərin dilin üfüqi vəziyyətinə görə təsnifində dilin üfüqi istiqamətdəki mövqeyi əsas götürülür. Dil üfüqi vəziyyətə görə ağız boşluğunu iki bərabər olmayan hissəyə bölür. Ağız boşluğunun böyük hissəsi arxada, kiçik hissəsi isə öndə qalır. Bu zaman ha-



downloaded from KitabYurdu.org

va axını süzülərək, incələşərək ağız boşluğunun ön hissəsindən çıxır. Nəticədə **dilönü saitlər** yaranır: **ə, i, ö, ü.** Dilönü saitlərə **incə saitlər** də deyilir. Ona görə incə saitlər deyilir ki, hava axını süzülərək, incələşərək ağız boşluğundan çıxır. Hava axınının süzülərək, incələşərək çıxmasına səbəb ağız boşluğunun ön hissəsinin kiçik olmasıdır.

**Dilarxası saitlər** əmələ gəldikdə dil üfüqi vəziyyətə görə ağız boşluğunu yenə də iki bərabər olmayan hissəyə bölür. Bu zaman ağız boşluğunun kiçik hissəsi arxada, böyük hissəsi isə öndə qalır. Hava axını ağız boşluğunun böyük hissəsindən çıxır. Nəticədə **dilarxası** saitlər yaranır: **a, ı, o, u.** Dilarxası saitlərə **qalın saitlər** də deyilir. Ona görə qalın saitlər deyilir ki, hava axını ağız boşluğunun öndə olan böyük, irihəcmli hissəsindən çıxır. Hava axınının qalınlaşaraq çıxmasına səbəb ağız boşluğunun ön hissəsinin böyük, irihəcmli olmasıdır.

**Dilortası sait** əmələ gəldikdə dil üfüqi vəziyyətə görə ağız boşluğunu iki bərabər hissəyə bölür. Hava axını bərabər şəkildə iki yerə bölünmüş ağız boşluğundan çıxır. Bu zaman dilortası sait əmələ gəlir: **e.**

Orta məktəb dərsliklərində saitlər qalın və incə olmaqla iki yerə ayrılır. Bu, tədris prosesində asan qavranıldığına görə saitlər belə iki qrupa ayrılmışdır.

**Qeyd:** Dilin üfüqi vəziyyətinə görə bölünən dilönü, dilortası, dilarxası saitlər səs tembrinə görə bir-birindən fərqli olur. Yəni dilönü saitin tembri dilarxasından, dilortası isə hər ikisindən səs tembrinə görə fərqlənir.

**b) Dilin şaquli vəziyyətinə görə.** Dilin şaquli vəziyyətinə görə saitlərin təsnifində dilin şaquli vəziyyəti ilə yanaşı, alt çənənin də fəal rolu olur. Bu mənada dilin damağa doğru qalxma və alt çənənin aşağı düşmə dərəcəsindən asılı olaraq sait səslər üç növə ayrılır: **açıq saitlər, qapalı saitlər, yarımqapalı saitlər.**

**Açıq saitlər** əmələ gəldikdə dil (ön hissəsi) damağa doğru yuxarı qalxmır, alt çənə isə aşağıya doğru düşür. Azərbaycan di-





downloaded from KitabYurdu.org

lindəki açıq saitlər bunlardır: **a, o, ö, ə.** Açıq saitlərə **gen saitlər** də deyilir.

**Qapalı saitlər** əmələ gəldikdə dil damağa doğru çox qalxır, alt çənə isə aşağıya doğru az düşür. Azərbaycan dilindəki qapalı saitlər bunlardır: **ı, i, u, ü.** Qapalı saitlərə **dar saitlər** də deyilir.

**Yarımqapalı sait** qapalıya yaxın məxrəcli olduğu üçün belə adlanır. Azərbaycan dilində **e** yarımqapalı saitdir. Bu sait həm də açıq saitlərə yaxın məxrəclidir. Ona görə də yarımqapalı saitə həm də yarımaçıq sait deyilir. Azərbaycan dilində **e** saiti açıq və qapalı saitlərə yaxın məxrəcli olduğunu tələffüz zamanı müşahidə etmək olur:

| **Yazılır :** | **Tələffüz olunur (dialekt və şivələrdə):** |
|---|---|
| qayçı | qeyçi |
| qaysı | qeysi |
| qardaş | qərdeş |
| deyil | dəyil |
| yeyir | yiyir |
| ev | əv |
| pəncərə | pencərə və s. |

Dilortası **e** saitinin özünəməxsus tembri vardır. Eyni zamanda özünəməxsus fizioloji bazası ilə fərqlənir. Bu barədə Ə.Dəmirçizadə yazır: "Dilortası saitlərin əmələ gəlməsində dilin ön və orta hissəsi bütövlükdə damağa doğru qalxmış olur ki, belə vəziyyətdə ağız boşluğu təqribən iki bərabər hissəyə bölünür. Rezonansın bərabərləşməsi nəticəsində dilortası saitlər əmələ gəlir"[1].

Beləliklə, dilortası **e** saitinin əmələ gəlməsində dilin orta hissəsi fizioloji baza rolunu oynayır. Eyni zamanda dilin üfüqi və şaquli vəziyyətlərinə görə bölgüdə **e** saiti neytral bir vəziyyətdə özünü göstərir:

1. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Fonetika. Bakı, 1972, səh. 39





downloaded from KitabYurdu.org

| **Dilarxası saitlər:** | **Dilortası saitlər:** | **Dilönü saitlər:** |
|---|---|---|
| a | e | ə |
| ı | | i |
| o | | ö |
| u | | ü |

| **Qapalı saitlər:** | **Yarımqapalı saitlər:** | **Açıq saitlər:** |
|---|---|---|
| ı | e | a |
| i | | o |
| u | | ö |
| ü | | ə |

**c) Dodaqların vəziyyətinə görə.** Sait səslərin əmələgəlməsində dodaqların da mühüm rolu vardır. Bəzi saitlərin əmələ gəlməsində dodaqlar fəal, bəzilərində isə qeyri-fəal iştirak edir. Bu mənada dodaqların fəal və qeyri-fəal iştirakından asılı olaraq saitlər iki yerə ayrılır: **dodaqlanan saitlər, dodaqlanmayan saitlər.**

**Dodaqlanan saitlər** əmələ gələrkən dodaqlar dairəvi şəkil alır və önə doğru uzanır. Bu zaman hava axını dairəvi şəkil almış dodaqların arasından xaricə çıxır. Dodaqlanan saitlər bunlardır: **o, u, ö, ü.** Saitlərin bir qismi dodaqların qeyri-fəal iştirakı ilə əmələ gəlir. Demək olar ki, bu qəbildən olan saitlərin əmələ gəlməsində dodaq passiv iştirak edir. Ə.Dəmirçizadə yazır: "Bəzən dodaqlar bitişmə künclərinə tərəf dartılmış halda (gülmə, gülümsəmə zamanında düşdüyü vəziyyətdə) olur və beləliklə də, bir sıra saitlərin formalaşmasında iştirak etmir"[1]. Beləliklə, bir sıra saitlərin formalaşmasında dodaqların iştirakı passiv olur. Nəticədə **dodaqlanmayan saitlər** yaranır. Azərbaycan dilində dodaqlanmayan saitlər bunlardır: **a, ı, e, ə, i.** Dodaqlanmayan saitlərə bəzən damaq saitləri də deyilir.

**ç) Məxrəc sabitliyinə görə.** Bu bölgüyə görə saitlər iki yerə ayrılır: **təkavaz saitlər, cütavaz saitlər.**

**Təkavaz saitlərə** monoftonq saitlər də deyilir. Onların əmə-

---

1. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. I hissə, "Maarif" nəşriyyatı, Bakı, 1984. s. 43



downloaded from KitabYurdu.org

ləgəlməsində iştirak edən danışıq üzvü əvvəldən axıra qədər bir vəziyyətdə olur. Yəni səsin məxrəci əvvəldən axıra qədər dəyişməz, sabit qalır. Bir sözlə, sait səs yaranmağa başlayan zaman danışıq üzvü hansı vəziyyətdə olursa, sait səs tamamlandıqdan sonra da danışıq üzvü həmin vəziyyətdə qalır. Azərbaycan dilindəki saitlərin hamısı təkavaz saitlərdir: **a, ı, o, u, e, ə, i, ö, ü.**

**Cütavaz saitlərə** diftonq saitlər də deyilir. Bu saitlər iki sait səsin məxrəcində yaranır. Lakin bir hecada formalaşaraq tələffüz olunur. Yəni belə sait səslərin əmələ gəlməsi birinci saitin məxrəci ilə başlayır, ikinci saitin məxrəci ilə bitir. Azərbaycan ədəbi dilində cütavaz saitlər yoxdur. Lakin ədəbi tələffüzdə, dialekt və şivələrimizdə cütavaz saitlərin işləndiyi müşahidə olunur. Ə.Dəmirçizadə cütavaz (diftonq) saitlər barəsində yazır: "Azərbaycan ədəbi dilində tam formalaşıb monoftonq saitlərlə qarşılıq təşkil edən diftonq fonemlər yoxdur. Lakin sərbəst üslub normaları üzrə bir sıra sözlərin və ifadələrin səs tərkibində, eləcə də Azərbaycan dilinin bir sıra şivələrində, xüsusən, saitlər birləşməsinin, bəzən də əvvəl gələn saitlərlə **y, v, f** kimi samitlər birləşməsinin diftonqvari tələffüzünə yol verilir ki, bununla da şivələrdə bir sıra diftonqlar formalaşır. *Məsələn, Şəki şivəsində to͡ux (toyuq), çu͡al (çuval), bö͡üx (böyük), Bakı şivələrinin bəzisində kö͡ül (könül), nö͡üt (neft), qo͡um (qohum) və s.".*[1] Deməli, cütavaz tələffüz olunan saitlərin tərkibi əslində bir sait və bir samit məxrəcindədir. Bir sait və bir samit məxrəcində olan tərkibin diftonq tələffüzü cütavaz saitləri yaradır.

Azərbaycan dilinin dialekt və şivələrində diftonqların yaranmasında fəal iştirak edən samitlər bunlardır: **h, v, f, y, n.** Diftonqlaşmış fonemlərə **o͡u, ö͡ü** diftonqları daxildir. *Misallara diqqət yetirək:* ***to͡ux-toyuq, qo͡urğa-qovurğa, nö͡üt-neft, qo͡um-qohum*** *və s.*

Yuxarıda göstərilən samitlərin diftonqların yaranmasında

---

1. Ə.M.Dəmirçizadə. Müasir Azərbaycan dili. I hissə, "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 44.



downloaded from KitabYurdu.org

iştirakı dilimizin tarixi ilə bağlıdır. Tarixən **h, v, f, y, n** samitləri bitişdirici samit rolunu oynamışdır. Müasir dilimizdə isə bunlardan ikisi - **"y"** və **"n"** bitişdirici samit kimi öz izini qoruyub saxlamışdır. Doğrudan da, bu bitişdirici samitlərin tələffüzdə düşməsi (xüsusilə, dialekt və şivələrdə) sözün leksik mənasında heç bir fərq yaratmır. *Məsələn,* ***qapını*** *- qapıı,* ***dostunu*** *- dostuu və s.*

Bəzi dillərdə diftonqlar iki yerə ayrılır: **enən diftonq, qalxan diftonq.** Əgər diftonq səslərdən birincisi heca düzəldirsə (belə diftonqda gərginlik əvvəlcə güclü olur, sonra isə zəifləşir) və güclü tonda tələffüz olunursa, onda enən diftonq yaranır. *Məsələn, alman dilində* ***mein*** *(mənim) sözündəki* ***ei*** *hecası enən diftonqdur.* Əgər diftonq səslərdən ikincisi heca düzəldirsə (belə diftonqda gərginlik əvvəlcə zəif olur, sonra isə güclənir) və güclü tonda tələffüz olunursa, onda **qalxan diftonq** yaranır. *Məsələn, fransız dilində* ***moi*** *(mən) sözündəki* ***oi*** *diftonqu qalxan diftonqdur.*

**d) Kəmiyyətə görə.** Azərbaycan dilindəki sait səslər kəmiyyətə görə üç yerə ayrılır: **adi saitlər, uzun saitlər, qısa saitlər.**

**Qeyd:** Kəmiyyət dedikdə sait səsin səslənməsinə sərf olunan zaman nəzərdə tutulur. Sait səslərin səslənməsinə sərf olunan zamandan asılı olaraq onlar (saitlər) adi, uzun, qısa tələffüz olunur.

**Adi saitlər** adi vəziyyətdə tələffüz olunan səslərdir. Yəni adi səslər normal dərəcədə olan kəmiyyətdə tələffüz olunur. Dilimizdəki adi saitlər normal, adi məxrəcdə tələffüz olunmaqla yaranır. Azərbaycan dilindəki doqquz saitin hər biri (a, ı, o, u, e, ə, i, ö, ü) adi, normal vəziyyətdə tələffüz olunur və adi saitlər kimi özünü göstərir. *Məsələn,* ***ata, ana, at*** *və s. sözlərdəki* ***a*** *saitləri adi saitlərdir.* Ona görə ki, bu sözlərdəki **a** saitləri adi, normal vəziyyətdə tələffüz olunur.

**Uzun saitlər** Azərbaycan ədəbi dilində mövcud olmayan, fonem keyfiyyəti kəsb etməyən saitlərdir. Bu saitlər müəyyən



downloaded from KitabYurdu.org

dərəcədə dialekt və şivələrdə mövcud olur, həm də ədəbi tələffüz zamanı yaranır, orfoepik norma kəsb edir. Azərbaycan dilində ədəbi tələffüzdə uzun saitləri aşağıdakı hallarda müşahidə etmək olur:

**1)** Ərəb mənşəli alınma sözlərin bir qisminin yazılışında apostrofdan istifadə olunmuşdur. Belə apostroflu sözlərdə **ə, e, ö** incə saitləri uzadılaraq tələffüz olunmuşdur. Hazırda apostrof işarəsi (qrafik işarə olmaqla) əlifbamızdan çıxsa da, **ə,e, ö** saitləri vaxtı ilə apostrofla yazılan sözlərdə uzadılaraq tələffüz olunur. *Məsələn, **ə:la, bə:zi, də:vət, tə:rif, e:lan, me:mar, iste:fa, şö:lə, şö:bə, mö:cüzə, mö:təbər** və s.*

**2)** Azərbaycan dilində bir sıra alınma sözlərdə heca ayrıcılığı və saiti aydın tələffüz etmək üçün apostrofdan istifadə olunmuşdur. Belə sözlərdə apostrof birinci hecanın sonundakı samitin üzərinə düşsə də, saitlə başlayan ikinci hecadakı sait uzun tələffüz olunmuşdur. Hazırda bu sözlər apostrofsuz yazılsa da, onların ikinci hecasındakı ilk sait uzadılaraq tələffüz olunur. Məsələn, Sənan - **Səna:n,** Kənan - **Kəna:n,** sürət - **sürə:t,** cürət - **cürə:t,** heyət - **heyə:t,** nəşət - **nəşə:t,** məsud - **məsu:d,** vüsət - **vüsə:t,** ənənə - **ənə:nə,** məsul - **məsu:l** və s.

**3)** Bəzi sözlərin birinci və ikinci hecası eynicinsli qoşa saitlə yazılır. Belə sözlərin tələffüzü zamanı eynicinsli qoşa saitlərdən biri düşür, o biri isə uzadılaraq tələffüz olunur. *Məsələn, maarif - **ma:rif,** maaş - **ma:ş,** camaat - **cama:t,** bədii - **bədi:,** əmtəə - **əmtə:,** təbii - **təbi:** və s.*

**4)** Bir qrup alınma sözlərdə **a** saiti uzun, uzadılaraq tələffüz olunur. *Məsələn, alim - **a:lim,** Arif - **A:rif,** Akif - **A:kif** və s.*

Yeri gəlmişkən onu da qeyd edək ki, dilimizdə ədəbi tələffüzdə saitlərin uzun, uzadılaraq tələffüz olunması sözlərdə məna fərqinin yaranmasına gətirib çıxarmır. Ancaq bəzi türk dillərində (türkmən, qaqauz, qırğız, tofalar, tuva, xakas, altay, şor və s.) saitlərin uzun tələffüzü sözlərin mənaca fərqlənməsinə səbəb olur.

Türkologiyada saitlərin uzanması ilkin və sonrakı uzanma olmaqla iki qrupa ayrılır. İlkin uzanma köktürkün ilkin dövrləri-





downloaded from KitabYurdu.org

nə gedib çıxır. Bu mənada türkologiyada mövcud olan ümumi fikrə görə, köktürk dövründə səkkiz uzun sait (adi və qısa saitlə yanaşı) mövcud olmuşdur. Lakin Azərbaycan ədəbi dilində ilkin uzanma müşahidə olunmur. Bu, yalnız dialekt və şivələrdə mövcud olan bəzi dil faktlarında özünü qoruyub saxlayır. *Məsələn, Şəki dialektində (**ya:ğı** "düşmən", **sa:rı** "sarı", **qa:rı** "qarı", **mo:rux** "morux" və s.), Başkeçid şivəsində (qa:rı "qarı", a:nqrı "uzaq, aralı" və s.) ilkin uzanma halları vardır.* Ancaq bu tipli nümunələrdə ilkin uzanan saitlər sözlərdə məna fərqi yaratmır.

Sonrakı uzanma sözdəki müxtəlif səslərin düşməsi ilə yaranır. Dil faktları göstərir ki, bu, xüsusilə, alınma sözlərdəki sait səslərin düşməsi ilə yaranır: saat - **sa:t,** maaş - **ma:ş** və s. Sonrakı uzanma da ədəbi dilimizdə deyil, ədəbi tələffüzdə özünü qoruyub saxlayır. Eyni zamanda ilkin uzanmada olduğu kimi, sonrakı uzanma da dilimizdəki sözlərin məna dəyişikliyini yarada bilmir.

**Qeyd:** Azərbaycan dilində altı uzun sait vardır: **a, e, ə, i, ö, u.**

**Qısa saitlər** adi vəziyyətdə tələffüz olunan səslərdən daha qısa, daha az kəmiyyətdə tələffüz olunan saitlərdir. Belə saitlərə bəzən yarımsaitlər də deyilir.

Azərbaycan ədəbi dilində qısa saitlər yoxdur. Qısa saitlər ədəbi tələffüzdə özünü göstərir və orfoepik norma kəsb edir. Eyni zamanda qısa saitlər bəzi sözlərdə orfoqrafik mahiyyətlidir. Buna baxmayaraq, qısa saitlər istər orfoepik, istərsə də orfoqrafik mahiyyət kəsb etsin, bu halların heç birində sözdə məna dəyişikliyi yarada bilmir. Odur ki, qısa saitlər də uzun saitlər kimi dilimizdə fonem hesab olunmur.

Azərbaycan dilində **qısa saitlər** aşağıdakı hallarda özünü büruzə verir:

**1)** Bir qrup sözlərin ikinci hecasındakı sait səslər ədəbi tələffüz zamanı qısa tələffüz olunur. *Məsələn, bacısı - **bacı.sı,** əmisi - **əmi.si,** bibisi - **bibi.si** və s.*



downloaded from KitabYurdu.org

**2)** Elə ikihecalı isimlər var ki, onlar saitlə başlayan şəkilçi qəbul etdikdə ikinci hecadakı sait düşür. *Məsələn, ağız* - ***ağzı, boyun*** - ***boynu,*** *alın*-***alnı*** *və s.* Bu sözlərdə ikinci hecadakı saitlər düşsə də, onlar (saitlər) qısa sait kimi tələffüz olunur. Belə sözləri iki qrupa ayırmaq olar:

**a)** Dilimizə ərəb (o cümlədən fars) dilindən keçmiş ikihecalı söz köklərinin sonuna saitlə başlayan istənilən şəkilçi artırdıqda söz kökünün ikinci hecasındakı saiti düşür. *Məsələn, fikir*-***fikri*** *(fiki.ri), sinif*-***sinfi*** *(sini.fi) və s.* Dilimizdəki ərəb-fars mənşəli **səbir, sətir, fəsil, ağıl, isim, abır, cisim, eyib, qədir, nəsil, zehin, ömür, şəkil, ətir** və s. sözlər bu qəbildəndir.

**b)** Əsl Azərbaycan sözlərində (bir qisim) ikihecalı söz kökünün sonuna saitlə başlayan yalnız mənsubiyyət şəkilçisi artırdıqda ikinci hecadakı sait ixtisar olunur: ağız - **ağzı (ağı.zı),** alın-**alnı (alı.nı),** burun-**burnu (buru.nu),** boyun-**boynu (boyu.nu),** oğul-**oğlu (oğu.lu),** qarın-**qarnı (qarı.nı)** və s. Bu sözlərdə ikinci hecadakı sait səs ixtisar olunsa da, ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur.

**3) Ora, bura, hara** sözlərinə yerlik və çıxışlıq hal şəkilçisi artırdıqda söz kökünün sonundakı **a** saiti ixtisar olunsa da, ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur: ora-**orda** (ora.da) - **ordan** (ora.dan), bura-**burda** (bura.da) - **burdan** (bura.dan), hara-**harda** (hara.da) - **hardan** (hara.dan).

**4)** Bəzi saitlə bitən sözlərə saitlə başlayan başqa bir söz qoşulub mürəkkəb sözləri yaratdıqda birinci sözün sonundakı sait ixtisar olunsa da, ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur: Əli-Abbas→Əlabbas (Əli.abbas), Əli-Əşrəf→Ələşrəf (Əli.əşrəf) və s.

**5)** Sonu saitlə bitən miqdar saylarının sonuna **-ıncı, -inci, -uncu, -üncü** sıra sayını əmələ gətirən şəkilçilər artırıldıqda şəkilçinin əvvəlindəki sait ixtisar olunsa da, ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur: **iki-nci** (ikii.nci), **altı-ncı** (altıı.ncı), **yeddi-nci** (yeddii.nci), **əlli-nci** (əllii.nci), **iyirmi-nci** (iyirmii.nci).

**6)** Köməkçi sözlərdən **üçün, ilə, isə, imiş, idi, ikən** sözlərə





downloaded from KitabYurdu.org

qoşulduqda bunların əvvəlindəki saitlər ixtisar olunsa da, ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur: **sizin üçün - sizinçün** (sizinü.çün), **sənin ilə - səninlə** (sənini.lə), **gəlmiş isə - gəlmişsə** (gəlmişi.sə), **görmüş idi - görmüşdü** (görmüşi.di), **oxuyur imiş-oxuyurmuş** (oxuyuri.miş), **yazar ikən - yazarkən** (yazari.kən) və s.

**e) Gərginliyə görə.** Gərginliyə görə saitlər iki yerə bölünür: **gərgin saitlər**, **qeyri-gərgin saitlər**.

**Gərgin saitləri** tələffüz edərkən danışıq üzvləri çox gərgin, saitlərin məxrəci isə olduqca aydın və səlis olur. Yəni, gərgin saitləri tələffüz etdikdə saitlərin yaranmasında iştirak edən danışıq üzvləri - dil, dodaq, damaq, qırtlaq çox gərginləşmiş bir vəziyyət alır. Azərbaycan ədəbi dilində gərgin saitlər yoxdur. Lakin uzun saitləri və uzadılaraq tələffüz olunan saitləri gərgin saitlər hesab etmək olar.

**Qeyri-gərgin saitləri** tələffüz edərkən danışıq üzvləri az gərgin, saitlərin məxrəci isə çox da aydın və səlis olmur. Yəni qeyri-gərgin saitləri tələffüz etdikdə saitlərin yaranmasında iştirak edən danışıq üzvləri - dil, dodaq, damaq, qırtlaq az gərginləşmiş bir vəziyyət alır. Azərbaycan ədəbi dilindəki adi saitlər qeyri-gərgin saitlərdir. Bundan başqa, ədəbi dilimizdə olmasa da, tələffüzdə müşahidə olunan qısa saitlər və qısaldılaraq tələffüz olunan saitlər qeyri-gərgin saitlər hesab olunur. Azərbaycan ədəbi dilindəki saitləri gərgin və qeyri-gərgin olmaqla təsnif etmək olmaz. Ona görə ki, ədəbi dilimizdə gərgin və qeyri-gərgin prinsipinə uyğun gələn saitlər yoxdur. Bu qəbildən olan saitlər yalnız dialekt və şivələrdə, eləcə də tələffüz zamanı özünü göstərir.

**Qeyd:** Azərbaycan dilindəki saitlər hava axınının ağız boşluğundan çıxması ilə yaranır. Ona görə də ədəbi dilimizdəki saitlərin hamısı ağız saitləri adlanır. Buna baxmayaraq, dialekt və şivələrdə burun saitləri də vardır. Belə ki, dialekt və şivələrdə bəzən saitlər hava axınının burun boşluğundan çıxması ilə yaranır. Bunun səbəbi onunla bağlı olur ki, bəzi sözlərdə **"n"** burun sonorundan





downloaded from KitabYurdu.org

sonra gələn sait həmin burun sonorunun təsiri altına düşür və bu zaman hava axını burun boşluğundan çıxır. Nəticədə burun sonoru tələffüz olunmur, onun məxrəcində sait səs tələffüz olunur və burun saiti yaranır. Məsələn, mənə-**mã:**, sənə-**sã**:, aldınız-**aldĩ:z**, gəldiniz-**gəldĩ:z** və s.

Beləliklə, bu deyilənləri nəzərə alaraq saitlər ağız və burun saitləri olmaqla da iki yerə ayrılır.

Beləliklə, saitlərin təsnifindən nəticəyə gəlmək olur ki, Azərbaycan dilində on beş sait fonem vardır: **i, i:, ü, ö, ö:, ə, ə:, e, e:, a, a:, o, u, u:, ı.** Bunlardan doqquzu Azərbaycan ədəbi dilinin sait fonemləri kimi çıxış edir: **a, ı, o, u, e, ə, i, ö, ü.**

## Saitlərin əsas xüsusiyyətləri

Azərbaycan dilindəki saitlərin xüsusiyyətlərini izah etmək üçün saitlərin təsnifi prinsiplərini nəzərə almaq lazımdır. Məsələn, dilin üfüqi vəziyyətinə görə saitlərin təsnifi, dilin şaquli vəziyyətinə görə saitlərin təsnifi, dodaqların vəziyyətinə görə saitlərin təsnifi və s. Qeyd olunan prinsiplər əsasında saitlərin hər birinin xüsusiyyətlərinə diqqət yetirək.

**A saiti. A** saiti dilarxası (qalın), açıq, dodaqlanmayan saitdir. Bu sait sözün hər yerində - əvvəlində, ortasında, sonunda və bir cür, iki cür yazılan şəkilçilərin tərkibində işlənir:

| ***sözün əvvəlində:*** | ***sözün ortasında:*** | ***sözün sonunda:*** |
|---|---|---|
| at | daş | qala |
| az | dar | bala |
| an | qar | ata |
| aş və s. | bar və s. | ana və s. |

***şəkilçilərin tərkibində:***

-daş
-dar




downloaded from KitabYurdu.org

-stan
-lar
-da
-ma
-acaq və s.

Azərbaycan ədəbi dilində **a** saiti daha çox adi kəmiyyətdə tələffüz olunsa da, lakin bəzi alınma sözlərdə uzun kəmiyyətdə tələffüz olunur. *Məsələn, **alim** (a:lim), **saat** (sa:t), **ali** (a:li), **tale** (ta:le) və s.*

**Qeyd:** Dialekt və şivələrdə bəzi sözlərin ilk hecasındakı **a** saiti uzadılaraq tələffüz olunur. *Məsələn, **mənə** (ma:), **sənə** (sa:) və s.* Ancaq uzadılaraq tələffüz olunan **a** saiti müstəqil fonem deyildir. Bu, adi tələffüz olunan **a** saitinin fonem variantıdır. Deməli, Azərbaycan ədəbi dilində adi **a** saiti müstəqil bir fonem kimi formalaşmışdır.

**A** saiti dilarxası saiti kimi dilönü **ə** və dilortası **e** saitinə qarşı qoyulur. Bu saitin **ə** və **e** saitləri ilə qarşı-qarşıya qoyulmasına aid nümunələrə diqqət yetirək:

| **a-ə qarşılığı:** | **a-e qarşılığı:** |
|---|---|
| al-əl | al-el |
| at-ət | at-et |
| az-əz | sal-sel |
| ay-əy və s. | baş-beş və s. |

**A** saiti açıq sait olmaqla qapalı ı saitindən də fərqlənir: **qaş-qış, qar-qır, qaz-qız, qan-qın** və s.

**A** saiti dodaqlanmayan sait olmaqla dodaqlanan **o** saiti ilə qarşı-qarşıya qoyulur: **at-ot, ad-od, ayaq-oyaq, ara-ora, baş-boş** və s.

Dilimizdə **a** saitinin bir sıra variantları da mövcuddur. Onlardan ən xarakterik olanlarına diqqət yetirək: **a:**, **a'** və s. Bunlardan **a:** variantına birinci hecası vurğulu olan bəzi sözlərdə (məsələn, la:kin, a:ncaq və s.), eyni zamanda bəzi ikihecalı alınma



downloaded from KitabYurdu.org

sözlərə şəkilçi qoşulduqda ikinci hecada (məsələn, cəfa-cəfa:lı, səfa-səfa:lı, həyat-həya:tın və s. ) onların tələffüzü zamanı təsadüf olunur.

**A** saitinin **a'** variantına sonu **a** saiti ilə qurtaran sözlərə saitlə başlayan şəkilçi qoşulduqda onların tələffüzü zamanı təsadüf olunur: **başlayır-başla'yır-başlıyır, anaya-ana'ya-anıya** və s.

**I saiti.** I saiti dilarxası (qalın), qapalı, dodaqlanmayan, saitdir. Bu sait Azərbaycan ədəbi dilində sözün əvvəlində işlənmir. Tarixilik baxımından yanaşdıqda ı saitinin sözün əvvəlində işlənməsi məhdudiyyət yaratmamışdır. *Məsələn, dilimizdəki **ılıq, işıq, ilan, ilxı** kimi sözlərin əvvəlindəki sait tarixən **ı** olmuşdur.* Bu sait sözün ortasında, sonunda və dörd cür yazılan şəkilçilərin tərkibində işlənir: **qız, cıdır, çalğı, ilxı, -çı, -lı, -ır** və s. **I** saitinin bu cür işləkliyi göstərir ki, o, fəal işlənən saitdir.

Azərbaycan ədəbi dilində ı saiti adi kəmiyyətdə tələffüz olunan saitdir. Bəzi sözlərdə ı saiti qısa variantda tələffüz olunur. Deməli, ı saitinin ı. variantı da mövcuddur. Onun ı. variantına bəzi sözlərdə təsadüf etmək olur: **ağız-ağ(ı.)zında, alın-al(ı.) nı** və s.

**O saiti. O** saiti dodaqlanan, açıq, dilarxası (qalın) saitdir. Bu saitin tələffüzündə dodaqlar dairəvi bir vəziyyət alır. Hava axını (səs axını) dairəvi cığırdan süzülərək xaricə çıxır və nəticədə **o** saiti yaranır. Müqayisə üçün qeyd edək ki, **ü** və **ö** saitlərindən fərqli olaraq **o** saitinin tələffüzündə dodaqların irəliyə doğru uzanması xeyli az olur. Demək olar ki, **o** saitinin tələffüzündə dodaqlar gərginləşmir. Ona görə ki, **o** saitinin tələffüzündə dodaqlar daha böyük nov əmələ gətirir. Bu da dodaqların gərginləşməsinin qarşısını alır. **O** saitinin fərqləndirici əlamətlərinin sırasında aşağıdakılar mühüm yer tutur.

**1) O** saiti mənşəcə Azərbaycan dilinə məxsus olan şəkilçilərin tərkibində işlənmir. Lakin rus dilindən alınma şəkilçilərin tərkibində **o** saitini müşahidə etmək olur. *Məsələn, **-ov, -ova** (Əhməd-ov, Məmməd-ova və s.).* Ümumiyyətlə, **o** saitinin şəkilçilərin tərkibində işlənmə yeri çox məhduddur.

**2) O** saitinin fonetik mövqeyi daha çox sözün əvvəlində və





downloaded from KitabYurdu.org

ortasında müşahidə olunur. Bu sait sözün sonunda çox az işlənir. Misallara diqqət yetirək:

**Sözün əvvəlində:** on, ot, oturmaq, otaq, ol, oğul, oğlan və s.;

**Sözün ortasında:** yol, qol, tox, toy, çox, sol, qohum, qoyun və s.;

**Sözün sonunda:** kino, radio, pero, solo və s.

**3) O** saiti dilarxası saiti kimi **ö** saiti ilə oppozisiya təşkil edir. *Məsələn, **ol-öl, on-ön, od-öd** və s.*

**4) O** saiti açıq sait olmaqla **u** saiti ilə də qarşı-qarşıya qoyulur, oppozisiya təşkil edir. *Məsələn, **od-ud, on-un, qol-qul, qor-qur, dol-dul** və s.*

**5) O** saiti dodaqlanan sait kimi dodaqlanmayan **a** saiti ilə qarşı-qarşıya qoyulur, oppozisiya yaradır. *Məsələn, ol-al, on-an, ot-at, ox-ax, don-dan, qol-qal, yol-yal və s.*

**6)** Azərbaycan ədəbi dilində **o** saiti adi kəmiyyətdə tələffüz olunan saitdir. Ancaq bəzi alınma sözlərdə, sual və sadalama məqamlarında **o** saitinin uzun kəmiyyətdə tələffüzü halları da baş verir. *Məsələn, rus dilində və rus dili vasitəsi ilə başqa dillərdən alınma sözlərin birinci hecası vurğulu olduqda **o** saitinin **o**: variantına təsadüf olunur: **o:pera, o:ptika** və s.* Yaxud, sadalama zamanı o saitinin **o**: variantı təzahür edir: **o:l, o:t, o:n, o:d** və s.

**7) O** saitinin işləkliyi bəzi saitlərdən geridə qalsa da, bəzilərindən isə irəlidə gedir. Bu barədə A.Axundov yazır: **"O** saiti dilimizdə nisbətən çox işlənən saitlərdəndir. Söz başında işlənməsi başqa saitlərlə müqayisədə 9,6 faiz təşkil edir. Başqa sözlə, söz başında işlənmə tezliyinə görə, **a, i, ə** saitlərindən sonra dördüncü yeri tutur. Mətn daxilində isə altıncı yerdədir"[1].

**U saiti. U** saiti dilarxası (qalın), dodaqlanan, qapalı saitdir. Bu saitin tələffüzündə dilin arxa hissəsi, xüsusilə dodaqlar fəal iştirak edir. Müqayisə üçün qeyd edək ki, **o** saitinin tələffüzündən fərqli olaraq **u** saitinin tələffüzündə dodaqlar daha çox irə-

---

1 A.Axundov Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 61.



downloaded from KitabYurdu.org

liyə doğru uzanır. Dodaqların bu cür irəliyə doğru uzanması onu (dodaqları) gərginləşdirir. **U** saitinin tələffüzünü **ü** saiti ilə müqayisə etsək, görürük ki, **ü** saitinə nisbətən **u** saitinin tələffüzündə dodaqlar az irəli uzanır və az gərginləşmiş olur. Lakin bütün dodaqlanan saitlərdə, **o** cümlədən **u** saitinin tələffüzündə dodaqlar nov yaradır. **U** saitinin fərqləndirici əlamətləri sırasına aşağıdakılar daxildir:

**1) U** saiti akustik cəhətdən onunla fərqlənir ki, onun bəm tembri vardır. Bunu **u** saiti iştirak edən vurğusuz hecalarda daha aydın müşahidə etmək olur. *Məsələn, **bihuş** sözünün ikinci hecası vurğusuz olduğuna görə **u** saiti qısa tələffüz olunur və az qala düşür.* Bununla da bu sözün ikinci hecasındakı **u** saiti öz akustik keyfiyyətinin lazımi səviyyədə qoruya bilmir. Bu da nəticədə **u** saitinin bəm də tembrini ortalığa çıxarır.

**2) U** saiti dilarxası saiti olmaqla dilönü **ü** saiti ilə qarşı-qarşıya qoyulur, oppozisiya təşkil edir. *Məsələn, **un-ün, burun-bürün, buz-büz** və s.*

**3) U** saiti qapalı sait olmaqla açıq **o** saiti ilə qarşı-qarşıya qoyulur, oppozisiya təşkil edir. *Məsələn, **un-on, ud-od, qur-qor, qul-qol, dul-dol** və s.*

**4) U** saiti dodaqlanan sait olmaqla dodaqlanmayan dilarxası, qapalı ı saiti ilə qarşı-qarşıya durmaqla oppozisiya təşkil edə bilir. *Məsələn, **qul-qıl, quş-qış, qur-qır, quzğun-qızğın, quzu-qızı** və s.* Yeri gəlmişkən qeyd edək ki, sözün başında və sonunda **u** və **ı** saitləri oppozisiya təşkil etmir, qarşı-qarşıya qoyulmur. Bunun səbəbi onunla bağlıdır ki, ı saiti sözün başında işlənmir. Ona görə də sözün başında **ı** saitini **u** saitinə qarşı qoymaq olmur. Bundan başqa, sözün sonunda **u-ı** qarşıdurması, oppozisiyası yaranmır.

**5)** Müasir Azərbaycan ədəbi dilində **u** saitinin fonetik mövqeyində heç bir məhdudiyyət yoxdur. Bu sait sözün əvvəlində, ortasında və sonunda işlənə bilir. Misallara diqqət yetirək: **uzaq, uzun, ulduz, uca, duz, quzu, su** və s.

**U** saitinin fonetik mövqeyi barədə A.Axundov yazır: "... Söz başında işlənmə imkanı (u saitinin - B.X.) başqa saitlə-



downloaded from KitabYurdu.org

rə münasibətdə 5,9 faizdir. Beləliklə, söz başında işlənmə faizinə görə, səkkiz saitdən beşincisidir. Mətn daxilində isə həmin əlamətə görə doqquz saitdən beşincisidir"[1].

**6) U** saiti dörd cür yazılan şəkilçilərin tərkibində işlənə bilir. *Məsələn,* ***-çı⁴*** *(odun-çu),* ***-lı⁴*** *(duz-lu),* ***-sız⁴*** *(duz-suz),* ***-lıq⁴*** *(qum-luq) və s.* Deməli, **u** saiti ahəng qanununa uyğun olaraq şəkilçilər silsiləsinin yaranmasında fəal rol oynayır.

**7)** Müasir Azərbaycan ədəbi dilində **u** saiti adi kəmiyyətdə işlənir. Ancaq bu sait bəzi sözlərdə qısa, bəzilərində isə uzun tələffüz olunur. *Məsələn: qısa tələffüz olunanlar:* ***onun burnu - onun bur (u.)nu, sənin oğlun-sənin oğ (u.)lun, onun boynu-onun boy (u.)nu*** *və s.*

Uzun tələffüz olunanlar: **duru:, sulu:, ulu:** və s. Belə uzanma, sadalama məqamında **u** saitinin qeyri-məcburi çalarlığı kimi özünü göstərir. **U** saitinin uzun tələffüzü rus dili və rus dili vasitəsilə başqa dillərdən alınmış sözlərin vurğulu hecasında da olur: **lupa-lu:pa, kubok-ku:bok** və s.

**8) U** saitinin u' variasiyası da vardır. Bu variasiya müasir Azərbaycan ədəbi dilində deyil, tələffüzdə özünü göstərir. *Məsələn,* ***quzu-quzu', quyu-quyu', Nuru-Nuru'*** *və s.*

**E saiti. E** saiti dilortası (incə), yarımqapalı, dodaqlanmayan saitdir. Bu saitin fərqləndirici əlamətləri aşağıdakılardır:

**1) E** saiti dilortası saiti kimi dilönü i və dilarxası ı saitinə qarşı qoyulur: **et-it, eş-iş, el-il, sez-siz** və s.

**2) E** saiti yarımqapalı sait olmaqla açıq **ə** və qapalı **i s**aitinə qarşı qoyulur: **el-əl, en-ən, et-ət; et-it, el-il, eş-iş** və s.

**Qeyd: e-ə** qarşılaşması Azərbaycan dilinin cənub qrupu dialekt və şivələrində işlənir. *Məsələn, Naxçıvan şivələrində buna rast gəlinir:* ***ev-əv, deyil-dəyil*** *və s.*

**3) E** saiti dodaqlanmayan sait olmaqla dodaqlanan **ö** və **ü** saitləri ilə qarşı-qarşıya qoyulur: **et-öt, en-ön; et-üt, en-ün** və s.

---

1. A.Axundov. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı. Bakı, 1984, s.57.



downloaded from KitabYurdu.org

**4) E** saitinin fonetik mövqeyi söz köklərində işlənməsi ilə bağlıdır. Yəni bu sait Azərbaycan dilində yalnız söz köklərində işlənir. Şəkilçilərdə isə onun mövqeyi, işlənməsi çox məhduddur, demək olar ki, işlənilmir. Söz köklərində **e** saitinə sözün əvvəlində, ortasında və sonunda təsadüf olunur: **et, el, eş, elm; bel, get, yel; de, ye** və s.

**5) E** saitinin ədəbi dilimizdə olmayan, tələffüzdə müşahidə olunan qısa və uzun variantları da vardır. Qısa variant bəzi alınma sözlərin ikinci hecasının tələffüzündə müşahidə olunur: **telefon-tel (e.) fon-telfon, teleqraf-tel (e.)qraf-telqraf** və s. Bu sözlərdə **e** saiti sərbəst üsulda ixtisar olunur, sözlər isə **telfon, telqraf** kimi tələffüz olunur.

**E** saitinin uzun variantı, uzadılaraq tələffüz olunan variantı dilimizə ərəb dilindən keçmiş sözlərdə müşahidə olunur: **elan-e:lan, etimad-e:timad, etiraf-e:tiraf, etiraz-e:tiraz, fel-fe:l** və s.

**Qeyd:** Dil faktları təsdiq edir ki, Azərbaycan dilinin yazılı abidələrində **e** saitinin uzun variantı olmuşdur. Belə ki, Azərbaycan sözlərində **e** saiti **y** samiti ilə yanaşı gəldikdə **y** samitinin və ondan sonrakı saitin düşməsi nəticəsində **e** saiti uzanmışdır: **deyir-der, yeyir-yer, yeyəsi-yesi** və s. Bunu Xətainin, Qurbaninin, Füzulinin, Nəsiminin əsərləri də təsdiq edir:

*Qızıl gül, bağı bustanım, nə **dersən,***
*Fəda olsun sənə canım, nə **dersən** (Xətai).*
***Yaxud:***
*Qurbani **der** kim-şahə gəc baxar*
*Onun kamalında tez zaval alu (Qurbani).*
***Və ya:***
*Saqi, məgər ol ləl sözünü **der** meyi-nabə,*
*Nuri-çeşmim, eyb qılma kur olur **derlər** rəğib (Füzuli).*
***Və yaxud:***
*Şol ləbi-şirinə, ya rəb,gər şəkər **dersəm,** nola,*
*Şol günəş tələtlü ayə, kər ğəmər **dersəm,** nola (Nəsimi).*

**Ə saiti.** Ə saiti dilönü (incə), dodaqlanmayan, açıq saitdir. Azərbaycan dilində **ə** saiti ən işlək saitlərdən biridir. Bu saitin




downloaded from KitabYurdu.org

fərqləndirici xüsusiyyətləri aşağıdakılardır:

**1) Ə** saiti dilönü sait olmaqla dilarxası **a** saitinə qarşı qoyulur: **ət-at, əz-az, əl-al** və s.

**2) Ə** saiti açıq sait olmaqla qapalı i saitinə qarşı qoyulur: **ət-it, əl-il** və s.

**3) Ə** saiti dodaqlanmayan sait olmaqla dodaqlanan **ö** saiti ilə oppozisiya yaradır: **ən-ön, əl-öl, ət-öt, əz-öz, dəy-döy** və s.

**4) Ə** saitinin söz tərkibində tutduğu mövqedə heç bir məhdudiyyət yoxdur. Bu sait sözün əvvəlində, ortasında və sonunda işlənə bilir: **ət, əl, ək; gəl, sər, dəl; dəvə, tələ, gənə** və s .

**5) Ə** saitinin söz tərkibində tutduğu mövqedə məhdudiyyət olmasa da, şəkilçilərin tərkibində işlənməsində bir məhdudiyyət vardır. Belə ki, **ə** saiti yalnız iki cür yazılan şəkilçilərin tərkibində işlənir: **-lar**$^2$ (dəftər-lər), **-la**$^2$ (iş-lə), **-da**$^2$ (iş-də) və s.

**6) Ə** saitinin müxtəlif variantları, variasiyaları mövcuddur. Düzdür, bunlar Azərbaycan ədəbi dilində olmasa da, tələffüzdə müşahidə olunan variantlar və variasiyalardır. Bu mənada **ə** saitinin qısa (ə.), uzun (ə:) variantlarına təsadüf olunur. *Məsələn,* ***səadət-sə.adət, fəal-fə.al*** *(qısa tələfüz olunur);* ***əla-ə:la, təsir-tə:sir, nərə-nə:rə, tənə-tə:nə*** *(uzun tələffüz olunur) və s.*

**İ saiti. İ** saiti dilönü (incə), qapalı, dodaqlanmayan saitdir. Bu saitin fərqləndirici xüsusiyyətləri aşağıdakılardır:

**1) İ** saiti akustik keyfiyyətini vurğulu hecalarda tapır. Həm də i saitinin akustik keyfiyyəti birhecalı sözlərdə mühafizə olunur: **biz, siz, diz, bir, dil, bil, zil** və s.

**2) İ** saiti qapalı sait kimi sözün hər yerində açıq **ə** saitinə qarşı qoyulur: **it-ət, il-əl; dil-dəl, din-dən, dib-dəb; dəri-dərə, bəri-bərə** və s.

**3) İ** saiti dodaqlanmayan sait kimi dodaqlanan **ü** saiti ilə qarşılaşır: **it-üt, iz-üz, siz-süz, diz-düz** və s.

**4) İ** saiti dilönü sait olmaqla dilarxası **ı** saiti ilə qarşılaşır: **sin-sın, siz-sız** və s.

**5) İ** saiti sözün hər yerində işlənir: **il, ip, ilk, iki; səkkiz, bilik, pişik, fikir, kilim; iyirmi, diri, kirpi, kirpik** və s.

**6) İ** saiti dörd cür yazılan şəkilçilərin tərkibində işlənir: **-dı**$^4$





downloaded from KitabYurdu.org

(gəl-di), **-mış**[4] (gəl-miş), **-çı**[4] (dəmir-çi) və s.

**7) İ** saiti bəzi məqamlarda qısa (məsələn, əmisi-əmi.si, sini-fi-sini.fi, fikiri-fiki.ri və s.), bəzən isə alınma sözlərdə uzun tələffüz olunur (məsələn, izah-i:zah, ifa-i:fa, dini-di:ni, dəqiqə-dəqi:qə, nəsimi-nəsi:mi və s.).

**Ö saiti. Ö** saiti dilönü (incə), açıq, dodaqlanan saitdir. Bu saitin fərqləndirici əlamətləri aşağıdakılardır:

**1) Ö** saitinin akustik xarakteri birhecalı sözlərdə, vurğu qəbul etmiş hecada daha aydın və səlis olur. *Məsələn, **göl, böl, dön, sön, çöl, göy** və s.*

**2) Ö** saiti dilönü sait olmaqla dilarxası **o** saitinə qarşı qoyulur. *Məsələn, **öl-ol, ön-on, öd-od, öt-ot, döl-dol, dön-don** və s.*

**3) Ö** saiti açıq sait olmaqla qapalı **ü** saitinə qarşı qoyulur. *Məsələn, **öt-üt, ön-ün, öz-üz, söz-süz, döz-düz** və s.*

**4) Ö** saiti dodaqlanan sait olmaqla dodaqlanmayan **ə** saitinə qarşı qoyulur. *Məsələn, **öt-ət, öl-əl, ön-ən, öz-əz, göl-gəl, dön-dən** və s.*

**5) Ö** saiti Azərbaycan dilində əsasən söz kökünün əvvəlində və ortasında işlənir. Bu saitə sözün sonunda təsadüf olunmur. *Məsələn, **öl, ön, özək, örpək, kölgə, kösöv** və s.*

**6) Ö** saitinin hecaların tərkibində işlənməsində aşağıdakı hallar diqqəti cəlb edir:

**a)** Qapalı birinci hecada: **köl-gə, öl-kə** və s.

**b)** Qapalı ikinci hecada **v** samitindən əvvəl işlənilir: **kö-söv, bü-löv, bü-töv, bə-növ-şə** və s.

**7) Ö** saitinin uzun **(ö:), ö**[ü] variantları da vardır. Bu saitin uzun tələffüzü bəzi alınma sözlərdə müşahidə olunur: **şölə-şö:lə, şöbə-şö:bə, mömin-mö:min** və s.

**Ö** saitinin uzun variantına sadalama zamanı da təsadüf olunur: **bö:l, gö:l, gö:y** və s.

**Ö** saitinin **ö**[ü] variantı diftonqvari xarakterdə olub, **v** samitindən əvvəldə gələrək işlənir: **bülöv-bülö**[ü]**v, kösöv-kösö**[ü]**v** və s.

**8) Ö** saiti ədəbi dilimizdə şəkilçilərin tərkibində işlənmir. Qeyd edək ki, ö saiti Azərbaycan dilinin məxsusi saitlərindən olsa da, digər saitlərlə müqayisədə ən az işlənən saitlərdəndir.





downloaded from KitabYurdu.org

Bu barədə A.Axundov yazır: "... Ö saiti dilimizdə ü saitindən də az işlənir. Sözün əvvəlində onun işlənmə tezliyi (ö saitinin - B.X.) cəmi 3,8 faizdir. Digər səkkiz saitin hamısından azdır. Həmin sait mətn daxilində də ən az işlənən sait fonemdir"[1].

**Ü saiti.** Ü saiti dilönü (incə), qapalı, dodaqlanan saitdir. Bu saitin fərqləndirici əlamətləri əsasən aşağıdakılardır:

**1) Ü** saiti akustik cəhətdən alçaq tonlu saitdir. Bu sait **i** saiti ilə müqayisədə alçaq tonlu olduğunu daha tez biruzə verir.

**2) Ü** saiti qapalı sait olmaqla, açıq **ö** saiti ilə qarşılaşır və oppozisiya təşkil edir: **ün-ön, üz-öz, gün-gön, gül-göl, düz-döz** və s.

**3) Ü** saiti dodaqlanan sait olmaqla dodaqlanmayan i saiti ilə qarşılaşır, oppozisiya yaradır: **üt-it, düz-diz, üz-iz, ütü-iti, üç-iç, süz-siz, büz-biz, gül-gil** və s.

**4) Ü** saiti dilönü sait olmaqla dilarxası **o, u** saitləri ilə qarşılaşır, oppozisiya təşkil edir: **üç-uç, ün-un, büz-buz, düz-duz, ün-on, üt-ot** və s.

**5)** Azərbaycan ədəbi dilində **ü** saiti sözün hər yerində işlənir: **ün, üz, gül, gün, bülbül, sünbül, ütü, sürü, tüstü** və s.

**Ü** saiti dörd cür yazılan şəkilçilərin tərkibində də işlənir: **-ış**$^4$ (gör-üş), **-dır**$^4$ (süz-dür), **-ır**$^4$ (gül-ür), **-mış**$^4$ (gül-müş-dür) və s.

**6) Ü** saitinin dilimizdə variantları, variasiyaları da tələffüzdə özünü göstərir. *Məsələn, **bütöv-bü.töv, sürünün-sürü.nün** və s. sözlərdə qısa, sadalama zamanı isə düz-dü:z, süz-sü:z, gül-gü:l və s. sözlərdə uzun variantı ilə qarşılaşmalı oluruq.*

**Qeyd:** Azərbaycan dilində **i, ə, ü, e, u** saitləri sözün hər yerində işlənir. Ancaq **ı, ö, o** saitləri bu baxımdan müstəsnalıq yaradır. Belə ki, **ı** saiti sözün əvvəlində, **ö** və **o** saitləri sözün sonunda olmur. Lakin **o** saiti milli sözlərin deyil, alınma sözlərin sonunda gəlir: **solo, radio, kino, pero** və s.

1. A.Axundov. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 40.



downloaded from KitabYurdu.org

## Azərbaycan dilindəki saitlər sisteminin qarşılığı

Dildə fonemlər - danışıq səsləri bir-biri ilə əlaqədə olur, bununla da dilin fonetik quruluşunda müəyyən bir sistem yaradır. Fonemlər - danışıq səsləri bir sistem yaratmaqla qarşı - qarşıya qoyulur.

Azərbaycan dilindəki saitlər qarşı - qarşıya qoyularkən nəzərə alınan prinsiplər bunlardır: **dilin üfüqi vəziyyəti, dilin şaquli vəziyyəti, dodaqların iştirakı, kəmiyyət.**

**Dilin üfüqi vəziyyətinə** görə saitlər qarşı - qarşıya qoyularkən fərqləndirici əlamətlər aşağıdakılar olur:

**a)** Dilönü saitlər-dilarxası saitlər: **dər-dar, böl-bal, düz-duz** və s.

**b)** Dilönü saitlər - dilortası saitlər: **fil-fel, ət-et, əl-el** və s.

**c)** Dilortası saitlər - dilarxası saitlər: **el-al, sez-saz, deş-daş** və s.

**Dilin şaquli vəziyyətinə** görə saitlər qarşı-qarşıya qoyulduqda fərqləndirici əlamətlər aşağıdakılardır:

**a)** Qapalı saitlər - yarımqapalı saitlər: **diş-deş, biş-beş, bil-bel** və s.

**b)** Qapalı saitlər - açıq saitlər: **il-əl, it-ət, yun-yon** və s.

**c)** Yarımqapalı saitlər - açıq saitlər: **deş-daş, eş-aş, en-an** və s.

**Dodaqların iştirakına** görə saitlər qarşı-qarşıya qoyulduqda fərqləndirici əlamət aşağıdakılardır:

Dodaqlanan saitlər - dodaqlanmayan saitlər: **göl-gəl, quş-qış, tor-tar, top-tap** və s.

**Kəmiyyətə görə** saitlər qarşı-qarşıya qoyulduqda fərqləndirici əlamət aşağıdakı kimi götürülür:

Qısa saitlər-uzun saitlər: **bəzən-bə:zən, mədəni-mə:dəni, nərə-nə:rə, təmin-tə:min** və s.

Beləliklə, Azərbaycan dilinin sait fonemlərini qarşı-qarşıya





downloaded from KitabYurdu.org

qoyduqda fərqləndirici əlamətlər aşağıdakılar olur:

Dilönü-dilarxası, dilönü-dilortası, dilortası-dilarxası; qapalı-yarımqapalı, qapalı-açıq, yarımqapalı-açıq; dodaqlanan-dodaqlanmayan; qısa-uzun.





downloaded from KitabYurdu.org

# Azərbaycan dilinin samitlər sistemi

**Samitlərin təsnifi.** Danışıq səslərinin bir qismi ağız boşluğundakı üzvlərin maneəsi ilə formalaşır. Bu cür formalaşan səslərin bəziləri küylü, bəziləri küylü-tonlu olur. Eyni zamanda bu səslərin bir qisminin formalaşmasında dilin və dişlərin iştirakı da böyük rol oynayır. Bütövlükdə bunlar nəzərə alınaraq samitlər aşağıdakı kimi təsnif olunur:

**1)** Küyün kəmiyyətinə görə;
**2)** Küyün yaranma yerinə görə;
**3)** Küyün yaranma üsuluna görə.

**Qeyd:** Müasir Azərbaycan dilində samitlər müxtəlif prinsiplərlə təsnif olunmuşdur. Ə.Dəmirçizadə samitləri üç prinsiplə: 1) küyün kəmiyyətinə görə, 2) küyün yaranma yerinə görə, 3) küyün yaranma üsuluna görə; A.Axundov dörd prinsiplə: 1) fəal və qeyri-fəal danışıq üzvlərinin vəziyyətinə və ya əmələgəlmə yerinə görə, 2) əmələgəlmə üsuluna görə, 3) səs tellərinin iştirakına görə, 4) yumşaq damağın vəziyyətinə görə; H.Həsənov altı prinsiplə: 1) fəal danışıq üzvlərinə və əmələgəlmə yerinə görə, 2) ton və küyə görə, 3) səs tellərinin iştirakına görə, 4) əmə-



downloaded from KitabYurdu.org

ləgəlmə üsuluna görə, 5) yumşaq damağın vəziyyətinə görə, 6) tərkibinə görə. O, fəal danışıq üzvlərinə və əmələgəlmə yerinə görə samitləri dil, dodaq, dildibi (udlaq) samitlərə; ton və küyə görə samitləri küylü, sonor samitlərə; səs tellərinin iştirakına görə cingiltili və kar samitlərə; əmələ gəlmə üsuluna görə kipləşən (partlayan), novlu (süzülən, sürtünən) samitlərə; yumşaq damağın vəziyyətinə görə ağız və burun samitlərinə; tərkibinə görə saf və qovuşuq samitlərə ayırmışdır.

**1) Küyün kəmiyyətinə görə.** Küyün kəmiyyətinə görə samitlər iki yerə ayrılır: **sonorlar** və **küylü samitlər.**

**Qeyd:** Samitlərin sonorlara və küylü samitlərə bölünməsi onların akustik fərqləri ilə ayırd edilir. Akustik keyfiyyətinə görə sonorlar saitlərə yaxındır. Sonorlarda küylü samitlərə nisbətən hava axını daha güclüdür. Elə bu səbəbdəndir ki, sonorlarda ton, küylülərdə isə küy üstün olur.

**Sonorlarda** az da olsa, ton vardır. Ona görə də onlar küylülərdən fərqlənir. Azərbaycan dilində sonor samitlər bunlardır: **l, m, n, r.**

**Qeyd:** Sonorlar da iki növə ayrılır: a) ağız sonorları: **l, r;** b) burun sonorları: **m, n.** Sonorlar saitlər kimi tonludur. Lakin onlar tələffüz zamanı ağız üzvlərinin maneəsinə rast gəldikləri üçün samitlərə daxil edilir.

**Küylü samitlərin** yaranmasında hava axını ağız boşluğunda müxtəlif maneələrə rast gəlir. Bu maneələrlə qarşılaşmanın dərəcəsindən asılı olaraq küylülərdə küyün dərəcəsi müxtəlif olur. Ona görə də küylü samitlər iki yerə ayrılır: **cingiltili samitlər, kar samitlər.**

**Cingiltili samitləri** tələffüz edərkən səs telləri gərginləşmiş





downloaded from KitabYurdu.org

vəziyyətdə olur. Səs telləri bir-birinə daha yaxınlaşmış olduğuna görə hava axını güc, təzyiq vasitəsilə özünə yol açır. Cingiltili samitlərin əmələ gəlməsində səs telləri fəaliyyətdə olur. Bu cəhəti nəzərə alaraq cingiltili samitlərə ünlü-küylü samitlər də deyilir. Cingiltili samitlər bunlardır: **b, v, q, ğ, d, j, z, g, c, y.**

**Qeyd:** Sonor samitlər də cingiltili samitlər qrupuna daxil edilir. Bunun səbəbi sonorların cingiltili samitlər kimi ünlü olmasıdır.

**Kar samitlərin** yaranmasında səs telləri gərginləşmir. Demək olar ki, səs telləri fəaliyyətdə olmur. Ona görə də səs tellərinin ucları bir-birinə çox az yaxınlaşmış olur. Eyni zamanda səs cığırı daralmır. Hava axını səs cığırından sərbəst surətdə çıxır və səs tellərinin güclü titrəməsinə səbəb olmur. Səs tellərinin zəif rəqslənməsi ilə kar samitlər yaranır. Həm də hava axını yalnız ağız boşluğunda maneələrə rast gəlir və bu zaman formalaşmış səs küylü şəkildə meydana çıxır. Kar samitlər bunlardır. **(k'), p, f, k, x, t, ş, s, ç, h, (x').**

**Qeyd: y** cingiltili samitinin kar qarşılığı, **h** kar samitinin isə cingiltili qarşılığı yoxdur.

**2) Küyün yaranma yerinə görə.** Küyün yaranmasında bəzi danışıq üzvləri - dodaq, dil, diş, ağız və burun boşluğu fəal iştirak edir. Bu danışıq üzvlərini nəzərə alaraq küyün yaranma yerinə görə samitləri aşağıdakı danışıq üzvlərinə görə təsnif etmək olar: **dodaqlar, dişlər, dil.**

Dodaq və dişlərin iştirakına görə küylü samitlər iki qrupa ayrılır: **a)** qoşadodaq samitlər; **b)** dodaq-diş samitləri.

**a) Qoşadodaq samitlər.** Bu samitlərin yaranmasında dodaqlar fəal iştirak edərək qoşalaşır, alt dodaq üst dodaqla birləşərək birdən açılır. Nəticədə qoşadodaq samitlər yaranır. Ona görə də dodaqların bu cür iştirakı ilə yaranan samitlər qoşadodaq samitlər adlanır. Qoşadodaq samitlərə **b, p, m** samitləri daxildir.

**b) Dodaq-diş samitləri.** Dodaq-diş samitləri üst çənədəki ön dişlərin alt dodağa yaxınlaşması, kipləşməsi, birləşməsi ilə



downloaded from KitabYurdu.org

əmələ gəlir. Dodaq-diş samitləri bunlardır: **v, f.**

Dilin iştirakına görə samitlər aşağıdakı kimi təsnif olunur: **a) dilönü samitlər; b) dilortası samitlər; c) dilarxası samitlər; ç) dildibi boğaz samitləri.**

**a) Dilönü samitlər.** Dilönü samitlər dilin ön hissəsinin fəal iştirakı ilə əmələ gəlir. Dilin ön hissəsi dişlərə və yuvaqlara yaxınlaşır, önə doğru hərəkət edərək dişlərə və yuvaqlara söykənir. Dilönu samitlər öz növbəsində iki yerə ayrılır: **dil-diş samitləri, dil-yuvaq samitləri.**

**Dil-diş samitləri** yaranarkən dilin ön hissəsi üst çənədəki dişlərə doğru hərəkət edərək ona yaxınlaşır, söykənir. Dil-diş samitləri bunlardır: **d, t, z, s, l, n.**

**Dil-yuvaq samitləri** yaranarkən dilin ön hissəsinin yanları və ucu yuvaqlara, ön damağa doğru hərəkət edir. Və bu samitlər dilin ön hissəsi ilə yuvaqların fəal iştirakı nəticəsində yaranır. Dil-yuvaq samitləri bunlardır: **j, ş, c, ç, r.**

**b) Dilortası samitlər.** Dilortası samitlər əmələ gəldikdə dilin orta hissəsi fəal rol oynayır. Dilin orta hissəsi ön damağa doğru qalxır. Bu cür samitlər dilin ortasında yaranır. Dilortası samitlər bunlardır: **y, k, g, ($x^1$).**

**c) Dilarxası samitlər.** Dilarxası samitlər dilin arxa hissəsinin fəal rolu ilə yaranır. Və dilin arxasında formalaşır. Dilin arxa hissəsi arxa damağa yaxınlaşır və onlar bir-birinə toxunur. Nəticədə dilarxası samitlər yaranır. Dilarxası samitlər bunlardır: **q, ($k^1$).**

**ç) Dildibi-boğaz samitləri.** Dildibi-boğaz samitləri dilin dib hissəsinin və boğazın fəal iştirakı ilə yaranır. Ona görə də dildibi-boğaz samitləri adlanır. Bu samitlər qırtlağın ön hissəsi ilə dilçək və dildibinin arxasında əmələ gəlir. Dildibi-boğaz samitlərinə **ğ, x, h** samitləri daxildir.

**Qeyd 1:** Bəzən **h** samitinə udlaq samiti də deyilir.
**Qeyd 2:** Yuxarıda qeyd olunduğu kimi, küyün yaranma yerində ağız və burun boşluğu fəal iştirak edir. Əgər samitləri tələffüz etdikdə hava axını ağız



downloaded from KitabYurdu.org

boşluğundan çıxırsa, bu zaman ağız samitləri yaranır. Əksinə olduqda isə, yəni samitləri tələffüz etdikdə hava axını burun boşluğundan çıxdıqda burun samitləri əmələ gəlir. Azərbaycan dilində **m, n** samitləri burun, yerdə qalanlar isə ağız samitləridir. Yeri gəlmişkən qeyd edək ki, dialekt və şivələrimizdə işlənən *ŋ* (sağır nun) samitini də nəzərə alsaq, onda burun samitləri üçdür: **m, n,** *ŋ* **.**

**3) Küyün yaranma üsuluna görə.** Küyün yaranma üsuluna görə samitlər üç yerə ayrılır: Kipləşən (və ya partlayan) samitlər, novlu (yaxud sürtünən) samitlər, saf və qovuşuq samitlər.

**Kipləşən (və ya partlayan) samitlər.** Kipləşən (və ya partlayan) samitlər kipləşmiş danışıq üzvlərinin birdən açılması ilə hava axınının partlayışla ağızdan çıxması ilə yaranır. Kipləşən-partlayan samitlər bunlardır: **b,p, d, t, g, k, q, ($k^1$), m, n.**

**Qeyd:** Kipləşən (və ya partlayan) samitlərin formalaşmasında sonluq (rekursiya) mərhələni nəzərə alaraq onları müxtəlif növlərə ayırırlar. Belə ki, kipləşən samitlərin bəzilərinin tələffüzündə hava axını maneəni partlayışla, bəzilərində novlu (tədricən), bəzilərində süzülərək, bəzilərində isə titrək (bir neçə dəfə) yolla aradan qaldırır. Ona görə də kipləşən (və ya partlayan) samitlərin dörd növü yaranır: a) kipləşən-partlayan samitlər: *b, p, d, t, g, k, q;* b) kipləşən-novlu samitlər: *c, ç;* c) kipləşən-süzülən samitlər: *m, n, l, r;* ç) kipləşən-titrək samitlər: *r*.

**Novlu (yaxud sürtünən) samitlər.** Novlu (yaxud sürtünən) samitlər hava axınının sürtünərək çıxması ilə əmələ gəlir. Belə ki, küylü səs axını kipləşmiş danışıq üzvlərinin tədricən bir-birindən aralanması, və ya müəyyən danışıq üzvlərinin bir-birinə yaxınlaşması ilə yaranmış cığırdan küylü səsin sürtünərək çıxması ilə formalaşır. Bura daxildir: **v, f, j, ş, z, s, l, r, ğ, x, h, y, ($x^1$).**





downloaded from KitabYurdu.org

**Qeyd:** Azərbaycan dilində bəzən novlu samitlər təkkeçidli və cütkeçidli olmaqla iki yerə bölünür. Təkkeçidli samitlərin tələffüzü zamanı fəal danışıq üzvünün əmələ gətirdiyi maneə qeyri-fəal danışıq üzvlərindən birində olur. Cütkeçidli samitlərin tələffüzü zamanı isə fəal danışıq üzvü qeyri-fəal danışıq üzvünün ikisində yarımçıq maneə yaradır. Azərbaycan dilində iki cütkeçidli samit var: ş, j. Novlu samitlərin yerdə qalanları isə təkkeçidlidir: **f, v, s, z, y, x, c, h.**

**Saf və qovuşuq samitlər.** Müasir Azərbaycan ədəbi dilində **c, ç** samitləri istisna olmaqla, yerdə qalan samitlərin hamısı saf samitlərdir. Ancaq **c, ç** samitləri isə qovuşuq (affrikat) samitlərdir. Qovuşuq samitlər dedikdə onu başa düşmək lazımdır ki, **ç** samiti yarım **t** və yarım **ş, c** samiti isə yarım **d** və yarım **j** samitlərinin məxrəcində olur. Müqayisə edək: **keç** (keş), **köç** (köş), **qaç** (qaş) və s. Buradakı **ç** samitləri yarım **ş** və yarım **t** kimi tələffüz olunur. Yaxud: **Cəlal, Cəmil, caz, Azərbaycan** və s. sözlər rus dilində Djalal, Djamil, djaz, Azerbaydjan kimi işlənir. Burada Azərbaycan dilindəki ç samiti rus dilində yarım **dj** kimi özünü göstərir.

## Azərbaycan ədəbi dilindəki samitlərin əsas xüsusiyyətləri

Samitlərin xüsusiyyətləri onların təsnifi prinsiplərini əsas götürərək xarakterizə olunur. Burada küyün kəmiyyətinə, küyün yaranma yerinə, küyün yaranma üsuluna görə prinsipləri diqqət mərkəzində saxlanılır. Bütün bunları nəzərə alaraq samitlərin xüsusiyyətlərini nəzərdən keçirək.

**Qoşadodaq samitlər.**

Azərbaycan dilində qoşadodaq samit üçdür: **p, b, m.**

**P samiti.** Bu samit qoşadodaq, küylü, saf samitdir. **P** samitinin xarakterik xüsusiyyətləri aşağıdakılardır.





downloaded from KitabYurdu.org

**1)** Bu samit bəzən nəfəsli tələffüz olunur. *Məsələn,* ***$p^h$ul, $p^h$endir, çap$^h$, tap$^h$, səp$^h$*** *və s.*

**2)** P samiti sözün əvvəlində, ortasında, sonunda — hər yerində işlənir. *Məsələn,* ***plov, plan, pyes, plenum, proqram, şapka, spiral, top, tap, turp*** *və s.* Morfoloji mövqeyinə gəldikdə **p** samiti yalnız söz köklərində işlənir, şəkilçilərin tərkibində bu samitə təsadüf olunmur. Yeri gəlmişkən qeyd edək ki, **p** samiti Azərbaycan dilində az işlənən samitlərdən biridir. Ümumiyyətlə, bu samitin mətn daxilində işlənmə imkanı yalnız **j** samitindən üstündür.

**3)** Azərbaycan dilində qoşa **p** samitli sözlər var ki, onlarda **p** səslərindən birincisi nəfəssiz **p**, ikincisi isə cingiltiləşmiş **b** kimi tələffüz olunur. *Məsələn,* ***toppuz*** *(topbuz),* ***tappıltı*** *(tapbıltı),* ***hoppanmaq*** *(hopbanmaq) və s.*

**4) P** samiti digər samitlərlə oppozisiya təşkil etmək imkanına malikdir. Bunu sözün əvvəlində, ortasında və sonunda müşahidə etmək olur.

**a)** sözün əvvəlində: **pir-tir, pir-kir, pis-his, pay-tay, pəl-kəl** və s.

**b)** sözün ortasında: **qapı-qatı, təpər-təkər, qapa-qafa** və s.

**c)** sözün sonunda: **tip-tik, ip-it, səp-səf, lap-lak** və s.

**5) P** samitinin müxtəlif samitlərlə yanaşı işlənməsində bir məhdudluq vardır. Belə ki, **p** samiti Azərbaycan dilində **"y", "l", "r", "s", "b", "k"** samitlərindən əvvəl, **"r", "ş"** samitlərindən sonra işlənir. Misallara diqqət yetirək: **plenum, pyes, proqram, şapka, psixologiya, şpal, turp** və s.

**B samiti.** Qoşadodaq, cingiltili, saf samitdir. Bu samitin xarakterik xüsusiyyətləri aşağıdakılardır.

**1) B** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **bal, bir, bur, boz** (sözün əvvəlində) və s., **baba, daban, oba** (sözün ortasında) və s., **cib, qab, corab, kitab** (sözün sonunda) və s.

**2)** İkihecalı və çoxhecalı sözlərin sonunda **b** samiti karlaşmış vəziyyətdə tələffüz olunur: **kitab** (kitap), **məktəb** (məktəp), **corab** (corap) və s.





downloaded from KitabYurdu.org

**3)** Azərbaycan dilində bir sıra alınma sözlərdə **b** samiti qoşa işlənir. Belə sözlərdə qoşa samitlərdən birincisi karlaşmış halda **p** kimi, ikincisi isə **b** kimi tələffüz olunur: **qübbə** (qüpbə), **dabbağ** (dapbağ), **tibbi** (tipbi), **dəbbə** (dəpbə) və s.

**4) B** samiti sözün müxtəlif yerlərində samitlərlə oppozisiya təşkil edir.

**a)** sözün əvvəlində: **bağ-dağ, bil-dil, boz-qoz, bar-qar, bal-mal, bil-mil** və s.

**b)** sözün ortasında: **oba-oda, yaba-yava, səba-səma, sabit-samit** və s.

**c)** sözün sonunda: **dib-did, dəb-dəm, tab-tam** və s.

**5)** Morfoloji mövqeyinə görə **b** samiti sözün müxtəlif yerlərində işlənməklə yanaşı, həm də şəkilçilərdə də **(-ıb, -ib, -ub, -üb)** işlənir. Bu cəhətdən **b** samiti **p** samitindən fərqlənir. Bundan başqa, **b** samitinin mətn daxilində işlənmə imkanı genişdir.

**6) B** samiti burun sonorlarından sonra (m, n) işləndikdə burunda tələffüz olunan variantını yaradır: b̃. Belə ki, **m, n** burun sonorlarından sonra gələn b samiti burunda tələffüz olunur: **mənbə** (mənb̃ə), **anbar** (amb̃ar), **qəmbər** (qəmb̃ər) və s.

**M samiti.** Qoşadodaq, sonor samitdir. Bu samitin aşağıdakı xüsusiyyətləri vardır;

**1) M** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **mən, mal, mavi, imkan, sima, lampa, möhkəm, xanım** və s. Habelə, **m** samiti şəkilçilərdə də işlənir: **-ım, -im, -um, -üm; -am, -əm** və s.

**2) M** samiti sözün əvvəlində, ortasında və sonunda **n** ilə oppozisiya təşkil edir. *Məsələn, **mal-nal, mənə-nənə** (sözün əvvəlində), **xama-xana, dama-dana** (sözün ortasında), **xam-xan, cam-can** (sözün sonunda) və s.*

**3) M** samiti samitlərlə qonşuluqda işləndikdə **mb, mp, mt, md, mz, mş, mc, mç, mr, mx, mk, mq** və s. fonem birləşmələri mövcud olur: **hambal, lampa, əmtəə, ümdə, Həmzə, Cəmşid, qamçı, damcı, Qumru, Şəmkir, Sumqayıt** və s.

**M** samiti **j, n** (bu samitlərdən əvvəl), **p, b, f, v, d, g, n** (bu samitlərdən sonra) samitləri ilə qonşuluqda işlənmir.



downloaded from KitabYurdu.org

**Dodaq-diş samitləri.** Azərbaycan dilində dodaq-diş samitləri ikidir: **f, v.**

**F samiti.** Bu samit novlu, dodaq-diş, saf, küylü, kar samitdir və xarakterik xüsusiyyətləri aşağıdakılardır.

**1) F** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **fəlsəfə, fikir, fürsət, fənn, fənd** (sözün əvvəlində), **səfər, dəfə, üfüq, Əfqan, iflas** (sözün ortasında), **Vaqif, dəf, saf, xof, hərf, tərəf** (sözün sonunda) və s.

**2) F** samiti **"s", "x", "h"** samitləri ilə oppozisiya təşkil edir. *Məsələn,* ***fil-sil, fal-xal, fətir-xətir, səfər-səhər, zəfər-zəhər, səf-səs, şef-şeh*** *və s.*

**3) F** samiti müxtəlif sait və samitlərdən sonra, əvvəl işlənə bilir: **fikir, fürsət, fond, futbol** (müxtəlif saitlərdən əvvəl), **ifa, ifşa, üfüq, neft** (müxtəlif saitlərdən sonra), **dəfn, iflas, nifrət** (müxtəlif samitlərdən əvvəl), **lütf, töhfə, vəsf, keyfiyyət** (müxtəlif samitlərdən sonra) və s.

**F** samitinə dilimizdə **p, b, m, d, j, ç, g, y, k, x, ğ, h, n** samitlərindən əvvəl, **b, v, d, z, ş, j, ç, c, g, k, x, g, n** samitlərindən sonra təsadüf olunmur.

**F** samiti dilimizdə az işlənən samit olmaqla mətn daxilində də məhduddur və yalnız **p, j** samitlərindən çox işlənir.

**V samiti.** Bu samit novlu, dodaq-diş, cingiltili samitdir və aşağıdakı xüsusiyyətləri vardır.

**1) V** samiti əsl Azərbaycan sözlərinin əvvəlində, ortasında və sonunda işlənir: **vur, ver, var, nəvə, yuva, ev, sev** və s. Bəzi sözlərin ortasında qoşa da işlənir: **qüvvə, əvvəl** və s.

**V** samiti bəzi alınma şəkilçilərdə (məsələn, -ov//-ova, -yev//-yeva, -vi//-iv) və dilimizdəki qeyri-məhsuldar şəkilçilərdə (məsələn, -sov) işlənir.

**2) V** samiti "z", "y", "ğ" fonemləri ilə oppozisiya yaradır: **var-zar, val-zal; var-yar, dəvə-dəyə; avar-ağar** və s.

**3) V** samiti çoxhecalı sözlərdə, rus dilindən və rus dili vasitəsi ilə avropa dillərindən alınmış sözlərdə **f** kimi tələffüz olunur: **Əhmədov** (Əhmədof), **avtomobil** (aftomobil) və s.

**4) V** samiti dilimizdə az işlənən samitlərdən biridir. Mətn



downloaded from KitabYurdu.org

daxilində yalnız **ğ, c, k, f, p, j** samitlərindən çox işlənir.

**Dil-diş samitləri.** Azərbaycan dilindəki dil-diş samitləri bunlardır: **d, t, z, s, l, n.**

**D samiti.** Bu samitin xarakterik xüsusiyyətləri aşağıdakılardır;

**1) D** samiti Azərbaycan dilində ən çox işlənən samitlərdəndir. Sözün əvvəlində, ortasında və sonunda müşahidə olunur: **dil, diz, düz, odun, ada, od, yurd** və s.

**D** samiti şəkilçilərin tərkibində də işlənir: **-dır, -dir, -dur, -dür; -dar, -dər; -da, -də; -dan, -dən** və s.

**2) D** samiti **b, g, q, z, l, n** fonemləri ilə oppozisiya təşkil edir: **dön-gön, döz-göz, dar-bar, dur-bur, dar-qar, dil-zil, ad-az, did-dil, ad-al, öd-öl, od-on, dədə-dənə** və s.

**3) D** samiti bəzi sözlərin ortasında, bəzi sözlərin isə sonunda qoşa işlənir. *Məsələn, **müddət, iddia, addım, hədd, sədd** və s. sözlərin ortasında **d** samiti qoşa işləndikdə birinci d az da olsa, karlaşmış halda tələffüz olunur.* Söz sonunda qoşa **d** samitindən ancaq birincisi tələffüz olunur. Saitlə başlanan şəkilçi artırıldıqda və ya söz qoşulduqda birinci **d** azacıq karlaşır, ikinci isə normal tələffüz olunur: **həddindən** (hətdindən), **rədd etmək** (rətd etmək) və s.

**4) D** samiti söz sonunda karlaşmış olur. Bu da müxtəlif məqamlarda özünü göstərir. İkihecalı və çoxhecalı sözlərin sonunda **d** samiti karlaşır: **azad** (azat), **Məmməd** (Məmmət), **qanad** (qanat), **bulud** (bulut), **kənd** (kənt) və s.

**D** samiti təkhecalı sözlərin sonunda samit və sait səslə yanaşı gəldikdə karlaşma azalır. *Məsələn, **mərd, cəld, qəsd, qeyd, yad, dad, ad, did** və s.*

**T samiti.** Bu samitin xarakterik xüsusiyyətləri aşağıdakılardır.

**1)** Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir: t**op, tap, iti, ata, ütü, at, ot, it** və s.

**T** samiti şəkilçilərin tərkibində də işlənir: **-ıntı, -inti, -untu, -üntü; -tı, -ti, -tu, -tü** və s.

**2) T** samiti **k, s, d** fonemləri ilə oppozisiya yaradır: **tir-kir, tül-kül, tar-kar, iti-iki, ət-ək, tağ-sağ, tən-sən, at-as, yat-yas,**



downloaded from KitabYurdu.org

**tağ-dağ, tik-dik, ata-ada, at-ad** və s.

**3) T** samiti bəzi sözlərin ortasında qoşa işlənir: **hətta, ittiham.** Belə sözlərdə birinci **t** adi halda, ikinci **t** isə bir qədər cingiltili tələffüz olunur: **hətta** (hətda), **ittiham** (itdiham).

**4) T** samiti bəzi sözlərin əvvəlində və sonunda nəfəsli tələffüz olunur: **t$^{h}$op, t$^{h}$ap, t$^{h}$ək, at$^{h}$, kainat$^{h}$** və s.

**5) T** samiti alınma sözlərin əvvəlində **r** samiti ilə yanaşı işlənə bilir: **traktor, trikotaj, trest, tramvay** və s. Bəzi sözlərin sonunda **t** samiti **s, ş, l, r** samitləri ilə yanaşı gəlir: **alt, tort, məst, püşt** və s.

**Z samiti.** Bu samit novlu, saf, küylü, təkavazlı, cingiltili samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir;

**1) Z** samiti Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir: **zər, zərf, zeytun, qızıl, üzük, qız, qaz, az** və s.

**2) Z** samiti şəkilçilərin tərkibində işlənən samitdir: **-maz, -məz; -sınız, -siniz, -sunuz, -sünüz; -sız, -siz, -suz, -süz** və s.

**3) Z** samiti bəzi sözlərdə qoşa işlənir: **izzət, ləzzət.**

**S samiti.** Bu samit novlu, saf, küylü, təkavazlı, kar samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir:

**1) S** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **sev, sər, sağ, asan, asta, istək, as, tərs, dərs, həvəs** və s.

S samiti şəkilçilərin tərkibində də işlənir: **-sa, -sə; -sız, -siz, -suz, -süz; -san, -sən** və s.

**2) S** samiti **t, ş, z** və s. fonemlərlə oppozisiya yaradır:

**sel-tel, sər-şər, məsəl-məşəl, masa-maşa, as-aş, sər-zər, yas-yaz** və s.

**3) S** samiti bəzi alınma sözlərin ortasında qoşa işlənir: **həssas, kassa, hissə, təbəssüm** və s. Bəzi alınma sözlərin əvvəlində və sonunda da **s** samiti qoşa yazılır: **ssenari, miss, hiss.** Belə sözlərin əvvəlindəki və sonundakı qoşa **s** samiti bir **s** kimi tələffüz olunur. Sonu qoşa **s** samiti ilə qurtaran sözlərə saitlə başlayan şəkilçi qoşulduqda **s** samitinin qoşa olması tələffüzdə qorunur: **hissin.**





downloaded from KitabYurdu.org

**4)** **S** samiti bir sıra alınma sözlərin əvvəlində **n, m, l, t, k, g, p,** sonunda **n, m, l, r, b, k, g, p, h, v, y, x** samitləri ilə yanaşı işlənir: **snayper, smeta, slavyan, stəkan, skripka, rels, dərs, həbs, əks, boks, gips, bəhs, qövs, reys, şəxs** və s.

**l samiti.** l samiti novlu, cingiltili, sonor samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir;

**1) l** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **ləl, ləzzət, əla, qala, al, il** və s.

**l** samiti şəkilçilərin tərkibində də işlənir: **-al, -əl, -l; -ıl, -il, -ul, -ül; -lı, -li, -lu, -lü; -malı, -məli; -lıq, -lik, -luq, -lük** və s.

**2)** Sonu **l** samiti ilə qurtaran sözlərə **l** samiti ilə başlayan şəkilçi qoşulduqda qoşa l samiti yaranır: **əlli, güllü, dilli, bolluq, gözəlləşmək** və s.

**3) l** samiti **r** samiti ilə oppozisiya yaradır: **bal-bar, kal-kar, ləng-rəng, qala-qara** və s.

**N samiti. N** samitinin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

**1) N** samiti sözün əvvəlində, ortasında sonunda və şəkilçilərin tərkibində işlənir: **-nar, -nər, -ana, -sən, -mən** və s.; **-ın, -in, -un, -ün; -dan, -dən; -an, -ən; -anda, -əndə; sın, -sin, -sun, -sün** və s.

**2)** Bəzi alınma sözlərdə **n** samiti qoşa işlənir və onların hər ikisi davamlılığını, tələffüzünü qoruyub saxlayır: **minnət, müğənni, cənnət, tərənnüm** və s.

**3) N** samiti **m** samiti ilə oppozisiya yaradır: **nal-mal, mənənənə, dana-dama, dan-dal, dən-dəm** və s.

**4) N** samiti **p, j, ğ** samitlərindən əvvəl, **p, v, j, l, ç, g, k, x, ğ** samitlərindən sonra işlənmir.

## Dil - yuvaq samitləri

Azərbaycan dilində dil-yuvaq samitləri bunlardır: **j, ş, c, ç, r.**

**J** samiti. Bu samit novlu, küylü, cingiltili samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir;



downloaded from KitabYurdu.org

**1)** Azərbaycan dilində j samiti məhdud işlənmə imkanında olsa da, sözün əvvəlində, ortasında və sonunda gəlir: **jurnal, əjdaha, Əjdər, tiraj** və s.

**J** samitinə ədəbi dilimizdə yalnız söz kökündə təsadüf olunur. Şəkilçilərin tərkibində bu samit işlənmir.

**2) J** samiti dilimizdə ən az işlənən samitdir. Mətn daxilində onun işlənmə dərəcəsi samitlər içərisində sonuncu yeri tutur.

**J** samiti **i, ü, e, a, u** saitlərindən əvvəl, **ə, e, a** saitlərindən sonra məhdud dairədə işlənir: **jilet, jüri, jeton, janr, jaket, jandarm, jarqon, jurnal, Əjdər, rejim, raj** və s.

Bu samitin müxtəlif samitlərlə qonşuluqda işlənməsi çox məhduddur. J samiti yalnız **m, d** samitlərindən əvvəl özünü göstərir: **pəjmürdə, əjdaha** və s.

**3) J** samiti Azərbaycan dilində səs təqlidi ilə formalaşmış bəzi sözlərdə öz ifadəsini tapır: **vıjıltı, qıjıltı, qıjhaqıj** və s.

**Ş samiti. Ş** samiti novlu, küylü, kar samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir.

**1) Ş** samiti sözün əvvəlində, ortasında, sonunda və şəkilçilərin tərkibində işlənir: **şar, şur, şor, beş, aş, iş** və s.; **-ış, -iş, -uş, -üş; -laş, -ləş; -mış, -miş, -muş, -müş** və s.

**2) Ş** samiti alınma sözlərin əvvəlində **t, p, r, l, k** samitləri ilə, sonunda isə **r** samiti ilə yanaşı işlənir: **ştat, şrift, şpris, şlanq, şkaf, ərş, fərş, marş** və s.

**Ş** samiti **meşşan** sözündə qoşa işlənir.

**3) Ş** samitinin mətn daxilində işlənmə dərəcəsi digər samitlərlə müqayisədə orta mövqeni tutur.

**C samiti.** Bu samit kipləşən-novlu, küylü, qovuşuq samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir;

**1) C** samiti Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir: **can, corab, cib, alıcı, sac, güc, dinc** və s.

**C** samiti şəkilçilərin tərkibində də işlənir: **-acaq, -əcək; -ca, -cə; -ıncı, -inci, -uncu, -üncü** və s.

**2) C** samiti **d, j** samitləri ilə oppozisiya yaradır: **can-dan, cəm-dəm, ac-ad, ucuz-uduz, cil-dil və** s.

Göründüyü kimi, **c-d** oppozisiyası dilimiz üçün səciyyəvidir.





downloaded from KitabYurdu.org

Ancaq **c-j** oppozisiyası səciyyəvi deyildir. Bu barədə A.Axundov yazır: **"c-j** qarşılaşdırması isə dilimiz üçün səciyyəvi deyildir. Bu özünü təqlidi sözlərdə, həm də olduqca az göstərir: **qıcıltı-qıjıltı.** Məhz buna görə bu qarşılaşmanın dilimizdə ciddi fonematik əhəmiyyəti yoxdur. Danışıq dilində çox vaxt **c** əvəzinə **j**, habelə əksinə, **j** əvəzinə **c** işlənir... Azərbaycan dilində qocaların dilində "j" fonemi əvəzinə "c" fonemi işlədilir: jaket-caket, jilet-cilet və s."[1] Bu oppozisiyanı, yəni **c-j** oppozisiyasını danışıq dilində **vijdan, əjdad** kimi tələffüz olunan **vicdan, əcdad** sözləri də təsdiq edir.

**3) C** samiti bəzi sözlərdə qoşa işlənir: **münəccim, təəccüb.** Bu samit sözün sonunda **r, n** samitləri ilə yanaşı gəlir: **dinc, qılınc, xərc** və s.

**4) C** samiti yarım **d** və yarım **j** samitlərinin qovuşuğu əsasında formalaşan samit hesab olunur.

**Ç samiti. Ç** samiti kipləşən-novlu, küylü, qovuşuq samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir.

**1) Ç** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **çəmən, çil, çiçək, çöl, göyçək, üç, iç** və s.

Ç samiti şəkilçilərin tərkibində də işlənir: **-çı, -çi, -çu, -çü; -ca, -cə** və s.

**2) Ç** samiti bir neçə sözün sonunda **r, n, t** samitləri ilə yanaşı işlənir: **matç, linç, març.**

**3) Ç** samiti **t, ş, c** samitləri ilə oppozisiya yaradır: **çala-tala, çox-tox, aç-at, iç-it; çən-şən, qaç-qaş, aç-aş; çan-can, aç-ac, saç-sac** və s.

**4) Ç** samiti yarım **t** və yarım **ş** samitlərinin qovuşuğu əsasında formalaşan samitdir. Bu barədə Ə.Dəmirçizadə yazır: "... **ç** samitinin başlanğıcı **t**, sonu **ş** olur. Bunu yoxlamaq üçün **tş** səs birləşməsini sürətlə tələffüz etmək olar ki, belə tələffüzdə **ç** çalarlıqlı bir səs eşidilir. Görünür, elə bu xüsusiyyətinə görə də latın əlifbası əsasında olan yazıların bəzisində və transkripsiyada

1 A.Axundov. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 151.



downloaded from KitabYurdu.org

**ç** samiti məhz **t** və **ş** səslərini bildirən hərfi işarələr tərkibində yazılır: **tsch (t-t, sch-ş), ts (t-t, s-ş)"**[1].

**R samiti.** Bu samit novlu, titrək, cingiltili, sonor samit olmaqla aşağıdakı xüsusiyyətlərə malikdir.

**1) R** samiti Azərbaycan dilində nisbətən az işlənən sonordur. Dilimizdə **r** samiti ilə başlayan xalis Azərbaycan sözü yoxdur. Ona görə də **r** samiti ilə başlayan sözlərdə **r** samitindən əvvəl canlı danışıqda sait əlavə olunur: Rəşid (İrəşid), rəng (irəng) və s. Buna baxmayaraq, **r** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **rayon, raket, radio, razı, arı, iri, sərçə, qar, bir, cığır** və s.

**R** samiti şəkilçilərin tərkibində də işlənir: **-ır, -ir, -ur, -ür; -ar, -ər; -lar, -lər; -dır, -dir, -dur, -dür** və s.

**2) R** samitinin hər cür saitlə yanaşı işlənməsində məhdudluq mövcuddur.

## Dilortası samitlər

Dilortası samitlər bunlardır: **y, k, g, (x')**.

**Y samiti.** Y samiti dilortası, novlu, yarımküylü-yarımsonor, saf, cingiltili samitdir. Bu samitin xarakterik xüsusiyyətləri aşağıdakılardır.

**1) Y** samiti küylü olsa da, o, küylü samitlərdən sonorlara yaxın olması ilə fərqlənir. Dilçilik ədəbiyyatlarında **y** samiti yarımküylü-yarımsonor samit kimi verilir. Bəzən **y** samiti yarımsait kimi də göstərilir. Bu samitin tələffüzü zamanı danışıq üzvlərinin aldığı vəziyyət **i, e** saitlərinin tələffüzündə aldığı vəziyyətə yaxındır. Belə ki, **y** samitinin tələffüzündə dilin orta hissəsi ilə sərt damaq arasında və dodaqlar arasında açıqlıq olur. Bu vəziyyət **i, e** saitlərində də belədir.

**Y** samiti kar qarşılığının olmasına görə sonorlardan fərqlənir. Belə ki, sonorların kar qarşılıqlarının olmadığı halda, **y**-ın

1 Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 92.





downloaded from KitabYurdu.org

kar qarşılığı **$x^1$** kimi mövcuddur: **çiçək** (çiçə$x^1$), **çörək** (çörə$x^1$), **inək** (inə$x^1$) və s.

Bu sözlərin sonundakı **k** samiti **k** deyil, əslində **y** samitinin kar qarşılığıdır. **Y** samitinin kar qarşılığının əlifbamızda hərfi işarəsi olmadığından o, **k** hərfi ilə yazılır. Ona görə də **çiçək, çörək, inək, ipək** və s. sözləri **çörə$x^1$, inə$x^1$, çiçə$x^1$, ipə$x^1$** kimi tələffüz edirik və buradakı **$x^1$** işarəsi əslində **y** samitinin kar qarşılığıdır. Yeri gəlmişkən qeyd edək ki, **y** samitinin kar qarşılığı olan **$x^1$** söz kökünün əvvəlində yox, sonunda işlənir: çörək (çörə$x^1$), inək (inə$x^1$) və s. Ancaq y samitinin kar qarşılığı $x^1$ söz köklərindəki hecanın sonunda da mövcud olur: təklik (tə$x^1$li$x^1$), kəklik (kə$x^1$li$x^1$), kələk (kələ$x^1$) və s. Onu da qeyd edək ki, **y** samitinin kar qarşılığı olan $x^1$ samitini fonem hesab etmək olmaz.

**2) Y** samiti sözün əvvəlində, ortasında və sonunda bütün saitlərlə yanaşı işlənir: **yol, yağ, yurd, ye, yüyən, meyvə, meydan, iynə, hiylə, qayçı, Azərbaycan** və s.

**Y** samiti **j, g** samitindən başqa, yerdə qalan samitlərdən əvvəl, **f, v, j, ç, c, g, k, x** samitlərindən başqa, yerdə qalan bütün samitlərdən sonra işlənə bilir.

Alınma sözlərin bəzilərində y samiti söz ortasında qoşa işlənir: **təyyarə, müəyyən, ədəbiyyat, səviyyə, əyyam** və s.

**Y** samiti şəkilçilərin tərkibində məhdud dairədə işlənir. Əsasən bitişdirici samit kimi şəkilçilərdə özünü göstərir: **işlə-y-ir, başla-y-acaq, su-y-a, nə-y-ə, işlə-y-ən** və s.

**Y** samitinin sözün əvvəlində, ortasında və sonunda işlənməsi tarixən xarakterik olmuşdur[1]. Müasir dilimizlə müqayisədə tarixən **y** samitinin sözün əvvəlində tez-tez işlənməsini daha çox görürük. Bunu yazılı mənbələrimiz, klassiklərimizin yaradıcılığı təsdiq edir. Misallara diqqət yetirək. "Kitabi-Dədə Qorqud" dastanlarında: Ol ögdügim **yuca** tanrı dost oluban mədəd irsin, xanım hey!; Vardı bu qırk **yigidin yigirmisi** bir yana, **yigirmisi** dəxi bir yana oldu; Bir **yigidin** Qaradağ yumrusunca ma-

1. Bax: Azərbaycan dilinin tarixi fonetikasına dair seminar məşğələləri. Bakı, 1979 (tərtib edəni: dos. Bilal İbrahimov). s. 23-24.





downloaded from KitabYurdu.org

lı olsa yığar durur, tələb eylər, nəsibindən artığın xanım, yeyə bilməz; İ.Nəsiminin yaradıcılığında: Nəsimi yarə ulaşdı, nə düşdü münkirə kim. Tutuşdu **yürəyi** yandı, yavuz qəzaya düşər; Divin libasını qoy, xızr ilə yoldaş ol kim, Şol **yuca** qədrü bəxtin kəsbi deyildir asan.

**Y** samiti tam sabit tələffüz məxrəcinə malik olmadığına görə canlı danışıq dilində bəzi sözlərin əvvəlində ixtisar edilməyə meyllidir. *Məsələn, **yumurta-umurta-murtda, yuxarı-uxarı** və s.* Ancaq digər türk dillərində bu qəbildən olan sözlərdə **y** samiti sözün əvvəlində işlənmə mövqeyi qazana bilmişdir. *Məsələn, **yıldız** (ulduz), **yüz** (üz) türk dilində; **yıldız** (ulduz), **yigit** (igid), **yüz** (üz) türkmən dilində və s.*

**3) Y** samiti Azərbaycan dilində işlək samitdir. Onun mətn daxilində işlənmə tezliyi sonor samitlərdən və **d** samitindən azdır.

**K samiti.** Kipləşən, dilortası, saf, küylü və kar samitdir. Bu samitin aşağıdakı xüsusiyyətləri vardır:

**1) K** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **kitab, kənd, kol, iki, təkər, taksi, ək, çək, oçerk, elektrik** və s.

**K** samiti şəkilçilərin tərkibində də işlənir: **-lik, -lük; -mək; -rək; -dək; -əcək** və s.

**2) K** samiti sözün sonunda bir çox vaxt **k** kimi deyil, **y** samitinin kar qarşılığı hesab olunan **x$^1$** kimi tələffüz olunur: **çörək** (çörəx$^1$), **çiçək** (çiçəx$^1$) və s. Odur ki, **k** samiti sözün sonunda saitlər arasında olduqda **y** samitinə keçir: **ələk-ələyi, kötük-kötüyü, çiçək-çiçəyə** və s.

**3) K** samiti sözün əvvəlində alınma sözlərin bəzilərində **ka** səsini bildirir: *Məsələn, **kolxoz** (kalxoz), **komsomol** (kamsomol), **kombayn** (kambayn) və s.* Bu sözlərdə **k** samiti **ka** kimi tələffüz olunur. **Ka** səsi dilimizdə fonem kimi formalaşmamış və onun əlifbada xüsusi qrafik işarəsi yoxdur.

**4) K** samitinin saitlərlə və samitlərlə yanaşı işlənməsi halı mövcuddur. Bu samit **ı, ü, e, a, o, u** saitlərindən sonra işlənir: **texnik, lüks, veksel, akt, oktyabr, buklet** və s. Samitlərlə ya-



downloaded from KitabYurdu.org

naşı gəldikdə isə bir məhdudluq özünü göstərir: **m, v, t, n, s, z, l, r** samitlərində əvvəl (məs.: klub, lakmus, akt, akvarel, knyaz, taksi, ekzema, kran və s.), **p, m, v, t, n, s, ş, l, r, ç** samitlərindən sonra (məs.: şapka, sumka, şotka, maska, şkaf, bulka, park, boçka, sovka və s.) işlənir.

**K** samiti mətn daxilində az işlənən samitdir. Onun işlənmə imkanı samitlər sırasında iyirmi ikinci yeri tutur.

**G samiti.** Kipləşən, dilortası, saf, küylü, cingiltili samitdir. **G** samitinin aşağıdakı xüsusiyyətləri vardır:

**1) G** samiti söz ortası və sonu ilə müqayisədə söz əvvəlində nisbətən çox işlənir: **gül, gün, get, gir, gur, güc** və s. Söz ortasında əksər vaxt alınma sözlərdə saitlər arasında, **n, r** sonor səslərindən biri ilə yanaşı, söz sonunda **n** samiti ilə yanaşı işlənir. Misallara diqqət yetirək: **segah, şagird, əgər, məgər, əngəl, mürgü, səngər, çəngəl, zəngin, cəng, zəng, ləng, tüfəng, nəhəng, çələng, ahəng** və s.

**G** samiti məhdud olsa da, şəkilçilərin tərkibində işlənir: **-gin** (əzgin), **-gi** (silgi), **-gə** (özgə), **-gü** (bölgü) və s.

**2) G** samiti **q, y, k** samitləri ilə oppozisiya yaradır: **gəlib-qəlib, gor-qor; geri-yeri, gor-yor, gön-yön; gül-kül** və s.

**3) G** samiti **i, ü, ö, ə, e, a, o, u** saitlərindən əvvəl (məs.: gil, gül, göl, gəl, get, gavalı, gor, gur və s.) və **i, ə, e,a** saitlərindən sonra (məs.: Nigar, əgər, segah, agah və s.) işlənir.

Samitlərə gəldikdə isə yalnız **s, d, ç, c** fonemlərindən əvvəl (məs.: rəngsiz, rəngdən, rəngçi, rəngcə və s.) və **b, m, s, ş, r, z** samitlərindən sonra (məs.: abgərdən, əmgək, əsgər, işgəncə, zərgər, özgə və s.) işlənir.

**4) G** samiti **k** samiti ilə müqayisədə nisbətən az işlənən samitdir. Mətn daxilində işlənmə tezliyinə gəldikdə isə o, samitlər sırasında on beşinci yeri tutur.



downloaded from KitabYurdu.org

## Dilarxası samitlər

Azərbaycan dilində dilarxası samitlər bunlardır: **q, ($k^1$).**

**Q samiti.** Kipləşən, dilarxası, küylü, cingiltili samitdir. Bu samitin aşağıdakı xüsusiyyətləri vardır:

**1) Q** samiti sözün əvvəlində, ortasında çox, sonunda isə nisbətən az işlənir: **qar, qız, qol, qanad, qul, quzu, monqol, azğın, təqvim, iqtidar, siqnal, nöqsan, aqronom, nəql, nitq, sövq, dəqiq, xalq** və s.

**Q** samiti şəkilçilərin tərkibində işlənir: **-acaq; -maq; -lıq, -luq; -dıq, -duq** və s. Bu şəkilçilər göstərir ki, **q** samiti şəkilçilərin tərkibində yalnız qalın saitlərlə yanaşı işlənir. Ancaq sözlərin tərkibində **q** samiti incə saitlərin tərkibində işlənə bilir: **qeyd, iqlim, qiymət, qələbə, qəzet** və s.

**2)** Bəzi sözlərin sonunda **q** samiti **$k^1$** kimi tələffüz olunur: **dodaq** (dodak$^1$), **yanaq** (yanak$^1$), **yarpaq** (yarpak$^1$), **qulaq** (qulak$^1$) və s. Buradakı $k^1$ samiti müstəqil fonem deyildir. Ancaq bu tipli sözlərin sonunda **q** samitinin kar qarşılığı kimi ($k^1$) özünü göstərir.

**3)** Azərbaycan dilində qoşa **q** ilə yazılan bir neçə sözlər vardır: **toqqa, hoqqa, diqqət** və s. Bu cür sözlərdə birinci **q** samiti kar **k** samiti kimi, ikinci isə **q** kimi tələffüz olunur: **diqqət** (dikqət), **toqqa** (tokqa) və s.

**4) Q** samiti dilimizdə çox işlənən samitlərdən biridir. Mətn daxilində onun işlənmə imkanı digər samitlər sırasında orta mövqe tutur.

**$K^1$ samiti.** Kipləşən, dilarxası, küylü, kar samitdir. Bu samitin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

**1)** Azərbaycan dilində **$k^1$** samiti çox az işlənir və müstəqil fonem kimi qəbul olunmur. Eyni zamanda bu samitin yazıda xüsusi hərfi işarəsi də əsas götürülmür, əlifbada əks olunmur.

**2)** Bu samitə qoşa **q** samiti ilə yazılan sözlərdə *(məs.: saqqal-sak$^1$qal, hoqqa-hok$^1$qa və s.)*, ərəb dilindən alınmış bəzi sözlərdə *(məs.: məqsəd-mək$^1$səd, iqtisad-ik$^1$tisad və s.)* və sonu



downloaded from KitabYurdu.org

**q** samiti ilə qurtaran bir sıra sözlərdə *(məs.: yarpaq-yarpak[1], dodaq-dodak[1] və s.)* rast gəlmək olur.

**Dildibi-boğaz samitləri.** Azərbaycan dilində dildibi-boğaz samitləri bunlardır: **ğ, x, h.**

**Ğ samiti.** Novlu dildibi-boğaz, saf, küylü, cingiltili samitdir. Bu samitin aşağıdakı xüsusiyyətləri vardır:

**1)** Azərbaycan dilində **ğ** samiti sözün əvvəlində gəlmir. Ancaq sözün ortasında və təkhecalı sözlərin sonunda işlənir: **iğtişaş, tüğyan, ağız, zoğal, ağac, yorğan, dağ, ağ, çağ** və s.

Alınma **ğəzəb, ğürur, ğələbə, ğəm, ğəzəl, ğafil, ğaib, ğalib, ğeyb, ğənim** və s. kimi sözlərin əvvəlindəki **ğ** samiti q ilə əvəz olunmuşdur: **qəzəb, qürur, qələbə...** Bu tipli sözlərin əksəriyyəti dilimizə ərəb dilindən keçmişdir.

**Ğ** samiti şəkilçilərin tərkibində də işlənir: **cığaz, -cuğaz** (uşaqcığaz, quşcuğaz), **-dığı, -duğu** (yazdığı, olduğu), **-ağan** (vurağan), **-ğın, -ğun** (azğın, vurğun) və s.

**2)** Azərbaycan dilində **ğ** samiti mətn daxilində az işlənən samitdir.

**X samiti.** Novlu, dildibi-boğaz, saf, küylü, kar samitdir. **X** samitinin aşağıdakı xüsusiyyətləri vardır:

**1)** Azərbaycan dilində **x** samiti sözün əvvəlində ortasında və sonunda işlənir: **xal, xor, xoruz, ixtira, daxil, ax, ox** və s.

**X** samiti bəzi şəkilçilərin tərkibində də işlənir: **-nux** (vurnux), **-ıx** (darıx) və s.

**2) X** samiti bəzi sözlərin əvvəlində **r, l** sonorları, bəzilərinin isə sonunda **l, r, n** sonorları ilə yanaşı işlənir: **xlor, xrom, arx, qalx, bronx** və s.

**3) X** samiti Azərbaycan dilində **h, ğ** samitləri ilə oppozisiya yaradır: **xal-hal, çaxır-çağır, ax-ağ, bax-bağ, tax-tağ** və s.

**4)** Azərbaycan dilində **x** samiti işlək samit kimi özünü göstərmir. Mətn daxilində isə **h, v, ğ, c, k, f, p, j** samitlərindən çox işlənir.

**H samiti.** Novlu, kar, cingiltili qarşılığı olmayan küylü, dildibi-boğaz samitidir. Bu samitin aşağıdakı xüsusiyyətləri vardır:

**1) H** samiti sözün əvvəlində, ortasında və sonunda işlənir: **hökm, hoqqa, hakim, hücum, mehman, möhür, əhd, ehkam,**





downloaded from KitabYurdu.org

**ah, ruh, gah** və s. Bu samitin işləndiyinə nəzər salsaq, onda görürük ki, ilk dövrlərdə söz əvvəlində işlənən **q, ğ, x** samitləri sonralar **h** samiti ilə əvəz olunmuşdur[1]. Yəni ilk dövrlərdən fərqli olaraq sonrakı dövrlərdə **h**-laşma prosesi baş vermişdir. Klassik ədəbiyyatda XIV-XVI əsrlərdə **q, x** samitləri çox işlənmiş, XVIII əsrdən sonra isə **h** samiti sabitləşmişdir. Bu proses əsasən sual əvəzliklərində özünü daha çox göstərmişdir. Misallara diqqət yetirək. "Kitabi-Dədə Qorqud" dastanlarında: Oğul, çoban **qanda** gedirsən?; **Qaçan** sən məni alıb kafir sərhəddinə çıxardın?; Xətainin yaradıcılığında: Bir pəri heyraniyəm, bilmən məkanı **xandadır,** Kimsə bilməz dünyada namaz nişanı **xandadır**?

Canlı danışıq dilində **h**-laşma prosesi indi də özünü göstərir. *Məs.: Gəncə şivəsində* ***harava, hancarı****; Ordubad dialektində* ***horuz, hurcun;*** *Şəki şivəsində* ***ho, hu, honda, habu*** *və s.*

H samiti boğazda tələffüz olunsa da, onun burada tam sabit tələffüz məxrəci yoxdur. Ona görə də **hörgü, hörümçək, hürmək, hörük** tipli sözlər canlı danışıq dilində **örgü, örümçək, ürmək, örük** kimi deyilir. Göründüyü kimi, canlı danışıq dilində bu sözlərin əvvəlindəki **h** samiti düşür.

2) Dilimizdə bəzi ərəb mənşəli sözlərin ortasında **h** samiti qoşa yazılır: **müsəhhih, təəhhüd.**

**3)** Azərbaycan dilində **h** samiti çox işlənən samit deyildir. Onun mətn daxilində işləkliyi samitlər sırasında on yeddinci yeri tutur.

**4) H** samiti bəzi dilçilik ədəbiyyatlarında udlaq samiti hesab olunur. Burada **h** samitinin əmələ gəlməsi xüsusi olaraq nəzərə alınır. Belə ki, **h** samiti dilin dibi ilə udlaq boşluğunun əmələ gətirdiyi novda yaranır.

**Qeyd:** Azərbaycan dilində ən çox işlənən samitlər **l, n, r, m** sonorları və **d, y** samitləridir. Dilimizdə samitlərin işlənmə tezliyinin ardıcıllığı belədir: **l, n, r, m, d, y, s, b, t, k, ş, q, ç, g, x, h, v, ğ, c, k**[1]**, f, p, j.**

---

1. Bax: Azərbaycan dilinin tarixi fonetikasına dair seminar məşğələləri. Bakı, 1979 (tərtib edəni: dos. Bilal İbrahimov). s. 17.





downloaded from KitabYurdu.org

# Nitqin fonetik parçaları

**Nitqin parçaları** çox zəngin və rəngarəngdir. Onları bir-birinə bağlayan həm qrammatik, həm də məna əlaqəsi mövcuddur. Əgər bunlar bir-birini tamamlamasa, onda səsdən heca, hecadan söz, sözdən söz birləşməsi və söz birləşməsindən cümlə yarana bilməz. Səslər hecanı, hecalar sözü, sözlər söz birləşməsini, söz birləşməsi cümləni yaratdığı kimi, cümlənin özü də müəyyən komponentlərə parçalanır: yəni cümlə söz birləşməsinə, söz birləşməsi sözə, söz hecaya, heca səsə parçalanır. Nitqin bu komponentləri bir-biri ilə təkcə qrammatik cəhətdən deyil, həm də müəyyən fasilələrlə, zərbələrlə seçilir. Fasilələrin bəziləri yazıdakı vergül, nöqtə işarələrinə (durğu işarələrinə) uyğun gəlsə də, bir qismi isə qeyd olunan işarələrə uyğun gəlmir.

Nitq zəncirinin parçaları müəyyən həlqələrə, hissələrə bölünür. Bu həlqələr, hissələr yuxarıda qeyd olunduğu kimi, bəzən durğu işarələri ilə, bəzən isə zərbə və fasilələrlə ayrılır. Bütün bunları nəzərə alaraq nitqin fonetik parçalarına belə bir tərif vermək olar: **Fonetik əsasda formalaşan nitq zəncirinin müxtəlif dərəcəli zərbə və fasilələrlə ayrılan həlqələri nitqin fonetik parçaları adlanır.**

Nitq zəncirində səs, heca, söz, söz birləşməsi, cümlə nitqin mənalı hissələridir. Bunların hər birinin maddi dil cildi, fonetik



downloaded from KitabYurdu.org

təzahürü vardır. Bu mənada nitq zəncirindəki bu həlqənin maddi cildini, fonetik təzahürünü nəzərə alaraq onların formulunu aşağıdakı kimi vermək olar:

**1)** Nitqin ən böyük fonetik parçası **ibarə** adlanır. İbarə cümləyə uyğun gəlir. Ona görə də **ibarə=cümlə.**

**2)** İbarələr qitələrdən təşkil olunur. **Qitələr** söz birləşməsinə uyğun gəlir. Ona görə də **qitə=söz birləşməsi** (sabit və sərbəst söz birləşmələri).

**3)** Söz hecalara ayrılır. *Məsələn, **gəl, get** və s. sözlər birhecalıdır.* Bu misal göstərir ki, bəzi sözlər həm də heca tipidir. Yəni bəzən **söz=hecaya.**

**4)** Heca səslərə və səs birləşmələrinə ayrılır. *Məsələn, **a-na, a-ta, nə-nə** və s. hecalarında olduğu kimi.*

Nitqin fonetik parçaları - ibarə, qitə, söz, heca, səs bir-biri ilə bağlanmasalar, onda məqsədəuyğun nitq də yarana bilməz. Yeri gəlmişkən qeyd edək ki, ibarənin, qitənin, sözün, hecanın, səsin bir-birinə bağlanmasında vurğunun, intonasiyanın rolu böyükdür. Belə ki, vurğu, intonasiya nitqin fonetik parçaları arasında bağlılıq yaradır.

Nitqin fonetik parçaları içərisində heca və səs fonetikanın, söz leksikologiyanın və morfologiyanın, qitə (söz birləşməsi), ibarə isə sintaksisin tədqiqat obyektidir.

**Qeyd:** Ümumiyyətlə, fonetik vahidlər iki yerə bölünür: seqment və superseqment vahidlər. Seqment vahidlərə sait, samit səslər və heca daxildir. Superseqment vahidlər isə daha böyük vahidlərdə (sözdə, cümlədə) təzahür edir. Bura vurğu, intonasiya daxildir.





downloaded from KitabYurdu.org

## Heca

**Heca haqqında məlumat.** Heca nitqin fonetik parçaları içərisində çox mühüm yer tutan həlqəcikdir. ***Tələffüz zamanı sözün asanlıqla bölünə bilən hissəsinə heca deyilir.*** Heca üçün əsas ölçü sözün tələffüz zamanı hissələrə ayrılmasıdır. Və heca sözün sait səsi əsasında formalaşır. Ona görə də sözdə neçə sait varsa, bir o qədər də heca vardır. Ancaq heca təkcə bir saitdən deyil, həm də sait-samit, samit-sait... səs qovuşmasından da ibarət olur. *Məsələn, **a-ta** sözü iki hecaya bölünür.* Bunlardan birinci heca **a** səsindən, ikinci heca (ta) **t** və **a** səslərinin qovuşması ilə yaranmışdır. Hecanın tərkibində işlənən səslərdən biri hecanın əsasını təşkil edir, onu formalaşdırır. Belə səslərə **heca düzəldən** səslər deyilir. Heca düzəldən səslər sait səslərdir. Deməli, sözdəki hecaların sayı saitlərin sayı ilə ölçülür. *Məsələn, **bax** sözündə bir sait səs olduğu üçün bir heca vardır.* **Əhməd** sözündə iki sait səs olduğu üçün ikihecalıdır və s.

Hecanı təşkil edən səslərdən bəzisi **hecadüzəldən** səsdən əvvəl gəlir. Buna hecadüzəltməyən güclənən səs deyilir. Bəzi səslər isə hecadüzəldən səsdən sonra gəlir. Buna isə hecadüzəltməyən zəifləşən səs deyilir. *Məsələn, **nə-nə** sözündəki **n** səsi hecadüzəltməyən güclənən səsdir.* **Dörd** sözündəki **r, d** səsləri isə hecadüzəltməyən zəifləşən səsdir. Belə səslər saitlərdən sonra gələrək ondan uzaqlaşdıqca zəifləşir. *Məsələn, **dörd** sözündəki **r, d** səsləri kimi.* Hətta r səsinə nisbətən **d** səsi saitdən uzaq olduğu üçün daha zəifdir. Ancaq **nə-nə** sözündəki **nə** hecasında **n** səsi **ə**-dən əvvəl gəlir və ona yaxınlaşdıqca güclənir. Beləliklə, samit səslər də hecadüzəldən sait səslərlə qovuşaraq hecanın tərkib hissəsinə çevrilir.



downloaded from KitabYurdu.org

Heca ya bir sait, ya da bir sait ətrafında bir neçə samitin qovuşmasından yaranır. Yenə də belə bir nəticə yaranır ki, heca sözün bir sait əsasında formalaşmış parçasıdır.

Hecaya indiyə qədər müxtəlif təriflər verilmişdir. Strukturalist cərəyanının nümayəndələrinə görə, "Heca səslərin birləşməsinin ən kiçik modelidir ki, onu təkrarladıqda dildə mümkün olan bütün səs birləşmələrini əldə edə bilər". Hecanın akustik cəhətini nəzərə alanlar ona belə bir tərif vermişdir: "Heca müxtəlif dərəcəli sədalı səslərin fərqləndirilməsidir". Boduen de Kurteneyə görə, "Nitq prosesində nəfəsalma zərbəsi ilə tələffüz edilən ya bir saitdən, ya da bir sait və bir samitdən ibarət nitq vahidi, bir sait əsasında formalaşmış nitq parçası heca adlanır".

Hecaya müxtəlif cəhətdən yanaşanlar olmuşdur. Ona akustik baxımdan yanaşanlar hecanın yaranmasında sait və samiti əsas götürür və saiti zirvə sayırlar. Onlar hecanın özəyini sait səslərdə görürlər və sözdəki hecaların sayını sait səslərin sayına görə müəyyən edirlər.

Hecaya artikulyasiya baxımından yanaşanlar hecanın yaranmasında nəfəsverməni (buna ekspirator nəzəriyyəsi də deyilir), tələffüzü əsas hesab edirlər. Onların fikrincə, hər nəfəsvermə bir hecanı yaradır. Yəni hər bir heca bir nəfəsvermə ilə formalaşır.

**Hecanın növləri.** Heca hansı səslə başlayıb, hansı səslə qurtarmasından asılı olaraq növlərə ayrılır. Bu növlərdən bəhs etməmişdən qabaq onu da qeyd edək ki, hecalar fonetik tərkibinə görə iki qrupa bölünür: **saf heca, qovuşuq heca.**

**Saf heca** təkcə bir sait səsdən ibarət olan hecadır. *Məsələn,* ***o*** *üçüncü şəxsin təkini bildirən əvəzlik kimi və işarə əvəzliyi kimi saf hecaya misal ola bilər.* Bundan başqa, **a-ta, a-na, ə-lək, ə-tək** və s. sözlərdəki birinci heca təkcə bir sait səsdən ibarət olmaqla saf hecadır. Misallardan göründüyü kimi, dilimizdə saf heca, əsasən, sözün əvvəlində (başında) ola bilir.





downloaded from KitabYurdu.org

**Qovuşuq heca** sait və samit birləşməsindən düzələn hecadır. *Məsələn,* ***ba-la*** *sözündəki birinci heca (ba) bir saitlə bir samit birləşməsindən, ikinci heca (la) isə bir samitlə bir sait birləşməsindən yaranmış qovuşuq hecalardır.* Azərbaycan ədəbi dilində qovuşuq hecalar sözün hər yerində ola bilir. *Məsələn, sözün əvvəlində:* ***də-də*** *(də),* ***sa-rı*** *(sa) və s., sözün ortasında:* ***hə-yət-də*** *(yət),* ***he-ca-lar*** *(ca),* ***öy-rən-mək*** *(rən) və s., sözün sonunda:* ***qar-daş*** *(daş),* ***ba-cı*** *(cı) və s.*

Qovuşuq hecaların onun tərkibindəki sait və samitin mövqeyindən asılı olaraq müxtəlif növləri vardır. Ona görə də qovuşuq hecalar saitin və samitin mövqeyinə görə iki qrupa bölünür:

**1) Saitin mövqeyinə görə qovuşuq hecanın növü;**

**2) Samitin mövqeyinə görə qovuşuq hecanın növü.**

**1) Saitin mövqeyinə görə qovuşuq hecanın növü.**

Saitin mövqeyinə görə qovuşuq hecanın iki növü vardır: **örtüsüz heca, açıq heca. Örtüsüz heca** saitlə başlanan hecadır. *Məsələn,* ***armud*** *sözündəki birinci heca (ar-mud)* ***a*** *saiti ilə başlayır,* ***r*** *samiti ilə qurtarır.*

**Açıq heca** saitlə bitən hecadır. *Məsələn,* ***nənə*** *sözündəki birinci və ikinci heca (nə-nə)* ***n*** *samiti ilə başlasa da,* ***ə*** *saiti ilə qurtarır.* **Ə** saiti ilə qurtardığı üçün hər iki heca açıq heca adlanır.

**Qeyd:** Azərbaycan dilində açıq və qapalı heca barəsində müəyyən fikirlər mövcuddur. Açıq hecanın tarixi ilə bağlı belə bir fikir mövcuddur ki, təkhecalı sözlərin əksəriyyəti qapalı heca kimi işlənmişdir. Sonradan onların sonundakı son samitin düşməsi ilə açıq heca formalaşmışdır: kim → ki, ol → o, suv → su və s. Bu cür nümunələr yazılı mənbələrə istinad edilməklə izah olunmuşdur. *Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında: Gördü* ***kim****, üzük yenə Təpəgözün ayağı altında yatır; Təpəgöz bildi* ***kim****, Basat dəri içindədir və s.* Eyni zamanda canlı danışıq dilində **baxdımkin, gördümkün** kimi ifadələrin işlənməsi də qədim formanı yaşadan dil faktı kimi göstərilmişdir. Bura-



downloaded from KitabYurdu.org

dakı "kin", "kün" **kim** bağlayıcısına aid qədim variantlardır. Ancaq çoxlu sayda dil faktları da onu təsdiq edir ki, açıq hecalar tarixən qapanmağa doğru inkişaf etmiş, qapalı hecalar yaranmışdır: sı→sıx, sı→sın, ba→bağ, tu→tut, qo→qov və s. Hər halda hər iki fikri təsdiq edən dil faktları vardır. Ona görə də bu məsələ barəsində mövcud olan fikir müxtəlifliyini təbii saymaq olar.

**2) Samitin mövqeyinə görə qovuşuq hecanın növü.** Samitin mövqeyinə görə qovuşuq hecanın üç növü vardır: **örtülü heca, qapalı heca, örtülü-qapalı heca.**

**Örtülü heca** samitlə başlanan hecadır. *Məsələn, sulu sözünü təşkil edən (su-lu) hecalar birincisi **s**, ikinci **l** samiti ilə başlanan örtülü hecalardır.*

**Qapalı heca** samitlə bitən hecadır. *Məsələn, **anmaq** sözündəki hecalaradan (an-maq) birincisi **n**, ikincisi isə **q** samiti ilə bitən qapalı hecalardır.*

**Örtülü-qapalı** heca samitlə başlanan və samitlə bitən hecadır. *Məsələn, **yazmaq** sözündəki hecaların (yaz-maq) hər ikisi samitlə başlayır, samitlə bitir və örtülü-qapalı hecadır.*

Beləliklə, sait və samitin mövqeyini nəzərə alaraq hecanın dörd növünü qruplaşdırmaq olar:

**1) Yalnız bir saitdən ibarət olan heca.** Belə hecaya saf-örtüsüz-açıq heca deyilir. Məsələn, **a-na, o-taq, a-da** və s.

**2) Saitlə başlanan, samitlə bitən heca.** Buna örtüsüz-qapalı heca deyilir. *Məsələn, **iş, it, et** və s.*

**3) Samitlə başlanan, samitlə bitən heca.** Bu heca örtülü-qapalı heca adlanır. *Məsələn, **daş, diş, dil, diz** və s.*

**4) Samitlə başlanan, saitlə bitən heca.** Belə heca örtülü-açıq heca adlanır. *Məsələn, **sa-rı, qa-la, də-nə, tə-lə** və s.*

Beləliklə, Azərbaycan dilində mövcud olan hecanın növləri bunlardır: **saf heca, örtüsüz-qapalı heca, örtülü-qapalı heca, örtülü-açıq heca.**

**Hecanın tipləri.** Azərbaycan dilində heca növlərinin hər birinin (saf heca istisna olmaqla) müxtəlif heca tipləri vardır. Həmin heca tiplərində saitləri **s**, samitləri **m** işarəsi ilə göstərməklə heca növlərinin əsas tiplərini aşağıdakı kimi qruplaşdırmaq olar:



downloaded from KitabYurdu.org

**I. Saf heca:** s (i-ki, o-taq, ə-lək, ü-tü, i-lə, ə-la, a-di və s.). Göründüyü kimi, saf hecanın ancaq bir tipi vardır.

**Qeyd:** Türk dillərinin qədim dövründə təkcə bir sait səsdən ibarət olan sözlər olmuşdur: **u** (yuxu mənasında), **ö** (öyüd, nəsihət mənasında), **ı** (ağac, bitki mənasında) və s. Ancaq indi bu cür sözlər çox azdır. *Məsələn, Azərbaycan dilində yalnız o sözü üçüncü şəxsin təkini bildirən şəxs və işarə əvəzliyi kimi işlənir.*

**II. Örtüsüz-qapalı hecanın tipləri.** Örtüsüz-qapalı hecanın tipləri aşağıdakılardır:

**a)** bir sait + bir samitdən ibarət olan örtüsüz-qapalı hecalar (sm): **üç, ad, əl, iç-mək, at-maq** və s.

**b)** bir sait + iki samitdən ibarət olan örtüsüz qapalı hecalar (smm): **üst, alt, üzv, eşq, əhd, əks, ilk, irs, eyb, akt, eks-kavator, okt-yabr, abs-trakt** və s.

**c)** bir sait + üç samitdən ibarət olan örtüsüz-qapalı hecalar (smmm): **Orsk, Omsk, Ole-andr, meo-andr.** Dilimizdə örtüsüz-qapalı hecanın bu tipi çox az hallarda işlənir. Həm də bu heca tipi dilimizin lüğət tərkibinə alınma sözlər olmaqla daxil olmuşdur. Misallardan o da görünür ki, bu heca tipində ən azı bir, ən çoxu isə iki sonor samit zəruri olaraq işlənir.

**III. Örtülü-açıq hecanın tipləri.** Örtülü-açıq hecanın tipləri aşağıdakılardır:

**a)** bir samit + bir saitdən ibarət olan örtülü-açıq hecalar (ms): **do-lu, ça-la, ne-cə, cə-za, nü-və, di-ri, ri-ca, ka-sa, Ba-kı, kü-çə, yi-yə, ba-ba, bu, fo-to, ha-va** və s.

**b)** iki samit + bir saitdən ibarət olan örtülü-açıq hecalar (mms): **kre-dit, kro-vat, qlo-bus, flo-ra, qra-fin, plo-kat, bri-qada,tra-gediya, sme-ta, qno-seoloji, qlü-koza** və s. Bu tipli hecalar Azərbaycan dilində nisbətən çox işlənir. Ancaq bu tipli hecalar Azərbaycan sözlərində deyil, alınma sözlərdə müşahidə olunur.

**c)** üç samit + bir saitdən ibarət olan örtülü-açıq hecalar (mmms): **knya-gina, skle-ra, skle-roz, şlya-pa, stra-teq, stro-fant** və s. Bu heca tipi Azərbaycan sözlərində deyil, alınma sözlərdə müşahidə edilir.



downloaded from KitabYurdu.org

**IV. Örtülü-qapalı hecanın tipləri.** Örtülü-qapalı hecanın tipləri aşağıdakılardır:

**a)** bir samit + bir sait + bir samitdən ibarət olan örtülü-qapalı hecalar( msm): **din, dil, diş, qaç, büz-mək, böy-rək, mət-bəx, fıs-tıq, fab-rik, məf-tun, məf-hum, möv-süm, məs-kən, fut-bol, mor-fem** və s. Bu heca tipi Azərbaycan dilinin fonetik quruluşu üçün xarakterikdir. Ona görə ki, onların içərisində xalis Azərbaycan sözləri də vardır.

**b)** bir samit + bir sait + iki samitdən ibarət olan örtülü-qapalı hecalar (msmm): **qulp, dərd, sərt, mərd, qart, kürk, bərk, kənd, dörd, yurd, qənd, qurd, hirs, bürc, sirk, çırp-maq, qorx-maq, dart-maq, cəng, ləng, rəng, künc, meyl, nəql, zebr, fəxr, səbr, hüsn, zəhm, nəzm, dövr** və s. Misallardan görünür ki, bu heca tipi həm xalis Azərbaycan sözlərində, həm də alınma sözlərdə işlənir.

**c)** iki samit + bir sait + bir samitdən ibarət olan örtülü-qapalı hecalar (mmsm): **ştab, şkaf, ştat, psix, pyes, plov, plan, klub, qrov, qrup, qrip, priz, qraf, prak-tik, trak-tor, fraq-ment, flaq-man, xris-tian, krax-mal, snay-per, knop-ka** və s. Bu heca tipi bəzi xalis Azərbaycan sözləri istisna olmaqla (məs.: plov, qrov...) dilimizə yalnız rus dilindən və rus dili vasitəsilə avropa dillərindən keçmiş sözlərdə işlənir.

**ç)** iki samit + bir sait + iki samitdən ibarət olan örtülü-qapalı hecalar (mmsmm): **sport, press, spirt, frank, trest, şrift, blank, bronx, ştamp, ştanq, tromb, trans-portyo**r və s.

Azərbaycan dilində bu heca tipində işlənən sözlər alınma sözlərdir.

**d)** bir samit + bir sait + üç samitdən ibarət olan örtülü-qapalı hecalar (msmmm): **filtr, Marks, Çarlz, Tomsk, ka-nistr, ma-gistr, Alek-sandr, İ-jevsk, Kislo-vodsk** və s. Misallardan göründüyü kimi, bu heca tipi Azərbaycan dilinə keçmiş alınma sözlərdə işlənir və onların sayı çox azdır. Xalis Azərbaycan sözlərində bu heca tipi yoxdur.

**e)** üç samit + bir sait + bir samitdən ibarət olan örtülü-qapalı hecalar (mmmsm): **knyaz, ştrix, şpris, plyaj, skrip-ka,**





downloaded from KitabYurdu.org

**struk-tura** və s. Bu heca tipi Azərbaycan dilində yalnız alınma sözlərdə işlənir və onların miqdarı məhduddur.

**ə)** üç samit + bir sait + iki samitdən ibarət olan örtülü-qapalı hecalar (mmmsmm): **sprint, splanx-nologiya, ştreyx-brexer.** Məhdud işlənən heca tipidir.

**f)** iki samit + bir sait + üç samitdən ibarət olan örtülü-qapalı hecalar (mmsmmm): **spektr, Dnestr, Şvarts.** Bu heca tipi Azərbaycan dilində çox məhduddur və alınma sözlərdə işlənir.

**g)** üç samit + bir sait + üç samitdən ibarət olan örtülü-qapalı hecalar (mmmsmmm): **Bryansk...** Azərbaycan dilində məhdud işlənən heca tipidir.

**ğ)** bir samit + bir sait + dörd samitdən ibarət olan örtülü-qapalı hecalar (msmmmm): **Voljsk...** Bu heca tipi Azərbaycan dilində çox məhduddur.

**h)** iki samit + bir sait + dörd samitdən ibarət olan örtülü-qapalı hecalar (mmsmmmm): **qross-smeystr...** Azərbaycan dilində bu heca tipi olduqca məhduddur.

Beləliklə, Azərbaycan ədəbi dilində 18 heca tipi vardır. Onlardan yeddisi həm əsil Azərbaycan sözlərində, həm də alınma sözlərdə işlənir. Həmin heca tipləri bunlardır: *s, sm, ms, msm, smm, msmm, mmsm.* Yerdə qalan on bir heca tipi isə yalnız alınma sözlərdə olan heca tipləridir. Alınma sözlərdə olan heca tipləri isə bunlardır: *mms, mmms, smmm, mmsmm, msmmm, mmmsm, mmmsmm, mmsmmm, mmmsmmm, msmmmm, mmsmmmm.*

## Heca tiplərində saitlər və samitlər

Dilimizdə olan heca tipləri həm saitləri, həm də samitləri öz tərkibində qoruyub saxlayır. Saf heca istisna olmaqla, yerdə qalanların hamısının tərkibində saitlərlə yanaşı, samitlər də iştirak edir. Ona görə də heca tiplərinin əksəriyyəti saitləri və samitləri özündə əks etdirir. Azərbaycan dilində heca tiplərini saitlərin



downloaded from KitabYurdu.org

və samitlərin növünə görə də qruplaşdırmaq olar. *Məsələn, saitlərin qalın, incə, dodaqlanan, dodaqlanmayan və s., samitlərin küylü, sonorlu və s. olmasına görə heca tiplərini qruplara bölmək olar.* Bu mənada heca tiplərində saitləri və samitləri nəzərə alaraq onları qruplara ayırmaq mümkündür.

**Heca tiplərində saitlər.** Azərbaycan dilində ahəng qanunu dərin kök salmış bir qanundur. Bu qanun dilimizin fonetik quruluşunun özünəməxsusluğunu təmin edən göstəricilərdən biridir. Ahəng qanunu söz köklərində özünü göstərməklə yanaşı, həm də onlara qoşulan şəkilçilərdə özünü göstərir. Belə ki, dilimiz iltisaqi quruluşlu olduğundan sözlərə qoşulan şəkilçilər özündən əvvəlki heca düzəldən saitlə uyğunlaşır. Həm də sözlərə qoşulan şəkilçilər özündən sonra gələn hecanı da özünə uyğunlaşdırır, tabe edir. Sözlərdəki hecadüzəldən saitlərin bir-birinə uyğunlaşması həmcins saitlərdən ibarət silsilə yaradır. *Məsələn,* ***üzümçülük*** *sözündə* ***ü-ü-ü-ü*** *silsiləsi,* ***uzunçuluq*** *sözündə* ***u-u-u-u*** *silsiləsi əmələ gəlir.* Misallar göstərir ki, hecalar saitlər əsasında formalaşmaqla yanaşı, həm də hər bir saitin növü də hecalarda fərqlənir. Məhz dilimizdəki hecaları həmin hecalardakı saitlərin növündən asılı olaraq iki əsas qrupa bölmək olar: **I. Qalın hecalar; II. İncə hecalar.**

**I. Qalın hecalar.** Qalın hecaların hecadüzəldən saiti qalın olur. Bu hecalar **a, ı, o, u** saitləri əsasında formalaşır. Məsələn, **at, on, uzun** və s.

Qalın hecalar öz növbəsində qapalı və açıq növlərə ayrılır. Qapalı hecanın tərkibində qapalı **ı, u;** açıq hecanın tərkibində **a, o** açıq saitləri iştirak edir. *Məsələn,* ***at, qar, şal, od, qol, yol*** *və s. (açıq hecalar);* ***qır, qırmızı, qızıl, uzun, ud*** *və s. (qapalı hecalar).*

Qalın hecaları damaq və dodaq hecaları olmaqla da növlərə ayırmaq olur. Damaq hecalarının tərkibində dodaqlanmayan **a, ı** saitləri, dodaq hecalarının tərkibində dodaqlanan **o, u** saitləri iştirak edir. *Məsələn,* ***al, qırıq*** *və s. (damaq hecaları);* ***on, ol, quru*** *və s. (dodaq hecaları).*

Qalın hecanın qapalı, açıq, damaq və dodaq növlərini şəkil-







downloaded from KitabYurdu.org

çilərdə də ayırmaq olar. *Məsələn,* ***-mış, -ır, -muş, -duq*** *(qapalı heca);* ***-la, -ma*** *(açıq heca);* ***-lar*** *(damaq heca);* ***-lu*** *(dodaq heca) və s.*

**Qeyd:** Qalın hecanı yaradan **a, ı, o, u** saitlərindən **o** saiti söz köklərində işlənsə də, şəkilçilərin tərkibində işlənmir. Qalın hecalarla bağlı yuxarıda deyilənləri nəzərə alaraq onun növlərini əyani olaraq aşağıdakı kimi göstərmək olar:




**II. İncə hecalar.** İncə hecaların hecadüzəldən saiti incə olur. Bu hecalar **e, ə, i, ö, ü** saitləri əsasında formalaşır. *Məsələn,* ***el, əl, il, ön, ün*** *və s.*

İncə hecalar açıq, qapalı, yarımqapalı növlərə ayrılır. İncə açıq hecanın tərkibində açıq **ə, ö** saitləri, incə qapalı hecanın tərkibində **i, ü** saitləri, incə yarımqapalı hecanın tərkibində **e** saiti iştirak edir. *Məsələn,* ***ət, mərd, mən*** *və s. (incə açıq heca);* ***it, iş, gün*** *və s. (incə qapalı heca);* ***en, el, bel*** *və s. (incə yarımqapalı).*

İncə hecaların damaq və dodaq növlərini də ayırmaq olur. İncə hecaların damaq növündə hecadüzəldən **ə, e, i** saitləri iştirak edir. *Məsələn,* ***sən, dən, min*** *və s. Dodaq növündə isə hecadüzəldən* ***ö, ü*** *saitləri iştirak edir. Məsələn,* ***söz, düz, üz*** *və s.*

İncə hecaların açıq, qapalı, yarımqapalı, damaq və dodaq növlərini şəkilçilərdə də ayırmaq olar. *Məsələn,* ***-lər*** *(incə açıq heca),* ***-miş*** *(incə qapalı heca),* ***-müş*** *(incə qapalı heca) və s.*

**Qeyd:** İncə hecanı yaradan **e, ə, i, ö, ü** saitlərindən **e, ö** saitləri söz köklərində işlənsə də, şəkilçilərin tərkibində işlənmir.





downloaded from KitabYurdu.org

İncə hecalarla bağlı deyilənləri nəzərə alaraq onun növlərini əyani olaraq aşağıdakı kimi göstərmək olar:




Qalın hecaların tərkibində **a, ı, o, u,** incə hecaların tərkibində **e, ə, i, ö, ü** saitlərinin iştirak etdiyinə əsaslanaraq cəmi 9 saitin Azərbaycan dilində mövcud olduğunu bir daha qeyd etmək lazımdır.Yəni hecaların tərkibində **a, ı, e, ə, i, ö, ü** saitlərindən biri iştirak edir. Məhz Azərbaycan dilində hecaları saitlərin növünə görə də qruplaşdırmaq olar. 9 saitin hər birini nəzərə alaraq hecalar saitin növünə görə aşağıdakı kimi qruplaşdırılır.

**I.** Qalın, dodaq, açıq saitli və ya **o** saitli hecalar: **on, sor, yor, qol, ot** və s. Bu hecalarda **o** saiti iştirak edir.

**II.** Qalın, damaq, açıq saitli və ya **a** saitli hecalar: **at, al, qan, qaz** və s. Bu hecalarda **a** saiti iştirak edir.

**III.** Qalın, dodaq, qapalı saitli, və ya **u** saitli hecalar: **ud, un, qur, dur** və s. Bu hecalarda **u** saiti iştirak edir.

**IV.** Qalın, damaq, qapalı saitli və ya **ı** saitli hecalar: **qız, qırx, qır, yığ** və s. Bu hecalarda **ı** saiti iştirak edir.

**V.** İncə, dodaq, açıq saitli və ya **ö** saitli hecalar: **göz, döz, böl, dön, ön** və s. Bu hecalarda **ö** saiti iştirak edir.

**VI.** İncə, damaq, açıq saitli və ya **ə** saitli hecalar: **əl, mən, dən, sən** və s. Bu hecalarda **ə** saiti iştirak edir.

**VII.** İncə, dodaq, qapalı saitli və ya **ü** saitli hecalar: **düz, ün, gün, sür** və s. Bu hecalarda **ü** saiti iştirak edir.

**VIII.** İncə, damaq, qapalı saitli və ya **i** saitli hecalar: **din, diz, il, iş** və s. Bu hecalarda **i** saiti iştirak edir.

**IX.** İncə, damaq, yarımqapalı saitli və ya **e** saitli hecalar: **el,**





downloaded from KitabYurdu.org

**en, deş, beş, eş** və s. Bu hecalarda **e** saiti iştirak edir.

**Qeyd:** Azərbaycan dilində **o, ö, e** saitləri sözün ilk hecalarında olsa da, şəkilçilərin tərkibində bəzi istisnaları nəzərə almasaq, əsasən, olmur. Bu mənada qalın, dodaq, açıq saitli və ya **o** saitli hecalar, incə, dodaq, açıq saitli və ya **ö** saitli hecalar və incə, damaq, yarımqapalı saitli və ya **e** saitli hecalar şəkilçilərin tərkibində olmur.

**Heca tiplərində samitlər.** Hecalar saitlər əsasında formalaşsa da, onların tərkibində samitlər də iştirak edir. Bu baxımdan hecanın tərkibində samitlərin növünün də nəzərə alınması vacibdir. Hecaların bəzilərində bir neçə samit yanaşı gəlir. Həmin samitlərin bəzilərində küylü samitlər, bəzilərində küylü - sonorlu samitlər, bəzilərində isə sonorlar iştirak edir. Məhz bunları nəzərə alaraq hecalardakı samitlərin növünə görə onları üç qrupa bölmək olar: I. *Küylü heca;* II. *Sonorlu heca;* III. *Küylü-sonorlu heca.*

**I. Küylü heca.** Küylü hecanın tərkibində yalnız küylü samit olur. Bu hecanın tərkibində bir, iki, üç... və s. küylü samit ola bilir. *Məsələn, **şkaf, ştat, pyes, taxt** və s.*

**Qeyd:** Küylü heca şəkilçilərin tərkibində də işlənir: **-dı**$^4$, **-tı**$^4$, **-da**$^2$ və s.

**II. Sonorlu heca.** Sonorlu hecanın tərkibində yalnız sonor samit olur. *Məsələn, **nar, nal, əl, nəm, mal** və s.*

**Qeyd:** Sonorlu heca şəkilçilərin tərkibində də işlənir: **-ım**$^4$, **-ın**$^4$, **-ıl**$^4$ və s.

**III. Küylü-sonorlu heca.** Küylü-sonorlu hecanın tərkibində həm küylü, həm də sonor samitlər iştirak edir. *Məsələn, **tar, gəl, gör, tər, dər, sər, alt, ilk, ört** və s.*

Küylü-sonorlu hecalarda yanaşı gələn küylü-sonorlu samitlərin sayı bir, iki, üç... və s. ola bilir. *Məsələn, **and, alt, şpris, spektr** və s.* Türk dillərində olduğu kimi, Azərbaycan dilində də bir heca daxilində samitlərin yanaşı gəlməsi qanunauyğunluq deyil, əsa-





downloaded from KitabYurdu.org

sən, müstəsna hal kimi özünü göstərir. Düzdür, xalis Azərbaycan sözlərinin bəzilərində iki samit yanaşı gəlir: **dörd, qorx, qırx, hürk** və s. Ancaq belə sözlərdə yanaşı gələn samitlərdən biri sonordur. Sonorların fonetik keyfiyyətində avazın, tonun olması onların saitlərə yaxınlaşması üçün imkan və şərait yaradır. Bəzi dillərdə (məsələn, ingilis dilində) sonorlar saitlər kimi heca düzəldir. Deməli, xalis Azərbaycan sözlərində samitlərin yanaşı gəlməsinə sonorlar imkan yaradır. Yanaşı gələn samitlərdən birinin sonor olması isə onun (sonorun) saitlərə yaxın olmasıdır. Yanaşı gələn samitlərdən birinin sonor olması hecanın aydın tələffüzündə mühüm rol oynayır. Belə ki, hecanın sonunda yalnız küylü samitlər yanaşı gələrsə, tələffüz zamanı iki vəziyyət özünü göstərir. Bəzi sözlərdə yanaşı gələn küylü samitlərdən sonuncusu zəifləmiş vəziyyətdə tələffüz olunur: **neft, səhv, dost** və s. Bəzilərində isə yanaşı gələn samitlərdən ikincisi tələffüz zamanı ixtisar olunur: **rast** (ras), **vaxt** (vax), **üst** (üs) və s. Ancaq yanaşı gələn samitlərdən biri sonor olduqda, əsasən, samitlər normal vəziyyətdə tələffüz olunur: **ört, ölç, qənd, kənd, borc, əmr, cəbr, and** və s.

## Heca üçbucaqları

Azərbaycan dilində sait və samitlərin müəyyən qayda əsasında, ardıcıl, sistemli sıralanması dilimizin fonetik quruluşunun özünəməxsusluğu ilə bağlıdır. Sait-samit, yaxud samit-sait ardıcıllığı heca üçbucaqlarının yaranması ilə nəticələnir. Heca üçbucaqlarında hecadüzəldən səslər-saitlər yüksək gücə malik olur. Ancaq samitlər isə aşağı gücə malik səs hesab olunur. Buna baxmayaraq, hecada samitin mövqeyindən asılı olaraq onun gücü dəyişə bilir. Samitin saitdən əvvəl və sonra gəlməsindən asılı olaraq onun güc dərəcəsi dəyişir. Saitlərin güc dərəcəsi onların heca düzəldən səs olmasından asılı olaraq, əsasən, bərabər gücdə olur. Və düz xətlə göstərilir. Yeri gəlmişkən onu da qeyd edək ki, saitlər heca üçbucağında heca zirvəsini təşkil edir. Ona



downloaded from KitabYurdu.org

görə də saitdən əvvəl gələn samit heca zirvəsinə (saitə) doğru qalxır və güclənən səs (samit) hesab olunur. Saitdən sonra gələn samit isə heca zirvəsindən (saitdən) aşağı düşdüyünə görə zəifləşən səs (samit) adlanır. Bunu əyani olaraq **gəl, get, yaz** sözlərinin heca üçbucaqları əsasında göstərmək olar.




Göründüyü kimi, bu sözlərdə **g, y** samitləri güclənən səs, l, t, z samitləri zəifləşən səs, **ə, e, a** saitləri isə heca zirvəsidir. Heca üçbucağında  güclənən səs bu üçbucağın yüksələn, qalxan xəttini, zəifləşən xətt isə düşən, enən xəttini təşkil edir.

Azərbaycan dilindəki sözlərin bəziləri bir hecadan ibarət olsa da, bir qismi isə bir neçə hecadan yaranır, təşkil olunur. Ona görə də sözdəki bir neçə hecalar birləşərək heca silsiləsini yaradır. Sözdəki hər bir heca **heca üçbucağı**, heca üçbucaqları isə **heca üçbucağı silsiləsi** yaradır. Deməli, sözdəki heca üçbucaqları heca üçbucağı silsiləsi yaradır. Bunu daha yaxşı başa düşmək üçün **yuxarıdakılar** sözündəki heca üçbucağı silsiləsinə diqqət yetirək:




Bu misalda heca üçbucağı silsiləsi sait bucaqlarının cəmindən ibarətdir. Həmin sait bucaqları bunlardır: **u + a + ı + a + ı + a.**

Söz tərkibindəki heca üçbucaqları bir-biri ilə üzvi surətdə bağlanır. Bunu yuxarıda verilən misal təsdiq edir. Onu da qeyd edək ki, nitq axınında müxtəlif sözlərin yanaşması ilə yaranmış heca üçbucaqları isə bir-biri ilə tam şəkildə, üzvi sürətdə bağ-



downloaded from KitabYurdu.org

lanmır. *Məsələn,* ***Həyət təmiz idi*** *nümunəsindəki heca üçbucaqlarına diqqət yetirək:*




Burada çəkilmiş qırıq-qırıq xətlər üzvi sürətdə bağlanmamış heca üçbucaqlarını göstərir. Onu da qeyd edək ki, heca üçbucaqlarının üzvi sürətdə bağlanmamasında nitq axınında yanaşı işlənən sözlər arasında intonasiyanın mövcud olmasının böyük rolu vardır.

Müasir Azərbaycan dilində heca üçbucaqlarını müəyyənləşdirərkən aşağıdakılara diqqət yetirmək lazımdır:

**I.** Samit-sait-samitdən ibarət olan hecalar birbaşa heca üçbucağına uyğun gəlir. *Məsələn:*




**II.** Sait-samit-saitdən ibarət olan hecalar da birbaşa heca üçbucağına uyğun gəlir. *Məsələn:*




**III.** İki yanaşı hecalar əmələ gətirən saitlər arasında iki samit gələrsə, onda həmin samitlərdən birincisi zəifləşən samit kimi heca üçbucağının enən xəttini, ikincisi isə güclənən samit kimi heca üçbucağının yüksələn xəttini əmələ gətirir. *Məsələn:* ***aşdı, axdı*** *və s.*



downloaded from KitabYurdu.org







**IV.** İki yanaşı hecalar əmələ gətirən saitlər arasında üç samit gələrsə, onda birinci samit zəifləşən samit kimi heca üçbucağının enən xəttini, ikinci samit enən bucağını, üçüncü samit isə güclənən samit kimi ikinci sait bucağına doğru yüksələn, qalxan xətti təşkil edir. *Məsələn:*







**V.** Hecanı əmələ gətirən saitdən əvvəl iki samit, sonra isə bir samit gələrsə, onda birinci samit heca bucağını, ikinci samit qalxan xətti, saitdən sonra gələn üçüncü samit isə enən xətti (bucağı) təşkil edir. *Məsələn:*




**Qeyd:** Ə.Dəmirçizadə bəzi alınma sözlərdə yanaşı gələn iki saitin (iki hecanın) bir bucaq yaratmamasından bəhs etmişdir. Doğrudan da belə hecalarda hecadüzəldən saitlər arasında samit olmur. *Məsələn:* ***sa-at, su-al, du-a, ma-aş, mü-a-vin, mü-əl-lim, ra-di-o*** *və s.*



downloaded from KitabYurdu.org

## Səslərin güc dərəcəsinə görə heca tipləri

Heca tərkibində olan saitlərin güc dərəcəsi yüksək, samitlərinki isə mövqeyindən asılı olaraq zəifləşən və güclənən olur. Bunları nəzərə alaraq hecaların tərkibindəki səsləri güc dərəcəsinə görə üç tipə bölmək olar: I. Nöqtə (saf) heca; II. Mail ox heca; III. Bucaq heca.

**I. Nöqtə (saf) heca.** Belə hecalar təkcə bir saitdən ibarət olur. Bu heca saitin üstünə qoyulan nöqtə ilə işarə olunur. *Məsələn, **ȧ-na, ȧ-ta, ȯ-na** və s.*

**II. Mail ox heca.** Mail ox hecanın iki növü var: a) **örtülü-açıq mail ox heca,** b) **örtüsüz-qapalı mail ox heca.**

a) **örtülü-açıq mail ox heca.** Bu heca $45^0$ sağa maili ox ilə ucu yuxarı istiqamətdə göstərilir. Samitlə başlayıb, saitlə qurtaran hecalar buna misal ola bilir. *Məsələn: **bu, su, de** və s.*

**bu** **su** **de**




**b) örtüsüz-qapalı mail ox heca.** Bu heca $45^0$ sola maili ox ilə ucu aşağı istiqamətdə göstərilir. Saitlə başlayıb, samitlə qurtaran hecalar buna misal ola bilir. ***Məsələn: at, iş, ölç** və s.*

**at** **iş** **ölç**






downloaded from KitabYurdu.org

**III. Bucaq heca.** Belə hecalar örtülü-qapalı hecalardır. Bucaq hecaların yan xətlərinin birinin ucu yuxarı, digərinin ucu isə aşağı yönəlmiş olur. Ucu yuxarı, sağa doğru maili ox güclənən səsi, ucu aşağı, sola maili ox isə zəifləşən səsi göstərir. *Məsələn,* ***qar, dörd, plan*** *və s.*

**qar** **dörd** **plan**




Bucaq hecalarda güclənən və zəifləşən səslərin dərəcəsi eyni olmur. Güclənmənin və zəifləşmənin dərəcəsi güclənən, zəifləşən samitin kar, cingiltili, sonor olmasından asılıdır. Əlbəttə, bunları yaxşı başa düşmək üçün hecaları tələffüz edib, müşahidə aparmaq lazımdır. Bunun üçün təcrübi fonetikanın imkanlarından isifadə etməyə ehtiyac vardır.

## Nitq axınının hecalanma meyarı

Nitqin fonetik parçalarından biri olan sözlər hecalara ayrılarkən aşağıdakı meyarlardan istifadə olunur.

**I.** Nitq axınında iki sait yanaşı gələrsə, onların hər biri bir hecanın hecadüzəldən saiti olur və belə hecaların sərhədi aşağıdakı kimi ayrılır:

**a)** Söz köklərində yanaşı gələn saitlərdən birincisi əvvəlki hecanın qurtarma, bitmə sərhədi, ikincisi isə ikinci hecanın önündə, başında olur. *Məsələn,* ***sa-at, şa-ir, mü-əl-lim*** *və s.* Göründüyü kimi, hecalardan birincisi açıq heca, ikincisi isə örtüsüz hecadır.

**b)** Sonu saitlə qurtaran söz köklərinə saitlə başlayan şəkilçi qoşulduqda köklə şəkilçi arasına bitişdirici samit artırılır. Bu zaman hecalanan sözdə bitişdirici samit ikinci hecaya qoşulur.



downloaded from KitabYurdu.org

*Məsələn,* ***nə-yə, su-ya, o-na, bu-na.*** Göründüyü kimi, şəkilçilərə qoşulan bitişdirici samitlər örtülü hecanı yaradır.

**II.** Nitq axınında iki sait arasında bir samit gəlirsə, həmin samit ikinci saitə qoşulur. Bu zaman nitq axınında olan belə sözlər iki hecaya bölünür: **a-na, a-ta** və s. Göründüyü kimi, birinci heca açıq, ikinci heca örtülü heca olur. Dilimizdə **əl, il, dil** və s. sözlərə saitlə başlayan şəkilçi qoşulduqda sözlə şəkilçinin heca sərhəddi dəyişir. Belə ki, belə sözlərin sonundakı samit ayrılaraq şəkilçinin tərkibinə qoşulur: əl→ə-lin, il→i-lin, dil→di-lə və s.

**III.** Nitq axınında iki sait arasında iki samit gələrsə, onlar saitlər arasında bərabər şəkildə bölüşdürülür. Samitlərdən birincisi əvvəlki saitə, ikincisi isə sonrakı saitə qoşulur. *Məsələn,* ***al-ma, qar-ğa, qur-ğu, duy-ğu, Hin-dis-tan, proq-res*** *və s.* Yeri gəlmişkən onu da qeyd edək ki, bəzi alınma sözlərin tərkibində yanaşı işlənən **qr** samitləri orfoqrafiya qaydasına görə hecalar arasında bölünmür. Beləliklə, belə sözlərdə **qr** keçirilən hecanın önündə olur: **foto-qraf, pro-qram, tele-qram** və s.

**IV.** Nitq axınında iki sait arasında üç samit olduqda birinci və ikinci samit əvvəlinci saitə, üçüncü samit isə sonrakı ikinci saitə qoşulur: **alt-da, üst-də, gənc-lər, dinc-lik** və s. Burada birinci heca (iki samitlə qurtaran) qapalı, ikinci heca (bir samitlə başlayan) örtülü heca olur.

**V.** Nitq axınında iki sait arasında dörd samit olduqda samitlər hecalar üzrə aşağıdakı qaydalarda bölünür:

**a)** Sözün tərkibindəki yanaşı gələn dörd samitdən ikisi əvvəlinci saitə, ikisi isə sonrakı ikinci saitə qovuşur: **abs-trakt, trans-krip-siya** və s.

**b)** Üç yanaşı gələn samitlə bitən söz sonuna samitlə başlayan şəkilçi qoşulduqda üç yanaşı samit əvvəlki birinci hecanın tərkibində, dördüncü samit (yəni şəkilçinin tərkibindəki samit) ikinci hecanın tərkibində qalır: **şvarts-dan, izoseyst-lər** və s. Göründüyü kimi, burada sözün və şəkilçinin sərhədi sabit qalır.

Yeri gəlmişkən onu da qeyd edək ki, iki sait arasında dörd samitin gəlməsi halları alınma sözlərin daxilində baş verir.

**VI.** Nitq axınında iki sait arasında iki samit gəldikdə və bu





downloaded from KitabYurdu.org

samitlərdən birincisi kar, ikincisi sonor olduqda samitlər saitlər arasında bərabər bölünmür. Bu zaman kar samit sonorla birlikdə ikinci saitin əmələ gətirdiyi hecaya qoşulur: **hid-ro-plan, av-to-trans** və s. Burada kar samitin sonorla birlikdə ikinci hecanın əmələ gətirdiyi hecaya düşməsi səbəbi kar samitlə sonorun yapışmış halda tələffüz olunması ilə bağlıdır.

**VII.** Nitq axınında bəzi sözlərdə iki sait arasında gələn üç samitdən birincisi əvvəlki hecaya, ikinci və üçüncüsü isə sonrakı hecaya qoşularaq hecalara bölünür: **sen-tyabr, ak-tyor, kon-kret** və s.

**Qeyd:** Nitq axınının hecalanma meyarı fonetikada, sözlərin sətirdən-sətrə keçirilmə qaydaları orfoqrafiyada öyrənilir.

Yuxarıda qeyd olunan misallardan göründüyü kimi, nitq axınının hecalanması həm söz köklərində, həm də söz köklərinə şəkilçilər qoşulduqda baş verir. Bu zaman bəzən söz kökünün, bəzən isə şəkilçinin tərkibindəki səs ya artır, ya da azalır. Bu, kəmiyyət və keyfiyyət dəyişməsi ilə artır.

Kəmiyyət dəyişməsi aşağıdakı hallarda özünü göstərir:

**a)** Söz köklərinə şəkilçi qoşulduqda nitq axınında hecalanma zamanı hecanın tərkibindəki səslər dəyişir, birində artır, digərində azalır və s. *Məsələn:*

| *Söz kökünə şəkilçinin qoşulması:* | *Söz kökünə şəkilçi qoşulduqdan sonra baş verən hecalanma:* |
|---|---|
| iş-i | i-şi |
| söz-ü | sö-zü |
| diş-i | di-şi |
| ev-i | e-vi və s. |

**b)** Söz köklərinə şəkilçi qoşulduqda bəzən köklə şəkilçi arasında müəyyən səslər artım kimi işlənir. Bu zaman hecanın tərkibində səs artımı özünü göstərir: **ana-ya, ata-ya, əmi-s-i, bibi-s-i** və s.

**c)** Söz kökünə şəkilçi qoşulduqda bəzən kökün tərkibində müəyyən səslər düşür: **oyun – oy-nu, qoyun – qoy-nu, oğul – oğ-lu** və s.



downloaded from KitabYurdu.org

Keyfiyyət dəyişməsi dedikdə səslərin keyfiyyətcə uyuşması başa düşülür. Yəni söz köklərində və onlara şəkilçi qoşulduqda ahəng qanununun özünü izləməsi buna misal ola bilər.

**Qeyd:** Nitq axınının hecalara bölünməsi heca növləri və onların xüsusiyyətlərinin öyrənilməsində, orfoqrafiya və orfoepiya qaydalarının dərindən mənimsənilməsində, ifadəli oxu vərdişlərinin aşılanmasında, natiqlikdə və vokal sənətində çox zəruri hesab olunan bir meyardır.





downloaded from KitabYurdu.org

# Azərbaycan dilində fonetik hadisə və qanunlar

Azərbaycan dilinin fonetik, qrammatik quruluşu, eyni zamanda dilimizin lüğət tərkibi dəyişir, inkişaf edir. Bu dəyişmə, inkişaf bəzən keçici xarakter daşıyır, bəzən isə ümumiləşdirici məzmun və mahiyyətdə olur. Yəni dildə baş verən bəzi dəyişmələr, inkişaf həmişə təkrarlanır. Bəzən isə təsadüfi mahiyyət daşıyaraq keçici məzmun kəsb edir. Odur ki, dildə ən mühüm, ən zəruri, həmişə təkrarlanan hadisələr, proseslər qanunilәşir. Ancaq həmişə təkrarlanmayan, təsadüfən baş verən, yaxud da keçici şəkildə özünü göstərən hadisələr hadisə olaraq qalır. Bununla da dildə olan bəzi proseslər qanuniləşir, bəziləri isə hadisəyə çevrilir. Beləliklə, dildə qanunlar və hadisələr özünü göstərir. Qanun və hadisələr təbiətdə və cəmiyyətdə də mövcuddur. Məsələn, *təbiətdə yaz, yay, payız* və *qış* fəsillərinin ardıcıl olaraq bir-birini əvəz etməsi bir qanunauyğunluqdur. Lakin yazda, yaxud yayda qar yağması təsadüfi bir hal olduğu üçün hadisədir. Deməli, hadisə təsadüflər nəticəsində baş verir, qanun səviyyəsinə yüksələ bilmir. Qanun isə eynicinsli hadisələrin təkrarı əsasında, həmişə mövcud olması ilə yaranır. *Məsələn, səhərin açılması, qaranlığın çökməsi həmişə təkrarlandığına görə bir qanunauyğunluq yaradır.*

Hər bir elmin özünəməxsus qanunları vardır. *Məsələn, fizi-*



downloaded from KitabYurdu.org

*kada Arximed qanunu, Nyutonun qanunu və s., dialektik və tarixi materializmdə inkarın inkarı, əksikliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi qanunları və s.* Yeri gəlmişkən qeyd edək ki, hər bir elmdə olduğu kimi dilçilik elmində də dilin qanunları mövcuddur.

Azərbaycan dilində mövcud olan qanun və hadisələrdən bəhs etməzdən əvvəl, qanun və hadisənin nəyə deyildiyini qeyd edək. **Dil vahidlərinin fonetik qabığında müxtəlif çalarlıqda təzahür edən hadisələr ümumiləşmiş halda fonetik hadisələr adlanır.** Deməli, dilimizin fonetik qabığında elə dəyişmələr baş verir ki, bunlar hələlik qanun şəklini almamış olur, fonetik hadisə olaraq qalır. Qanun isə hadisə və predmet arasında ən mühüm, ən zəruri, həmişə təkrarlanan əlaqələrin ifadəsidir.

Müasir Azərbaycan dilində fonetik hadisələr bunlardır: **uyuşma** (assimilyasiya), **səsfərqləşməsi** (dissimilyasiya), **səsdüşümü** (eliziya), **səsartımı** (proteza), **səsyerdəyişməsi** (metateza).

Müasir Azərbaycan dilindəki fonetik qanunlar bunlardır: **ahəng qanunu, cingiltiləşmə qanunu.**

## Fonetik hadisələr

**Uyuşma (assimilyasiya) hadisəsi.** Ədəbi tələffüz zamanı söz tərkibində yaxın və yanaşı səslərdən birinin digərinə (özündən əvvəlki və ya sonrakı səsə) təsir edərək onu özünə, yaxud məxrəc və akustik cəhətdən özünə yaxın olan səsə çevirməsi uyuşma hadisəsi adlanır. *Məsələn, anlamaq-**annamaq**, tapmaq-**tappaq** və s.* Deməli, uyuşma hadisəsi söz tərkibindəki səsin tələffüzü zamanı baş verir. Uyuşma hadisəsinin baş verməsi bir sıra səbəblərlə bağlı olur. Bunları əsasən aşağıdakı kimi ümumiləşdirmək olar:

**1)** Səs tellərinin iştirakından asılı olaraq uyuşma hadisəsi baş verə bilir. Belə ki, səs telləri bu və ya digər səsin tələffüzü za-





downloaded from KitabYurdu.org

manı gərgin vəziyyətdən qeyri-gərgin vəziyyətə və əksinə, qeyri-gərgin vəziyyətdən gərgin vəziyyətə keçə bilmir. Belə olduqda yaxın, yanaşı gələn kar və cingiltili samitlər uyuşma hadisəsinə uğrayır. Yəni yaxın, yanaşı gələn samitlərdən kar olan cingiltili samitin, cingiltili olan isə kar samitin təsiri ilə uyuşa bilir. *Məsələn, **tapmaq** əvəzinə **tappaq, atdı** əvəzinə **attı** kimi tələffüz olunur.* Burada **tapmaq** sözündə **m** samiti **p** samitinin, **atdı** sözündə **d** samiti **t** samitinin məxrəcində tələffüz olunmuşdur. Kar **p** samiti cingiltili-sonor **m** samitini, kar **t** samiti isə cingiltili **d** samitini tələffüz zamanı təsir edərək özünə uyuşdurmuşdur.

**2)** Uyuşma hadisəsi dilin iştirakına görə də baş verir. Belə ki, dil fəal danışıq üzvü olduğuna görə yaxın, yanaşı gələn səsləri tələffüz edərkən dil əvvəlki səsin tələffüzü zamanı aldığı vəziyyəti dəyişmir, sonrakı səsin tələffüzündə də həmin vəziyyətdə qalır. Bunun nəticəsində də yaxın, yanaşı gələn səslərdə uyuşma hadisəsi baş verir. Yeri gəlmişkən qeyd edək ki, söz tərkibində yanaşı gələn **nl, rl, zl, ml, tl, zs, ts** səs birləşmələri bir çox vaxt **nn, ll, zd, mn, td, ss səs** birləşmələri kimi tələffüz olunur. *Məsələn:*

| **yazılır:** | **tələffüz olunur:** |
|---|---|
| anlamaq | annamaq |
| çıxarlar | çıxallar |
| qızlar | qızdar |
| adamlar | adamnar |
| biletlər | biletdər |
| yazsa | yassa |
| getsə | gessə |

Misallardan göründüyü kimi, səs birləşmələrindən **nl “nn”; rl “ll”; zl “zd”; ml “mn”; tl “td”; zs “ss”; ts “ss”** kimi tələffüz olunur. Yuxarıda qeyd olunan misallardan birinin əsasında dilin iştirakı ilə uyuşma hadisəsinin baş verməsini izah edək. *Məsələn, **anlamaq** sözünü tələffüz edərkən **n** səsinin tələffüzündə di-*





downloaded from KitabYurdu.org

*lin uc hissəsi üst dişlərin öndə olanlarına toxunur, kipləşir və səs axını burundan çıxır.* Bu səsdən sonra gələn **l** səsinin formalaşması üçün dilin ön hissəsi damağa doğru qalxmalı və damaq pərdəsi ağız boşluğunun yolunu açaraq yuxarı qalxmalı, burun boşluğunun yolunu tutmalıdır. Bu zaman hava axını ağız boşluğundan çıxmalıdır. Ona görə də yanaşı gələn səs birləşməsində (nl) **n** samitinin məxrəcindən **l** samitinin məxrəcinə keçmək çətin olur. Bu çətinliklə bağlı olaraq dil əvvəlki vəziyyətində qalır və **nl** səs birləşməsi **nn** kimi tələffüz olunur.

**3)** Uyuşma hadisəsinin baş verməsi damaq pərdəsindən də asılı olur. Damaq pərdəsi ağız boşluğunun, yaxud da, burun boşluğunun yolunu kəsdikdə yanaşı gələn səs birləşmələrindəki samitlərdən biri o birini özünə, bəzən də özünə yaxın məxrəcdə olan səsə uyğunlaşdırır. *Məsələn, **adamlar** əvəzinə **adamnar, səndən** əvəzinə **sənnən** tələffüz olunur.* Belə ki, **adamlar** sözündəki **ml** səs birləşməsi ona görə **mn** kimi tələffüz olunur ki, bu sözdə **m** samitinin deyilişində damaq pərdəsi ağız boşluğunun yolunu kəsir, hava axını burun boşluğundan çıxır. Bu samitdən sonra gələn **l** samitini tələffüz etmək üçün gərək damaq pərdəsi burun boşluğunun yolunu kəssin. Damaq pərdəsi isə öz əvvəlki vəziyyətində qalır, ona görə də **ml** səs birləşməsi **mn** kimi tələffüz olunur.

Beləliklə, bütün bu deyilənlərdən aydın olur ki, uyuşma hadisəsinin baş verməsində **səs tellərinin, dilin** və **damaq pərdəsinin** fəal rolu vardır.

Uyuşma hadisəsinin mahiyyətini daha yaxşı başa düşmək üçün onun bu cəhətlərinə də diqqət yetirmək lazımdır: **uyuşmanın davamlılığı, uyuşmanın keyfiyyəti, uyuşmanın istiqaməti.**

**Uyuşmanın davamlılığı.** Uyuşma davamlılığına görə iki yerə ayrılır: **təsadüfi uyuşma, daimi uyuşma.**

**Təsadüfi uyuşma.** Söz kökünə şəkilçi artırıldıqda yanaşı gələn səslərdən biri digərinə təsir edərək onu özünə uyğunlaşdırır. Yəni təsadüfi uyuşma söz kökü ilə şəkilçi arasında gələn yaxın,





downloaded from KitabYurdu.org

yanaşı səslər arasında baş verir. *Məsələn,* ***qızlar*** *sözü* ***qızdar, tapmaq*** *sözü* ***tappaq*** *kimi tələffüz olunur.*

Təsadüfi uyuşma həm də müstəqil söz köklərindəki yaxın, yanaşı gələn səslər arasında da baş verir. Belə ki, birinci gələn sözün sonundakı samitlə ikinci sözün əvvəlindəki samit bir-birinə təsir edir, biri digərini özünə uyğunlaşdırır. *Məsələn,* ***od tək*** *ot tək* kimi, ***aç şalı*** *aş şalı* kimi, ***ad tap*** *attap* kimi tələffüz olunur.

Deməli, təsadüfi uyuşma Azərbaycan dilində iki halda özünü göstərir: **söz kökünə şəkilçi qoşulduqda və müstəqil söz köklərində yaxın, yanaşı gələn samitlər arasında.**

**Daimi uyuşma.** Daimi uyuşmaya ahəng qanunu misal ola bilər. İrəlidə ahəng qanunundan danışarkən daimi uyuşmadan bəhs edəcəyik.

**Qeyd:** Daimi uyuşma hadisə çərçivəsindən çıxaraq qanuniləşir. Yəni qanun səviyyəsinə yüksəlir. Bu, dildə həmişə təkrarlanan hadisə olduğuna görə qanuniləşə bilir.

**Uyuşmanın keyfiyyəti.** Uyuşma keyfiyyətinə görə **tam** və **natamam** olmaqla iki yerə ayrılır. **Tam uyuşmada** yaxın, yanaşı gələn səslərdən biri digərinə təsir edərək onu öz məxrəcində olan səsə çevirir. *Məsələn,* ***getsə****-gessə,* ***yazsa****-yassa,* ***anlamaq****-annamaq və s.* **Natamam uyuşma** zamanı yaxın, yanaşı gələn səslərdən biri digərinə təsir edərək onu öz məxrəcinə yaxın səsə çevirir. *Məsələn,* ***qızlar****-qızdar,* ***adamlar****-adamnar,* ***biletlər****-biletdər,* ***atlar****-atdar,* ***gözlük****-gözdük və s.*

**Uyuşmanın istiqaməti.** İstiqamətinə görə uyuşma iki yerə ayrılır: **irəli uyuşma, geri uyuşma.**

Təsir edən səs özündən sonrakı səsi öz məxrəcinə uyğunlaşdırırsa, onda **irəli uyuşma** yaranır. *Məsələn,* ***rəhbərlik****-rəhbərrik,* ***səndən****-sənnən,* ***anlamaq****-annamaq,* ***tapmaq****-tappaq və s.*

Təsir edən səs özündən əvvəlki səsi öz məxrəcinə uyğunlaşdırırsa, onda **geri uyuşma** yaranır. *Məsələn,* ***azca****-acca,* ***dinməz****-dimməz,* ***yavaşca****-yavacca,* ***rusca****-rucca,* ***yazsa****-yassa və s.*





downloaded from KitabYurdu.org

**Qeyd:** Uyuşma (assimilyasiya) hadisəsi dilimizin qədim dövrlərində də mövcud olmuşdur. *Məsələn, Xətainin yaradıcılığında: Müşk* ***iyləmənəm*** *üzü qaradır. Gül* ***dəstələmən*** *üzü paradır; Füzulinin yardıcılığında: Ancaq* ***deməzəm*** *ki, xaki-bağdad, Alayişi nəzmdəndir azad; Sözlər dersən ki,* ***bilməzəm*** *mən, Məzmununu fəhm* ***qılmazam*** *mən; Gedibən kuyində* ***qıllam*** *şivəni, Yığaram başıma dostu, düşməni; Vaqifin yaradıcılığında: Mələkdən də səni* ***billəm*** *ziyadə, Tay etmənəm heç insani mən sənə!; Bu gün bir əcayib gözəl sevmişəm, Beləsi* ***olammaz*** *heç vilayətdə; Çünki yorğunuyam mən bu yolların, Qaydasını* ***billəm*** *hər üsulların və s.*

**Səsfərqləşməsi (dissimilyasiya) hadisəsi.** Bəzən söz tərkibində eynicinsli səslərin təkrarı dildə ağırlıq törədir. Bu zaman eynicinsli səslərdən birinin digərinə təsiri nəticəsində səslərdən biri müxtəlif cinsdən olan səsə çevrilir, yəni dissimilyasiya hadisəsi baş verir.

Əgər uyuşma (assimilyasiya) hadisəsində yaxın və yanaşı gələn müxtəlif səslər eyni, oxşar, yaxın səsə çevrilirsə, səs fərqləşməsi (dissimilyasiya) hadisəsində isə bunun əksinədir. Yəni səsfərqləşməsi (dissimilyasiya) hadisəsində oxşar səslər müxtəlifləşir.

Səsfərqləşməsi (dissimilyasiya) hadisəsinə belə bir tərif vermək olar: **Söz tərkibində eynicinsli səslərdən birinin müxtəlifləşməsinə səsfərqləşməsi (dissimilyasiya) deyilir. Məsələn, kombayn-konbayn, lampa-lanpa, simvol-sinvol, hammal-hambal, tramvay-tranvay, ambar-anbar, sümbül-sünbül, akt-axt, qararmaq-qaralmaq, sararmaq-saralmaq, hətta-hətda, fantan-fantal, zərər-zərəl** və s.

**Qeyd: Qaralmaq** və **saralmaq** sözləri dilimizin tarixi ilə bağlı bir hadisədir. Tarixən **qaralmaq** "qara olmaq", **saralmaq** "sarı olmaq", **ağarmaq** "ağ ol-





downloaded from KitabYurdu.org

maq", **bozarmaq** "boz olmaq" modelində olmuşdur. Ancaq **qaralmaq, saralmaq** sözləri səsfərqləşməsi (dissimilyasiya) hadisəsinə uğrasa da, **ağarmaq, bozarmaq** sözləri bu hadisəyə uğramamışdır.

Səsfərqləşməsi (dissimilyasiya) hadisəsi iki yerə bölünür: yaxın səsfərqləşməsi (dissimilyasiya), uzaq səsfərqləşməsi (dissimilyasiya). Yaxın səsfərqləşməsi (dissimilyasiya) sözdəki yanaşı olan, qonşu olan səslərdən birinin digərinə təsiri ilə yaranır: **sümbül-sünbül, ambar-anbar** və s. Uzaq səsfərqləşməsi (dissimilyasiya) sözdəki (əsasən ikihecalı sözdəki) yanaşı olmayan, qonşu olmayan səslərdən birinin digərinə təsiri ilə yaranır: **zərər-zərəl, fantan-fantal, qərar-qəral** və s.

**Qeyd:** Azərbaycan dilində səsfərqləşməsi (dissimilyasiya) hadisəsinə uğramış **zərər, qaralmaq...** sözləri türk dillərində bu hadisəyə uğramadan işlənir: **zarar** (türk, qaqauz dillərində), **qaralmax** (türkmən dilində).

**Səsdüşümü (eliziya) hadisəsi.** Sözlərə söz qoşulduqda, eləcə də şəkilçi artırıldıqda səslərdən biri düşür. Buna səsdüşümü hadisəsi deyilir. Səsdüşümü hadisəsi həm saitlərin, həm də samitlərin düşümü ilə bağlıdır. Azərbaycan dilində sait səslərin düşümü aşağıdakı hallarda özünü göstərir.

**1)** Mürəkkəb sözlərin komponentlərindən biri saitlə qurtardıqda, ikincisi saitlə başlandıqda sait səslərdən biri düşür. *Məsələn,* ***Əli İsa → Əlisa, Mirzə Əli → Mirzəli, Əli Əşrəf → Ələşrəf*** *və s.*

**Qeyd:** Bəzən bir qrup bu qəbildən olan sözlərdə sait səs düşmür: **əliaçıq, üzüağ, istiot, ürəyiaçıq, əliəyri** və s.

**2) Ora, bura, hara** sözlərinə yerlik və çıxışlıq hal şəkilçiləri qoşulduqda söz kökünün sonundakı **a** saiti düşür:





downloaded from KitabYurdu.org

| | | | |
|---|---|---|---|
| **A.** | ora | bura | hara |
| **Y.** | oranın | buranın | haranın |
| **Yön.** | oraya | buraya | haraya |
| **T.** | oranı | buranı | haranı |
| **Yer.** | **orda** | **burda** | **harda** |
| **Ç.** | **ordan** | **burdan** | **hardan** |

**3)** Sonu saitlə bitən miqdar saylarının sonuna **-ıncı, -inci, -uncu, -üncü** sıra saylarını əmələ gətirən şəkilçilər artırıldıqda şəkilçilərin əvvəlindəki sait ixtisar olunur: **iki-nci, altı-ncı, yeddi-nci, əlli-nci, iyirmi-nci.**

**4)** Azərbaycan dilində elə ikihecalı isimlər var ki, özündən sonra saitlə başlanan şəkilçi qəbul etdikdə ikinci hecadakı sait düşür: **ağız-sənin ağzın, boyun-sənin boynun, alın-onun alnı** və s.

Bu cür sözlərin sonu **r, l, m, n** sonorlarından biri ilə bitir. Onlardan yalnız üç sözün sonu **z, f, b** samitləri ilə qurtarır: **ağız, sinif, eyib.**

Belə sözlər öz dilimizə və ərəb (o cümlədən fars) dilinə məxsus olan sözlərdir. Əgər bu cür sözlər dilimizə ərəb (o cümlədən fars) dilindən keçmişdirsə, onda onların kökünün sonuna saitlə başlayan istənilən şəkilçi artırdıqda söz kökünün ikinci hecasındakı sait düşür: **fikir-onun fikri, fikir-fikrin-fikrə-fikri** və s. Dilimizdəki ərəb-fars mənşəli **səbir, sətir, fəsil, ağıl, isim, abır, cisim, eyib, sinif, qədir, nəsil, zehin, ömür, şəkil, ətir** və s. sözlər bu qəbildəndir. Əsil Azərbaycan sözlərində isə ikihecalı söz kökünün sonuna yalnız saitlə başlayan mənsubiyyət şəkilçisi artırdıqda ikinci hecadakı sait düşür: **ağız-körpənin ağzı, alın-mənim alnım, burun-itin burnu, boyun-dəvənin boynu, oğul-sizin oğlunuz, qarın-uşağın qarnı, ağız-onun ağzı** və s.

**5)** İnkar şəkilçisi indiki və qeyri-qəti gələcək zaman şəkilçisi ilə işləndikdə inkar şəkilçisindəki **a, ə** saiti düşür: **yazır-yazmır, görür-görmür, gələrəm-gəlmərəm** və s.





downloaded from KitabYurdu.org

**Qeyd:** İkinci şəxsin cəminin şəxs sonluğu olan **-sınız, -siniz, -sunuz, -sünüz** şəkilçiləri artırıldıqda bu şəkilçi **-sız, -siz, -suz, -süz** şəklinə düşür: **oxuyursunuz-oxuyursuz, bilirsiniz-bilirsiz** və s.

**6)** Köməkçi sözlərdən **üçün, ilə, isə, imiş, idi, ikən** sözləri qoşulduğu sözlərə bitişik yazıldıqda bu köməkçi sözlərin əvvəlindəki sait düşür: **sizin üçün-sizinçün, sənin ilə-səninlə, gəlmiş isə-gəlmişsə, görmüş idi-görmüşdü, oxuyur imiş-oxuyurmuş, yazar ikən-yazarkən** və s.

**7)** Sonu saitlə qurtaran sözlərə saitlə başlanan (saitdən sonra q, ğ, k, m, r, t samitləri gələn) şəkilçi qoşulduqda bu şəkilçilərin əvvəlindəki sait düşür: **dara-dara (a) q, ağla-ağla (a) ğan** və s.

Azərbaycan dilində samit səslərin düşümü aşağıdakı hallarda özünü göstərir:

**1) -dır, -dir, -dur, -dür** şəkilçisi sözlərə qoşulduqda bəzən **-dı, -di, -du, -dü** şəklində olmaqla sondakı samit düşür: **oxumalıdır-oxumalıdı(r), görməlidir-görməlidi(r)** və s.

**2)** Sonu qoşa samitlə qurtaran sözlərin sonuna samitlə başlayan şəkilçi artırıldıqda qoşa samitin biri düşür: **fənn-fənlər, xətt-xətlər, sirr-sirli** və s.

Bu qəbildən olan sözlər içərisində **hiss və küll** sözləri istisnalıq təşkil edir. Müqayisə et: **hiss-his, küll-kül.** Göründüyü kimi, **hiss** və **his, küll** və **kül** sözlərinin mənaları bir-birindən fərqlənir.

**3)** Sonu **q, k** samitləri ilə qurtaran **alçaq, gödək, kiçik** və s. tipli sözlərə **-raq, -rək** şəkilçisi artırıldıqda söz kökünün sonundakı samit düşür: **alçaq-alçaraq, gödək-gödərək, kiçik-kiçirək.**

**Qeyd 1: kiçik** sözünə **-cik** şəkilçisi qoşulduqda söz kökünün sonundakı **k** samiti düşür: **kiçik-kiçicik.**

**Qeyd 2**: İstər saitlərin, istərsə də samitlərin düşümü onu göstərir ki, səsdüşümü hadisə çərçivəsindən çıxaraq qanuniləşir.





downloaded from KitabYurdu.org

**Qeyd 3**: Səsdüşümü hadisəsi tələffüzdə samitlərin düşməsi ilə də özünü göstərir: **möhkəm-mökəm, sərbəst-sərbəs, dost-dos, möhtərəm-mötərəm, dürüst-dürüs** və s. Sonu **xt** səs birləşməsi ilə qurtaran sözlərə samitlə başlayan şəkilçi qoşulduqda nitq zamanı **xt** səs birləşməsindəki **t** samiti düşür: **vaxt-vaxdır, taxt-taxdır.**

**Qeyd 4:** Tarixən əvvəlində **y** samiti olan **yigid, yalov, yıldırım, yılxı, yüz** və s. sözlərdə **y** samiti fonoloji-akustik cəhətdən zəif olduğundan düşmüşdür: **igid, alov, ildırım, ilxı, üz** və s. Azərbaycan dilində tarixən sözün əvvəlində **y** samiti işlənən sözlərdə **y** samitinin düşməsi aşağıdakı hallarda özünü göstərir:

a) **y** samiti açıq saitdən əvvəl gəldiyi sözlərdə düşmüşdür: **yalov-aloy...** Oğuz qrupu türk dillərinə daxil olan qaqauz və türkmən dillərində söz əvvəlində **y** samiti düşməmiş, özünü qoruyub saxlamışdır: **yalın** (qaqauz və türkmən dillərində) **- alın** (Azərbaycan dilində). Azərbaycan dilinin dialekt və şivələrində sözün əvvəlində **y** samitinin qorunub saxlanılması halına da təsadüf olunur: **yalov//yaloy** (alov mənasında).

b) **y** samiti qapalı saitlərdən əvvəl gəldiyi sözlərdə düşmüşdür: **yigid-igid, yüz-üz, yılan-ilan** və s. Bu hal (yəni sözün əvvəlində y samitinin düşməsi) açıq saitlərə nisbətən qapalı saitlərdən əvvəl daha güclü şəkildə özünü göstərir. Oğuz qrupu türk dillərində **y** samiti qapalı saitdən əvvəl düşməmiş, özünü qoruyub saxlamışdır: **yıl** (türk, türkmən, qaqauz dillərində) **- il** (Azərbaycan dilində), **yılan** (qaqauz dilində) **- ilan** (Azərbaycan dilində), **yıldırım** (türk, türkmən, qaqauz dillərində), **-ildırım** (Azərbaycan dilində), **yılkı** (türk dillərində) **//yılxı** (türkmən dilində) **- ilxı** (Azərbaycan dilində) və s. Digər türk dillərində sözün əvvəlində gələn **y** samitinin mövqeyində başqa samitlər də (j, c, s...) işlənir: **jılan** (qazax





downloaded from KitabYurdu.org

dilində) **- ilan** (Azərbaycan dilində), **cılan** (tuva dilində) **-ilan** (Azərbaycan dilində), **sılan** (yakut dilində) **- ilan** (Azərbaycan dilində) və s.

**Səsartımı (proteza) hadisəsi.** Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda iki sait və iki samit səs yanaşı gələ bilməz. Ona görə də bu qəbildən olan sözlərdə sait və samit səslərin artımından istifadə olunur. Yeri gəlmişkən qeyd edək ki, iki sait səsin yanaşı işlənməsi halı dilimizdə mövcuddur. Bu, alınma sözlər kimi dilimizdə işlənir. Həmin sözlərin tələffüzündə iki sait arasında samit gəlir. *Məsələn, **saat-sahat, camaat-camahat** və s.*

Azərbaycan dilində iki samitin yanaşı gəlməsi ilə müşahidə olunan öz sözlərimiz var. *Məsələn, **alt, dörd, qorx** və s.* Belə sözlərdə isə səsartımı olmur.

Azərbaycan dilində səsartımı hadisəsində həm saitlər, həm də samitlər iştirak edir. **Samit səslərin artımı** öz növbəsində iki yerə ayrılır: **yazıda sabitləşən samit artımı, yazıda sabitləşməyən samit artımı.**

**Yazıda sabitləşən samit artımı** "n", "y", "s" samitləri ilə bağlıdır. Azərbaycan dilində yazıda sabitləşən samit artımı aşağıdakı hallarda özünü göstərir.

**Y** samitinin köklə şəkilçi arasında səs artımında iştirakı:

**1)** İsimlərin sonu saitlə qurtardıqda ona yönlük hal şəkilçisi qoşulduqda köklə şəkilçi arasında "y" bitişdirici samiti qoşulur: **ata-y-a, dəstə-y-ə, ordu-y-a** və s.

**2)** Sonu saitlə qurtaran fellərə saitlə başlayan şəkilçi qoşulduqda köklə şəkilçi arasında "y" bitişdirici samiti işlənir: **başla-y-ır, işlə-y-ir, gözlə-y-ir** və s.

**3) Su** və **nə** sözlərinə saitlə başlayan hal şəkilçiləri qoşulduqda köklə şəkilçi arasında "y" bitişdirici samiti işlənir: **su-y-u, su-y-un, su-y-a, su-y-u; nə-y-ə, nə-y-i** və s.

**N** samitinin köklə şəkilçi arasında səsartımında iştirakı:

**1)** Saitlə qurtaran söz kökünə təsirlik və yiyəlik hal şəkilçiləri qoşulduqda kök və şəkilçi arasında "n" samiti işlənir: **ana-**





downloaded from KitabYurdu.org

**n-ın, ana-n-ı; əli-n-in, əli-n-i** və s.

**2)** Üçüncü şəxsin mənsubiyyət şəkilçisini qəbul etmiş sözlərə hal şəkilçiləri qoşulduqda mənsubiyyət və hal şəkilçiləri arasında "n" samiti işlənir:

| | | |
|---|---|---|
| **A.** | onun atası | onun dostu |
| **Y.** | onun atası-n-ın | onun dostu-n-un |
| **Yön.** | onun atası-n-a | onun dostu-n-a |
| **T.** | onun atası-n-ı | onun dostu-n-u |
| **Yer.** | onun atası-n-da | onun dostu-n-da |
| **Ç.** | onun atası-n-dan | onun dostu-n-dan |

**Qeyd:** Yerlik və çıxışlıq hal şəkilçilərindən əvvəl "n" samitinin işlənməsi müstəsna təşkil edir. Ona görə ki, yerlik və çıxışlıq hal şəkilçiləri samitlə başlayır.

**3) Bu, o** əvəzliklərinə istər saitlə, istərsə də samitlə başlayan şəkilçi qoşulduqda köklə şəkilçi arasında "n" samiti işlənir: **bu-n-a, bu-n-u, bu-n-da, bu-n-dan, bu-n-lar; o-n-un, o-n-a, o-n-u, o-n-da, o-n-dan.**

**S** samitinin köklə şəkilçi arasında səsartımında iştirakı:

Saitlə bitən sözlər III şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul etdikdə köklə şəkilçi arasında "s" samiti işlənir: **onun nəvə-s-i, onun baba-s-ı, onun ata-s-ı, onun ana-s-ı** və s.

**Qeyd: n, s, y** bitişdirici samitlərinin səsartımı kimi iştirakı yazıda sabitləşərək orfoqrafik mahiyyət kəsb edir. Ona görə də bu, qanuniləşir.

**Yazıda sabitləşməyən samit artımı** yanaşı gələn iki sait səs arasında tələffüz zamanı özünü göstərir. *Məsələn, **ailə-ayilə, şair-şayir*** və s.

**Qeyd:** Yazıda sabitləşməyən samit artımı orfoepik mahiyyət kəsb edir. Azərbaycan dilində bir qrup alınma





downloaded from KitabYurdu.org

sözlər vardır ki, onlarda iki sait səs yanaşı gəlsə də, səsartımı özünü göstərmir. Məsələn, *müəyyən, müasir, müavin, müalicə, müəllim* və s.

**Sait səsartımı.** Sait səsartımı orfoepik mahiyyət kəsb edir. Bu, ədəbi tələffüzlə bağlıdır. Sait səsartımından aşağıdakı hallarda istifadə olunur;

**1)** Sözün əvvəlində yanaşı gələn iki samitdən biri sonor olduqda onların arasına sait səs artırılır: **qram-qıram, qrup-qurup** və s.

**2)** Sözün əvvəlində iki samit yanaşı gəldikdə onlardan əvvəl sait səs artırılır: **şkaf-işkaf, stəkan-istəkan** və s.

**3)** Sözün sonunda yanaşı gələn samitlərdən biri sonor olduqda onların arasına sait səs artırılır: **dövr-dövür, sədr-sədir** və s.

**4) R** sonoru ilə başlayan sözlərin əvvəlinə sait artırılır: **ruh-uruh, razı-irazı, rahat-irahat, rast-irast, rəfdar-irəfdar, Rəşid-İrəşid, Reyhan-İreyhan, radio-iradio** və s.

**Qeyd 1:** Dilimizdə elə sözlər vardır ki, onlar tarixən (əski dövrlərdə) səsartımı ilə işlənməmişdir. *Məsələn, **urmaq** (vurmaq), **uruş** (vuruş), **örülü** (hörülü) və s.* Misallara diqqət yetirək. "Kitabi-Dədə Qorqud" dastanından: Oğlan yenə buğanın alnına yumruğu ilə **urdu;** Ol buğa qatı başa buynuz **ursa** un kimi üyüdərdi; Dağ çiçəyi ilə südü qarışdırıb oğlanın yarasına **urdular;** Savaşmadan, **uruşmadan** alı verəyin, döngil geri! ; Doqquz qara gözlü, xub üzlü, saçı ardına **örülü,** köksü qızıl düyməli, əlləri biləyindən xınalı və s. Bu sözlər müasir dilimizdə səsartımına məruz qalmışdır.

**Qeyd 2:** Dilimizdə **şeir** və **fel** sözləri vardır ki, bunlarda **e** saitindən sonra tələffüzdə **"yi"** səs birləşməsi artırılır: **şeyir, feyil.**

**Səsyerdəyişməsi (metateza) hadisəsi.** Söz tərkibində yaxın, yanaşı səslərdən biri digəri ilə öz yerini tələffüzdə dəyişir. Buna səsyerdəyişməsi hadisəsi deyilir. *Məsələn,* ***məşhur-məh-***



downloaded from KitabYurdu.org

*şur, süfrə-sürfə, qeyrət-qiryət, layihə-lahiyə* və s.

Səsyerdəyişməsi (metateza) hadisəsi daha çox etimoloji cəhətdən səciyyələnən hadisə kimi izah olunur. Belə hesab edilir ki, söz kökünün sonu güclü samitlə qurtaranda ona əvvəli zəif samitlə başlayan şəkilçi artırdıqda zəif səs güclü mövqeyə (yəni şəkilçinin əvvəlindəki samit söz kökünün sonundakı samitin yerinə keçir) keçir və nəticədə tələffüz asanlaşır. Azərbaycan dilində səsyerdəyişməsi (metateza) hadisəsi əsasən **rp, pr, sq, ğr, cr, şh, nl, lf, lp, rv, sx, ğz, br, rh, rl, yh** və s. səslərin hüdudunda baş verir. Misallara diqət yetirək:

torpaq-topraq
çarpaz-çapraz
asqırmaq-aqsırmaq
doğra-dorğa
ağrı-arğı
təcrübə-tərcübə
məşhur-məhşur
yanlış-yalnış
külfət-küflət
çılpaq-çıplaq
dərviş-dəvriş
rüsxət-rüxsət
vağzal-vazğal
Fərhad-Fəhrat
İbrahim- İrbahim
layihə-lahiyə və s.

Səsyerdəyişməsi (metateza) hadisəsi bir sıra səbəblərlə bağlıdır:

**1)** Səsyerdəyişməsində iştirak edən səsləri formalaşdıran danışıq üzvləri daha asan vəziyyət almağı tələb edir. Yəni səbəblərdən biri danışıq üzvləri ilə bağlıdır.

**2)** Səsyerdəyişməsində iştirak edən bir sıra xarakterik səslər vardır ki, bu səslərlə tarixən Azərbaycan dilində nə heca, nə də sözlər başlanmamışdır: **ğ, p, r...** Ona görə də heca bu səslərlə





downloaded from KitabYurdu.org

başlandıqda tələffüz zamanı həmin səslər yaxın, yanaşı gəldiyi səslərlə yerini dəyişir. *Məsələn,* ***topraq-torpaq, köprü-körpü, yapraq-yarpaq, çıplaq-çılpaq, kiprik-kirpik, yalnış-yanlış, yanlız-yalnız*** *və s.*

**3)** Müəyyən qisim sözlərdə yanaşı gələn iki samitdən ikincisi özündən əvvəlki samitdən qabağa keçir: **öyrətmək-örgətmək, pəhriz-pərhiz, qeyrət-qəryət, təcrübə-tərcübə, məşhur-məhşur, külfət-küflət** və s. Bir qisim əsil Azərbaycan sözlərində də bu vəziyyət özünü göstərir: **doğra-dorğa, asqırmaq-aqsırmaq, öskürmək-öksürmək** və s.

Səsyerdəyişməsi hadisəsinin tarixi dilimizin tarixi ilə də bağlıdır. Bu mənada **göstər-görsət, yarpaq-yapraq, dustaq-tutsaq, yuxu-uyxu** sözləri maraqlıdır. Misallara diqqət yetirək. "Kitabi-dədə Qorqud" dastanlarında:Varın ol **tutsaq** yegidi çıxart, gətirin!; Diridir, Tumanın qələsində **tutsaqdır**; Xətainin yaradıcılığında: **Yapraqlar** ağaclar üzrə lərza, kimisi cü tir, kimisi peykan; Görsəm mənə bir də ki vəfa sən!; Vaqifin yaradıcılığında: **Əksik** olmayasan sənadən, Pəri və s.

Azərbaycan dilində **Fərhad-Fəhrat, İbrahim-İrbahim** və s. sözlər də səsyerdəyişməsi hadisəsinə canlı sübutdur. Onu da qeyd edək ki, səsyerdəyişməsi mənaya heç bir xələl gətirmir. Bu hadisə orfoqrafiyada deyil, orfoepiyada sabitləşmişdir.

**Qeyd:** Azərbaycan dilində uyuşma (assimilasiya), səsfərqləşməsi (dissimilyasiya), səsartımı (proteza), səsdüşümü (eliziya), səsyerdəyişməsi (metateza) hadisələri geniş dairədə işlənən hadisələrdir. Və bunların bəziləri qanuniləşir. Bununla yanaşı, Azərbaycan dilində məhdud dairədə işlənən fonetik hadisələr də mövcuddur: **nəfəsləşmə, samitləşmə, diftonqlaşma, qapalılaşma** və s.

**Nəfəsləşmə hadisəsi** dilimizdə, əsasən, kipləşən-partlayan kar samitlərin (p, t, k...) söz əvvəlində və söz sonunda nəfəsli tələffüzü ilə yaranır: **sap$^h$, ip$^h$, at$^h$, p$^h$ir, t$^h$ap, t$^h$ez, t$^h$əpə** və s.

**Samitləşmə hadisəsi** saitlə qurtaran sözlərə **idi, imiş, isə, ilə, ikən** sözləri qoşulduqda baş



downloaded from KitabYurdu.org

verir, bu zaman bu köməkçi sözlərin əvvəlində-ki **i** saiti tələffüzdə **y** samitinə çevrilir: **oxumalı idi - oxumalıydı, yazmalı imiş - yazmalıymış, əmi ilə - əmiylə, yaxşı ilə - yaxşıyla** və s.

**Diftonqlaşma hadisəsi o͡u** və **ö͡ü** diftonqların yaranması ilə müşahidə olunur: **ovuc-o͡uc, ovuşdurmaq-o͡uşdurmaq, toyuq-to͡uq, növbə-nö͡übə** və s.

**Qapalılaşma hadisəsi** çoxhecalı sözlərə **y** bitişdirici samiti qoşulduqda bu samitdən əvvəlki açıq hecanın qapalı hecaya keçməsi ilə yaranır: **küçəyə - küçüyə, anaya - anıya, nənəyə - nəniyə** və s.

## Ahəng qanunu

**Ahəng qanunu** qədim tarixə malik olan qanundur. Bu qanun hələ qədim yazılı abidələrimizdə mövcud olmaqla, bu gün də özünü qoruyub saxlamışdır. Türk dillərində olduğu kimi, Azərbaycan dilində də morfoloji quruluş iltisaqi olduğundan ahəng qanunun vacibliyi xüsusi əhəmiyyət kəsb edir. Həm söz köklərində, həm də söz köklərinə şəkilçilər qoşulduqda köklə şəkilçi münasibətində ahəng qanunu mühüm rol oynayır. Bunu diqqətdən qaçırmayan, türk dillərində mövcudluğunu nəzərə alan məşhur türkoloq alim M.Kaşğari olmuşdur. O, 1073-1075-ci illərdə yazdığı "Divani lüğət-it-türk" əsərində ilk dəfə olaraq türk dillərində ahəng qanununun mövcud olmasından bəhs etmişdir.

Ahəng qanunu dilimizdə ən möhkəm qanundur. **Sözdəki səslərin məxrəc və akustik cəhətdən uyğunlaşması, həmahəngləşməsi, həmcinsləşməsi ahəng qanununu yaradır.** Ahəng qanununun aşağıdakı növləri var: I. Saitlər ahəngi, II. Saitlərlə samitlərin ahəngi, III. Samitlər ahəngi.





downloaded from KitabYurdu.org

**I. Saitlər ahəngi.** Saitlər ahəngi **dil** və **dodaq ahəngi** olmaqla iki yerə ayrılır.

**Dil ahəngi** dilə görə fərqlənən saitlərin bir-birini izləməsidir. Bu, dilönü saitlərin (incə saitlərin) və dilarxası saitlərin (qalın saitlərin) bir-birini izləməsi ilə müşaiyət olunur.

**Dilönü saitlərin ahəngi.** Dilönü saitlərin (incə saitlərin) ahəngi dedikdə **e, ə, i, ö, ü** saitlərinin bir-birini izləməsi nəzərdə tutulur. Bu saitlərin bir-birini izləməsi (ahəng qanununa tabe olması), əsasən, aşağıdakı keyfiyyət və kəmiyyət tərkibində olur. Yeri gəlmişkən dilönü saitlərin ahənginə aid nümunələrin bir qismi aşağıda veriləcəkdir. Yəni həmin nümunələr dilimizdəki dilönü saitlərin ahənginin hamısını əhatə etmir.

**a) ə + ə** saitinin bir-birini izləməsi: **nəvə, dələ, tələ, nənə, ələk, ətək, bəzək, bələk** və s.

**b) e + ə** saitlərinin bir-birini izləməsi: **demək, seyrək, deyək, gedək** və s.

**c) ə + i** saitlərinin bir-birini izləməsi: **dəmir, əkin, çətin, dərin, sərin** və s.

**ç) i + i** saitlərinin bir-birinin izləməsi: **iri, iti, indi, kiçik, kirpi, şirin** və s.

**d) i + ə** saitlərinin bir-birini izləməsi: **bilək, dirək, kisə, işləmək, dinləmək** və s.

**Qeyd:** ***e, ə, i*** *incə saitləri söz kökündə bir-birini izlədikdə onlara dörd cür yazılan şəkilçi qoşularkən şəkilçinin fonetik tərkibində i saitinin mövqeyi əsas olur:* ***meşənin, deməyin*** *və s.*

***e, ə, i*** *incə saitləri söz kökündə bir-birini izlədikdə onlara iki cür yazılan şəkilçi qoşularkən şəkilçilərin fonetik tərkibində* ***ə*** *saitinin mövqeyi əsas olur:* ***meşədən, dəmirdən*** *və s.*

**Dilönü saitlərin** (incə saitlərin) içərisində **ö, ü** saitləri dodaqlanan saitlərdir.Ona görə də bu saitlərin ahəngi həm də dodaq ahəngi adlana bilər. Bu cür dodaq ahəngi dilimizdə çox geniş yayılmışdır və buna aid aşağıdakı bəzi nümunələrə diqqət yetirək.

**a) ö + ö** saitlərinin ahəngi: **kösöv, köntöy** və s. Bu cür ahəng dilimizdə o qədər də geniş yayılmamışdır.





downloaded from KitabYurdu.org

**b) ö + ü** saitlərinin ahəngi: **bölüm, öküz, sönük** və s.

**c) ü + ö** saitlərinin ahəngi: **bütöv, bülöv** və s. Bu saitlərin ahəngində olan sözlər dilimizdə o qədər də çox deyil.

**ç) ü + ü** saitlərin ahəngi: **sümük, süzgün, sünbül, düzgün** və s. Bu saitlərin ahəngi dilimizdə geniş yayılıbdır.

**Qeyd: ö, ü** incə saitləri söz kökündə bir-birini izlədikdə onlara dörd cür yazılan şəkilçi qoşularkən şəkilçinin fonetik tərkibində **ü** saitinin mövqeyi əsas olur: **yürüş-ün, örüş-ün, öyüd-ün** və s.

**ö, ü** incə saitləri söz kökündə bir-birini izlədikdə onlara iki cür yazılan şəkilçi qoşularkən şəkilçinin fonetik tərkibində **ə** saitinin mövqeyi əsas olur: **sümük-dən, öküz-dən** və s. Bu hal söz kökündə də özünü göstərir: **düymə, sürmə, tüfəng** və s.

**Dilarxası saitlərin ahəngi.** Dilarxası saitlərin (qalın saitlərin) ahəngi dedikdə dilarxası **a, ı, o, u** saitlərinin bir-birini izləməsi nəzərdə tutulur. Göründüyü kimi, bunlar qalın saitlərdir. Dilarxası saitlərin ahəngini öz növbəsində iki yerə ayırmaq olar: **dodaqlanmayan qalın saitlərin** (dilarxası) **ahəngi** və **dodaqlanan qalın** (dilarxası) **saitlərin ahəngi.**

**Dodaqlanmayan qalın saitlərin** (dilarxası) **ahəngi** sözlərdə **ı, a** saitlərinin bir-birini izləməsi ilə yaranır. Bu ahəng dilimizdə, əsasən, aşağıdakı şəkildə təzahür edir.

**a) a + ı** saitlərinin bir-birini izləməsi: **ağız, balıq, mahnı, qarı** və s.

**b) a + a** saitlərinin bir-birini izləməsi: **alma, qanad, yanaq, qalaq, alaq** və s.

**c) ı + a** saitlərinin bir-birini izləməsi: **çıxar, fırla** və s.

**ç) ı + ı** saitlərinin bir-birinin izləməsi: **qırıq, cırıq, pıçıltı** və s.

**Dodaqlanan qalın saitlərin** (dilarxası) **ahəngi** sözlərdə **o, u** saitlərinin bir-birini izləməsi ilə yaranır. Bu ahəng dilimizdə, əsasən, aşağıdakı şəkildə təzahür edir.

**a) o + o** saitlərinin bir-birini izləməsi: **oxlov** və s.





downloaded from KitabYurdu.org

**b) o + u** saitlərinin bir-birini izləməsi: **boyun, qoyun, moruq, toyuq** və s.

**c) u + o** saitlərinin bir-birini izləməsi: **buzov, buxov, furqon** və s.

**ç) u + u** saitlərinin bir-birini izləməsi: **quzu, duru, yuxu** və s.

**Qeyd:** Dodaqlanan qalın saitlərin (dilarxası) ahənginə tabe olan sözlər dörd cür yazılan şəkilçi qəbul edərkən şəkilçinin tərkibində **u** saitinin mövqeyi əsas olur: **moruğun, toyuğun** və s. İki cür yazılan şəkilçi qəbul etdikdə isə dodaq ahəngi pozulur: **moruq-lar, toyuq-lar** və s. Yeri gəlmişkən qeyd edək ki, dodaq ahənginin pozulması söz köklərində də olur: **zoğal, soğan, çuxa, uşaq** və s.

**II. Saitlərlə samitlərin ahəngi.** Saitlərlə samitlərin ahəngi onu göstərir ki, ahəng qanununun əhatə dairəsi genişdir. Bunun özü də dilimizin musiqililiyini, əlvanlığını təmin edən şərtlərdəndir.

Azərbaycan dilində saitlərlə samitlərin ahənginin iki növü var: a) **Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi,** b) **Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi.**

**a) Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi.** Saitlərin və samitlərin təsnifindən məlumdur ki, Azərbaycan dilində arxa sıra saitləri və ön sıra saitləri ilə yanaşı, arxa sıra samitləri və ön sıra samitləri mövcuddur. Söz daxilində arxa sıra saitləri ilə arxa sıra samitlərinin və ön sıra saitləri ilə ön sıra samitlərinin bir-birini izləməsi nəticəsində saitlərlə samitlərin ahəngi qanunu yaranır. Bu mənada **a, ı, o, u** saitləri ilə **ğ, x, q, ($k^1$)** samitləri arxa sıra səsləri kimi, **e, ə, i, ö, ü** saitləri ilə **g, k, ($x^1$)** samitləri ön sıra səsləri kimi həmcins səslərdir. Bunlardan birincilər dilarxası-dildibi məxrəcli, ikincilər isə dilortası-dilönü məxrəcli olmalarına görə həmcins səslərdir.

Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi əsil Azərbaycan sözlərindəki və şəkilçilərindəki saitlərin hamı-



downloaded from KitabYurdu.org

sı ilə əlaqədar olsa da, samitlərin ancaq bir qismi ilə bağlıdır. Belə ki, samitlərdən yalnız dilarxası-dildibi və dilortası samitlərlə əlaqədardır. Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi aşağıdakı hallarda öz təsir dairəsini göstərir:

**Birincisi,** söz kökündə əvvəlcə arxa sıra samitlərindən biri olduqda, ondan sonra arxa sıra saiti gələ bilər: **qol, quş, qış, qaş** və s.

**İkincisi,** söz kökündə əvvəlcə ön sıra samitlərindən hər hansı biri olduqda, ondan sonra ön sıra saiti gələ bilər: **dil, diş, döş, düş, tez, sez** və s.

**Üçüncüsü,** söz kökündə əvvəlcə arxa sıra saitlərindən biri olduqda, ondan sonra arxa sıra samiti gələ bilər: **ağ, ox, toqqa, yuxu, uğur, cığır** və s.

**Dördüncüsü,** söz kökündə əvvəlcə ön sıra saitlərindən biri olduqda, ondan sonra ön sıra samiti gələ bilər: **iz, il, it, et, en, ət, üz** və s.

Dilin vəziyyətinə həmcins saitlərlə samitlərin ahəngi söz köklərinə şəkilçilər qoşulduqda öz davamlılığını qoruyub saxlayır. Belə ki, əgər söz kökündəki sait arxa sıra saitidirsə (təbii ki, arxa sıra samitinin olması da əsasdır), onda ona qoşulan şəkilçidə də arxa sıra saiti olur: **oxu-maq, qol-lu, qol-suz, açıq-lıq, sağ-lıq, qız-ğın** və s. Əgər söz kökündəki sait ön sıra saitidirsə (təbii ki, ön sıra samitinin olması da əsasdır), onda ona qoşulan şəkilçidə də ön sıra saiti olur: **diş-li, iş-çi, söz-lü, süz-gün** və s.

Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi alınma sözlərə və şəkilçilərə aid deyildir.

**Qeyd:** Azərbaycan dilində saitlərlə samitlərin ahəngi zamanı incə saitlərlə bir hecada işlənən samitlər incə, qalın saitlərlə bir hecada işlənən samitlər isə qalın olur: **nə-nə-lər-dən, ə-mi-lər-dən, bi-bi-lər-in, ə-kin-çi-lik; a-na-lar-dan, a-ta-lar-dan, o-dun-çu-luq** və s.





downloaded from KitabYurdu.org

***Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngini göstərən cədvəl****

| **Səslərin məxrəcə görə qohumluğu** | | **Misallar** | **Sait və samitlərin uzlaşma növləri** |
|---|---|---|---|
| Arxa sıra saitləri və samitlər | Dodaqlanmayan saitlər | papağ<br>papağı<br>almaq<br>alırıq<br>akademiya<br>axar<br>qırx | A { ğ, q//$k^1$, x }<br>i { ğ, q, x } |
| | Dodaqlanan saitlər | doğru<br>yorğun<br>toqqa<br>($tok^1qa$)<br>oktyabr<br>kalkulyator<br>toxum<br>yoluxucu | O { ğ, q//$k^1$, x }<br>U { ğ, q//$k^1$, x } |
| Ön sıra saitləri və samitlər | Dodaqlanmayan saitlər | əkmək<br>ikilik<br>əzgin<br>əlcəyi<br>içki, vergi,<br>yekə,<br>biliyi | Ə { k, g, y }<br>İ { k, g, y }<br>E { k, g, y } |
| | Dodaqlanan saitlər | üçlük,<br>sökük<br>ülgü,<br>bölgü<br>üyütmək<br>öyünmək | Ü { k, g, y }<br>Ö { k, g, y } |

**b) Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi.** Bildiyimiz kimi, ünlülük baxımından saitlərlə cingiltili samitlər həmcins səslərdir. Belə ki, səs tellərinin iştirakına görə səslər ünlü və ünsüz olmaqla iki yerə bölünür. Ünlü səslərə saitlər, cingiltili samitlər və sonorlar, ünsüz səslərə isə kar samitlər daxildir. Deməli, kar samitlər ünsüz olmaqla saitlərdən cingil-

* Bu cədvəl Ə.Dəmirçizadənin kitabından götürülmüşdür. Bax: Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. I hissə, Bakı, 1984, s. 134.



downloaded from KitabYurdu.org

tili samitlərdən və sonorlardan fərqlənir. Ona görə də kar samitlər (ünsüzlər) iki sait arasına (ünlülər arasına) düşdükdə ünlüləşir, daha doğrusu, mühitə uyğunlaşaraq cingiltili samitə çevrilir. Başqa sözlə desək, kar samit düşdüyü mühitə uyğunlaşaraq öz cingiltili qarşılığına keçir. Məhz buna cingiltiləşmə qanunu deyilir. Deməli, kar samitin iki sait səs arasında gələrkən mühitə uyğunlaşıb öz cingiltili qarşılığına çevrilməsi, cingiltiləşmə qanunudur. Burada səslərin həmcinsləşməsi mövcud olduğu üçün cingiltiləşmə qanunu ahəng qanununun bir növü kimi verilir. Eyni zamanda səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi dedikdə cingiltiləşmə qanunu nəzərdə tutulur. Ancaq cingiltiləşmə qanununun təsir dairəsi ahəng qanunu ilə müqayisədə o qədər də ümumi deyildir. Yəni cingiltiləşmə qanunu dilimizdəki kar və cingiltili samitlərin hamısına deyil, bir qisminə aiddir. Bu barədə Ə.Dəmirçizadə yazır: "Əgər biz yazılışı yox, ümumiyyətlə, tələffüzü nəzərə almış olsaq, bu hadisənin (cingiltiləşmə qanunu nəzərdə tutulur - B.X.) əsasən çoxhecalı sözlərin, eləcə də bəzi təkhecalı sözlərin ancaq sonundakı küylü samitlərə (kar və cingiltili samitlərə) aid olduğunu söyləyə bilərik. Bu cəhətdən söz kökləri sonunda **k, q, b, c, d, z** hərfləri ilə yazılan səsləri və eləcə də şəkilçilərin sonunda **t, k, q, z, c** hərfləri ilə yazılan səsləri xüsusi olaraq qeyd etmək lazımdır"[1].

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan dilində söz sonunda elə samitlər vardır ki, onlar tam cingiltilik keyfiyyətinə malik olsalar da, heca düzəldən saitdən sonra gəldikdə tələffüz zamanı karlaşa bilirlər. Yəni belə cingiltili samitlərin cingiltililik dərəcəsi azalır, bu isə onların karlaşmasına səbəb olur. Lakin belə samitlər karlaşmasına baxmayaraq, cingiltili samit kimi yazılır və öz keyfiyyətini bərpa edə bilirlər. *Məsələn, dodaq, kənd, ağac, kitab, xoruz sözlərinin sonundakı* ***q, d, c, b, z*** *samitləri karlaşmış halda tələffüz olunur.* Ancaq söz sonunda karlaşmış bu samitlər saitlə başlayan sözlə yanaşı gəldikdə və onlara

1. Ə. M.Dəmirçizadə. Müasir Azərbaycan dili. "Maarif" nəşriyyatı, Bakı, 1984, s.135-136.



downloaded from KitabYurdu.org

saitlə başlayan şəkilçi qoşulduqda yenə də cingiltiləşirlər. *Məsələn,* ***kənd-in, kənd-ə, kitab-ı, kitab al, xoruz-u, xoruz al, ağac-ın, ağac al*** *və s.*

**Qeyd:** Azərbaycan dilində **çiçək, çörək, inək** və s. tipli sözlərin sonundakı **k** samiti **y** samitinin kar qarşılığıdır. Onu əlifbamızda ifadə etmək üçün elə bir qrafik işarə yoxdur. Odur ki, həmin səsi ifadə etmək üçün $\mathbf{x^1}$ işarəsindən istifadə olunur. Deməli, bu işarə əslində **k** deyil **y** samitinin qarşılığıdır. Ona görə də sonu **k** samiti ilə yazılan **çiçək, çörək, inək** və s. tipli sözlərdə **k** hərfi ilə yazılan $\mathbf{x^1}$ səsi **y** səsinə keçir: **çörək—çörə-yin, çiçək—çiçə-yin, çörək al—çörəy al** və s.

Azərbaycan dilində səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi (yəni cingiltiləşmə qanunu) samitlərin hamısını əhatə etmir. Onun təzahür formaları aşağıdakı samitlərlə bağlı olur.

**Birincisi,** kar samitlərin bəziləri cingiltiləşir: **t, k** ($\mathbf{x^1}$)**, s, x.** Bu kar samitlərdən aşağıdakı cingiltili samitlər formalaşır:

**t → d.** *Məsələn:* ***get-gedir, et-edir, öyrət-öyrədir, yarat-yaradır*** *və s.* Təkhecalı sözlərin sonunda **t** samitinin **d** samitinə keçib-keçməməsində iki hal diqqəti cəlb edir. Bu halların birində təkhecalı sözlərin sonunda gələn **t** samiti iki sait səs arasına düşdükdə cingiltiləşmir, yəni **d** samitinə keçmir. *Məs.:* ***at-ı, ot-u, it-ə, it-ir, bat-acaq, it-əcək*** *və s.* İkinci halda isə təkhecalı sözlərin bir qisminin sonunda gələn **t** samiti iki sait səs arasına düşdükdə cingiltiləşir, yəni **d** samitinə keçir. *Məs.:* ***et-edir, get-gedir*** *və s.*

**k** ($\mathbf{x^1}$) **→ y.** *Məsələn:* ***çiçək-çiçəyə, inək-inəyi, çörək-çörəyi*** *və s.*

Sonu **k** samiti ilə qurtaran sözlər hallandıqda yiyəlik, yönlük və təsirlik hallarında sözün axırındakı **k** samiti **y** samitinə keçir. Bir sıra **texnik, mayak, əmlak** və s. tipli alınma sözlərdə sözün sonundakı **k** samiti dəyişmir.





downloaded from KitabYurdu.org

**s → z.** *Məsələn:* ***almas-almazın-almaza-almazı*** *və s.*

**x → ğ.** *Məsələn:* ***Yevlax-Yevlağın-Yevlağa-Yevlağı*** *və s.*

Sonu **x** samiti ilə qurtaran **Yevlax, Qazax, çanax** tipli sözlər hallandıqda sözün axırındakı **x** samiti yiyəlik, yönlük və təsirlik hallarında **ğ** samitinə keçir.

**İkincisi,** cingiltili samitlərin bəzisi iki sait səs arasında başqa bir cingiltili samitə çevrilərək cingiltiləşir. Bu cür cingiltili samitlərin cingiltiləşməsi aşağıdakı samitlərlə formalaşır:

**d → d.** *Məsələn:* ***dörd-dördüncü, kənd-kəndin*** *və s.*

**q → ğ.** *Məsələn:* ***otaq-otağa, qonaq-qonağı*** *və s.*

**q** samiti ilə qurtaran sözlərdə ismin yiyəlik, yönlük və təsirlik hallarında q samiti **ğ**-ya keçir. Bir qisim **üfüq, ittifaq, əxlaq** və s. tipli sözlərdə isə sözün sonundakı samit dəyişmir.

**c → c.** *Məsələn:* ***ağac-ağacın, qılınc-qılıncın*** *və s.*

**b → b.** *Məsələn:* ***qutab-qutabın, kitab-kitabı*** *və s.*

**g → g.** *Məsələn:* ***külüng-külüngün, çiling-çilingi*** *və s.*

*z → z. Məsələn:* ***xoruz-xoruzun, bəkməz-bəkməzi*** *və s.*

**Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi cədvəli (cingiltiləşmə cədvəli)**[1]

| Özündən sonra sait olmadıqda | Kar samit | Karlaşmış samit | Özündən sonra sait gəldikdə | Cingiltiləşir |
|---|---|---|---|---|
| fəsaḍ, sərhəḍ, söyüḍ | ______ | ḍ (t) | fəsadı, sərhədə, söyüdün | d |
| qutaḅ, kitaḅ, məktəḅ | ______ | ḅ (p) | qutabı, kitabı, məktəbə | b |
| öyrəṭ, titrəṭ, geṭ | t | _________ | öyrədir, titrədər, gedir | d |
| ağaç, umaç, qılınç | _____ | c (ç) | ağacın, umacın, qılıncın | c |
| Bəkməẓ, almaẓ, xoruẓ | _______ | ẓ (s) | bəkməzi, almazı, xoruzu | z |

1. Bu cədvəl Ə.Dəmirçizadənin kitabından götürülmüşdür.Bax: Ə.Dəmirçizadə.Müasir Azərbaycan dili, I hissə, Bakı, 1984, s. 138.





downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| çiçəḳ, inəḳ, ələḳ | k ($x^1$) | ( ______ ) | çiçəyin, inəyin, ələyin | y |
| çilinġ, külünġ, dinġ | ______ | ġ (k) | çilingi, külüngün, dingə | g |
| otaq̣, qılıq̣, uşaq̣ | ______ | q̣ (x) | otağa, qılığı, uşağın | ğ |

Azərbaycan dilində cingiltiləşmə qanunu ilə bağlı müəyyən istisnalar vardır. Həmin istisnaları aşağıdakı kimi göstərmək olar:

**1.** Azərbaycan dilində **qılınc, dinc, külüng, dörd, hərb** kimi sözlərdə sondakı karlaşmış **c, g, d, b** səsləri sait səslə **n, r** sonorlarından birinin arasına düşdüyü üçün cingiltiləşir. *Məsələn:* ***dörd-ə, hərb-ə, külüng-ə, dinc-ə*** *və s.*

**2.** Azərbaycan dilində başqa dillərdən alınma **kombinat, həşərat, əmlak** və s. tipli sözlər vardır ki, onların sonundakı **t, k** samitləri cingiltiləşmə qanununa tabe deyildir. *Məsələn:* ***kombinat-kombinatın, həşərat-həşəratın, əmlak-əmlakın*** *və s.*

**III. Samitlər ahəngi.** Samitlər ahəngi səs tellərinin vəziyyətinə görə həmcins samitlərin yanaşı işlənməsidir. Belə ki, sonrakı samit özündən əvvəlki yanaşı gələn samitlə kar və cingiltili olmasına görə uyuşur. Səs tellərinin iştirakına görə samitlər cingiltili, kar və sonorlara bölünür. Bunları nəzərə alaraq samitlər ahəngini aşağıdakı növlərə ayırmaq olar:

**a) Kar samitlərin kar samitlərlə ahəngi, b) cingiltili samitlərin cingiltili samitlərlə ahəngi, c) kar qarşılığı olmayan cingiltili samitlərin, o cümlədən sonorların hər cür kar və cingiltili samitlərlə ahəngi.**

**a) Kar samitlərin kar samitlərlə ahəngi.** Samitlər ahənginin bu növündə kar samitlər söz daxilində öz həmcinsləri olan kar samitlərlə yanaşı ola bilir və uyuşur. *Məsələn:* ***üst (st), tapşır (pş), yaxşı (xş), tüstü (st)*** *və s.*

**b) Cingiltili samitlərin cingiltili samitlərlə ahəngi.** Samitlər ahənginin bu növündə söz daxilində cingiltili samit öz həmcinsi olan cingiltili samitlə yanaşı ola bilir və uyuşur. *Məsələn:*



downloaded from KitabYurdu.org

***güzgü*** *(zg),* ***quzğun*** *(zğ),* ***özgə*** *(zg) və s.*

**c) Kar qarşılığı olmayan cingiltili samitlərin, o cümlədən sonorların hər cür kar və cingiltili samitlərlə ahəngi.** Samitlər ahənginin bu növündə kar qarşılığı olmayan cingiltili samitlər, o cümlədən sonorlar hər cür kar və cingiltili samitlərlə yanaşı gəlir və uyuşur. *Məsələn:* ***ulduz*** *(ld),* ***torpaq*** *(rp),* ***yarpaq*** *(rp),* ***alt*** *(lt),* ***dörd*** *(rd),* ***qırx*** *(rx) və s.*

Samitlər ahəngi təkcə söz daxilində deyil, həm də söz köklərinə şəkilçi qoşulduqda da öz təsirini göstərə bilir. *Məsələn:* ***az-ğın*** *(zğ),* ***kəs-kin*** *(sk),* ***qır-ğın*** *(rğ),* ***vur-ğu*** *(rğ),* ***çal-ğı*** *(lğ),* ***sev-gi*** *(vg) və s.*





downloaded from KitabYurdu.org

# Nitq parçalarının mənalı (fonosemantik) səslənməsi

**Nitq axınında** hər hansı bir ifadənin, sözün, hecanın, səsin digərlərindən fərqli tələffüzü ola bilər. Belə fərqli tələffüz fonetik boya adlanır. Deməli, fonetik boya nitq axınında hər hansı bir ifadənin, sözün, hecanın, səsin məna və məzmununa uyğun olaraq necə, hansı şəkildə qurulduğunun göstəricisidir. Belə ki, nitq axınında məna və məzmunun tələbindən asılı olaraq hər hansı bir ifadə, söz, heca, səs digərləri ilə müqayisədə ya güclü, ya da zəif, ya uzadılaraq, ya da qısaldılaraq, ya alçaqdan, ya da ucadan, ya qırıq-qırıq, ya da bütöv, ya aramla, ya da sürətlə, ya bağırtıyla, ya da pıçıltıyla və s. tonda tələffüz oluna bilir. Məhz nitq axınında baş verən belə bir tələffüz nitqin, nitq parçasının fonetik boyası kimi başa düşülməlidir. Nitqin belə fonetik boyaları nitq parçalarının məzmun və mənası ilə bağlı olaraq, onların mənalı səslənməsinə xidmət edir.Onu da qeyd edək ki, fonetik boyalar həm də nitq parçasının mənalı səslənməsinin əlamətləri sayılır. Mənalı səslənmə nitq axınının səs qabığında təzahür edir. Nitq parçalarının mənalı səslənməsinə fonosemantika da deyilir. Odur ki, nitq axınının səs qabığında təzahür edən fonetik boyalar həm də nitq parçalarının fonosemantik əlamətləri sayılır.



downloaded from KitabYurdu.org

Nitq parçalarının mənalı səslənmə (fonosemantik) əlamətləri nitq axınında iki şəkildə təzahür edir: **səs qurğusu, səs durğusu.**

**Səs qurğusu** dedikdə nitq axınının mənalı səslənməsində hər hansı bir ifadənin, sözün, hecanın, səsin hər hansı fonetik boyada qurulması başa düşülür. Səs qurğusunun qurulduğu fonetik boyaları nəzərə alaraq onun iki əsas növünü göstərmək olar: **vurğu, avazlanma** (intonasiya)

**Səs durğusu** dedikdə isə nitq axınının mənalı səslənməsində sözlər, cümlələr, cümlə üzvləri arasında, eləcə də cümlənin məqsəd və intonasiyaya görə növündən asılı olaraq sonda istifadə olunan durğu işarələri başa düşülür.

## Vurğu

**Vurğu haqqında məlumat.** Vurğu dildə fonosemantik əhəmiyyət kəsb edən və səs qurğusuna daxil olan, informativlik yükü ilə müəyyənləşən vahiddir. Onu da qeyd edək ki, müasir Azərbaycan dilində vurğu, avazlanma (intonasiya), durğu işarələri mühüm rol oynayır. Və bunlar fonosemantik əlamətlər kimi çıxış edir. Ancaq tarixən fonosemantik əlamətlər sırasında ton, zil, bəm və s. kimi tələffüz çalarlarının da xüsusi rolu olmuşdur. Təbii ki, dil inkişaf etdikcə, onun qrammatik quruluşu zənginləşdikcə fonosemantik əlamətlər də cilalanmış, müəyyən qaydaya, sistemə düşmüşdür. Hal-hazırda fonosemantik elementlər sırasında vurğunun, avazlanmanın (intonasiyanın), səs durğusunun (durğu işarələrinin) rolu göz qabağındadır. Xüsusilə, müasir Azərbaycan dilində vurğu, avazlanma (intonasiya), durğu işarələri fonosemantik elementlər kimi mövcuddur. Müqayisə üçün qeyd edək ki, birhecalı dillərdə fonosemantik elementlərin rolu daha böyükdür. *Məsələn, Cənub-Şərqi Asiya dillərindən olan tibet, koreya, yapon, çin dillərində fonosemantik elementlərin rolu əvəzsizdir.* Yeri gəlmişkən onu da qeyd edək ki, dilimizdəki



downloaded from KitabYurdu.org

omonimləşmə, yəni omonim sözlər fonosemantik elementlər sırasına daxildir. Omonimləşmə türk dillərinin əski çağlarında daha güclü olmuş, yəni omonim sözlərin sayı üstünlük təşkil etmişdir. Omonimləşmə dildə ağırlıq yaratdığına görə getdikcə omonim sözlərin sayı azalmışdır. Odur ki, omonimləşmə fonosemantikanın əlaməti kimi dilimizdə qorunub saxlanılmışdır. Bir sözlə, omonimləşmə, omonim sözlər birhecalı dillərdə indi də mövcuddur. Yeri gəlmişkən onu da qeyd edək ki, birhecalı (kök quruluşlu, amorf) dillərdə omonimləşmə, vurğu fonosemantikanın əlamətləri kimi yaşayır. Azərbaycan dilində də vurğu və omonim sözlər fonosemantikanın ilk əlamətləri kimi indi də özünü göstərir. Bir qisim omonim sözlərdə vurğunun məna fərqi yaratması sübut edir ki, vurğu ilə omonimləşmə prosesi arasındakı əlaqənin tarixi kökləri qədimdir. *Məsələn,* ***alma*** *(isim)* - ***alma*** *(fel),* ***vurma*** *(isim)* - ***vurma*** *(fel),* ***alın*** *(isim)* - ***alın*** *(fel),* ***gəlin*** *(isim)* - ***gəlin*** *(fel) və s.*

**Cümlədəki sözlərdən, sözdəki hecalardan birinin digərinə nisbətən daha güclü deyilməsinə vurğu deyilir.** Bu tərifdən də görünür ki, vurğunun hüdudu söz və hecadır. Belə ki, sözlərdəki hecalardan, cümlədəki sözlərdən biri digərinə nisbətən aydın, səlis və güclü tələffüz olunur. Bu da nitqin məzmun, məna çalarlığına xidmət edir. Həm də bu zaman nitq prosesi dalğalı axına bənzəyir.

Vurğu, onun xarakteri, növləri ilə bağlı tədqiqatlar az olmamışdır. Məsələn, M.Kazımbəy vurğunun əhəmiyyətindən, vurğu qəbul etməyən bəzi şəkilçilərdən bəhs etmişdir. N.Aşmarin Azərbaycan dilində vurğunu Nuxa (Şəki) şivəsinə aid topladığı dil faktları əsasında izah etmişdir. O, Azərbaycan dilində vurğunun sözün son hecasının üzərinə düşməsi və bəzi alınma sözlərdə vurğunun sözün son hecasının üzərinə düşməməsi məsələsinə də diqqət yetirmişdir. Vurğudan S.Mayzel də bəhs etmişdir. S.Mayzel türk dillərində vurğunun sözün son hecasının üzərinə düşməsini qeyd etməklə yanaşı, istisna halları da, yəni son hecası üzərində vurğu olmayan dil faktlarını da (alınma sözləri) nəzərdən keçirmişdir. Vurğudan xüsusi olaraq bəhs edənlərdən



downloaded from KitabYurdu.org

biri də Ə.Dəmirçizadə olmuşdur. Ə.Dəmirçizadə vurğusu son hecaya düşən və vurğusu son hecaya düşməyən sözlərdən, o cümlədən Azərbaycan dilində vurğu qəbul edən və qəbul etməyən şəkilçilərdən, vurğunun növlərindən xüsusi olaraq bəhs etmişdir. Bundan başqa, B.Çobanzadə və F.Ağazadə, S.Cəfərov mürəkkəb sözlərdə vurğu, M.Hüseynzadə təyini söz birləşmələri ilə mürəkkəb sözlərin fərqlənməsində vurğunun rolu, A.Axundov vurğunun növləri, vurğu qəbul etməyən şəkilçilər, təyini söz birləşmələrində vurğu, A.Bəşirova təyini söz birləşmələrində vurğu məsələlərinə xüsusi tədqiqat əsərləri həsr etmişlər.

Vurğu türk dillərində də tədqiq olunmuşdur. *Məsələn, A.N. Kononov mürəkkəb isimlərdə vurğunu, M.Resenen mürəkkəb söz və söz birləşmələrində vurğunu, E.N.Nəcib söz birləşmələrində vurğunu, N.K.Dmitriyev və digərləri sözlərdə vurğunu tədqiq etmişlər.*

**Azərbaycan dilində vurğunun akustik təbiəti və xüsusiyyətləri.** Vurğunun akustik təbiəti həm də onun xüsusiyyətləri kimi özünü göstərir. Bunlar aşağıdakılardır:

**Birincisi,** Azərbaycan dilində vurğunun akustik təbiəti vurğulu hecadakı saitin kəmiyyətcə uzun olması ilə bağlıdır. Belə ki, vurğulu hecadakı saitin kəmiyyəti vurğusuz hecadakı saitin kəmiyyətindən uzun olur. Sözdəki hecalar üzrə aparılmış təcrübənin nəticələri də təsdiq edir ki, sözlərdəki vurğulu saitin uzunluğu əsas rol oynayır. Vurğusu ikinci hecada olan ikihecalı sözlərdə "... vurğulu saitin uzunluğu vurğusuz saitin uzunluğundan orta hesabla 0,5-0,4 dəfə çoxdur"[1].

Deməli, Azərbaycan dilində vurğunun akustik təbiətindən biri onun mövcud olduğu hecadakı saitin **kəmiyyətcə uzun** olmasıdır.

**İkincisi,** Azərbaycan dilindəki vurğunun akustik təbiəti saitin səs tonu ilə bağlı olur. Belə ki, vurğulu hecadakı saitin səs

1. Ş.M. Abdullayev. Azərbaycan dilində söz vurğusunun təbiəti. - ADU-nun elmi əsərləri (dil və ədəbiyyat).1964, № 5, s. 8.





downloaded from KitabYurdu.org

tonu vurğusuz hecadakı saitin səs tonundan yüksək olur. Yenə də bu sahədə aparılmış təcrübi işlərin nəticələri göstərir ki, "...vurğulu saitin əsas səs tonu 160-225, vurğusuz saitin əsas səs tonu isə 100-180 hers təşkil edir"[1].

Deməli, Azərbaycan dilindəki vurğunun akustik təbiətindən biri də onun mövcud olduğu hecadakı saitin **səs tonunun** yüksək olmasıdır.

**Üçüncüsü,** Azərbaycan dilindəki vurğunun akustik təbiəti vurğulu hecadakı saitin intensivliyinin daha qüvvətli olması ilə fərqlənir. Belə ki, vurğulu hecadakı saitin intensivliyi vurğusuz hecadakı saitin **intensivliyindən** daha qüvvətli olur.

Deməli, Azərbaycan dilindəki vurğunun akustik təbiətindən biri də onun mövcud olduğu hecadakı saitin intensivliyinin daha qüvvətli olmasıdır.

**Vurğunun növləri.** Azərbaycan dilində iki, üç və çoxhecalı sözlərdə hecalardan biri, cümlədə isə sözlərdən biri digərinə nisbətən daha güclü və ucadan tələffüz olunur. Bəzən isə cümlədəki söz və ya ifadə qeyri-adi tonda, həyəcanlı tələffüz olunur. *Məsələn:*

**Hecalarda: iş-lə́, baş-lá, uşaq-lár** və s.

**Sözlərdə:** Bu məqaləni **kim** yazdı? **Mən** yazdım və s.

Nitq axınında məqsəd və şəraitdən asılı olaraq vurğunun növləri yaranır. Bu mənada ədəbi dilimizdə vurğunun aşağıdakı növləri işlənir: **heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğu.**

## Heca vurğusu

**Heca vurğusunda** sözdəki hecalardan biri digərinə nisbətən daha güclü və ucadan tələffüz olunur. Vurğunun bu növündə hecadüzəldən sait səslərdən biri kəmiyyətcə uzun, səs tonu yüksək, intensivliyi daha qüvvətli olur. Heca vurğusunda vurğunun akustik təbiəti tam şəkildə özünü büruzə verir.

1. Ş.M. Abdullayev. Azərbaycan dilində söz vurğusunun təbiəti. - ADU-nun elmi əsərləri (dil və ədəbiyyat).1964, № 5, s. 8.





downloaded from KitabYurdu.org

Heca vurğusunda hecanı təşkil edən sait digər hecanı təşkil edən saitdən daha güclü, daha gərgin tələffüz olunduğundan bu tipli heca vurğusuna **güclü vurğu** (dinamik vurğu) da deyilir. Güclü vurğu (dinamik vurğu) Azərbaycan dilində daha çox işlənir. Bəzən heca vurğusunda hecanı təşkil edən sait digər hecanı təşkil edən saitdən daha yüksək avazla (tonla) tələffüz olunduğundan bu tipli heca vurğusu **avazlı vurğu** (tonik vurğu) da adlanır.

Heca vurğusunun dünya dillərinin əksəriyyətində mövcud olan iki əsas növü vardır: **sərbəst vurğu, sabit vurğu.**

**Sərbəst vurğu.** Vurğunun bu növündə vurğu sözün tərkibindəki müxtəlif hecaların üzərinə düşə bilir. Yəni **sərbəst vurğuda** vurğunun sözün hecalarının tərkibindəki mövqeyi dəyişkən olur. Müqayisə üçün qeyd edək ki, Azərbaycan dili keçici sabit vurğulu dildir. Buna baxmayaraq, dilimizdə sərbəst vurğu həm öz sözlərimizdə, həm də ərəb, fars, rus və avropa mənşəli sözlərdə müşahidə olunur. *Məsələn, bəzi Azərbaycan sözlərində sərbəst vurğu ikihecalı sözlərin birinci hecasında özünü göstərir:* ***ańcaq, dünən, yálnız, yénə, sánki, sábah*** *və s.* Belə sözlər dilimizdə istisnalıq təşkil edir. Sərbəst vurğulu ərəb və fars mənşəli sözlər: **ámma, bə́zən, bə́zi, dígər, lákin, fə́qət, hə́mişə, kími** və s. Dilimizdə sərbəst vurğunun, əsasən, alınma sözlərə aid olmasını irəlidə də görəcəyik. Azərbaycan dilində yuxarıda qeyd olunan sözlər, xüsusilə də alınma sözlər istisna olmaqla, demək olar ki, sərbəst vurğu yox dərəcəsindədir. Sərbəst vurğu Azərbaycan dilinin təbiətinə yaddır. Azərbaycan dili ilə müqayisədə rus dilində sərbəst vurğu yerindən, mövqeyindən asılı olaraq sözlərin məna fərqini yarada bilir. *Məsələn,* ***zámok,*** *(qala; saray, qəsr)* **-** ***zamók*** *(kilid, qıfil; xəzinə),* ***múka*** *(əzab, əziyyət)* **-** ***muká*** *(un),* ***xlópok*** *(pambıq, pambıq kolu)* **-** ***xlopók*** *(əl çalma, əl vurma) və s.* Rus dilində sərbəst vurğu sözün müxtəlif hecalarında müşahidə olunur. *Məsələn,* ***mésto*** *(yer),* ***oblóm*** *(sındırma, qırma),* ***výkinut*** *(atmaq, tullamaq) və s.*

**Sabit vurğu.** Sabit vurğu dilimizdəki sözlərin tərkibində olan hecalardan birinə həmişəlik təhkim edilmiş olur. Ona görə





downloaded from KitabYurdu.org

də vurğunun bu növü **sabit vurğu** adlanır. Deməli sabit vurğuda vurğu həmişə sözün müəyyən hecasında olur. Yuxarıda qeyd olunduğu kimi, bəzi dillərdə isə vurğunun müəyyən yeri olmur. Belə ki, vurğu bəzi sözlərdə birinci hecaya, bəzilərində ikinci, hecaya, bəzilərində isə üçüncü və sonrakı hecalara düşür. *Məsələn, fin, eston, latış dillərində vurğu sözün baş hecasında, gürcü, polyak dillərində vurğu sonuncu hecadan əvvəlki hecada, fransız dilində türk dillərində olduğu kimi vurğu sözün son hecasında olur.* Azərbaycan dilindəki vurğu sabit vurğudur və bir qayda olaraq sözün son hecasında olur. Buna baxmayaraq, Azərbaycan dili iltisaqi quruluşlu olduğundan dilimizdə sabit vurğunun bəzi spesifik xüsusiyyətləri vardır:

**Birincisi,** bir qayda olaraq (bəzi istisnalarla) Azərbaycan dilində vurğu sözün tərkibindəki son hecanın üzərinə düşür: **tələbə′, məktə′b, ata′** və s.

**İkincisi,** Azərbaycan dili iltisaqi quruluşlu olduğundan söz köklərinə müvafiq şəkilçilər qoşulur. Bu zaman sözdəki hecaların sayı artır və dəyişir. Bu dəyişmənin nəticəsində vurğu da öz mövqeyini dəyişir və sonuncu hecaya keçir. *Məsələn,* ***ana′-anala′r-anaları′n, məktə′b-məktəblə′r-məktəblərimi′z*** *və s.* Misallardan göründüyü kimi, söz kökünə şəkilçi qoşulduqda vurğu sonuncu hecaya doğru hərəkət edir. Bu da onu göstərir ki, Azərbaycan dilindəki sabit vurğu hərəkətdə olan, mütəhərrik və keçici xarakterdədir. Dilimizdəki sabit vurğunun belə bir xarakteri iltisaqi quruluşla sıx bağlılıqdan irəli gəlir.

**Üçüncüsü,** dilimizdə bəzən elə olur ki, söz kökünə şəkilçi qoşulduqda vurğu söz kökündən şəkilçiyə keçmir. Belə olduqda dilimizdəki vurğunun sözün sonundakı heca ilə bağlılığı özünü doğrultmur. *Məsələn,* ***de′-de′mə, danı′ş-danı′şma, fikri′m-fikri′mcə, ata′m-ata′mla*** *və s.* Misallardan göründüyü kimi, bir sıra şəkilçilər sözə qoşulduqda sözün vurğusu öz yerində sabit qalır, şəkilçi ilə yaranan növbəti hecaya keçmir. Misallarda sözə qoşularaq növbəti hecanı yaradan **-ma, -mə, -cə** şəkilçiləri və **ilə** qoşmasının şəkilçiləşmiş "la" variantı vurğu qəbul etməmiş, öz əvvəlki yerində sabit qalmışdır.



downloaded from KitabYurdu.org

Deməli, Azərbaycan dilində heca vurğusunu yaxşı başa düşmək üçün onu sözlərdə və şəkilçilərdə nəzərdən keçirmək lazımdır.

## Heca vurğusu sözlərdə və şəkilçilərdə

Azərbaycan dilindəki vurğu sabit keçici vurğudur. Dilimizdə vurğunun yeri sabit olmaqla, həmişə sözün sonuncu hecasının üzərinə düşür. Ancaq söz kökünə şəkilçi qoşulduqda dilimizdəki vurğu öz yerini şəkilçidəki hecaya doğru dəyişir. Odur ki, dilimizdəki heca vurğusu söz kökü ilə ona qoşulan şəkilçilərin hüdudlarında özünü göstərir. Heca vurğusunun söz köklərində və ona qoşulan şəkilçilərdə olmasını nəzərə alaraq onu iki yerə ayırmaq olar: **sözlərdə vurğu, şəkilçilərdə vurğu.**

**Sözlərdə vurğu.** Azərbaycan dilində sözdə vurğu düşdüyü yerdən asılı olaraq iki qrupa ayrılır: **1) vurğusu son hecaya düşən sözlər, 2) vurğusu son hecaya düşməyən sözlər.**

**1) Vurğusu son hecaya düşən sözlər.** Müasir Azərbaycan ədəbi dilindəki sözlərin böyük əksəriyyətində (təqribən 90 faiz) vurğu sonuncu hecanın üzərinə düşür. Vurğusu son hecaya düşən sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**a)** Azərbaycan dilinin özünəməxsus sözləri: **ata´, ana´, torpa´q, ağı´z, buru´n, aya´q, qula´q, dəni´z** və s.

**b)** Alınma sözlər. Vurğusu son hecaya düşən alınma sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**Birincisi,** müxtəlif dillərdən dilimizə keçmiş və Azərbaycan dilinin fonetik qayda-qanunlarına uyğunlaşmış alınma sözlər: **məktə´b, müəlli´m, saa´t, əmə´l, şərai´t, lampa´, çayni´k** və s.

**İkincisi,** vurğusu son hecada olan alınma sözlər: **institu´t, telefo´n, avtoma´t, aqrono´m, monoli´t, asima´n, aza´d** və s.

**Üçüncüsü,** bəzi alınma sözlərdə vurğu qəbul edən hecadan sonrakı heca, yəni sonuncu heca ixtisar olunaraq söz dilimizdə işlənir. Belə sözlərdə sonuncu heca ixtisar olunduğundan vurğu



downloaded from KitabYurdu.org

ondan qabaqkı hecada olmaqla son heca üzərinə düşür: **proqra′m, proble′m, qəze′t, apte′k, sxe′m, teore′m** və s. Bu sözlər **proqra′mma, proble′ma, qaze′ta, apte′ka, sxe′ma, teore′ma** sözlərindəki son hecanın ixtisar olunması ilə dilimizdə işlənir.

**2) Vurğusu son hecaya düşməyən sözlər.** Azərbaycan dilinin lüğət tərkibində vurğusu son hecaya düşməyən sözlər ərəb, fars, rus və Avropa dillərindən dilimizə daxil olan alınma sözlərdir. Onların ədəbi dilimizdə sayı nisbətən azdır. Belə sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**a)** Ərəb və fars dillərindən alınmış bəzi sözlərdə vurğu birinci hecanın üzərinə düşür: **a′mma, bə′zən, bə′zi, di′gər, la′kin, fə′qət, hə′mişə, ki′mi, mə′sələn, bə′lkə** və s. Misallardan göründüyü kimi, belə sözlər ərəb və fars dillərindən dilimizə keçmiş bəzi zərf, bağlayıcı və ədatlardır.

**b)** Əsl Azərbaycan sözlərinin bəzilərində vurğu son hecaya deyil, birinci hecaya düşür. Belə sözlər ikihecalı sözlərdir: **a′ncaq, dü′nən, ya′lnız, ye′nə, sa′nki, sa′bah** və s. Bu sözlər barəsində A.Axundov yazır: "Göstərilən sözlərin əksəriyyətində vurğunun dilimizin fonetik xüsusiyyətlərinin əksinə olaraq birinci hecaya düşməsi, görünür, onun sözfərqləndiricilik vəzifəsi ilə bağlıdır. Belə ki, **yenə** sözü müstəsna olmaqla, yerdə qalanlarda vurğu ikinci hecada da deyilə bilər. Lakin bu zaman sözün qrammatik və leksik mənası dəyişilər... Maraqlıdır ki, xalis Azərbaycan sözlərindən vurğusu birinci hecada olanların hamısı zərf əsas nitq hissəsinə, ya da köməkçi nitq hissələrinə (qoşma, bağlayıcı, ədat) aiddir"[1].

**c)** Rus və Avropa dillərindən alınmış sözlərdə (terminlərdə) vurğu birinci hecada olur: **dra′ma, ka′fedra, o′pera, ra′dio, de′lta** və s. Misallardan göründüyü kimi, belə sözlərin əksəriyyəti açıq hecalı olur.

**ç)** Bəzi coğrafi adlarda, onomastik vahidlərdə vurğu birinci hecanın üzərinə düşür: **A′siya, A′frika, Lo′ndon, Tü′rkiyə, Fra′nsa, Po′lşa, Ro′ma, Pra′qa, Ru′siya** və s.

1. A.Axundov. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984. s. 284.



downloaded from KitabYurdu.org

**d)** Çoxhecalı bir qisim alınma sözlərdə vurğu ikinci heca üzərinə düşür: **poe′ma, este′tika, coğra′fiya, kome′diya, trage′-diya, profe′ssor, balla′da, meta′fora, simfo′niya** və s.

**e)** Azərbaycan dilində bir sıra qitə, ölkə, şəhər adları vardır ki, onlarda vurğu ikinci hecanın üzərinə düşür: **Ame′rika, Avro′pa, Alma′niya, İspa′niya, İta′liya, İngi′ltərə, Holla′ndiya, Afi′na, Çika′qo, Nea′pol** və s.

**ə)** Azərbaycan dilinə qədim yunan dilindən keçmiş bir sıra sözlər var ki, onlar dilimizin fonetik qayda-qanunlarına hələlik tam uyğunlaşmamış sözlərdir. Belə sözlər çoxhecalı olur və vurğu üçüncü *(məsələn, **avtono′miya, diktatu′ra, geolo′giya, morfolo′giya, filolo′giya** və s.)*, dördüncü *(məsələn, **leksikolo′giya, frazeolo′giya** və s.)*, beşinci *(məsələn, **avtobioqra′fiya, semasiolo′giya** və s.)* hecaların üzərinə düşür.

**Şəkilçilərdə vurğu.** Məlum olduğu kimi, Azərbaycan dilində vurğu sözün sonuncu hecasının üzərinə düşür. Azərbaycan dilinə məxsus olan sözlərdə (əsl Azərbaycan sözlərində) bu qanunauyğunluq qorunur. Deməli, Azərbaycan dilindəki qanunauyğunluq vurğunun sərbəstliyinə imkan vermir. Onu da qeyd edək ki, vurğu sözün başlıca əlamətlərindən biri sayıla bilir. Ancaq şəkilçilərə gəldikdə isə qeyd etmək lazımdır ki, şəkilçilər sözün tərkibində olduqda ya vurğulu, ya da vurğusuz olur. Şəkilçilər sözün tərkibində olmadıqda, yəni sözdən kənarda vurğusuz olur. Ona görə də şəkilçilər sözün tərkibində olduqda vurğu qəbul edib etməmələrinə görə fərqlənirlər. Bu mənada Azərbaycan dilindəki şəkilçilər vurğu qəbul edib etməmələrinə görə iki növə ayrılır: **vurğu qəbul edən şəkilçilər, vurğu qəbul etməyən şəkilçilər.**

**Vurğu qəbul edən şəkilçilər.** Azərbaycan dilindəki şəkilçilərin əksəriyyəti vurğu qəbul edən şəkilçilərdir. Vurğu qəbul edən şəkilçilər sözə qoşulduqca sözün son hecasındakı vurğu şəkilçinin üstünə keçir. *Məsələn, **işlə′-işləyi′r, yazı′-yazıçı′-yazıçılı′q*** və s.

**Vurğu qəbul etməyən şəkilçilər.** Azərbaycan dilində vurğu qəbul etməyən şəkilçiləri üç qrupa ayırmaq olar: **1) sözdüzəldi-**



downloaded from KitabYurdu.org

**ci şəkilçilərlə omonim olub vurğu qəbul etməyən sözdəyişdirici şəkilçilər, 2) köməkçi sözlərin və köməkçi nitq hissələrinin vurğu qəbul etməyən şəkilçiləşmiş formaları, 3) digər vurğu qəbul etməyən şəkilçilər.**

**1) Sözdüzəldici şəkilçilərlə omonim olub vurğu qəbul etməyən sözdəyişdirici şəkilçilər.** Sözdəyişdirici şəkilçi sözdüzəldici şəkilçi ilə omonimlik təşkil etdiyi hallarda sözdəyişdirici şəkilçi vurğu qəbul etmir. Bunun səbəbi vurğunun fonematik vəzifə daşıması ilə bağlıdır. Belə ki, əgər həm sözdüzəldici, həm də sözdəyişdirici şəkilçi vurğu qəbul edərsə, onda leksik-qrammatik vahidlər bir-biri ilə qarışar. Məsələn, **vurma** sözündə həmişə vurğu sonuncu hecanın üzərinə düşərsə, onda bu sözün həm isim, həm də felin inkarında olmasını fərqləndirə bilmərik. Belə ki, **vurma** sözündə vurğu son hecanın üzərinə düşdükdə bir məna, birinci hecanın üzərinə düşdükdə isə başqa bir məna yaranır. Məhz bu sözün mənalarının fərqlənməsində sözdüzəldici **-ma** şəkilçisi ilə omonim olan sözdəyişdirici **-ma** şəkilçisinin fərqləndirilməsi mühüm rol oynayır. Deməli, **-ma** sözdüzəldici şəkilçisi **-ma** sözdəyişdirici şəkilçisi ilə omonimdir. Sözdüzəldici **-ma** şəkilçisi ilə omonim olan **-ma** sözdəyişdirici şəkilçisinin vurğu qəbul etməməsi məhz bu şəkilçilərin qoşulduğu sözlərin mənaca fərqini yaradır. Yeri gəlmişkən onu da qeyd edək ki, sözdəyişdirici şəkilçilərin vurğu qəbul etməməsinin səbəbi vardır. Belə ki, sözdəyişdirici şəkilçilər söz formasını dəyişir, sözlər arasında qrammatik əlaqə yaradır. Ancaq sözün mənasında dəyişiklik yaratmır. Ona görə də vurğu qəbul etmir. Sözdüzəldici şəkilçi isə qoşulduğu sözdən yeni mənalı söz yaradır. Sözdüzəldici şəkilçilər yeni mənalı söz yaratdıqları üçün vurğu qəbul edir.

Azərbaycan dilində sözdüzəldici şəkilçilərlə omonim olub vurğu qəbul etməyən sözdəyişdirici şəkilçilər aşağıdakılardır:

**-ın//-in//-un//-ün şəkilçisi.** Bu şəkilçi feldən isim düzəldən şəkilçi kimi çıxış etdikdə vurğu qəbul edir: **səp-in, ək-in, biç-in** və s. Həmin şəkilçi felin əmr formasının ikinci şəxsinin cəmini bildirən sözdəyişdirici şəkilçi olduqda vurğu qəbul etmir: (siz)





downloaded from KitabYurdu.org

**ək-in,** (siz) **səp-in,** (siz) **biç-in** və s. Deməli, **-ın//-in//-un//-ün** şəkilçisi felin əmr formasının ikinci şəxsinin cəmini bildirən şəxs sonluğu kimi sözdəyişdirici şəkilçidir və vurğu qəbul etmir. **-ın//-in//-un//-ün** şəkilçisi ismin yiyəlik hal şəkilçisi və mənsubiyyət şəkilçisi kimi çıxış edir. *Məsələn, yiyəlik hal şəkilçisi kimi:* ***kitab-ın, dəftər-in*** *və s., mənsubiyyət şəkilçisi kimi: (sənin)* ***qələm-in,*** *(sənin)* ***iş-in*** *və s.* Deməli, **-ın//-in//-un//-ün** şəkilçisi sözdəyişdirici şəkilçi olan yiyəlik hal və mənsubiyyət şəkilçilərində vurğu qəbul edir. Bunun səbəbi onunla bağlıdır ki, həmin şəkilçi ismə məxsus kateqoriyaların şəkilçisidir. Yəni **-ın//-in//-un//-ün** şəkilçisi sözdəyişdirici şəkilçi olan yiyəlik hal və mənsubiyyət şəkilçilərində vurğu qəbul edir. Yəni **-ın// -in//-un//-ün** şəkilçisi yiyəlik hal və mənsubiyyət şəkilçisi kimi felin əmr formasının ikinci şəxsinin cəmində olan şəkilçidən fərqlənir. Bir sözlə, **-ın//-in//-un//-ün** şəkilçisi feldən isim yaradan və ismin hal, mənsubiyyət şəkilçisi olduqda vurğu qəbul edir. Ancaq felin əmr formasının ikinci şəxsinin cəminin şəxs şəkilçisi olduqda vurğusuz olur.

**-ma//-mə şəkilçisi.** Bu şəkilçi fellərə qoşularaq ondan isim əmələ gətirdikdə vurğu qəbul edir: **qovur-ma´, dondur-ma´, süz-mə´, bağla-ma´, qaz-ma´, gəl-mə´, vur-ma´, döy-mə´** və s.

**-ma//-mə** şəkilçisi fellərə qoşularaq sifət də əmələ gətirir və vurğu qəbul edir: **bur-ma´** (saç), **eş-mə´** (bığ) və s.

**-ma//-mə** şəkilçisi fellərə artırılaraq inkar şəkilçisi kimi çıxış edir. Bu zaman həmin şəkilçi sözdəyişdirici şəkilçi olur və vurğu qəbul etmir: **yaz-ma, oxu-ma, bax-ma** və s. **-ma//-mə** şəkilçisi qeyri-qəti gələcək zaman şəkilçisinə qoşulduqda **-maz// -məz** formasına düşür. Bu zaman vurğu istisna hal kimi **-maz// -məz** hecasının üzərinə düşür: **gəlmə´z, gəlmə´rəm, bilmə´z, bilmə´rəm** və s.

Deməli, **-ma//-mə** şəkilçisi feldən isim və sifət yaratdıqda sözdüzəldici şəkilçi kimi vurğu qəbul edir. Ancaq fellərdə inkar şəkilçisi kimi çıxış etdikdə vurğusuz olur.





downloaded from KitabYurdu.org

**Qeyd:** **-ma//-mə** şəkilçisi felin məsdər formasının şəkilçisi kimi çıxış edir: (uşağın) **yatması,** (onun) **oxuması,** (onun) **gəlməsi,** (onun) **yazması** və s. Misallardan görünür ki, üçüncü şəxsin mənsubiyyət şəkilçisindən əvvəl **-ma//-mə** şəkilçisi məsdər şəkilçisi kimi özünü göstərir. Bu, feldən isim, sifət yaradan sözdüzəldici şəkilçidən və inkar şəkilçisindən fərqlənir. Onu da qeyd edək ki, feldən isim, sifət düzəldən **-ma//-mə** şəkilçisi ilə **-ma//-mə** məsdər şəkilçisi eynidir və **-maq// -mək** şəkilçisinin inkişafı nəticəsində formalaşmışdır.

**-dır//-dir//-dur//-dür** şəkilçisi. Bu şəkilçi fel köklərinə qoşularaq təsirsiz fellərdən təsirli fel və təsirli fellərdən icbar növ yaradır, vurğu qəbul edir. *Məsələn, təsirsiz feldən təsirli fel yaradır:* ***yan-dı´r, qarış-dı´r, vuruş-du´r, bez-di´r*** və s.**,** *təsirli feldən icbar növ yaradır:* ***yaz-dı´r, süz-dü´r, bil-di´r, qaz-dı´r*** *və s.*

**-dır//-dir//-dur//-dür** şəkilçisi şəxs şəkilçisi kimi çıxış edir və vurğu qəbul etmir: **müəlli´m -dir, yaxşı´-dır, be´ş-dir, o´-dur, aşağı´-dır** və s.

Deməli, **-dır//-dir//-dur//-dür** şəkilçisi təsirsiz feldən təsirli fel, təsirli feldən icbar növ yaratdıqda vurğu qəbul edir. Ancaq şəxs şəkilçisi olduqda vurğusuz olur.

**-sa//-sə** şəkilçisi. Bu şəkilçi isimdən, sifətdən fel əmələ gətirdikdə vurğu qəbul edir: **su-sa´, qərib-sə´, gün-sə´** və s. Ancaq **isə** köməkçi felinin şəkilçiləşmiş **-sə** variantı isə vurğusuz olur: **gələrsə, olarsa** və s. **-sa//-sə** zaman şəkilçilərindən sonra qoşularaq felin şərt formasının şəkilçisi olur və vurğu qəbul etmir: **gəlmi´ş-sə, bilə´r-sə, görəcə´k-sə** və s.

**-ca//-cə şəkilçisi.** Bu şəkilçi isimlərdən atributiv isimlər *(məs.: rus-rusca, türk-türkcə və s.),* fellərdən isimlər *(məs.: düşünmək-düşüncə, əylənmək-əyləncə və s.)*, sifətlərdən müqayisə dərəcəsi *(məs.: yaxşı-yaxşıca, qırmızı-qırmızıca, qara-qaraca və s.),* adlardan və zərfdən zərf *(məs.: ayrı-ayrıca, əvvəl-əvvəlcə, qabaq-qabaqca, ön-öncə və s.)* əmələ gətirən şəkilçi



downloaded from KitabYurdu.org

olduqda vurğu qəbul edir. Amma **-ca//-cə** şəkilçisi şəxs əvəzliklərində modallıq mənasını *(məs.: mən-məncə, sən-səncə, biz-bizcə, siz-sizcə və s.)* və müxtəlif məna çalarlarını ifadə edən ədat *(məs.: dəryaca, dağca, məzmunca, formaca və s.)* kimi olduqda vurğu qəbul etmir. Bu cür sözlərdə **-ca//-cə** şəkilçisi müvafiq qoşmaların sinonimi olur. Müqayisə edək: **məncə-mənə görə, səncə-sənə görə, dəryaca-dərya qədər, dağca-dağ qədər// dağ boyda, məzmunca-məzmuna görə, formaca-formaya görə** və s.

**2) Köməkçi nitq hissələrinin və köməkçi sözlərin vurğu qəbul etməyən şəkilçiləşmiş formaları.** Azərbaycan dilində köməkçi sözlərin və köməkçi nitq hissələrinin şəkilçiləşmiş formaları vardır ki, onlar vurğu qəbul etmir. Bunlar, əsasən, aşağıdakılardır:

**İlə qoşmasının şəkilçiləşmiş -la//-lə forması.** Bu qoşmanın şəkilçiləşmiş **-la//-lə** forması isim, sifət və digər nitq hissələrinə qoşularaq birgəlik, vasitəlik şəkilçisi kimi çıxış edir, vurğu qəbul etmir: **ba´ğla, ağa´cla, da´şla, sa´zla, gü´llə** və s.

**İlə** qoşmasının şəkilçiləşmiş **-la//-lə** forması adlardan fel düzəldən **-la//-lə** şəkilçisi ilə omonimləşir. Ancaq adlardan fel əmələ gətirən **-la//-lə** şəkilçisi vurğu qəbul edir: **iş-lə´, göz-lə´, baş-la´** və s.

Deməli, **ilə** sözünün şəkilçiləşmiş **-la//-lə** forması vurğusuz, adlardan fel əmələ gətirən **-la//-lə** isə vurğulu olur.

**-mı//-mi//-mu//-mu sual şəkilçisi.** Bu şəkilçi sual ədatı kimi vurğu qəbul etmir, adlara və fellərə qoşulur: **qələ´m-mi?, Əhmə´d-mi?, yaxşı´-mı?, uza´q-mı?, yaxı´n-mı?, irəli´-mi?, geri´-mi?, oxudu´-mu?, gəldi´-mi?** və s.

**İdi, imiş, isə, ikən köməkçi fellərinin şəkilçiləşmiş variantları.** Bu köməkçi fellərin şəkilçiləşmiş variantları aşağıdakılardır:

**İdi köməkçi felinin şəkilçiləşmiş variantı -dı: gəlirdi, alırdı, alardı** və s. **İdi** köməkçi felinin şəkilçiləşmiş variantı ahəng qanununa uyğun olaraq dörd cür yazılır: **idi → -dı//-di//-du//-dü** və heç biri vurğu qəbul etmir.



downloaded from KitabYurdu.org

**İmiş köməkçi felinin şəkilçiləşmiş variantı -mış:** *gəlmiş-miş, bilmişmiş* və s. **İmiş** köməkçi felinin şəkilçiləşmiş variantı ahəng qanununa uyğun olaraq dörd cür yazılır: **imiş → -mış// -miş//-muş//-müş** və heç biri vurğu qəbul etmir.

**İsə köməkçi felinin şəkilçiləşmiş variantı -sə:** *gələrsə, alarsa* və s. **İsə** köməkçi felinin şəkilçiləşmiş variantı ahəng qanununa uyğun olaraq iki cür yazılır: **isə → -sa//-sə** və heç biri vurğu qəbul etmir.

**İkən köməkçi felinin şəkilçiləşmiş variantı -kən:** *gəlmiş-kən, yazmışkən* və s. **İkən** köməkçi felinin şəkilçiləşmiş variantı **-kən** bir cür yazılır: **ikən→ -kən** və vurğu qəbul etmir.

**3) Digər vurğu qəbul etməyən şəkilçilər.** Bu qrupa daxil olan vurğu qəbul etməyən şəkilçilər aşağıdakılardır:

**Tərkibində inkar şəkilçisi olan -madan//-mədən şəkilçisi:** *oxu-madan, gəl-mədən, bil-mədən* və s.

**Tərkibində inkar şəkilçisi olan -mamış//-məmiş şəkilçisi:** *oxu-mamış, gör-məmiş* və s.

**Bir nəslə, tayfaya, familiyaya mənsubluğu bildirən -gil şəkilçisi:** *əmim-gil, dayım-gil, Əhməd-gil* və s.

Familiya düzəldən **-ov, -yev** şəkilçisi: *Mahmud-ov, Qurbanov, Əli-yev* və s.

**Adlara (isimlərə, sifətlərə, saylara, əvəzliklərə) qoşulan I, II, III şəxsin tək və cəminin şəxs sonluqları: I** şəxsin şəxs sonluğu: **-am//-əm, -ıq//-ik//-uq//-ük; II** şəxsin şəxs sonluğu: **-san//-sən, -sınız//-siniz//-sunuz//-sünüz; III** şəxsin şəxs sonluğu: **-dır//-dir//-dur//-dür, -dırlar//-dirlər//-durlar//-dürlər.** *Məsələn,* ***həkim-əm, yaxşı-yam, tələbə-yik; yaxşı-san, yaxşı-sınız; müəllim-dir, müəllim-dirlər*** *və s.*

Zaman şəkilçilərindən sonra gələn **I, II, III** şəxsin şəxs sonluqları: **I** şəxsin şəxs sonluğu **-am//-əm, -ıq//-ik//-uq//-ük; II** şəxsin şəxs sonluğu **-san//-sən, -sınız//-siniz//-sunuz//-sünüz; III** şəxsin şəxs sonluğu mənasında olan **-lar//-lər.** *Məsələn,* ***gələr-əm, gələr-ik; alar-san, alar-sınız, alacaq-lar*** *və s.*





downloaded from KitabYurdu.org

## Azərbaycan dilində vurğunun güc, qüvvət dərəcəsi

Sözə vurğu qəbul edən şəkilçilər qoşulduqda vurğu öz yerini sonuncu hecaya doğru dəyişir. Bu, həm də Azərbaycan dilinin iltisaqi quruluşunun tələbindən irəli gəlir. Lakin vurğu təkcə söz köklərində, sözün şəkilçi qəbul etmiş formalarında deyil, həm də söz və qoşma birləşmələrində, mürəkkəb sözlərdə, təyini söz birləşmələrində özünü göstərir. Söz və qoşmalı birləşmələrdə, mürəkkəb sözlərdə, təyini söz birləşmələrində vurğu güc, qüvvət dərəcəsinə görə iki növə ayrılır: **1) baş** (əsas və ya birinci dərəcəli vurğu) vurğu, **2) köməkçi** (əlavə və ya ikinci dərəcəli vurğu) vurğu.

**Qeyd:** Baş vurğunu vurğu qəbul edən hecanın – saitin üstünə qoyulan dəqiqə işarəsi ( ′ ) ilə, əlavə vurğunun isə hecanın–saitin üstünə qoyulan saniyə işarəsi ( ″ ) ilə qeyd edirik.

Azərbaycan dilində baş və əlavə vurğu barəsində müəyyən fikirlər mövcuddur. Məsələn, Ə.Dəmirçizadə bu barədə yazır: "Çoxhecalı sözlərdə ancaq bir baş vurğu olur. Əlavə vurğu isə bir-birindən zəif olmaq şərti ilə, bir neçə (iki, hətta üç) ola bilir. *Məsələn, **müəyyənləşdirməkdədirlər*** sözündə bir baş vurğu (də′ hecasında) və üç əlavə vurğu (yə″n, di″r, lə″r hecalarında) vardır"[1]. Deməli, baş və köməkçi//əlavə vurğu nəinki qoşmalı birləşmələrdə, mürəkkəb sözlərdə, təyini söz birləşmələrində, eləcə də sözlərdə, məhz çoxhecalı sözlərdə mövcud olur. Azərbaycan dilində baş və əlavə vurğu aşağıdakı hallarda müvafiq hecalar üzərində özünü göstərir.

**a)** Sözün kökünə vurğu qəbul etməyən şəkilçi qoşulursa, hə-

1. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 160.





downloaded from KitabYurdu.org

min şəkilçidən sonra nə qədər şəkilçi qoşulsa da, baş vurğu öz əvvəlki yerində qalır. *Məsələn, **ba′xmayaca″qla″r, a″lmayaca″q-la″r** və s.*

**b)** Sözün kökünə vurğu qəbul etməyən iki şəkilçi qoşula bilər, belə olduqda baş vurğu vurğu qəbul etməyən əvvəlki şəkilçinin qabağındakı heca üzərinə düşür. *Məsələn, **işlə′məyin, söylə′məyin, danı′şmayın** və s.*

**c)** Sözün kökünə üçdən artıq vurğu qəbul edən şəkilçi qoşula bilər. Belə olduqda baş vurğu qaydaya uyğun olaraq son hecada olur. Əlavə vurğu isə əvvəlki hecalara düşür. *Məsələn, **sini″flərimi′z, sala″mlaşanla′r, yaxı″nlaşanla′r, uza″qlaşanla′r** və s.*

**ç)** Mürəkkəb isimlərdə baş vurğu sonuncu sözün son hecasında olur. Əvvəlki sözün vurğusu isə əlavə vurğuya çevrilir. *Məsələn, **i″tburnu′, dəvə″dabanı′, to″zsora′n, ə″tçəkə′n, pambı″qyığa′n, Məmmə″dəli′, Əhmə″dəli′** və s.*

Mürəkkəb sözlərdə vurğunun rolu sözün forma və məzmun münasibətində müəyyən edilir. Belə ki, mürəkkəb sözlərin komponentləri həm məna, həm də forma cəhətdən sıx birləşir, birbaşa vurğuya malik olur, vahid mənalı bir sözə çevrilir. *Məsələn, **Ağda′ş, Məmmədəli′, Daşkə′nd** və s.*

Azərbaycan dilində iki sözdən düzələn, bir baş vurğuya malik olan və ayrı yazılan mürəkkəb sözlər də vardır: **Qara dəniz, Qız qalası** və s. Bundan başqa, təyini söz birləşmələrindən əmələ gəlmiş mürəkkəb sözlərdə bir baş vurğu olur: **ağ saqqal→ ağsaqqal, şirin dil → şirindil, uca boy → ucaboy** və s.

**d)** Yanaşma əlaqəsi münasibətində olan söz birləşmələrində təyin edən sözdə ( birinci sözdə) baş vurğu, təyin olunan sözdə (ikinci sözdə) isə əlavə vurğu olur. *Məsələn, **şiri′n çörə″k, dadlı′ meyvə″, yeddinci′ sini″f, be′ş kita″b** və s.*

Yeri gəlmişkən onu da qeyd edək ki, təyini söz birləşmələrində vurğunun eksperimental tədqiqinin nəticəsi aşağıdakıları söyləməyə əsas verir:

**Birincisi,** müasir Azərbaycan dilində birinci növ təyini söz birləşmələrində tərəflərin hər birinin müstəqil vurğusu olmur. Burada bir əsas birləşdirici vurğu olur və bu vurğu təyini söz





downloaded from KitabYurdu.org

birləşməsinin birinci tərəfinin (təyinedən sözün) üzərinə düşür. Birinci növ təyini söz birləşməsinin ikinci tərəfinin əlavə vurğusu olur: **ağ saç, çal saç, mis qab, ağ göyərçin, yaş taxta, təzə ay, ağac qaşıq, açıq darvaza, qiymətli hədiyyə, açıq mübarizə** və s.

**İkincisi,** müasir Azərbaycan dilində ikinci növ təyini söz birləşmələrində əsas vurğu birinci tərəfdəki sözdə, əlavə vurğu ikinci tərəfdəki sözdə olur: **ixtisas dərsi, yaz başı, yay havası, çay qaşığı, azadlıq ordusu, toy ziyafəti** və s.

**Üçüncüsü,** müasir Azərbaycan dilində üçüncü növ təyini söz birləşmələrində əsas vurğu birinci tərəfdəki sözdə, əlavə vurğu ikinci tərəfdəki sözdə olur: **qışın şaxtası, aşığın sazı, ağacın qabığı** və s.

**Dördüncüsü,** Azərbaycan dilindəki təyini söz birləşmələrinin tərəfləri yalnız bir birləşdirici vurğu daşıyır, buna əsas vurğu deyilir və həmin vurğu birləşmənin birinci tərəfinin üzərinə düşür.

**Beşincisi,** müasir Azərbaycan dilində təyini söz birləşmələrində birinci tərəfin əsas vurğu daşıyan hecasındakı saitin intensivliyi, ton yüksəkliyi, uzunluğu (səslənməyə sərf olunan zamana görə həmişə olmasa da, əksər hallarda) ikinci tərəfin əlavə vurğu daşıyan hecasındakı saitin intensivliyinə, ton yüksəkliyinə, uzunluğuna nisbətən çox olur.

**Altıncısı,** müasir Azərbaycan dilində **I, II, III** növ təyini söz birləşmələrinin tərəflərində iştirak edən sözlərdə hecaların sayının çoxluğu, şəkilçilərin işlənməsi və s. vurğunun yerinə təsir göstərmir.

**Yeddincisi,** müasir Azərbaycan dilində **I, II, III** növ təyini söz birləşmələrinə məxsus vurğu öz təbiətinə görə ekspirator (güclü) vurğudur.

**Səkkizincisi,** bəzən cümlə daxilində təyini söz birləşməsinin ikinci komponentini daha qabarıq nəzərə çatdırmalı oluruq. Belə olduqda təyini söz birləşməsinin ikinci komponentinin üzərinə məntiqi vurğu (cümlə vurğusu) düşür. Bunu təyini söz birləşməsinin vurğusu ilə qarışdırmaq olmaz. Müqayisə edək:





downloaded from KitabYurdu.org

Stolun üstünə **a´ğ süfrə** salınmışdı və yaxud, stolun üstünə **ağ süfrə´** salınmışdı.

**e)** Qoşmalı birləşmələrdə baş vurğu əsas mənanı ifadə edən sözdə, əlavə vurğu isə qoşmada olur. Belə birləşmələrin yaranmasında iştirak edən qoşmalar, əsasən, aşağıdakılardır:

**üçün** - torpa´q üçü˝n, ölkə´ üçü˝n və s.
**ötrü** - səndə´n ötrü˝, bizdə´n ötrü˝ və s.
**görə** - mənə´ görə˝, sənə´ görə˝ və s.
**kimi** - müəlli´m kimi˝, do´st kimi˝ və s.
**sonra** - dərsdə´n sonra˝, işdə´n sonra˝ və s.
**ayrı** - məndə´n ayrı˝, səndə´n ayrı˝ və s.
**əvvəl** - bizdə´n əvvə˝l, sizdə´n əvvə˝l və s.
**ilə** - sö´z ilə˝, söhbə´t ilə˝ və s.
**başqa** - seminarda´n başqa˝, mühazirədə´n başqa˝ və s.
**özgə** - məndə´n özgə˝, səndə´n özgə˝ və s
**bəri** - səhərdə´n bəri˝, dünəndə´n bəri˝ və s.
**qarşı** - bizə´ qarşı˝, ona´ qarşı˝ və s.
**üzrə** - məluma´t üzrə˝, baxma´q üzrə˝ və s.
**doğru** - meşəyə´ doğru˝, bizə´ doğru˝ və s.
**sarı** - evə´ sarı˝, məktəbə´ sarı˝ və s.
**tərəf** - meşəyə´ tərə˝f, sizə´ tərə˝f və s.
**savayı** - bizdə´n savayı˝, dostumda´n savayı˝ və s.
**qeyri** - yazmaqda´n qeyri˝, oxumaqda´n qeyri˝ və s.

**Qeyd:** Azərbaycan dilində bəzi birləşmələrdə **qeyri** sözü birləşmənin əvvəlində işlənir. Bu zaman baş vurğu **qeyri** sözünün ilk hecasında olur: **qe´yri-kafi˝**, **qe´yri-üzvi˝**, **qe´yri-adi˝** və s.

**ə)** Azərbaycan dilindəki bəzi alınma sözlərdə ön şəkilçilər iştirak edir və onlar zəif də olsa, əlavə vurğu qəbul edir. *Məsələn,* ***na˝nəci´b, ba˝məzə´, la˝məka´n, a˝norma´l, bi˝vəfa´.***

**f)** Sifətin çoxaltma dərəcəsini morfoloji yolla yaradan **m, p, r, s** ünsürləri iştirak edən hecada baş vurğu, sözün (sifətin) sonuncu hecasında isə əlavə vurğu olur. *Məsələn,* ***sa´psarı˝, gö´mgö˝y, du´mduru˝, qa´pqara˝*** və s.





downloaded from KitabYurdu.org

## Məntiqi vurğu

Danışıq zamanı məqsəd və münasibətdən asılı olaraq cümlə daxilində müəyyən sözü xüsusi nəzərə çatdırmaq lazım gəlir. Bu zaman xüsusi nəzərə çatdırılan söz daha güclü vurğu ilə deyilir. Bu, məntiqi vurğu adlanır. Deməli, xüsusi məna çalarlarını ifadə etmək məqsədilə cümlə daxilindəki müəyyən sözün başqalarına nisbətən qüvvətli tələffüzü məntiqi vurğunu yaradır. Məntiqi **vurğu** sözün **üstündə** çəkilən xətlə işarə olunur. *Məsələn,* ***Müəllim dərs danışır.*** Bu cümlədə məntiqi vurğu **müəllim** sözünün üzərinə düşür, eyni zamanda dinləyiciyə aydın olur ki, dərsi danışan başqa adam (şagird) deyil, məhz müəllimdir.

Məntiqi vurğunun yeri sərbəstdir. Yəni o, cümlədə müxtəlif sözlərin üzərinə düşə bilər. Belə ki, cümlədə ifadə olunan hər hansı fikirdə nəyin qabarıq nəzərə çatdırılmasından asılı olaraq məntiqi vurğu cümlədəki sözlər üzərində öz yerini dəyişə bilir. *Məsələn:*

***1) Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsiyəm*** *(yəni başqa birisi yox, məhz (mən) danışan);*

***2) Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsiyəm*** *(yəni başqa bir universitetin yox, məhz Azərbaycanda olan universitetin);*

***3) Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsiyəm*** *(yəni məhz Azərbaycan dövlətinə məxsus olan Pedaqoji Universitetin);*

***4) Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsiyəm*** *(yəni başqa bir universitetin yox, məhz Pedaqoji Universitetin);*

***5) Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsiyəm*** *(yəni müəllimi yox, məhz tələbəsi).*

Azərbaycan dilində neytral halda deyilən cümlələrdə xəbərdən əvvəl gələn cümlə üzvü məntiqi vurğu ilə deyilir. *Məsələn:*





downloaded from KitabYurdu.org

*1) Mən bu gün gəldim.*

*2) Bu gün mən gəldim.*

Yuxarıda qeyd olunduğu kimi, məntiqi vurğu tamamilə sərbəst vurğudur. Bu vurğu cümlənin hər yerində olan sözün üzərinə düşə bilir. Ancaq Azərbaycan dilinin təbiəti belədir ki, məntiqi vurğu daha çox xəbərdən əvvəl gələn sözün üzərinə düşür. Deməli, cümlədə məntiqi vurğunun yeri daha çox xəbərdən əvvəldə olur.

Məntiqi vurğulu söz tələffüzdən asılı olaraq birinci dərəcəli və ikinci dərəcəli olur. *Məsələn,* ***Mən həyatə çıxan kimi səni gördüm*** *cümləsində* ***çıxan kimi*** *və* ***səni*** *sözləri məntiqi vurğu ilə tələffüz olunur.* Burada **çıxan kimi** birinci dərəcəli, **səni** ikinci dərəcli vurğu ilə tələffüz olunur. Həm də burada **çıxan kimi** məntiqi momenti, **səni** isə məntiqi obyekti bildirir. Məntiqi moment birinci dərəcəli, məntiqi obyekt ikinci dərəcəli vurğunu qəbul edir.

Müasir Azərbaycan dilində məntiqi vurğu müəyyən hallarda, məqamlarda işlənir. Bunu Ə.Dəmirçizadə belə göstərir[1]: **a)** təyin və təriflərdə, **b)** bəzən ara sözlərdə və məhdudlaşdırmada müqayisə zamanı, **c)** bir-birini qüvvətləndirən, tamamlayan və ya bir-biri ilə qarşılanan qoşa sözlərdə. *Məsələn:*

*Mən sizə* ***ab-hava*** *barəsində deyil,* ***absız hava*** *barəsində danışacağam (Ə.Sadıq).*

*Onun* ***açıq*** *alnı,* ***açıq*** *qabağı,*
*O* ***qəmsiz, qüssəsiz,*** *o* ***xoşbəxt*** *üzü*
*Mənim ilhamıma yaxındır, düzü (S.Vurğun)*

*Qazma dəstələrinin hamısı* ***sürətlə*** *və* ***müvəffəqiyyətlə*** *işə başladı (Y.Şirvan).*

*Bu* ***el*** *qızı,* ***el*** *gözəli*
*Öz qəlbinin* ***yüz*** *səsilə,*
*Öz eşqilə, həvəsilə*
*Gah durulur, gah bulanır (S.Vurğun)*

---

1. Ə.M.Dəmirçizadə. Müasir Azərbaycan dili. “Maarif” nəşriyyatı, Bakı, 1984, s. 163-164.



downloaded from KitabYurdu.org

**Qeyd:** Bəzən vurğunun **keçid** və ya **metatonik** növündən də danışılır. Vurğunun bu növü barəsində A.Axundov yazır: "Keçid və ya metatonik vurğu sadə fəal münasibəti bildirmək məqsədilə vurğunun yerdəyişimi kimi izah edilə bilər. Bu vurğuya adətən xitablı cümlələrdə xitab vəzifəsində çıxış edən onomastik vahidlərdə - xüsusi isimlərdə, ilk növbədə şəxs adlarında təsadüf edilir:

Fələ, özünü sən də bir insanmı sanırsan?
Məzlumluq edib başlama fəryadə, əkinçi!

*(Sabir)*

(Xuraman:) Vaqif! Ey sərvərim, ey tacidarım!"[1].

*(S.Vurğun)*

## Həyəcanlı vurğu

Bəzən danışan dinləyənə cümlədəki sözlərdən birini hiss, həyəcan, emosiya ilə çatdırır. Bu zaman həmin söz həyəcanlı vurğu ilə deyilir. Məntiqi vurğulu söz həyəcanlı vurğu ilə dolğunlaşdıqda həyəcanlı vurğu ilə də deyilir. *Məsələn, qarlı, şaxtalı bir qış günü pəncərədən küçəni müşahidə edən bir şəxs otaqdakılara* ***qar*** *yağdığını çatdırmaq üçün deyir:* ***Qar yağır.*** Bu cümlədə **qar** sözü üzərində həm məntiqi, həm də həyəcanlı vurğu olur. Ancaq burada **qar** sözü hiss, həyəcan, emosiya ilə dolğunlaşdığından həyəcanlı vurğu kimi təzahür edir. Həyəcanlı vurğu hiss, emosiya ilə yanaşı, bəzən səsin güclü, uzadılması ilə də ifadə olunur. *Məsələn,* ***Yaxşī, sən deyənə razıyam!***

Məntiqi vurğu ilə həyəcanlı vurğu arasında oxşar və fərqli cəhətlər vardır. Bunların hər ikisi arasındakı oxşarlıqlar aşağıdakılardır:

**a)** Həm məntiqi vurğuda, həm də həyəcanlı vurğuda vurğu cümlə daxilindəki müəyyən söz və ifadə üzərinə düşür.

1. A.Axundov. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 289.





downloaded from KitabYurdu.org

**b)** Hər iki vurğu növündə məqsəd odur ki, müxtəlif məna çalarlıqlarını ifadə etmək və dinləyiciyə çatdırmaqda bu və ya digər söz xüsusi vurğu ilə tələffüz olunsun. Məhz həm məntiqi, həm də həyəcanlı vurğuda cümlədəki bu və ya digər söz xüsusi vurğu ilə tələffüz olunur.

**c)** Həm məntiqi, həm də həyəcanlı vurğu müəyyən məqsəd və münasibətə görə işlənir.

Məntiqi vurğu ilə həyəcanlı vurğu arasında fərqlər də mövcuddur. Hər iki vurğu növü arasındakı fərqlər aşağıdakılardır:

**a)** Məntiqi vurğulu söz məntiqi vurğu ilə tələffüz olunur və dinləyicinin diqqətini bu vurğunun təsiri altında cəlb edir.

**b)** Həyəcanlı vurğulu söz həyəcanlı vurğu ilə tələffüz olunur və dinləyicinin diqqətini bu vurğunun təsiri altında cəlb edir.

**c)** Məntiqi vurğulu söz xüsusi tonla tələffüz olunur. Həyəcanlı vurğu isə bundan əlavə, hiss-həyəcan, emosiya ilə tələffüz olunur və dolğunlaşır.

**ç)** Məntiqi vurğudan fərqli olaraq həyəcanlı vurğuda həyəcanlı vurğunu daşıyan söz, əsasən, nida cümlələrində olur.

**d)** Azərbaycan dilində məntiqi vurğu fonetik baxımdan dinamik, həyəcanlı vurğu isə tonik (yəni səs tonunun dəyişməsinə) vurğuya uyarlıdır.

**e)** Müasir Azərbaycan dilində həyəcanlı vurğu danışanın hiss-həyəcanını ifadə etdiyindən sözdəki müəyyən səslər uzadılaraq tələffüz olunur. Bu barədə Ə.Dəmirçizadə yazır: "Müasir Azərbaycan dilində həyəcanlı vurğu əsasən danışanı həyəcanlandıran mənanın ifadəçisi olan sözdə bir və ya iki səsin gərgin uzadılmış halda tələffüzü ilə formalaşır, belə halda daha çox samit səs, bəzən də samitə yaxın sait səs uzadılır. Beləliklə, samit səs dilimizə keçmiş bəzi **baqqal, qəddar, tibb, xətt, sirr, zidd** kimi ərəb sözlərində olan təşdidli (geminat) samitlərə, saitlər isə uzun-davamlı saitlərə oxşayır: **susssmaq, danışş, axxşam, qəşşəng, yaxşıı, yavaaaş- yavaaş** və s."[1].

1. Ə.M.Dəmirçizadə. Müasir Azərbaycan dili. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 165.



downloaded from KitabYurdu.org

## Avazlanma (intonasiya)

**Avazlanma (intonasiya) haqqında.** Hər hansı bir cümlənin məzmunu ilə yanaşı, onun nə məqsədlə səslənməsi, işlənməsi də mühüm rol oynayır. Cümlə səslənərkən onun müxtəlif çalarlıqları yaranır. Yəni bəzən cümlədəki səs, söz, söz birləşməsi uzanır, bəzən qısalır və s. Bununla da cümlədə müxtəlif çalarlıqlar ortaya çıxır. *Məsələn, **"Əhməd gəlir"** cümləsində səsimizin tonu cümlənin sonuna doğru enməyə başlayırsa, **"Əhməd gəlir?"** cümləsində isə əksinə olur.* Belə ki, "Əhməd gəlir?" cümləsində səsimizin tonu cümlənin sonuna doğru yüksəlir və sondakı **gəlir** sözündə **i** saiti uzun tələffüz olunur. Bundan başqa, **"Əhməd gəlir"** cümləsində xəbər mənası, **"Əhməd gəlir?"** cümləsində isə sual mənası aydın şəkildə hiss olunur. Yaxud, "Əhməd gəlir" cümləsini sevinc və şadlıqla, kədər və təəssüflə, təəccüb və heyrətlə və s. ilə deyə bilərik. Bu zaman isə "Əhməd gəlir" cümləsində emosionallıq mənası hiss olunacaqdır. Həm xəbər, həm sual, həm də emosional mənasının fərqlənməsində avazlanma (intonasiya) mühüm rol oynayır.

**Nitqin ritmik və melodik cərəyanı avazlanma (intonasiya) adlanır.** Avazlanma (intonasiya) vasitəsi ilə hər hansı bir fikrin (nitqin) semantik, məntiqi, emosional çalarlıqlarını ifadə edirik. Bizim hər birimizin gündəlik həyatımızda, danışıq prosesində semantik, məntiqi, emosional çalarlıqlarla qarşılaşmalı oluruq. Bu çalarlıqların ifadəsində isə avazlanma (intonasiya) mühüm vəzifələr yerinə yetirir. *Məsələn, **semantik vəzifə, məntiqi vəzifə, emosional vəzifə.*** Avazlanmanın (intonasiyanın) vəzifələrini daha geniş dairədə götürən dilçilik tədqiqatları da mövcuddur. Həmin tədqiqatlarda avazlanmanın (intonasiyasının) vəzifələri belə götürülür[1]:

1. Н.Д. Светозарова. К вопросу о функциях интонации. - "Звуковой строй языка". М., 1979, с. 252-255.





downloaded from KitabYurdu.org

1. Nitq axınının üzvlənməsini təşkil etmək.
2. Üzvlənmə vahidlərini paradiqmatik qarşılaşdırmaq.
3. Üzvlənmə vahidləri arasındakı münasibət və əlaqələri ifadə etmək.
4. İntonasiya vahidləri, ünsürləri arasındakı münasibətləri ifadə etmək.
5. Emosional məna və çalarlıqları ifadə etmək.

**Qeyd:** Sözlər hecalara bölündüyü kimi, cümlələr də müəyyən ritmik qruplara bölünür. Buna fonetikada **sintaqm** deyilir.

Nitq bitmiş bir fikri ifadə edən cümlələrə bölünür. Cümlələr də ifadələrə, sözlərə bölünür. Bununla da nitqin sintaqmatik bölünməsi gedir, sintaqmlar yaranır.

Nitqin sintaqmatik bölünməsində sintaktik konstruksiyalar mühüm rol oynayır. Tabesiz mürəkkəb cümləni təşkil edən tərkiblər, tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlələr, feli tərkiblər, əlavə və xüsusiləşmələr, qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər (xitablar, ara sözlər və ara cümlələr), həmcins üzvlər, zaman və yer zərflikləri, əsasən müəyyən sintaqmlar yaradır. Bu sintaqmlar avazlanma (intonasiya) ilə sıx bağlı olur. Onlar bir baxımdan avazlanmanın (intonasiyanın) məhsulu, digər baxımdan isə onun tənzimediciləridir.

Avazlanmanın (intonasiyanın) tərkib hissələrinə **melodika, ritm, intensivlik, temp, tembr** və s. daxildir.

**Qeyd:** Fonetikaya dair yazılmış bəzi dilçilik əsərlərində **melodika, ritm, intensivlik, temp, tembrlə** yanaşı, **vurğu, durğu, fasilə** də avazlanmanın (intonasiyanın) tərkib hissəsinə daxil olur.

Avazlanma (intonasiya) barəsində aydın bilgi yaratmaq üçün onun tərkib hissələrini nəzərdən keçirək.

**Melodika.** Melodika dedikdə əsas səs tonunun hərəkəti nəzərdə tutulur. Əsas səs tonunun isə iki növü var: **qalxan ton, enən ton.**





downloaded from KitabYurdu.org

**Qalxan ton** qeyri-müəyyənlik, natamamlıq bildirir. Bu ton cümlənin həmcins üzvləri, mürəkkəb cümlənin komponentləri arasında, sual cümlələri arasında və s. məqamlarda müşahidə olunur.

**Enən ton** müəyyənlik, bitkinlik bildirir.

Azərbaycan dilində qalxan, enən tonlardan başqa, **mürəkkəb tonlar** da vardır. Mürəkkəb tonlar qalxan və enən tonların sintezindən ibarətdir. Belə ki, nitqimizdə əvvəli qalxıb sonu enən və əvvəli enib sonu qalxan tonlar vardır. Bunlar birlikdə mürəkkəb tonları yaradır. Deməli, əvvəli qalxıb, sonu enən mürəkkəb ton və əvvəli enib, sonu qalxan mürəkkəb ton Azərbaycan dilində işlənir.

**Ritm.** Nitq prosesində bəzən sürətlənmə ləngimə ilə və ya əksinə olaraq əvəzlənir. Bəzən də gərginləşmə zəifləşmə ilə və ya əksinə olaraq əvəzlənir. Bəzən uzanma qısalma ilə və ya əksinə olaraq əvəzlənir. Bəzən isə bənzərlik çeşidlilik ilə və ya əksinə olaraq əvəzlənir. Bu cür əvəzlənmələr nitq prosesində ritm yaradır. Əlbəttə, nitq prosesində ritm olmasa, onda nitqin eyni sürətdə, eyni gərginlikdə, eyni uzunluqda olması yaranır. Bu isə nitq prosesində iştirak edən tərəfləri yora bilər.

**İntensivlik.** İntensivlik dedikdə danışıq səslərindən olan saitlərin tələffüz gücünə və zəifliyinə əsaslanır. Burada nəfəsvermənin artma və azalma dərəcəsi də nəzərdə tutulur.

**Temp.** Temp nitqin sürətlə, orta sürətlə və yaxud ləng davam müddəti ilə ölçülür. Ona görə də nitqin üç cür tempi vardır:

**1)** Ağır temp (ləng temp);

**2)** Orta temp (orta sürətli temp);

**3)** Tez temp (sürətli temp).

Onu da qeyd edək ki, mahnılar və musiqi əsərlərinin də tempi müxtəlif olur. Onların bəziləri ağır, bəziləri orta, bəziləri isə tez templə ifa olunur. Musiqi əsərlərinin hansı tempdə ifa olunması onların məzmunu ilə bağlı olur.

**Tembr.** Tembr avazlanmanın (intonasiyanın) tərkib hissəsinə daxil olan zəruri komponentdir. Nitqdə mövcud olan fərdi boyalar — kədər, sevinc, qəzəb, məhəbbət, nifrət, hiss-həyəcan və s. kimi çalarlar tembr vasitəsi ilə çatdırılır.





downloaded from KitabYurdu.org

## Avazlanmanın (intonasiyanın) tipləri

Müasir Azərbaycan dilində Avazlanmanın (intonasiyanın) tipləri bunlardır: **nəqli, sual, əmr, nida avazlanmaları (intonasiyaları).**

**Nəqli avazlanmalar (intonasiyalar).** Nəqli cümlələrin avazlanmasına (intonasiyasına) **nəqli avazlanma** (intonasiya) deyilir.

Nəqli cümlələrdə hər hansı bir məlumat müxtəlif formada verilir. Deməli, hər hansı bir məlumatın müxtəlif kommunikativ növləri ola bilir. Bu mənada **nəqli avazlanmanın** (intonasiyanın) müxtəlif kommunikativ növləri vardır: **söyləmə, nağıl etmə, replika, bildiriş, raport.**

Nəqli avazlanmanın (intonasiyanın) söyləmə növündə cümlənin sonunda olan vurğulu hecada ton bir qədər uzadılır: **Dərsin başlanmasına beş dəqiqə qalır.**

Avazlanmanın (intonasiyanın) söyləmə növünün xəbəri daha çox felin hekayə formasında olur.

Nəqli avazlanmanın (intonasiyanın) **nağıl etmə** növü bir çox cəhətdən **söyləmə** növünə yaxındır. Ancaq **nağıl etmə** növünün xəbəri felin rəvayət formasında olur. Xəbəri felin rəvayət formasında olmayan **nağıl etmə** növündə olan cümlələrdə isə son vurğulu hecadakı ton **söyləmə** növünə nisbətən xeyli artıq olur: *Dərsin başlanmasına beş dəqiqə qalır.*

Nəqli avazlanmanın (intonasiyanın) kommunikativ növlərindən biri də **replikadır**. Replika dialoq nitqinin əsas struktur vahididir.

Hər bir dialoq replikalardan təşkil olunur. Dialoq nizamlı təşkil olunmuş replikalar silsiləsidir. Onlar bir-birilə qarşılıqlı əlaqədə olmaqla özünü göstərir.

**Replika** avazlanmanın (intonasiyanın) **söyləmə** və **nağıl etmə** növlərindən kəskin şəkildə fərqlənir. Belə ki, **replikalarda**



downloaded from KitabYurdu.org

nitq tempi daha sürətlidir və dialoji şəraitdən asılı olaraq sintaqm üzvlərindən biri daha güclü vurğu ilə deyilir.

Nəqli avazlanmanın (intonasiyanın) kommunikativ növlərindən biri də **bildirişdir**. Burada nəqli avazlanma (intonasiya) bildiriş avazlanması (intonasiyası) ilə yüklənir. Hər bir bildirişdə yeni bir məlumat verilir. *Məsələn, divara vurulmuş müəyyən informasiyalı məlumatlar buna misal ola bilər.* Belə cümlələrdə cümlənin xəbərindən əvvəl gələn söz məntiqi vurğulu olur.

Nəqli avazlanmanın (intonasiyanın) kommunikativ növlərindən biri də **raportdur**. Nəqli avazlanmanın (intonasiyanın) bu kommunikativ növündən daha çox şifahi rəsmi məlumatlarda, hərbi təlimlərdə və digər sahələrdə istifadə olunur. Bu növdə danışıq tempi sürətli və dinamik vurğu güclü olur. Burada verilən məlumat rəsmi xarakterdə olduğundan danışanın öz dediyinə münasibəti neytral olur, məntiqi vurğu isə müşahidə edilmir.

**Əmr avazlanması (intonasiyası).** Əmr cümlələrinin avazlanmasına (intonasiyasına) **əmr avazlanması (intonasiyası)** deyilir. Əmr avazlanması ilə qurulan cümlələrdə sintaqmın sonunda ton enir, ilk vurğusuz heca ən aşağı tonda, ilk vurğulu heca ən yüksək tonda tələffüz olunur. Əmr avazlanması ilə yaranan cümlələrdə nəqli avazlanmalı cümlələrə nisbətən yüksək intensivlik olur. İntensivliyin ən yüksək həddi vurğulu hecada özünü göstərir. Və o, dinamik çalarlarda yüksək, xahiş, nəsihət, yalvarış kimi çalarlarda isə zəif olur.

Əmr avazlanması (intonasiya) ilə qurulan cümlələrdə vurğu birinci və üçüncü şəxsdə şəxs şəkilçisinə düşdüyü halda, ikinci şəxsin şəxs şəkilçisi vurğu qəbul etmir və vurğu əvvəlki şəkilçiyə keçir.

Əmr avazlanmasının (intonasiyasının) bir sıra kommunikativ növü vardır: **əmr, təhrik, təsir etmə, hiss-həyəcan bildirən emotiv növlər.**

Əmr avazlanmasının (intonasiyasının) əmr kommunikativ növündə **əmr, qəzəb, hədə, hökm, qadağan etmə** məna çalarlıqları ifadə olunur. *Məsələn, "Qapını aç" cümləsini əmr, qəzəb, hədə, hökm, qadağan etmə avazlanma (intonasiya) çalar-*



downloaded from KitabYurdu.org

*ları ilə demək mümkündür.*

Əmr avazlanmasının (intonasiyasının) **təhrik** kommunikativ növündə **çağırış, buyuruq, təkid, komanda** məna çalarlıqları olur. *Məsələn:* ***Vətənə borcumuzu verək*** *(çağırış çalarlığı);* ***İç, iç sənə deyirəm... İç!*** *(təkid çalarlığı);* ***Sabah məni yola sal gedim*** *(buyruq);* ***Bir addım irəli!*** *(komanda çalarlığı) və s.*

Əmr avazlanmasının (intonasiyasının) **təsir etmə** kommunikativ növündə **güzəşt, məsləhət, nəsihət, xahiş, yalvarış** məna çalarlıqları olur. *Məsələn:* ***Xahiş edirəm bir də mənimlə görüşməyin*** *(xahiş çaları);* ***Mən istərdim ki, sən bir daha onunla görüşməyəsən*** *(məsləhət çaları);* ***Mənim qardaşım, narahat olma!*** *(nəsihət çaları);* ***Mən sənə yalvarıram: bir də onunla işin olmasın*** *(yalvarış çaları) və s.*

Əmr avazlanmasının (intonasiyasının) **hiss-həyəcan bildirən emotiv** növündə **nəşə, imtina, biganəlik, kinayə, qorxu-həyəcan, məmnunluq, əzizləmə** kimi məna çalarları olur. *Məsələn:* ***Gedin, dostunuza deyin, ikimizi də qanımıza qəltan etsin*** *(kinayə çaları);* ***Sizə bir daha deyirəm, mən getməyəcəyəm*** *(imtina çaları);* ***Razı qaldıq, sizin bu işiniz olduqca xoşdur*** *(məmnunluq çaları) və s.*

**Sual avazlanması (intonasiyası).** Sual cümlələrinin avazlanmasına (intonasiyasına) **sual avazlanması** (intonasiyası) deyilir. Azərbaycan dilində sual avazlanmasının (intonasiyasının) kommunikativ növləri bunlardır: **ümumi sual cümləsi, xüsusi sual cümləsi, istisnalı sual cümləsi, istisnasız sual cümləsi.**

Sual avzlanmasının (intonasiyasının) **ümumi sual cümləsi** növü **intonasiya** və **-mı//-mi//-mu//-mü** sual ədatları vasitəsilə yaranır.*Məsələn,* ***Əli dərsə getdi?*** *(intonasiya vasitəsi ilə);* ***Əli dərsə getdimi?*** *(sual ədatı ilə); Bəs* ***Əli dərsə getdi?*** *(sual ədatı ilə); Məgər* ***Əli dərsə gedəcək?*** *(sual ədatı ilə) və s.*

Ümumi sual cümlələrinin cavabı **bəli, hə** təsdiq, **xeyir, yox** imkan ədatlarından birinin vasitəsilə verilə bilir. *Məsələn:* **-** ***Əli dərsdən gəldi?*** **-** *Bəli (hə);* ***-Əli məktəbə getdi? - Yox*** *(xeyr) və s.*

Sual avazlanmasının (intonasiyasının) **xüsusi sual cümləri**



downloaded from KitabYurdu.org

növü sual əvəzlikləri vasitəsilə əmələ gəlir. **Xüsusi sual cümlələrində** sintaqmın sonunda ton enir. Ancaq ümumi sual cümlələrində isə sintaqmın sonunda ton qalxır. *Məsələn:* ***Quşlar necə uçur?; Bu məktubu kimdən aldın?; Hanı mənim dostum?; Hardan gəlirsiniz?*** *və s.*

Sual avazlanmasının (intonasiyasının) istisnalı sual cümlələri növü **ya, yoxsa** bağlayıcıları ilə yaranır. *Məsələn:* ***Bu meşə təzəcə salınıb, yoxsa?; Sən özünə təzə paltar aldın, ya almadın?*** *və s.*

İstisnalı sual cümlələrinin yaranmasında **və, deyilmi, eləmi, elə deyil, hə** kimi nitq vahidləri iştirak edir. *Məsələn,* ***Həyatın sonu ölüm deyilmi?; Bu gün görüşəcəyik, eləmi?, Axşam toya gedəcəksiniz, elə deyil?; Sən də incidin, hə?*** *və s.*

**Nida avazlanması (intonasiyası).** Nida cümlələrinin avazlanmasına (intonasiyasına) **nida avazlanması** (intonasiyası) deyilir. Nida avazlanmasının (intonasiyasının) kommunikativ növləri bunlardır: **yalnız intonasiyaya əsaslanan nida cümlələri, yaşasın, eşq olsun sözləri ilə başlayan, alqış ifadə edən nida cümlələri, nidanın iştirakı ilə yaranan nida cümlələri, müxtəlif ədatların iştirakı ilə yaranan nida cümlələri.**

Nida avazlanmasının (intonasiyasının) **yalnız intonasiyaya əsasalanan** növündə nidalılıq yalnız tembr və əsas səs tonu vasitəsi ilə yaranır. *Məsələn,* ***Uğurlar arzulayıram, gənc müəllim!; O, imtahana hazırdır, professor!*** *və s.*

Nitq avazlanmasının (intonasiyasının) **yaşasın, eşq olsun sözləri ilə başlayan, alqış ifadə edən** növündə vəziyyət bir-birindən fərqlənir. Belə ki, **yaşasın** sözü iştirak edən cümlələrdə vurğulu söz sintaqmın həm əvvəlində, həm də sonunda olur. *Məsələn,* ***Yaşasın Azərbaycan xalqının müstəqilliyi!; Yaşasın Azərbaycan xalqı*** *və s.*

**Eşq olsun** sözü iştirak edən cümlələrdə isə vəziyyət başqa cürdür. Belə cümlələrdə eşq olsun sözü sintaqmın həm sonunda, həm də əvvəlində işlənir. *Məsələn,* ***Eşq olsun müqəddəs Azərbaycan torpağına!; Müqəddəs Azərbaycan torpağına eşq olsun*** *və s. Ancaq* ***eşq olsun*** *sözü daha çox sintaqmın sonunda*



downloaded from KitabYurdu.org

*gəlir.* Nida avazlanmasının (intonasiyasının) **nidaların iştirakı ilə yaranan** növündə iki hal diqqəti cəlb edir: **1) yalnız nidadan ibarət olan nida cümlələri; 2) nida iştirak edən genişlənmiş nida cümlələri.**

**Yalnız nidadan ibarət olan nida cümlələrində** əsas səs tonu çox mürəkkəb olur. Belə cümlələrdə fikrin əsas ağırlığı bütünlükdə avazlanmanın (intonasiyanın) üzərinə düşür. *Məsələn, **Aha!** Səni görməyimə şadam; **Buy-buy!** Səni niyə aldadıram?; **Ax!** Yırtıcı qatil; **Eh**, çox işlərin şahidi olmuşam və s.*

Nida avazlanmasının (intonasiyasının) **ədatların köməyi ilə yaranan** növü **intonasiya** və ədatlar vasitəsi ilə formalaşır. *Məsələn, **Necədə xoşdur!; Nə gözəl qızdır!; Kaş ki, biz yenidən görüşərdik!** və s.*

Əlbəttə, bu tipli cümlələrdə **necə, nə qədər, nə üçün** ritorik ədatları, **kaş, kaş ki, təki, barı, nola** qeyd-şərt ədatları, **barı, nola** arzu və qeyd-şərt ədatları, **ki** sual ədatı və digərləri iştirak edir.

## Sadə cümlələrin avazlanması (intonasiyası)

*Sadə cümlələrin avazlanmasının (intonasiyasının) əhatə dairəsi çox genişdir. Buraya cümlə üzvlərinin, əlavələrin, sözlərin sırasının, sadə cümlənin növlərinin, söz cümlələrinin, qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlərin avazlanması (intonasiyası) daxildir. Ancaq bunlardan bəzilərini nəzərdən keçirməklə kifayətlənəcəyik.*

**Əlavələrin avazlanması (intonasiyası).** Əgər cümlənin daxilində əlavə varsa, onda bir qayda olaraq cümlənin sintaqmatik parçalanması gedir. Əlavə yarımçıq sintaqm təşkil edir və onun son vurğulu hecasında ton bir qədər qalxır. Bütün cümlə üzvlərinin əlavəsi olduğundan bu səciyyəvi xüsusiyyət bütün cümlə üzvlərinin əlavələrinə aid olur. Məsələn:



downloaded from KitabYurdu.org

**Əhməd - cəngavər xarakterli o qəhrəman oğlan bizə qonaq gəlmişdi** (mübtədanın əlavəsi);

**Əhmədi - cəngavər xarakterli o qəhrəman oğlanı evdə gözləyirdik** (tamamlığın əlavəsi);

**Əhməd yarışa - hamımızın arzuladığımız bir yerə getdi** (zərfliyin əlavəsi); **Hamımızın hörmət etdiyimiz Əhməddir - o cəngavər xarakterli qəhrəmandır** (xəbərin əlavəsi) və s.

Əgər cümlələrdə bir neçə paralel əlavələr varsa, həmin paralel əlavələrin hər biri ayrıca yarımçıq sintaqm təşkil edir. *Məsələn,* ***Mən indi boynumu kişilərin qolları arasına, bu mərhəmət boyunduruğuna, bu dəmir obruclara, bu çəlik məngənələrinə keçirə bilmərəm*** *(C.Cabbarlı)*[1].

**Həmcins üzvlü cümlələrin avazlanması (intonasiyası).** Müasir Azərbaycan dilində həmcins üzvlü cümlələr arasında sadalama intonasiyasından istifadə olunur. Bu zaman sadalama avazlanması (intonasiyası) cümlələri yarımçıq sintaqmlara bölür. Həmcins üzvlü cümlələrin yaranmasında sadalama intonasiyası əsas rol oynayır. Müasir Azərbaycan dilində cümlənin bütün üzvlərinin həmcinsləşməsi özünü göstərir. *Məsələn*[2]*:*

***Araz, Sona, Gülər bu il ali məktəbə daxil oldular*** *(həmcins mübtədalı cümlə);* ***Araz hər gün dərsə gedir, mühazirələri dinləyir, laboratoriyada çalışır*** *(həmcins xəbərli cümlə);* ***Universitetdə Arazı, Sonanı, Güləri hamı tanıyır*** *(həmcins tamamlıqlı cümlə);* ***Qırmızı, mavi, yaşıl, sarı bayraqlar stadion boyu dalğalanırdı*** *(həmcins təyinli cümlə);* ***Uşaqlar səhər saat onda, axşam saat altıda gəzməyə çıxırdılar*** *(həmcins zaman zərflikli cümlə);* ***Əsgərlər qaça-qaça, uzanaraq, sürünə-sürünə irəliləyirdilər*** *(həmcins tərzi-hərəkət zərflikli cümlə) və s.*

Həmcins cümlə üzvlərində sintaqmlar sadalama intonasiyası ilə deyilir və qalxan tonla qurtarır.

---

1. Cümlələr A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabından götürülmüşdür (səh. 337).

2. Yenə orada. səh. 338-342.





downloaded from KitabYurdu.org

Müasir Azərbaycan dilində bir çox hallarda həm həmcins üzvlərdən əvvəl, həm də sonra ümumiləşdirici sözlər işlənir. Həmin ümumiləşdirici sözlər məntiqi vurğu ilə deyilir və cümlənin intonativ mərkəzini təşkil edir. Məsələn: **Küçələrdə, meydanlarda, bağlarda – hər yanda: böyük şənlik vardır; Bu gün hamı: qocalar, cavanlar, uşaqlar böyük sevinc içərisində idi; Bu gün hamı: müəllimlər, tələbələr, texniki işçilər bir nəfər kimi iməciliyə çıxmışdı** və s.

Müasir Azərbaycan dilində həmcins üzvlər bir-biri ilə intonasiyadan başqa, bağlayıcılar vasitəsilə də əlaqələnir. Həmcins üzvlər arasında iştirak edən bağlayıcılar əsasən bunlardır: **bitişdirmə, qarşılıq, bölüşdürmə, iştirak, inkar bağlayıcıları.** Misallara diqqət edək[1]:

**Araz və Azad qardaşdırlar** (bitişdirmə bağlayıcısı); **Araz ilə Azad qardaşdırlar** (bitişdirmə bağlayıcısı). Bu cümlələrdə **və** bağlayıcısı ikinci həmcins üzvlə eyni sintaqma düşür. Bitişdirmə bağlayıcısından **ilə** birinci həmcins üzvlə eyni bir sintaqma daxil olur. Bu da **ilə** köməkçi nitq hissəsinin bağlayıcı vəzifəsində olan qoşma kimi çıxış etməsi ilə bağlıdır. Bitişdirmə bağlayıcıları ilə yaranan həmcins üzvlü cümlələrdə sintaqmlar bir-biri ilə qalxan tonla əlaqələnir.

**Göyün üzü nə tutulur, nə də açılırdı** (inkar bağlayıcısı). İnkar bağlayıcısı iştirak edən həmcins üzvlü cümlələrdə sintaqmlar bir-birilə qalxan tonla əlaqələnir.

**O, qıza yaxınlaşdı, amma bir şey demədi** (qarşılıq bağlayıcısı); **Mən onu dinləyirdim, lakin bir şey anlamırdım** (qarşılıq bağlayıcısı). Qarşılıq bağlayıcıları iştirak edən həmcins üzvlü cümlələrdə enən ton özünü göstərir.

**Külək gah sakitləşir, gah da güclənir** (bölüşdürmə bağlayıcısı); **Aygün bu gün ya qalib gələcək, ya da idmandan ömürlük əl çəkəcəkdir** (bölüşdürmə bağlayıcısı); **Həm Səməd Vurğun, həm də Süleyman Rüstəm xalqımızın qəlbində əbə-**

---

1. Misallar A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabından götürülmüşdür (səh. 342-343).



downloaded from KitabYurdu.org

**di yaşayacaqdır** (iştirak bildirən bağlayıcı) və s.

Bölüşdürmə və iştirak bildirən bağlayıcılar iştirak edən həmcins üzvlü cümlələrdə qalxan ton özünü göstərir.

**Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlərin avazlanması (intonasiyası).** Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlərin avazlanmasına (intonasiyasına) **xitab, ara sözlər və ara cümlələrdə** rast gəlirik.

Xitab iştirak edən cümlələrdə, adətən, xitab həyəcanlı vurğu ilə deyilir və bir heca əvvələ keçir. Xitab iştirak edən cümlələrdə xitabdan sonra gələn cümlə üzvləri ilə bir sintaqm əmələ gətirir. Bu zaman xitabın özü də bir sintaqm yaradır. Xitabın əmələ gətirdiyi sintaqm cümlənin digər sintaqmlarından enən tonla fərqlənir. Misallara diqqət yetirək:

**A kişi, hara gedirsən? ; Əhməd, mən səni tanıyıram** və s.

Xitablar cümlənin əvvəlində, ortasında, axırında gələ bilir. Ona görə də xitabların cümlədə tutduğu yerdən asılı olaraq cümlənin ümumi avazlanmasında (intonasiyasında) dəyişiklik olur.

Əgər xitab cümlənin ortasında gəlirsə, onda xitabdan ibarət sintaqm özündən əvvəl və sonra gələn sintaqma eyni münasibətdə olur. *Məsələn, **Həsənov özü də, yoldaşlar, həmin tədbirdə iştirak etmişdir.***

Xitablar cümlənin sonunda gəldikdə ayrıca sintaqm yaradır. Bu zaman xitabdan əvvəl səs tonu enir. *Məsələn, **Bu uşaq kimdir, Bəxtiyar?***

Müasir Azərbaycan dilində mübtəda vəzifəli ikinci şəxs əvəzlikləri ilə başlayan xitablı cümlələrdə mübtəda şəxs əvəzlikləri və xitablar eyni bir sintaqma daxil olur. *Məsələn, **Sən ey vətən, həmişə mənim güvənc yerimsən!***

Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərin bir qrupu da ara sözlərdir. Danışanın ifadə etdiyi fikrə şəxsi münasibəti bildirən belə sözlərdə bir qayda olaraq modallıq intonasiyası işlənir. Xitablarda olduğu kimi, ara sözlər də xüsusi sintaqm təşkil edir. Ara sözlər cümlənin əvvəlində və ortasında gələrkən onlar digər sintaqmlarla qalxan tonla intonativ əlaqədə olur. Cümlənin sonunda gəldikdə isə ara sözlər özlərindən



downloaded from KitabYurdu.org

əvvəl gələn sintaqmlardan cümlənin ümumi intonativ quruluşuna uyğun səs tonu ilə hüdudlanır. Misallara diqqət yetirək:

**Şübhəsiz, bu məsələləri həll etmək lazımdır; Əlbəttə, görülmüş işlər məni razı salır; Doğrudan da, biz hamımız bir məqsəd uğrunda çalışırıq** və s.

Müasir Azərbaycan dilində ara sözlər **güman** (məsələn: bəlkə, bəlkə də, ehtimal ki, deyəsən, görəsən və s.), **yəqinlik** (məsələn: əlbəttə, şübhəsiz, doğrudan da, həqiqətən, məlum olduğu kimi və s.), **təəssüf** (məsələn: heyf, heyf ki, əfsus, təəssüf ki və s.), **nəticə bildirmə** (məsələn: xülasə, deməli, demək, bir sözlə, beləliklə və s.), sıra bildirmə (məsələn: əvvələn, nəhayət, birincisi və s.) məna çalarlıqlarını daşıyır.

Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan, cümlə daxilində xüsusi cümlə təşkil edən ara cümlələr də vardır. Ara cümlələr daxil olduqları cümlənin əvvəlində ortasında və sonunda gələ bilir. Azərbaycan dilində ara cümlələr cümlənin əvvəlində gəldikdə ayrıca bir sintaqm təşkil edir. *Məsələn,* ***Mənə elə gəlir ki, hər şey bu yaxınlarda həll olacaq.***

Ara cümlələr cümlənin ortasında gəldikdə yenə də müstəqil sintaqm təşkil edir. Ancaq əvvəlki sintaqmdan kiçik, sonrakı sintaqmdan isə böyük fiziki durğu ilə seçilir. Əvvəlki sintaqm enən tonla, ara cümlədən ibarət olan sintaqm isə qalxan tonla deyilir. *Məsələn*[1]*,* ***Uca dağların başından, bu dağların zirvəsi həmişə qarla örtülü olur, sərin meh əsirdi; Sabahda - biri gündə Osman, Teybə öz ərini nəzərdə tuturdu, Bakıya yola düşüb gedib düzünü öyrənər.***

Qeyd: Müasir Azərbaycan dilində xüsusiləşməsi olan cümlə üzvlərinin, feli sifət, feli bağlama və məsdər tərkiblərinin avazlanması (intonasiyası) ayrıca sintaqm təşkil edirlər. *Məsələn,* ***Əlidən başqa, bütün uşaqlar tədbirdə iştirak edirdilər; Onun sevincini hamı, xüsusən Mirzə müəllim,***

1. Misallar A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabından (səh. 354) götürülmüşdür.





downloaded from KitabYurdu.org

***böyük bir bayram kimi qarşıladı; Havalar tez-tez dəyişəndə anamın ürəyi sıxılır; Nuru baba iş başında görünəndə dostlar sevindi*** *və s.*



## Mürəkkəb cümlələrin avazlanması (intonasiyası)

Mürəkkəb cümlələr tabesiz və tabeli olmaqla iki qrupa ayrılır:

**Tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası).** Tabesiz mürəkkəb cümlələr öz növbəsində iki yerə bölünür: **tərkib hissələri yalnız intonasiya ilə bağlanan tabesiz mürəkkəb cümlələr** (bunlara bağlayıcısız tabesiz mürəkkəb cümlələr də deyilir), **tərkib hissələri bağlayıcı və birləşdirici intonasiya ilə bağlanan tabesiz mürəkkəb cümlələr** (bunlara bağlayıcılı tabesiz mürəkkəb cümlələr də deyilir).

**Bağlayıcısız tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası).** Müasir Azərbaycan dilində bağlayıcısız tabesiz mürəkkəb cümlələr arasında mövcud olan məna əlaqələri bunlardır: **zaman əlaqəsi, ardıcıllıq əlaqəsi, səbəb və nəticə əlaqəsi, ziddiyyət-qarşılaşdırma əlaqəsi, aydınlaşdırma əlaqəsi.**

Bağlayıcısız tabesiz mürəkkəb cümlələri ümumiləşdirən cəhət odur ki, onların hamısında tərkib hissələri - komponentlər müstəqil sintaqmlar təşkil edirlər. *Məsələn*[1]*:*

***Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası):*** *Sport cəmiyyətinin yelkənli qayıqları sürətlə şütüyür, suları yara-yara uzaq sahillərə üzən gəmilər sakit dənizin üzərində köpüklü şırımlar açır, göyərtədə saxlanmış sərnişinlərin rəngbərəng yaylıqları titrəyir.*

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması

1. Misallar A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabından (səh. 366-370) götürülmüşdür.



downloaded from KitabYurdu.org

(intonasiyası) zamanı sintaqmlar bir-birilə enən tonla əlaqələnir.

**Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası):** *Zəng çalındı, uşaqlar sinfə doldular, müəllimlər nəzakətlə vidalaşıb ayrıldılar (M.İbrahimov).*

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası) zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanmasından (intonasiyasından) danışıq tempinin iti olması ilə fərqlənir.

**Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası):** *Günəş batdı, göylər qaraldı (M.İbrahimov); Bildir yayda bərk yağışlıq oldu, taxıl çürüdü (Ə.Vəliyev).* Bu cümlələrin tərkib hissələri bir-biri ilə enən tonla əlaqələnir. Ancaq bu cümlələrin tərkib hissələri bir-birilə məna cəhətdən daha çox bağlıdır. Çünki ikinci komponent birincinin məntiqi nəticəsi kimi çıxış edir. Ona görə də səbəb bildirən birinci sintaqmın sonunda səs tonu uzanır, bu da tonun bir qədər qalxmasına şərait yaradır.

**Ziddiyyət - qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası):** *Araz geri axar, mən sənə yalvarmaram (M.İbrahimov); İsa bəy nə isə qonağa demək istədi, Hacı macal vermədi (M.Cəlal).*

Ziddiyyət, qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə ziddiyyət, qarşılaşdırma, fərqləndirmə çalarları müşahidə olunur. Ziddiyyət-qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr digər tabesiz mürəkkəb cümlələrdən fərqlənir. Belə ki, ziddiyyət-qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdəki sintaqmlarda müəyyən bir cümlə üzvü məntiqi vurğu ilə işlənir.

**Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası):** *Amma ona bir şey toxunurdu, şifahi xalq yaradıcılığını, o cümlədən aşıq sənətini gözdən salmaq istəyənlər öz adlarından yox, xalq adından danışırdılar (H.Mehdi); Rüstəm kişi zahirən bu sözləri sərt desə də, içərisində sevinc və yüngüllük hiss edirdi: Qızyetərin işi bilməsi və möhkəm durub səhlənkar traktorçu ilə sinə-sinəyə verməsi xoşuna gəlmişdi (M.İbrahimov).*

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin avaz-





downloaded from KitabYurdu.org

lanması (intonasiyası) zamanı sintaqmlar arasında durğu böyük rol oynayır. Sintaqmlardan birincisi isə aydın duyulan enən səs tonu ilə qurtarır.

**Bağlayıcılı tabesiz mürəkkəb cümlələrin avazlanması (intonasiyası).** Bu tipli cümlələrdə bağlayıcının olması avazlanmanın (intonasiyanın) ölçülərinə təsir göstərmir. Komponentlərin, tərkib hissələrinin hər biri müstəqil sintaqm təşkil edir. Bağlayıcılı tabesiz mürəkkəb cümlələrdə sintaqmlar arasında durğu az davam edir. *Məsələn[1], Birləşdirmə bağlayıcısı:* ***Geridən gələn şələli yolçular da buraya qaytarılır və heç bir kəs irəliyə buraxılmırdı*** *(S. Rəhimov).*

*Qarşılıq bağlayıcısı:* ***Bayram yüyürüb onun köməyinə çatmaq istəyir, amma ayağındakı qandallar onu tərpənməyə qoymurdu*** *(H.Mehdi).*

*İştirak bildirən bağlayıcı:* ***Bu yoldaşlar həm qulluğa qaytarılsın, həm də onlara işlədikləri on günün məvacibi verilsin.*** *(H.Mehdi).*

*Bölüşdürmə bağlayıcısı:* ***Gah uzaqdan qəribə səslər gəlir, gah da ətrafa dərin sükut çökürdü.***

*İnkar bağlayıcısı:* ***Nə o, kəndə gəldi, nə də mən Təbrizə getdim*** *(M. İbrahimov).*

**Tabeli mürəkkəb cümlələrin avazlanması (intonasiyası).** Tabeli mürəkkəb cümlələrin baş və budaq cümlələrinin hər biri ayrı-ayrılıqda müstəqil sintaqmlar təşkil edir. Komponentlər arasında tabeedici avazlanma (intonasiya) olduğuna görə sintaqmlar bir-birinə qalxan tonla bağlanır. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələrin avazlanması (intonasiyası) **mübtəda, xəbər, tamamlıq, təyin, zərflik budaq cümlələrində** (tərzi-hərək budaq cümləsi, zaman budaq cümləsi, yer budaq cümləsi, səbəb budaq cümləsi, kəmiyyət budaq cümləsi) özünü göstərir[2]:

---

1. Misallar A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabından (səh. 373-375) götürülmüşdür.
2. Misallar A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabından (səh. 376-383) götürülmüşdür.





downloaded from KitabYurdu.org

Mübtəda budaq cümləsi: **Nahaq yerə deyilməmişdir ki, iş ustadan qorxur.**

Xəbər budaq cümləsi: **Mənim dediyim odur ki, arzum ürəyimdə qalmasın** (H.Mehdi).

Tamamlıq budaq cümləsi: **Eyvazın anası deyirdi ki, uşaqlar daha böyüyüb...** (Ə.Vəliyev).

Təyin budaq cümləsi: **Mən o adama qəhrəman deyərəm ki, hər an vətəni üçün canından keçməyə hazır olsun.**

Tərzi-hərəkət budaq cümləsi: **Quşlar səs-səsə verib elə oxuyurdular ki, adamlar ayaq saxlayıb onları dinləyirdi.**

Zaman budaq cümləsi: **Əsgərlərimiz o zaman yetişdilər ki, güllələrimiz qurtarmışdı.**

Səbəb budaq cümləsi: **Adamlar ona görə həyəcanlanmışdılar ki, hay-haraylı bulanıq sel kəndə tamam yaxınlaşmışdı.**

Məqsəd budaq cümləsi: **Natiq ondan ötrü ucadan danışırdı ki, dinləyənlər onu yaxşı başa düşsün.**

**Qeyd:** Avazlanma (intonasiya) ilə bağlı geniş məlumat almaq üçün bax: A.Axundov. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 292-388;
F.M.Ağayeva. Şifahi nitqin sintaksisi. Bakı, 1975;
Н.Мехтиев. Побудительное предложение в современном азербайджанском языке и експериментальное исследование его интонации. АКД, Баку, 1973;
С. Бабайев. Особенности интонации простых повествовательных предложении с деепричасными оборотами в современном азербайджанском языке. Баку, 1966; Z.Budaqova. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, 1963;
Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, 1985;
Cabir Axundov. Azərbaycan dilində sual cümlələri (eksperimental-fonetik tədqiq). Bakı, 1998 və s.





downloaded from KitabYurdu.org

## Durğu

**Durğu** səs durğusuna daxildir və mənalı səslənməyə xidmət edir. Yazılı nitqi daha yaxşı başa düşmək üçün durğu işarəsi böyük rol oynayır. Müqayisə üçün onu da qeyd edək ki, şifahi nitqdə səlis və aydınlığı pauza, intonasiya, vurğu ifadə edir. Yazılı nitqin səlis və aydınlığı üçün durğu işarələri mühüm xidmət göstərir.

Müasir Azərbaycan dilində işlədilən işarələri iki yerə bölmək olar: **durğu işarələri, şərti işarələr.**

Müasir Azərbaycan dilində işlədilən durğu işarələri bunlardır: **nöqtə (.); vergül (,); nöqtəli vergül (;); iki nöqtə (:); tire (-); sual (?); nida (!); üç nöqtə (...); mötərizə [( )]; dırnaqlar (« », " ").**

Müasir Azərbaycan dilində durğu işarələrindən başqa, **şərti işarələrdən** də istifadə olunur. Həmin şərti işarələr bunlardır: **çıxma (-), toplama (+), bölmə (:), vurma (x), bərabərlik (=).** Şərti işarələr elmi-texniki kitablarda işlədilir.

Onu da qeyd edək ki, durğu işarələrinin bəzisindən texniki məqsədlə də istifadə oluna bilir. Ancaq nitq üçün durğu işarələrinin bu məqsədi (yəni texniki məqsədi) nəinki əsas, heç vacib də deyildir. Bu mənada qeyd olunan durğu işarələrinin nitqdə işlədilməsi əsas götürülür və bundan da bəhs olunacaqdır. Ona görə də durğu işarələrinin hər birini nəzərdən keçirək.

**Nöqtə[1].** Nöqtə işarəsi müasir Azərbaycan dilində aşağıdakı hallarda işlədilir.

**1)** Bütöv və yarımçıq nəqli cümlələrdən sonra nöqtə işarəsi qoyulur. *Məsələn,* ***Dəfələrlə bulaq başında onunla görüşmüş, sevişmiş və ondan ilqar almışdı*** *(A.Şaiq).*

Camal. **Haraya yazılmışdır?**

1 Durğu işarələrinə aid misallar "Azərbaycan dilində durğu işarələri" kitabından götürülmüşdür. Bax: Z.Budaqova, R.Rüstəmov. Azərbaycan dilində durğu işarələri. Bakı, 1965.





downloaded from KitabYurdu.org

Almaz. **"Yeni yola"** (C.Cabbarlı).

**2)** Adlıq cümlələrdən sonra nöqtə işarəsi qoyulur. *Məsələn,* ***Yay günü. Yol üstü, ağac kölgəsi*** *(S.Vurğun).*

**3) Lakin, bununla belə, amma, ancaq, halbuki, həm də, özü də, hətta, yəni** və s. tabesizlik bağlayıcıları tabesiz mürəkkəb cümlənin komponentlərini bir-birinə bağlamırsa, tabesiz mürəkkəb cümlə əmələ gətirmirsə, onda həmin bağlayıcılardan əvvəl nöqtə qoyulur. *Məsələn,* ***Mən həkim deyiləm.*** **Ancaq mənə gün kimi aydındır ki, vərəm, qızdırma xəstəliyi olan yerdə daha tez inkişaf edir** (H.Mehdi).

**4) Buna görə (də), bu səbəbdən (də), ona görə (də), o səbəbə ki, o idi ki, odur ki, ondan ötrü (ötəri) ki** və s. tabelilik bağlayıcıları müstəqil cümlələri tam, bütöv bir şəkildə bağlamırsa, onda həmin bağlayıcılardan əvvəl nöqtə işarəsi qoyulur. *Məsələn,* ***Deyəsən, mən təcrübəsizəm. Ona görə də yanlış mühakimə yürüdürəm*** *(H.Mehdi).*

**5)** Dram əsərlərində obrazların nitqlərindən sonra və ya nitqləri arasında gələn remarkalar mötərizəyə alınır, mötərizədəki bütöv, yarımçıq cümlələrdən sonra nöqtə qoyulur. *Məsələn, Cavad xan.* ***Sizin buyurmağınıza görə guya gərək siz danışasınız, mən ağlayam, eləmi? (Kənara.) Amma qəribə tündməzacdır*** *(C.Cabbarlı); Mikayıl.* ***Xanım qız gəlsin görüm, iş nə haldadır... (Saata baxıb otaqda gəzinir. Zəhra xanım daxil olur.)*** *(N. Vəzirov).*

Şəxsin adından sonra remarka gələrsə, onda nöqtə mötərizədən sonra qoyulur. *Məsələn,* ***Surxay*** *(yavaşdan Musaya).* ***Hə, hə, di get görüm, necə gedirsən*** *(S.Rəhman).*

**6)** Pyesdə iştirak edən şəxslərin adları abzasdan yazılırsa, onlardan sonra nöqtə işarəsi qoyulur. *Məsələn,*

*Rəhim.* ***Şam hazırdır, buyurun*** *(N.Vəzirov).*
*Kərəmov.* ***Gətir baxım*** *(S.Rəhman).*

Pyesdə iştirak edən şəxsin adı abzasdan yox, sətrin ortasında yazılırsa, ondan sonra heç bir işarə qoyulmur.

**7)** İki nöqtədən sonra gələn müstəqil cümlələrin hər birindən sonra nöqtə işarəsi qoyulur. *Məsələn,*



downloaded from KitabYurdu.org

***Türk dilli xalqların, eləcə də Azərbaycan xalqının mədəni həyatında böyük rol oynamış Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:***

**1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.**

**2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.** ("Xalq qəzeti". 10 noyabr, 2006-cı il)

**Vergül.** Müasir Azərbaycan ədəbi dilində vergül işarəsindən aşağıdakı hallarda istifadə olunur.

**1)** Tabesiz mürəkkəb cümlənin tərkib hissələri intonasiya ilə bağlandıqda komponentlər arasında vergül qoyulur. *Məsələn,* ***May ayı girmiş, hava qızmışdı*** *(A.Şaiq).*

**2)** Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında bağlayıcılar gələrsə, onda bu bağlayıcılardan əvvəl vergül işarəsi qoyulur. *Məsələn,* ***-Yaxşı, indi de görüm, sən gəlirsən, ya mən sənin yanına gəlim*** *(Azərbaycan nağılları);* ***Mən də nağıl bilməyirəm, ancaq bacım Tamam çox bilir*** *(S.S.Axundov);* ***Adları çıxsa da, özləri yoxdur*** *(S.Vurğun);* ***Bir gün də həm gün çıxır, həm yağış yağır, həm də bürkü olur...*** *(Mir Cəlal) və s.*

**3)** Tabeli mürəkkəb cümlənin tərkib hissələri bir-birinə intonasiya ilə bağlanırsa, ona baş və budaq cümlə arasında vergül işarəsi qoyulur. *Məsələn,* ***Mən bilirəm, sən öz Dilşadını axtarmaq üçün Bağdada getməyə tələsirsən*** *(M.S.Ordubadi).*

**4)** Tabeli mürəkkəb cümlənin tərkib hissələri bir-birinə bağlayıcı ilə bağlandıqda komponentləri bir-birinə bağlayan bağlayıcıdan əvvəl vergül işarəsi qoyulur. *Məsələn,* ***Mən ona məsləhət gördüm ki, sussun*** *(C.Cabbarlı).*

**Qeyd: ki** ədatı isim, əvəzlik, fel, zərf və köməkçi nitq hissələri ilə birlikdə işləndikdə **ki** ədatından sonra vergül işarəsi qoyulmur. *Məsələn,* ***Qar ki***





downloaded from KitabYurdu.org

***adamı lap dondurur!*** *(S.Rəhimov);* ***Buna ki qəti inanırsan!*** *(S.Rəhimov);* ***Yat ki yatacağam*** *(N.Vəzirov);* ***Kaş ki Kazım ağanın qızı olunca bir çoban qızı olaydım*** *(S.S.Axundov).*

**5)** Tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə bağlayıcı sözlərlə bağlandıqda budaq cümlənin sonunda vergül işarəsi qoyulur. *Məsələn,* ***Necə ki siz demişsiniz, elə də edəcəyəm*** *(S.S.Axundov);* ***Harada ki siz işləyirdiniz, indi orada böyük bir ev tikilibdir; O yerdə ki toyda süzür sonalar, o yer mənim vətənimdir, elimdir*** *(S.Rüstəm).*

**6)** İntonasiya ilə bağlanan həmcins mübtədalar, xəbərlər, tamamlıqlar, təyinlər və zərfliklər arasında vergül qoyulur. *Məsələn,* ***Dağlar, təpələr, düzlər pambıq kimi qarla örtülmüşdür*** *(H.Mehdi);* ***Şeirlər deyərdi gəlinə, qıza*** *(S.Vurğun);* ***O, gözəl, girdəsifət, gənc bir qızdı*** *(C.Cabbarlı);* ***Mən onu heç vaxt acıqlı, əsəbi, qaşqabaqlı görməmişdim*** *(M.İbrahimov);* ***O, torpağın səsini eşitmək, dərdini dinləmək üçün yollara çıxırdı*** *(Mir Cəlal) və s.*

**Qeyd 1**: Təyin edən iki və daha artıq söz həmcins təyin sayılmadığı üçün onların arasında vergül qoyulmur. *Məsələn, Meyvə bağları ilə əhatələnmiş* ***güllü böyük*** *həyətimizdə bizdən başqa, əmioğlunun ailəsi də yaşayırdı.*

**Qeyd 2: Gör, görək, görüm, qoy, gəl, gəlin, gəlsənə (gələsən), bax** və s. sözlər ədat kimi işləndikdə ondan sonra vergül işarəsi qoyulmur. Ona görə ki, qeyd olunan sözlər cümlənin həmcins üzvü olmur. *Məsələn,* ***Qoy*** *birisini də mən söyləyim... (S.S.Axundov);* ***Gəl*** *indi cəbhəyə yoldaş olaq biz (S.Vurğun);* ***Gəlsənə*** *gəmidə oturub gəmiçi ilə dalaşmayasan (S.Rəhimov) və s.*

**Qeyd 3: Və, ilə (la, lə)** bağlayıcıları vasitəsilə bağlanan həmcins üzvlər arasında vergül işarəsi qoyulmur. *Məsələn, Yol eniş* ***və*** *hamar idi (S.S.Axundov); Evdə ancaq Sona* ***ilə*** *Bahadır qaldı (N.Nərimanov);* ***Səmədlə*** *Əhməd dostdur və s.*





downloaded from KitabYurdu.org

**Qeyd 4:** Tərkibində **və** bağlayıcısı olan mürəkkəb bağlayıcılarla (və yaxud, və ya, və həm də və s.) bağlanmış həmcins üzvlər arasında da vergül qoyulmur. *Məsələn, Bu nəğmələr **Əmirin arvadının və yaxud qızının** meşə səyahətinə çıxdığını bildirdi (M.S.Ordubadi); Bəzi uşaqlar olur ki, ata nəfəsi, nəvazişi və sayəsindən kənarda **və ya** uzaqda böyüyür; ehtiyac hiss etməyincə atasını xatırlamır da (Mir Cəlal).*

**Qeyd 5:** Mübtəda **o** şəxs və ya **bu** işarə əvəzliyi ilə ifadə olunaraq əvəzlik, fel, zərf və köməkçi nitq hissələrindən əvvəl gələrsə, onda **o, bu** əvəzliklərindən sonra vergül qoyulmaz. *Məsələn, **O** bizə yaxındır doğma atadan (S.Vurğun); **O** gəldi; **O** çox danışdığını duymuş kimi dinləyənlərin rəyini bilmək istəyirdi. (H.Mehdi); **O** da ürəyindəkini açıb demək ehtiyacı duydu (H.Mehdi).*

**Qeyd 6:** Mübtəda **o** şəxs əvəzliyi ilə ifadə olunarsa, həm də **o** şəxs əvəzliyi **bu** işarə əvəzliyindən əvvəl gələrsə, onda **o** şəxs əvəzliyindən sonra vergül işarəsi qoyulur. *Məsələn, **O,** bu qəzetdən hamıya satmaq istəyirdi (S.Rüstəm).*

**7)** Təkrarlanan eyni sözlər arasında vergül işarəsi qoyulur. *Məsələn, **Yalandır, yalandır** bu ola bilməz (S.Vurğun); **Təbrizim, Təbrizim,** gözəl **Təbrizim** (S.Rüstəm).*

**8)** Yalvarış, xahiş, aid, əzizləmə bildirən sözlər cümlədə vergüllə ayrılır. Bu cür sözlər cümlənin əvvəlində gəldikdə onlardan sonra, cümlənin ortasında gəldikdə onların hər iki tərəfində, cümlənin sonunda gəldikdə onlardan əvvəl vergül işarəsi qoyulur. *Məsələn, **Başına dönüm,** axı mən aşiq olmuşam (Ü.Hacıbəyov); Ay xala, **sən allah,** yadıma salma (Mir Cəlal); Nəbi, danış, danış, **dilinə qurban!** (S.Rüstəm).*

**9)** Hər hansı bir fikrin doğruluğunu təsdiq etmək üçün işlədilən **canın üçün** (haqqı), **sən öl, sən öləsən, and olsun sənin başına, sədaqət haqqı, mən ölüm, vallah** və s. kimi sözlər cümlədə vergüllə ayrılır. Bu sözlər cümlənin əvvəlində gəldikdə vergül onlardan sonra, cümlənin ortasında gəldikdə onların



downloaded from KitabYurdu.org

hər iki tərəfində, sonunda gəldikdə onlardan əvvəl vergül işarəsi qoyulur. *Məsələn,* ***Sənin canın üçün,*** *bu halın mənə çox təsir edir (C.Cabbarlı); A kişi,* ***sən öl,*** *mən səni hamıdan artıq yad elərəm (Ü.Hacıbəyov); Bir şey görmədim,* ***vallah!*** *(S.Rəhimov).*

**10)** Əzizləmə məqamında işlədilən **sənə (...) canım qurban, qadan (qadanız) mənə gəlsin, qurban olum, qadan alım, başına dönüm** və s. sözlər cümlədə vergüllə ayrılır. Bu sözlər cümlənin əvvəlində gəldikdə ondan sonra, ortasında gəldikdə onların hər iki tərəfində, sonunda gəldikdə onlardan əvvəl vergül qoyulur. *Məsələn,* ***sənə canım qurban,*** *getsənə! (N.Vəzirov); Gülnaz,* ***qadan mənə gəlsin,*** *darıxma (Ə.Haqverdiyev); Al,* ***qurbanın olum!*** *(Ə.Haqverdiyev).*

**11)** Cümlədə olan əlavələr vergüllə ayrılır. Əlavələr cümlənin əvvəlində gəldikdə onlardan sonra, ortasında gəldikdə hər iki tərəfdə, sonda gəldikdə ondan əvvəl vergül qoyulur. *Məsələn, məni buraya,* ***öz kəndimizə,*** *təzə müəllim təyin ediblər (Ə.Haqverdiyev); Əllərim tərtəmizdir,* ***gül kimidir!*** *(S.S.Axundov).*

**12)** Cümlədə olan xüsusiləşmələr vergüllə ayrılır. Bunlar aşağıdakı hallarda təzahür edir:

**a)** Cümlədə mübtəda, xəbər, tamamlıq və zərfliyi xüsusiləşdirən **xüsusən, ələlxüsus, xüsusilə** sözlərindən əvvəl vergül qoyulur. *Məsələn, Tiflisdə teatr təsis olunduğu zaman bir çox adamlarda ədəbiyyata,* ***xüsusilə*** *dramaturgiyaya böyük həvəs oyanmışdır (M.F.Axundov).*

**b)** Cümlədə mübtəda, tamamlıq və zərfliyi xüsusiləşdirən **o cümlədən** sözündən əvvəl vergül işarəsi qoyulur. *Məsələn, Rayonumuzda,* ***o cümlədən*** *respublikamızda yeni-yeni iş yerləri açılır.*

**c)** Cümlədə mübtəda, xəbər, tamamlıq və zərfliyi xüsusiləşdirən **yəni** bağlayıcısından əvvəl vergül işarəsi qoyulur. *Məsələn, Bunu hörmətli ədibimiz Mirzə Cəlil,* ***yəni*** *"Molla Nəsrəddin" deyir (Mir Cəlal).*

**ç)** Cümlədə mübtədanı xüsusiləşdirən **əlavə, başqa** və s.





downloaded from KitabYurdu.org

qoşmalardan sonra vergül işarəsi qoyulur. *Məsələn, Bu əsərdə bədiilikdən **başqa,** yüksək sənətkarlıq vardır.*

**13)** Cümlədə feli sifət, feli bağlama və məsdər tərkiblərində vergül işarəsindən istifadə olunur. Bu aşağıdakı hallarda təzahür edir:

**a)** Müqayisə bildirən **kimi** qoşmalı feli sifət tərkibindən sonra vergül işarəsi qoyulur. *Məsələn, Həlimə **camalda gözəl olduğu kimi,** xüsusiyyətdə ondan da gözəldir (S.S.Axundov).*

**Qeyd: Kimi** qoşmalı feli sifət tərkibləri bənzətmə məqamında işləndikdə və zaman münasibətini bildirdikdə onlardan sonra vergül qoyulmur. *Məsələn, **İldırım çaxan kimi** çaxır; **Axşam düşən kimi** qapıları bağlayır.*

**14) Halda** qoşmalı qarşılaşdırma bildirən feli sifət tərkiblərindən sonra vergül işarəsi qoyulur. *Məsələn, **İlanın zəhərindən başqaları öldüyü halda,** ilan özü tənbəkinin qırından zəhərlənib tələf olur (S.S.Axundov).*

**15) -ıb** və **-araq** şəkilçili feli bağlama cümlənin asılı həmcins üzvü olduqda onlardan sonra vergül qoyulur. *Məsələn, Qız **oyanıb,** meşədən gələn səslərə **qulaq verdi** (Ə.Məmmədxanlı).*

**Qeyd: -ıb** və **-araq** şəkilçili feli bağlamalar felin yanında gələrsə, ondan sonra vergül işarəsi qoyulmur. *Məsələn, Əhməd məktubu **alıb oxudu.***

**-ıb, -araq** şəkilçili feli bağlama tərkibləri cümlənin tərzi-hərəkət, səbəb-məqsəd zərfliyi vəzifəsində çıxış etdikdə ondan sonra vergül işarəsi qoyulmur. *Məsələn, Onlar yüksəkliyə **qalxa bilməyib** geri qayıtdılar; Əli **qışqıraraq** yerə yıxıldı.*

**16) -a//-ə (-ya//-yə), -ınca//-incə//-unca//-üncə** şəkilçili feli bağlama qarşılaşdırma məqamında işləndikdə ondan sonra vergül işarəsi qoyulur. *Məsələn, **Sənin dostun ola-ola,** özgələrə inanırsan; **Sənin sözün sınınca,** düşmənin gözü kor olsun.*

**17)** Cümlədə sonu **əlaqədar olaraq, əksinə olaraq, fərqli olaraq, bərabər, yanaşı** sözləri ilə bitən tərkiblərdən sonra vergül işarəsi qoyulur. *Məsələn, Musa **ali təhsil almaqla yanaşı,** inşaatçı kimi də çalışırdı.*

**18)** Cümlədə işlədilən ara sözlərdə vergül işarəsi qoyulur.





downloaded from KitabYurdu.org

Ara sözlər cümlənin əvvəlində gəldikdə onlardan sonra, ortasında gəldikdə hər iki tərəfində, sonunda gəldikdə onlardan əvvəl vergül işarəsi qoyulur. *Məsələn, **Doğrusu,** bu söhbət mənim xoşuma gəlmədi; Mənsur, **deməli,** başa düşdün; Bu işi görmək olar, **məncə.***

**19)** Alçaq tonla deyilən xitab vergüllə ayrılır. Cümlədə xitab əvvəldə gəldikdə ondan sonra, ortada gəldikdə hər iki tərəfində, sonda gəldikdə ondan əvvəl vergül işarəsi qoyulur. *Məsələn, **Səməd,** mən səni gözləyəcəyəm; Səbir et, **Malik,** hər şey düzələcək; Hamı sənin görüşünə gələcək, **ana.***

**20)** Alçaq tonla deyilən nida vergüllə ayrılır. Cümlədə nida əvvəldə gəldikdə ondan sonra, ortada gəldikdə hər iki tərəfində, sonda gəldikdə isə ondan əvvəl vergül işarəsi qoyulur. Məsələn, **Of,** yazıq Vaqifin nə günahı var? (S.Vurğun); Yer də ayrılmır ki, **ah**, yerə girim... (S.Rüstəm); Bağrım başı od tutdu, **aman!..** (S.Vurğun).

**21)** Cümlədə təsdiq, inkar, sual və əmr sözləri vergüllə ayrılır. Bu cür sözlər cümlənin əvvəlində gəldikdə ondan sonra, ortasında gəldikdə hər iki tərəfində, sonunda gəldikdə ondan əvvəl vergül işarəsi qoyulur.

Təsdiq bildirən sözlər: **bəli, yaxşı, çox yaxşı, çox gözəl, baş üstə, hə, əhsən, aha** və s.

İnkar bildirən sözlər: **yox, xeyr, heç, əsla** və s.

Əmr bildirən sözlər: **bəsdir, vəssalam, yetər** və s.

Sual bildirən sözlər: **niyə, bəs, əcəba, necə, bəs necə, eləmi** və s.

**Bəli,** mən hər şeyə hazıram; **Xeyr,** sənin dediyinə əməl edə bilmərəm; Mən sözümü dedim, **vəssalam** və s.

**Qeyd:** Təsdiq, inkar, sual və əmr sözləri söz cümlə kimi işləndikdə onlardan sonra vergül deyil, intonasiyadan asılı olaraq nöqtə, nida, üç nöqtə, sual işarəsi qoyulur. *Məsələn,*

-*Sən mənim dostumsan.*

-***Necə?***

-*O deyil, dərdim başqadır.*



downloaded from KitabYurdu.org

*-Nədir?*
***-Heç...*** *(A.Şaiq).*

**Nöqtəli vergül.** Bu işarədən aşağıdakı hallarda istifadə olunur.

**a)** Bağlayıcısız tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında nöqtəli vergül işarəsi qoyulur. Belə cümlələr geniş olur. *Məsələn,* ***Girdim bu pərdənin dalısına, gizləndim; görüm olar nə qayıracaqlar ki, səni xəbərdar edəm.*** *(M.F.Axundov).*

**b)** Tabesiz mürəkkəb cümlənin tərkib hissələri **ancaq, amma, lakin, halbuki** və s. bağlayıcılarından biri ilə bağlandıqda bu bağlayıcılardan əvvəl nöqtəli vergül işarəsi qoyulur. *Məsələn,* ***Xan kağızı bükdü, qoydu paketə, üstünü yazıb və markasını yapışdırıb, istədi nökərini çağırsın ki, aparıb salsın poçta; amma tez xanın yadına düşdü ki, nökəri göndərib özgə işə.*** *(C.Məmmədquluzadə)*

**c)** Geniş tabeli mürəkkəb cümlələrin tərkib hissələri **çünki, ona görə də, bununla belə, o səbəbə ki** və s. bağlayıcılarının biri ilə bağlandıqda bu bağlayıcılardan əvvəl nöqtəli vergül işarəsi qoyulur. *Məsələn,* ***Bu, bəlkə Fatmanın yadına düşmürdü; ona görə də Sadığın ciddi cəhdi, tələsməsi onun halına təfavüt eləmirdi.*** *(Mir Cəlal).*

**ç)** Həmcins xəbərlərdən sonuncusundan əvvəl nöqtəli vergül işarəsi qoyulur. *Məsələn, Hər həftə institutun "M-1" maşını yanlara tozanaq salaraq, təsərrüfat müdirini, katibi Mərdəkana* ***aparıb gətirdi;*** *Verdiyevə kağız, rəqəm, yoxlama* ***daşıdı*** *(Mir Cəlal).*

**d)** Sadalanan geniş maddəli cümlələrdən (sonuncudan başqa) sonra nöqtəli vergül işarəsi qoyulur. *Məsələn, Tərkibindəki sözlərin səciyyəsindən asılı olaraq aşağıdakı hallarda defisdən istifadə edilir:*

**1)** qoşa sözlərdə: **adda-budda, az-maz, qara-qura, əzik-üzük;**

**2)** tərkibində **qeyri, əks, külli, anti, eks, vitse, kontr, ober, super** sözləri işləndikdə: **qeyri-adi, qeyri-iradi, kontr-admi-**





downloaded from KitabYurdu.org

**ral, super-market;**

**3)** izafət tərkiblərində: **tərzi-hərəkət, nöqteyi-nəzər, tərcümeyi-hal;**

**4)** tərkibində mənaca bir-birinə yaxın və ya zidd sözlər işləndikdə: **ab-hava, iki-üç, bitməz-tükənməz.**

**İki nöqtə.** İki nöqtə işarəsindən aşağıdakı hallarda istifadə olunur.

**a)** Cümlədə sadalanan sözlərdən əvvəl ümumiləşdirici söz gələrsə, bu sözdən əvvəl iki nöqtə işarəsi qoyulur. *Məsələn, Dedim ki, sizi görüncə **hər şeyi:** qorxunu, rəsmiyyəti, hətta özümü də unuduram (C.Cabbarlı).*

**b)** Özündən əvvəlki cümləyə intonasiya ilə bağlanıb, onu izah edən cümlələrdən əvvəl iki nöqtə qoyulur. *Məsələn, **Sürüyə tərəf yönəldim, yaxınlaşdıqda belə bir şəkil gördüm:** qoyunlar başlarını yerə əyib, gözlərini ota dikib guya otlamaq istəyirlər... (S.S.Axundov).*

**Tire.** Tire işarəsindən aşağıdakı hallarda istifadə olunur.

**a)** Mübtədadan sonrakı sözlər onun izahedicisi olarsa, mübtədadan sonra tire işarəsi qoyulur. *Məsələn, **Dostluq** - Azərbaycan Dövlətinin bütün sahələrdə apardığı ən böyük siyasətdir.*

**b)** Şəxs şəkilçisi buraxılmış xəbər **budur** sözü ilə mübtədaya bağlandıqda həmin sözdən əvvəl tire işarəsi qoyulur. *Məsələn, Azad, mənəmsiz, məsum bir **dünya - budur** mənim yolum... (C.Cabbarlı).*

**c)** Müqayisə olunan üzvləri daha qabarıq nəzərə çatdırmaq üçün onların arasında tire işarəsi qoyulur. Bu zaman şəxs şəkilçisi ixtisar olunur. *Məsələn, **Dişsiz ağız-daşsız dəyirman** (Atalar sözü); **Qız ağacı-qoz ağacı, yetən daş atar** (Atalar sözü).*

**ç)** Ümumiləşdirən söz sadalanan üzvlərdən sonra gələrsə, ondan əvvəl tire işarəsi qoyulur. *Məsələn, O Qaloşdan, o Murtuzdan, o Yavərdən - **bütün onlardan** ehtiyatlı ol (M.İbrahimov).*

**d)** Cümlə üzvlərinin əlavəsini daha qabarıq nəzərə çatdırmaq üçün onlar vergüllə ayrılır. Əlavə cümlənin ortsında gələrsə, tire işarəsi onun əvvəlində, sonunda gələrsə ondan əvvəl qoyulur. *Məsələn, İllərdən bəri arzusunda olduğu bir **mətləbə***





downloaded from KitabYurdu.org

***- müəllimlik vəzifəsinə** nail olmuşdu (Mir Cəlal); Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisidir* ***- İtqapan kəndinin əhli Novruzəlidir** (C.Məmmədquluzadə).*

**e)** Cümlənin ortasında gələn ara cümlələri daha qabarıq nəzərə çatdırmaq üçün onun hər iki tərəfində tire işarəsi qoyulur. *Məsələn, Mən istəyirəm əvvəl hörmətli **"Molla Nəsrəddin"in Tiflisdən salamını sizə yetirəm, onun məsləhətini oxuyam, sonra rüxsət olsa- Tahirzadə Sədrin üzünə baxdı - rüxsət olsa, bəndəyi- fəqirin də bir-iki kəlmə sözünü deyəm** (Mir Cəlal).*

**ə)** Təyin təyin olunandan sonra gəldikdə ondan əvvəl tire işarəsi qoyulur. *Məsələn, Plov yanında indi içki qoyurlar, amma qədimdə şərbət, ya ayran qoyulardı **- buz kimi** (Mir Cəlal).*

**f)** Sonrakı sözlər adlıq halda olan ismi təyin etdikdə adlıq haldakı sözdən sonra tire işarəsi qoyulur. *Məsələn, **Hafizə xanım** - dövlətli, gözəl övrət (Ə.Haqverdiyev).*

**g)** Mürəkkəb cümlənin tərkib hissələri arasında qarşılıq bağlayıcısı buraxılır, onun əvəzində vergüldən sonra tire işarəsi qoyulur. *Məsələn, **Qardaşıq - kisəmiz ayrı** (Atalar sözü).*

**ğ)** Mürəkkəb cümlənin ikinici tərkib hissəsindəki fikir birinci tərkib hissəsindəki fikrin nəticəsi olduqda tərkib hissələri arasında tire işarəsi qoyulur. *Məsələn,... **Onun başına dönüm, desən öl-öləcək, qal-qalacaq** (N.Nərimanov).*

**h)** Cümlədə zaman, məkan və kəmiyyət hüdudunu göstərmək üçün iki söz arasında tire işarəsi qoyulur. *Məsələn, **10-15%; 3-4** adam; **Bakı - Tibilisi - Ceyhan boru kəməri.***

**x)** Xüsusi isimlərin məcmuyu hər hansı bir nəzəriyyəni bildirdikdə həmin xüsusi isimlər arasında tire işarəsi qoyulur. *Məsələn, **Coul-Lens** qanunu; **Lomonosov-Lavuarye** qanunu.*

**Sual işarəsi.** Sual işarəsi aşağıdakı hallarda işlənir.

**a)** Sual cümlələrindən sonra sual işarəsi qoyulur. *Məsələn, **Sözün varmı?***

**b)** Mürəkkəb cümlələrdə sualın cümlənin hansı hissəsinə aid olmasından asılı olmayaraq sual işarəsi cümlənin sonunda qoyulur. *Məsələn, **O hansı ağacdır ki, yayda, qışda yaşıl olur?** (Tapmaca).*





downloaded from KitabYurdu.org

**Nida işarəsi.** Nida işarəsi aşağıdakı hallarda işlənir.

**a)** Nida cümlələrinin sonunda nida işarəsi qoyulur. *Məsələn, **Doğrudan da, nə yaraşıqlıdır!** (S.S.Axundov).*

**b)** Nida intonasiyası ilə deyilən əmr cümlələrinin sonunda nida işarəsi qoyulur. *Məsələn, **Dayan! Dayan!** (C.Cabbarlı).*

**c)** Hiss-həyəcanlı deyilən xitabdan sonra nida işarəsi qoyulur. *Məsələn, **Vaqif!** Ey şeirimin könül dastanı! (S.Vurğun).*

**ç)** Yüksək hiss-həyəcanla deyilən nidalardan sonra nida işarəsi qoyulur. *Məsələn, **Ah!** Yenə sizmi gəldiniz, Bəhram! (C.Cabbarlı).*

**d)** Yüksək hiss-həyəcanla deyilən təsdiq və inkar sözlərindən sonra nida işarəsi qoyulur. *Məsələn, **Xeyr!** Mən yoldaşam uçan quşlara (S.Vurğun).*

**e)** Mürəkkəb cümlənin komponentlərindən hər hansı biri nida məzmunlu olduqda mürəkkəb cümlənin sonunda nida işarəsi qoyulur. *Məsələn, Çıx get, sənin nəsihətin bizə lazım deyil! (M.F.Axundov).*

**Qeyd:** Hiss-həyəcanı daha qüvvətli ifadə etmək üçün cümlənin sonunda iki və ya üç nida işarəsi qoyulur: **Qurban** onu öldürər, özü də katorqaya gedər. Qız da Rüstəmsiz yaşamaz!!! (C.Cabbarlı).

**Üç nöqtə.** Üç nöqtə işarəsindən aşağıdakı hallarda istifadə olunur.

**a)** Cümlədə fikrin bitmədiyini bildirmək üçün sonda üç nöqtə işarəsi qoyulur. *Məsələn, Deyirlər ki, sən... (S.Vurğun).*

**b)** Sitatın əvvəlində, ortasında, sonunda söz və cümlə buraxıldıqda üç nöqtə işarəsi qoyulur. *Məsələn, **...Bir də baxdım ki, müəllimim Yusif bəy əynində çuxa... əlində tüfəng səhnədə dayanıb, igidlikdən dəm vurur** (Ə.Haqverdiyev); **Qıza nə vədlər verməmiş, nələr danışmamışdı...** (Mir Cəlal).*

**c)** Yüksək hiss-həyəcanla deyilib, özündən sonrakı sözlərdən fasilə ilə ayrılan xitablardan, nidalardan və təsdiq, inkar sözlərindən sonra üç nöqtə işarəsi qoyulur. *Məsələn, **Şapur...***



downloaded from KitabYurdu.org

*Danış, **Şapur...** Nə faciədir? (S.Vurğun); **Ah...** dünya nə qədər gözəlləşdi, bax! (S.Vurğun); **Yox...** evə gəlməsən, barışan deyiləm (S.Rəhman).*

**Qeyd:** İşlədilməsi məqbul olmayan sözlərin yerinə üç nöqtə işarəsi qoyulur:

Aldı bir saqqalına... olmuş xoşbəxt, Aparıb arvadının əyninə tuman elədi (S.Ə.Şirvani).

**Mötərizə.** Mötərizə işarəsindən aşağıdakı hallarda istifadə olunur.

**a)** Cümlədəki hər hansı bir fikri tamamlamaq üçün işlədilən ara cümlələr mötərizəyə alınır. *Məsələn, ... Naçalnikin yerinə mən ola idim, yapışardım bu lənətə gəlmiş dilmanc Mirzə Abbasın boğazından **(yəni özümü deyirəm ha)** və o qədər sıxardım ki, boğulardı (C.Məmmədquluzadə).*

**b)** Hər hansı bir sitatı verərkən onun aid olduğu müəllif, əsərin adı, nəşr ili və s. mötərizəyə alınaraq sitatın qarşısında göstərilir. *Məsələn, "Yeni əlifba fikrindən daşınmaq mənim qüvvəmdən xaricdir" (M.F.Axundov "əsərləri", III ç., 1955, səh. 183).*

**Qeyd:** Hər hansı bir sitatdan sonra mötərizədə müəllif, əsərinin adı və s. verilərkən nöqtə işarəsi mötərizədən sonra qoyulur.

**c)** Dram əsərlərindəki mətndə müəllifin qeydləri (remarka) mötərizəyə alınır. *Məsələn, Vaqif **(tənəli).** Mümkünmü durub dayanmaq... (S.Vurğun).*

**ç)** Cümlə üzvlərinin əlavəsini qabarıq nəzərə çatdırmaq üçün onlar mötərizəyə alınır. *Məsələn, Çoxları isə **(bibilər, məktəb yoldaşları...)** gözləyir, Vahidin toyuna hazırlaşırdılar (Mir Cəlal).*

**Dırnaq.** Dırnaq işarəsindən aşağıdakı hallarda istifadə olunur.

**a)** Sitatlar dırnağa alınır.





downloaded from KitabYurdu.org

**Qeyd:** Sitatın (eləcə də vasitəsiz nitqin) içərisində başqa bir söz və ya cümlə də dırnağa alınırsa, onda xarici və daxili dırnaqlar bir-birindən şəkil cəhətdən fərqlənir. Xarici dırnaqlar bu şəkildə « », daxili dırnaqlar isə vergül şəkilli (“ ”) olur.

**b)** Öz həqiqi mənasında deyil, məcazi və ya kinayəli şəkildə işlənən sözlər dırnağa alınır.

**c)** Ədəbi əsər, qəzet, jurnal, məcmuə, orden, medal, opera, balet, pyes, kino-film, kino-teatr, gəmi və s. adları dırnağa alınır.

**ç)** Vasitəsiz nitq dırnaq arasında verilir.

**Qeyd:** Vergül və tire olan yerdə əvvəl vergül, sonra isə tire işarəsi qoyulur.

Nöqtə, vergül, nöqtəli vergül, iki nöqtə və tire işarəsi bağlanan dırnaqdan kənarda qoyulur. Sitatın birinci və ya sonuncu sözü (və ya sözləri) də dırnağa alınarsa, əvvəldə və sonda iki dırnaq əvəzinə biri işlədilir. *Məsələn, “Oğru” romanında o tamamilə mübahisəsiz bir surətdə göstərmişdir ki, onun dil zənginliyi heyranedicidir...”*

Hər hansı bir cümlədə ifadə olunan fikirdə sual mənası hiss-həyəcan mənasından daha qabarıq olarsa, onda əvvəl sual işarəsi, sonra nida işarəsi qoyulur. Əksinə olduqda isə, əvvəl nida işarəsi, sonra isə sual işarəsi qoyulur.

Nida və üç nöqtə olan yerdə əvvəl nida, sonra üç nöqtə qoyulur.

Sual və üç nöqtə olan yerdə əvvəl sual, sonra üç nöqtə qoyulur.

Hər iki halda sual və nida işarələrindən sonra üç nöqtə gəldikdə nöqtənin biri atılır. *Məsələn, Dilgüşə birisini sevirmi?.. (S.Rəhimov); Əlvida!.. Sevdiyim nazəndə vətən!!! (S.Vurğun).*



downloaded from KitabYurdu.org

# Yazı, əlifba, qrafika



## Yazı

**Yazı haqqında məlumat.** Yazı hər bir xalqın mədəniyyətinin tərkib hissəsidir. Eyni zamanda xalqın tarixi keçmişi ilə gələcəyi arasında körpüdür. Yazı olmazsa, onda xalqların yaratdığı nə varsa, heç biri gələcək nəslə çata bilməz. Odur ki, yazı keçmişi, bu günü gələcəyə çatdırır, eyni zamanda gələcək nəsli öz keçmişinə istinad etməsi işində daha da məsuliyyətli edir.

Yazı cəmiyyətdəki insanların bir-biri ilə ünsiyyətə girməsində də böyük rol oynayır. İnsanlar təkcə şifahi yolla deyil, həm də yazılı şəkildə ünsiyyətdə olurlar.

Biz həyatda nəyi öyrəniriksə, dilin köməyi əsasında əldə edirik. Bu mənada dilin imkanları çox genişdir. Bununla bərabər, yazının oynadığı vasitəçi rolu da danmaq olmaz. Xalqın tarixi, mədəniyyəti və s. ilə bağlı indiyə qədər mövcud olanlar barəsində məlumat almaq üçün yazı ən əsas, bəlkə də, yeganə mənbədir. Biz mənbələrimizi, klassiklərimizin yaratdıqlarını yazı vasitəsi ilə öyrənirik. Məsələn, yazı olmazsa, şumer, elam, akkad kimi ölü dillər barəsində məlumat əldə edə bilmərik. Yazının təkcə imkanları deyil, nüfuzu da güclüdür. Belə ki, dil də, yazı da iki müxtəlif işarələr sistemidir. Ancaq onlardan konkret olaraq yazının ən ümdə mahiyyəti dilin təsvirinə xidmət etməkdir. Bununla belə, dil olmazsa, onun təsvirindən danışmaq da ol-



downloaded from KitabYurdu.org

maz. Ona görə də dilin özünün mövcudluğu əsasında yazı mühüm rol oynayır. Bu mənada dilə də, onun yazısına da çox əhəmiyyət verilir. Təbii ki, dilin şifahi ənənəsi var və bunu nəzərə almaq lazımdır. O, təbii olaraq dəyişir, inkişaf edir, amma bütünlükdə yazıdan asılı olmur. Yazı bəzi hallarda dildə olan dəyişiklikləri yubada bilsə də, ancaq dilin təbiətinə, mahiyyət və məzmununa ciddi xələl gətirə bilmir. Dil müxtəlif səbəblərlə bağlı olaraq tarixdən silinər, ölü dilə çevrilə bilər. Bu baxımdan dillə müqayisədə yazı daha etibarlıdır. Yazının etibarlı olmasını bir neçə cəhətdən izah etmək olar:

**I.** Dilin səs sistemi əsrlər boyu bu günümüzə qədər müəyyən dəyişikliyə uğraya bilir. Ancaq yazı daha sabit, dəyişməz qalır.

**II.** Görmə və eşitmə üzvləri insanlarda eyni səviyyədə olmur. Bəzilərində görmə, bəzilərində isə eşitmə daha güclüdür. Görmə qabiliyyəti üstün olanlar üçün yazı daha güclü mövqedədir. Belə olduqda yazı dildəki səsi özünə tabe edir. Yazı—qrafik obraz daha üstün mövqeyə malik olur.

**III.** Ədəbi dil və onun normaları yazının əhəmiyyətini daha da artırır. Belə ki, ədəbi dilə aid qaydaların yaranması, sistemləşməsi yazının əhəmiyyətinə üstünlük verir. *Məsələn, ədəbi dilə aid yazılmış lüğətlər, qrammatika kitabları yazı vasitəsilə təqdim olunur.* Bu tipli kitablarda ədəbi dilin kodlaşması, sistemləşməsi yazı vasitəsi ilə təzahür edir.

**IV.** Şifahi ədəbi dillə yazılı ədəbi dil arasında fərqlər mövcuddur. Bu fərqlərin tənzimlənməsində orfoqrafiya qaydalarının rolu danılmazdır. Burada da yazının rolu böyük təsirə malikdir.

Tarix boyu insanlar müxtəlif yazı növlərindən istifadə etmişlər. Həmin yazı növləri bunlardır: **şəkli** (piktoqrafik) yazı, **fikri** (ideoqrafik) yazı, **heca** (silloqrafik) yazı, **səs** (fonoqrafik) yazı.

**Qeyd:** Qədim insanlar ilk dövrlərdə əşyalar vasitəsilə öz fikirlərini bildirməyə çalışmışlar. Ona görə də bəzən şərti olaraq əşya yazısı da yazının nö-





downloaded from KitabYurdu.org

vü kimi adlandırılır. Ancaq fikrin əşyalar vasitəsilə ifadəsini yazı növü adlandırmaq düzgün deyildir. Olsa-olsa, bu, yazının əmələ gəlməsinə təsir göstərən köməkçi ünsürdür. Fikrin şərti mənasının əşyalar vasitəsilə ifadə olunmasının izləri indi də simvol kimi qorunub saxlanır. Məsələn, **qızılgül** sevgi və məhəbbət, **duz** dostluq simvolu kimi başa düşülür.

**Şəkli (piktoqrafik) yazı** adından göründüyü kimi, əşyaların, predmetlərin şəklini çəkməklə bağlı olur. Şəkli (piktoqrafik) yazıda hər bir şəkil cümləni, fikri əks etdirir. Burada istifadə olunan şəkillər **piktoqram** adlanır. Azərbaycan ərazisində olan Gəmiqaya və Qobustan qayaları üzərində həkk olunmuş şəkillər şəkli (piktoqrafik) yazıya misal ola bilər.

Deməli, Gəmiqayada və Qobustanda piktoqramın nümunələri əks olunur. *Məsələn, Qobustanda 720 qaya üzərində 4 mindən çox təsvir var.* Onlar piktoqramın nümunələri kimi sayılır.

Tunc dövrünə aid saxsı qablar üzərinə çəkilmiş şəkillər də şəkli (piktoqrafik) yazını əks etdirən nümunələrdir.

Şəkli (piktoqrafik) yazı neolit dövrünə (eramızdan 60-80 əsr əvvələ) aid olan yazıdır. Bu yazı növü o dövrdə insanların tələbatını az-çox ödəyə bilmişdir.

Şəkli (piktoqrafik) yazı insanların tələbatını ödəmədikdən sonra fikri (ideoqrafik) yazıdan istifadə olunmuşdur.

**Fikri (ideoqrafik) yazının** mahiyyəti belədir ki, hər hansı əşyanı, predmeti işarə edən şərti işarələrdən, heroqliflərdən istifadə olunur. Həmin şərti işarələr və heroqliflər **ideoqram** adlanır. Fikri (ideoqrafik) yazıda istifadə olunan işarələri, heroqlifləri yadda saxlamaq çətindir. Yeri gəlmişkən qeyd edək ki, **şəkli** və **fikri** yazının səsli yazıyla heç bir əlaqəsi yoxdur.

Fikri (ideoqrafik yazı) eradan 20-40 əsr əvvələ aid olan yazıdır. Bu yazının növləri **heroqlif** və **mixi** olmaqla ikidir. Heroqlif (yunanca müqəddəs yazılar) ideoqrafik yazı fiqurlu işarələrdən ibarətdir. Bu yazı Misirdə, Çində təşəkkül tapmışdır.

Mixi ideoqrafik yazının işarələri mismara (mıxa) bənzədi-



downloaded from KitabYurdu.org

yindən onu belə adlandırmışlar. Bu yazıya ərəbcə "mimari", farsca "mixi" demişlər. Mixi ideoqrafik yazı əvvəllər Şumerdə, Assuriyada, Babilistanda, Qədim İranda gil, daş üzərində yazlmış mıxşəkilli cızıqlardan ibarət olmuşdur.

Fikri (ideoqrafik) yazıya hazırda koreya, çin yazısını misal göstərmək olar. Ancaq fikri (ideoqrafik) yazının bəzi elementlərindən bütün xalqlarda istifadə olunur. *Məsələn, yol nəqliyyatında istifadə olunan işarələr, bundan başqa, faiz (%), plyus (+), minus (-) və s. işarələr buna misal ola bilər.*

Fikri (ideoqrafik) yazı insan təfəkkürünün inkişafı ilə bağlı olaraq yaranmışdır. Belə ki, əgər şəkli (piktoqrafik) yazıda əşyanın şəklini çəkmək lazım gəlirdisə, fikri (ideoqrafik) yazıda isə əşyanın simvoluna çevrilmiş şərti işarələrdən, heroqliflərdən istifadə olunması lazım gəlirdi. Bu da insan təfəkkürünün inkişafı nəticəsində yaranırdı. Onu da qeyd edək ki, fikri (ideoqrafik) yazının imkanları şəkli (piktoqrafik) yazıya nisbətən daha üstün olmuşdur. Əgər şəkli yazıda hər hansı əşyanın şəklini çəkmək əsas götürülürdüsə, fikri yazıda əşya işarələrlə, heroqliflərlə simvollaşırdı. Bu cür simvollaşma yazının daha təkmil formasının yaranmasına şərait yaradırdı. Bu mənada da fikri yazı sonrakı yazı növlərinin yaranmasında heç də az rol oynamamışdır.

Həm şəkli, həm də fikri yazı vaxtı çox alan, gərgin zəhmət tələb edən yazıdır. Ona görə də hər iki yazı növü insanların tələbatını tam şəkildə ödəyə bilməmiş, nəticədə heca yazısı yaranmışdır.

**Heca (silloqrafik) yazısının** mahiyyəti belədir ki, hecaları bildirmək üçün şərti işarələrdən istifadə olunmuşdur. İnsan təfəkkürünün inkişafı imkan vermişdir ki, sözlərin hecalara bölünməsi əsas götürülsün və hər bir heca şərti işarələrlə göstərilsin. Hecaları göstərən şərti işarələrə **silloqram** deyilir.

Heca yazısında hecaları işarə etmək üçün təkcə silloqramlardan deyil, həm də piktoqram və ideoqramlardan istifadə olunmuşdur. Yazının bu növünə çin, şumer, xurrit və s. yazılar misal ola bilər. Heca yazısı da çətin yazıdır, onu yadda saxlamaq o



downloaded from KitabYurdu.org

qədər də asan deyildir. Odur ki, heca yazısı da tam şəkildə insanların tələbatını ödəyə bilməmişdir. Bu yazı növü səsli yazının yaranmasına təsir göstərmişdir.

**Səs (fonoqrafik) yazı** ən kamil, mütərəqqi yazıdır. Ona görə də yazının bu növündən çox geniş istifadə olunur. Səs yazısında dilin səsləri işarələrlə əks olunur. Bu yazı növü fonoqrafik yazı da adlanır. Yazının bu növündə dildəki səsləri işarə edən hərflərə **qrafemlər** deyilir. Qrafemlər, başqa sözlə, hərflərdir, qrafik işarələrdir. Onu da qeyd edək ki, səs (fonoqrafik) yazısında qrafik işərələrlə (qrafemlərlə) yanaşı, orfoqrafiya işarələrindən də istifadə olunur. Səs (fonoqrafik) yazısı insan təfəkkürünün inkişafının son həddi, nəticəsi kimi yaranmışdır. Belə ki, insanlar anlamışlar ki, hecalar səslərdən ibarətdir. Yəni hecalar səslərə bölünür. Ona görə də səsləri işarə etmək üçün səs (fonoqrafik) yazısı yaranmışdır.

Belə hesab olunur ki, ilk səs (fonoqrafik) yazısından finikiyalılar istifadə etmişdir. Bəzən səs (fonoqrafik) yazısından misirlilərin ilk dəfə olaraq istifadə etməsi də söylənilir.

İndi səs (fonoqrafik) yazısı dünya xalqlarının həyatında mühüm rol oynayır. Dünya xalqlarının hər birinin özünəməxsus səs (fonoqrafik) yazısı mövcuddur. Daha doğrusu, hər bir dilin səsini işarə etmək üçün istifadə olunan qrafik işarələr müxtəlifdir. Səs (fonoqrafik) yazısında dildə olan səsləri işarə etmək üçün istifadə olunan qrafik işarələrin imkanının geniş olması əsasdır. Belə ki, dildəki sait və samit səslərinin hər birinin qrafik işarəsi olmalıdır. Eyni zamanda sait və samitlərin qrafik işarələri bir-birindən fərqlənməlidir. Belə olduqda səs (fonoqrafik) yazısı daha kamil olur.

Səs (fonoqrafik) yazısı öz növbəsində iki növə ayrılır: **fonetik yazı, fonematik yazı.**

**Fonetik yazı** dildə olan bütün səsləri, onların variantlarını özündə əks etdirir. Yeri gəlmişkən qeyd edək ki, dildəki bütün səsləri və onların variantlarını yazıya köçürmək çox çətindir.

**Fonematik yazı** ancaq dildəki fonemləri əks etdirən yazıdır. Bu yazıya fonoloji yazı da deyilir.





downloaded from KitabYurdu.org

Azərbaycan dilinin yazısı fonematik yazı üzərində qurulmuşdur. Burada əsasən dildə olan fonemləri əks etdirən hərflərdən istifadə olunur. Dilimizdə olan elə səslər var ki, onların əlifbamızda qrafik işarəsi yoxdur. Belə qrafik işarəsi olmayan səsləri bildirmək üçün fonetik transkripsiyadan istifadə olunur. Əgər dildə olan bütün səslərin qrafik işarəsi olarsa, onların hamısını öyrənmək işi çətinləşdirər. Nəticədə əlifbanı öyrənmək, mənimsəmək, yazıb oxumağı asanlıqla bacarmaq ağırlaşa bilər.

Fonematik yazının iki növü var: **konsonant yazı, vokal yazı.** Konsonant yazı samit səsləri hərflərlə ifadə edən yazıdır. Vokal yazı isə sait və samit səsləri hərflərlə ifadə edir. Ərəblərin yazısını konsonant yazıya misal göstərmək olar. Onların yazısında samitlər hərflərlə verildiyi halda, saitlər hərəkələrlə, diakritik işarələrlə göstərilir. Vokal yazıya Azərbaycan, rus, ingilis və s. yazıları misal göstərmək olar. Bu yazı eradan əvvəl XI-X əsrlərdə qədim Finikiyada yaranmışdır. Sonralar qədim yəhudi, ərəb, yunan və s. yazıların əmələ gəlməsində də böyük rol oynamışdır.

**Qeyd:** Ferdinand de Sössür iki yazı sisteminin mövcudluğunu göstərmişdir[1]: **ideoqrafik** və **fonetik yazı sistemi.** Eyni zamanda onların hər birinin izahını vermişdir. Ferdinand de Sössürə görə, **ideoqrafik yazıda** söz onun tərkibinə daxil olan səslərdən asılı olmayaraq bir işarə ilə təsvir olunur. Həmin işarə sözü, eyni zamanda sözlə ifadə olunmuş anlayışı bütöv şəkildə təqdim edir. Onun fikrincə, bu cür sistemə klassik nümunə çin yazısıdır.

Ferdinand de Sössür **fonetik yazıya** da izah vermişdir. Onun fikrincə, fonetik yazı sözü təqdim edən səs zəncirinin ifadəsinə cəhd edən sistemdir. Fonetik sistemli yazı məntiqi baxımdan əlifbanı meydana çıxarır. Ferdinand de Sössürə görə, fonetik sistemli yazının prototipi yunan əlifbası olubdur.

1. Ferdinand de Sössür. Ümumi dilçilik kursu. BDU nəşri, Bakı, 2003, s. 90-91.



downloaded from KitabYurdu.org

## Azərbaycan əlifbası

**Əlifba haqqında məlumat. Əlifba** sözü ərəb əlifbasının birinci (a-əlif) və ikinci (b-bey) hərflərinin adlarının birləşməsindən əmələ gəlmişdir. Rus dilində **azbuka** kiril əlifbasında ilk iki hərfin (az, bukı), avropa dillərində **alfabet** yunan əlifbasındakı ilk iki hərfin (alfa, beta) birləşməsini bildirir. Yazıda işlədilən hərflərin məcmusu, müəyyən sıra ilə düzülüşü əlifba adlanır. Əlifbada hərflərin müəyyən sıra ilə düzülüşündə elə bir ciddi prinsip yoxdur, bu, şərti xarakter daşıyır.

Əlifbanın yaranmasında misirlilərin, minoyların, finikiyalıların, yunanların böyük xidmətləri olmuşdur. Belə bir fikir də vardır ki, finikiya əlifbası əsasında yunan və latın əlifbaları yaradılmışdır. Hal-hazırda dünyada ərəb, latın, kiril qrafikalı digər əlifbalar mövcuddur. Belə hesab olunur ki, yer üzündə 200-dən çox əlifba vardır.

Hazırda Azərbaycan əlifbası latın qrafikalı əlifba əsasında yaradılmışdır. Dilimizin yazısı üçün 32 hərf qəbul olunmuşdur. Hər hərfin əlifbamızda adı vardır. *Məsələn, sait hərflərin adı ilə sait səslər arasında fərq yoxdur:*

***Sait səs:*** **a, ı, o** və s.

***Sait hərfin adı:*** **a, ı, o** və s.

Samit hərflərin adı isə samit səsi bildirən hərfə **e** hərfinin artırılması ilə düzəlir:

***Samit səs:*** **b, c, d** və s.

***Samit hərfin adı:*** **be, ce, de** və s.

Sonor hərflərin adı onların əvvəlinə e hərfinin artırılması ilə düzəlir:

***Sonor səs:*** **l, m, n, r.**

***Sonor hərfin adı:*** **el, em, en, er.**

Azərbaycan əlifbasında hər bir hərfin adı, quruluşuna görə böyük və kiçik şəkli, eyni zamanda işlənmə məqamına görə çap və əlyazma şəkli vardır.



downloaded from KitabYurdu.org

**AZƏRBAYCAN DİLİNİN ƏLİFBASI**

| çap şəkli | əl yazısı şəkli | adı | | çap şəkli | əl yazısı şəkli | adı |
|---|---|---|---|---|---|---|
| Aa | *Aa* | a | | Qq | *Qq* | qe |
| Bb | *Bb* | be | | Ll | *Ll* | el |
| Cc | *Cc* | ce | | Mm | *Mm* | em |
| Çç | *Çç* | çe | | Nn | *Nn* | en |
| Dd | *Dd* | de | | Oo | *Oo* | o |
| Ee | *Ee* | e | | Öö | *Öö* | ö |
| Əə | *Əə* | ə | | Pp | *Pp* | pe |
| Ff | *Ff* | fe | | Rr | *Rr* | er |
| Gg | *Gg* | ge | | Ss | *Ss* | se |
| Ğğ | *Ğğ* | ğe | | Şş | *Şş* | şe |
| Hh | *Hh* | he | | Tt | *Tt* | te |
| Xx | *Xx* | xe | | Uu | *Uu* | u |
| Iı | *Iı* | ı | | Üü | *Üü* | ü |
| İi | *İi* | i | | Vv | *Vv* | ve |
| Jj | *Jj* | je | | Yy | *Yy* | ye |
| Kk | *Kk* | ke, ka | | Zz | *Zz* | ze |

downloaded from KitabYurdu.org

**Azərbaycan əlifbasının tarixi.** Türk xalqları tarix boyu müxtəlif əlifbalardan istifadə etmişlər. Bunlardan **runik** (Orxon-Yenisey), **uyğur, soğdi, tibet, çin, mani, brahmi, ərəb, passepa, latın, yunan, kiril** və s. əlifbaların adlarını çəkmək olar.

Azərbaycan yazısının tarixi də maraqlıdır. Azərbaycanlılar müxtəlif tarixi dövrlərdə aşağıdakı əlifbalardan istifadə etmişlər:

**Qədim türk əlifbası.** Azərbaycanın qədim sakini olan azərbaycanlılar qədim dövrlərdə Orxon Yenisey və uyğur yazılarından istifadə etmişlər. Ancaq konkret olaraq azərbaycanlılara aid mənbələr bu əlifba vasitəsilə dövrümüzə gəlib çıxmamışdır. Qədim türk əlifbasından qədim dövrlərdən başlayaraq VII əsrə qədər, ərəb əlifbası qəbul olunana qədər istifadə olunmuşdur.

**Ərəb əlifbası.** VII əsrdən başlayaraq XX əsrin 20-ci illərinin sonuna qədər fasiləsiz işlədilmişdir.

**Latın əlifbası.** Azərbaycanda 1921-ci ildə Xalq Komissarları Soveti Əlifba Komitəsini yaratmışdır. Əlifba Komitəsi 1922-ci ildə yeni əlifbanı – latın qrafikalı əlifbanı elan etmişdir. Latın qrafikalı əlifba əsasında düzəldilmiş yeni əlifba 1922-ci ildən 1940-cı ilə qədər istifadə edilmişdir. Düzdür, 1922-ci ildən 1929-cu ilə qədər həm ərəb, həm də latın əlifbası paralel olaraq istifadə olunmuşdur.

Latın qrafikalı yeni əlifbaya keçən zaman Əlifba Komitəsi xeyli iş aparmışdır. Əlifba Komitəsinin 1927-1930-cu illərdə dörd plenumu keçirilmiş və yeni əlifba ilə bağlı bir çox maraqlı məsələlər müzakirə obyektinə çevrilmişdir. **Birinci plenum** öz işinə Səməd Ağamalıoğlunun rəhbərliyi ilə 1927-ci ilin iyun ayında (3-7 iyun) Bakı şəhərində başlamışdır. Əlifba Komitəsinin **ikinci plenumu** 1928-ci ilin yanvar ayında (7-12 yanvar) Daşkənddə çağırılmışdır. **Üçüncü plenum** 1928-ci ilin dekabr ayında (18-23 dekabr) Kazan şəhərində olmuşdur. **Dördüncü plenum** isə 1930-cu ilin may ayında (6-13 may) Alma-Ata şəhərində keçirilmişdir. Əlifba Komitəsinin plenumlarının hamısına Səməd Ağamalıoğlu sədrlik etmişdir. 1926-cı ildə Bakı şə-





downloaded from KitabYurdu.org

hərində keçirilmiş I Türkoloji Qurultayın tövsiyəsi ilə Azərbaycan xalqı türk xalqları ilə birlikdə latın qrafikalı əlifbanı qəbul etmişdir.

1930-1940-cı illərdə Azərbaycanda latın qrafikalı əlifbadan istifadə olunmuşdur.

1991-ci ilin 25 dekabrında latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barədə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı olmuşdur.

**Kiril əlifbası.** Azərbaycanda 1940-cı ildən 1991-ci ilin 25 dekabrına qədər kiril əlifbasından istifadə edilmişdir. 1991-ci ilin 25 dekabrında latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikasının qanunu olmuşdur. Onu da qeyd edək ki, bu qanun qəbul olunduqdan sonra 2001-ci ilin 18 iyun tarixinə qədər həm kiril, həm də latın qrafikalı əlifbadan istifadə edilmişdir. 2001-ci ilin 18 iyununda latın qrafikalı əlifbanın bərpası barədə sərəncam imzalanmış və tam şəkildə latın qrafikalı əlifbaya keçirilmişdir.

Azərbaycanda kiril əlifbası əsasında olan əlifba 1939-cu ilin əvvəlində yaradılmışdır. Bu əlifbanın istifadəsi barəsində 1940-cı il yanvarın 1-dən qanun qəbul edilmişdir. Bütün yazı işləri 1940-cı ildən kiril əlifbası ilə aparılmışdır. Bu əlifbanın özündə də sonralar müəyyən dəyişikliklər olmuşdur. Belə ki, 1947-ci ildə **ц** hərfi, 1958-ci ildə **я, ю, э** hərfləri çıxarılmış və **й** hərfi kiril əlifbasındakı **j** hərfi ilə əvəzlənmişdir. Kiril əlifbası 25 dekabr 1991-ci ildən Azərbaycan Respublikasının qanunu və Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı ilə qüvvədən düşmüşdür. Beləliklə, azərbaycanlılar ayrı-ayrı tarixi dövrlərdə aşağıdakı əlifbalardan istifadə etmişlər:

1) Qədim türk əlifbası (qədim dövrlərdən VII əsrə qədər);

2) Ərəb əlifbası (VII əsrdən XX əsrin 20-ci illərinin sonuna qədər);

3) Latın qrafikalı əlifba (1922-1940-cı illər. Bu dövrdə latın qrafikalı əlifbaya qəti olaraq 1929-cu ildə keçilmişdir. 1922-1929-cu illərdə həm ərəb, həm də latın əlifbasından istifadə edilmişdir);



downloaded from KitabYurdu.org

4) Kiril əlifbası (1940-1991-ci il);

5) Latın qrafikalı yeni əlifba (1991-ci ildən 2001-ci ilin 18 iyununa qədər həm kiril, həm də latın əlifbasından istifadə olunmuşdur. 2001-ci ilin 18 iyununda qəbul edilmiş fərmana əsasən 2001-ci ilin avqust ayının 1-dən bütövlükdə latın qrafikalı əlifbaya keçilmişdir).

Azərbaycanda əlifba islahatı uğrunda mübarizə XIX əsrin ikinci yarısından sonra başlanmışdır. Bu, Azərbaycanın böyük mütəfəkkiri, yazıçısı M.F.Axundov tərəfindən həyata keçirilmişdir. M.F.Axundov əlifba uğrunda mübarizə cərəyanının başçısı kimi tanınmışdır. Onun əlifba uğrunda mübarizəsində iki əsas istiqamət olmuşdur:

1) Ərəb əlifbasında müəyyən islahatlar aparmaq;

2) Ərəb əlifbasını başqa bir əlifba ilə əvəz etmək.

M.F.Axundov ərəb əlifbasını başqa bir əlifba ilə əvəz edərkən özünün hazırladığı yeni əlifba layihəsini irəli sürürdü. Onun yeni əlifbası 42 qrafik işarədən ibarət idi. Onlardan 32-si samitləri, 10-u isə saitləri bildirən qrafik işarələr olmuşdur.

Mirzə Fətəli Axundov hazırladığı yeni əlifbanı həyata keçirmək üçün Türkiyənin İstanbul şəhərinə getmişdir. O, İstanbuldan qayıtdıqdan sonra hazırladığı yeni əlifbanı İranın Maarif Nazirliyinə göndərərək qəbul və çap olunmasını xahiş etmişdir. Lakin M.F.Axundov bir il gözləsə də, öz xahişinə cavab almamışdır. Ona görə də M.F.Axundov İran Maarif Nazirliynin cavab verməməsinin səbəbini öyrənmək üçün Tiflisdəki konsulluğa müraciət etmişdir. Tiflis konsulu Əli xan Tehrandakı siyasi kuryerinin vasitəsi ilə əlifba barəsində cavabın təxirə düşməsinin səbəbini İranın maarif nazirindən öyrənmək istəmişdir.

Cavab olaraq İranın xarici işlər naziri Həsənəli xan kuryerə belə demişdir: “Bu kişicik (yəni M.F.Axundov - B.X.) dəli olmuşdur. Əlifbanı dəyişmək nə deməkdir? Əli xanın da işi yoxmudur ki, dəlilərin sözünə qulaq asıb əlifbanın dəyişməsi haqqında Tehrana yazılar göndəriyor və cavab dəxi istiyor.





downloaded from KitabYurdu.org

Dəlilərə cavabın sükutdan başqa bir şey olmadığını bilməyirsiniz?”[1].

Mirzə Fətəli Axundov İranın xarici işlər nazirinin bu cavabı ilə bağlı olaraq Mirzə Melkum xana məktub yazmışdır. Onun Melkum xana yazdığı məktub belə olmuşdur: “Ruhülqüds cənabları! İmdi siz söyləyiniz bizim hansımız dəliyiz: Həsənəli xanmı? Bənmi? Bəli, dəlilik bu cəhətdən bana şamil olunur. Çünki Tehran vəzaratına proje göndərmişəm”[2]. M.F.Axundov bundan sonra Tiflis konsulu Əli xana da gizlicə məktub yazmışdır. Həmin məktubda göstərilmişdir ki, İstanbuldakı İran səfirinə çatdırılsın ki, M.F.Axundov din və dövlət düşməni deyil. O, məktubunda qeyd edirdi ki, mən (yəni M.F.Axundov) islamı deyil, islamdakı cəhaləti aradan qaldırmaq istəyirəm. Millətimin elmli, azad, rahat yaşamasını istəyirəm. Bunun üçün də ərəb əlifbası dəyişməlidir.

M.F. Axundovun Tiflis konsulu Əli xana yazdığı məktubun son hissəsi olduqca maraqlıdır: “Bu məktubum öz xəttimlə yazıldığı üçün yırtıb atmayınız. Portmanınızda saxlayınız, bən öləndən sonra əlinizdə **antik** və yadigardır. Ömrümdən o qadar qalmamışdır, müasirlərimin bana yaklaşmamasından bıqmışam, yorulmuşam”[3]. Mirzə Melkum xan M.F. Axundovun məktubunu aldıqdan sonra yeni əlifbanı çap etmək üçün İstanbula getmişdir. Burada yeni əlifbanı çap etmək üçün mətbəə düzəltmək istəmişdir.

Lakin o, burada yardım görməmiş və İstanbuldan Tiflisə məktub yazmışdır. M.F. Axundovdan xahiş etmişdir ki, ona məktub yazsın. M.F. Axundov isə Mirzə Melkum xana cavab məktubu yazmışdır. Qeyd etmişdir ki, Tehranda əlifbanın dəyişməsi ilə bağlı elə bir vəziyyət yaratmışam ki, onu heç kəs poza bilməz. Mənim haqqımda (M.F.Axundovun) olan iftira və böh-

1. Yeni əlifba haqqında (əldə edilən məktublardan). – “Kommunist”, 1926, 2 mart, № 52.
2. Yeni əlifba haqqında. - “Kommunist”, 1926, 4 mart, № 54.
3. Yenə orada.





downloaded from KitabYurdu.org

tandan xəbərdardırlar. M.F. Axundov dövlət adamlarından şikayətlənərək yazırdı: "Onun ucbatından (dövlət adamlarını nəzərdə tutur - B.X.) beş ilim hədər oldu. Göy yerdən naləmi eşitdi. Müqəddəs Allah köməyimə yetişsin, məhşər günü mənim qisasımı ondan alsın"[1].

Mirzə Melkum xan İstanbulda olduğu zaman köhnəliyin tərəfdarlarından şikayət edərək M.F. Axundova məktub yazmışdır. Mirzə Fətəli Axundov isə ona belə bir cavab yazmışdır: "Sizin İstanbulda indiki halınızı bən və Şeyxül İslam anladıq. Bu zamanlarda bir qadar sıxıldığınızı dərk etdik ki, mühacirlər sizin sözünüzü, məqsədinizi anlamıyorlar və kifayat qadar da hümmətləri yoxdur. Bu sıxıntını on yıldır bən görüyorum. Bən İstanbula gəldikdə bənim kim olduğumu, neyçün gəldiyimi və nə deyəcəyimi sizdən başqa bilən olmadı. Hətta bəzi məhəllələrdə ali ələlxüsus İran səfarətxanasında bənim fikrimə güldülər. Axırda İran səfiri bəni müttəhim də eylədi. Böyük təəssüflə İstanbuldan geri qayıtdım. Bununla bərabər yenə də fikrimdən ayrıla biləməm. Bən və siz bu təbiətdə yaranmışıq və ömrümüzün axırına qədər də bu yol və bu məslək ilə qalmalıyız...

...Kaş doğulmayaydıq. Doğulmuşuqsa da, kaş yeməkdən, içməkdən, geyməkdən ləzzət aparanlar və nəticəsiz xəyalat, şövkümsüz arzular dalınca getməyənlər gibi doğulaydıq. Vallah, müasirlərin etinasızlığından yaşayış bana haram olmuşdur. Çox acı həyat keçiriyorum...

... Bən dərviş məsləkli, bəşəriyyət sevici bir şeyəm. Hər kəs bəşəriyyəti sevər, mədəniyyəti irəlilədirsə, onun müridi və müxlisiyəm (səmimi olanı - B.X.). Hər kəs bəşəriyyətə düşmən, mədəniyyətə maneə olursa, bən ondan kənar və uzağam. Hər növ ali olursa olsun bənim məktublarımın tələf olmadan sizə yetişməsi haqqında bir tədbir etməlisiniz, bəlkə əlifbanın də-

1. Mirzə Fətəli yeni əlifba haqqında (əldə edilən məktublardan). - Kommunist, 1926, № 55.





downloaded from KitabYurdu.org

yişməsi məsələsi bizim bərabər çalışmağımız tədbirimizin sayəsində nəticə versin. Əməyimiz hədər olmasın"[1].

Beləliklə, yeni əlifba uğrunda mübarizənin tarixi kökləri XIX əsrin ortalarından başlayaraq M.F.Axundovun fəaliyyəti ilə daha çox bağlı olmuşdur. Onun bu yöndə işə təəssübkeşliklə yanaşması yazdığı məktubların məzmunundan da aydın şəkildə hiss olunur. Düzdür, o, bu məqsədinə nail olmasa da, hər halda həyatının xeyli hissəsini (20 ildən artıq bir dövrünü) belə bir müqəddəs işə sərf etmişdir. Öz sağlığında yeni əlifbanın həllinə nail olmayan M.F.Axundov ömrünün sonuna qədər müqəddəs məqsədi uğrunda mübarizə aparmışdır.

XX əsrin əvvəllərində də əlifba məsələsi diqqət mərkəzində olmuşdur. Ziyalıların bir qismi ərəb əlifbasının, digər bir qismi isə latın qrafikalı yeni əlifbanın tərəfində olmuşdur.Yeni əlifbanın tərəfində olanlar ərəb əlifbasının yaratdığı çətinlikləri tənqid etmişlər. Doğrudan da ərəb əlifbasında mövcud olan nöqsanları görməmək mümkün deyildir. Həmin nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:

**1)** Ərəb əlifbası Azərbaycan dilinin fonetik təbiətini tam şəkildə ifadə edə bilmir. Bu əlifbada 28 hərfdən 16-sının qrafik şəkli var. 12 hərf isə o birilərindən diakritik işarələrlə fərqlənir.

Bundan başqa, 28 qrafik işarədən 3-ü uzun saitlərə, 25-i isə samitlərə aiddir. 3 qısa sait yazılmır, bunu oxu prosesində oxucu özü artırır.

**2)** Ərəb əlifbasındakı hərflərin sözdəki yerindən asılı olaraq müxtəlif şəkli vardır. Bəzisinin dörd, bəzisinin iki şəklinin mövcud olması tədris işini və bu əlifbanı öyrənməyi ağırlaşdırır.

**3)** Ərəb əlifbasında Azərbaycan dilində mövcud olan saitləri bildirmək üçün dörd hərfdən istifadə olunur. Bu isə dolaşıqlıq yaradır, yazı ilə oxu arasındakı əlaqənin pozulmasına gətirir. Eyni zamanda sözün sətirdən-sətrə keçirilməsi, hecalara ayrıl-

1. Mirzə Fətəli yeni əlifba haqqında (əldə edilən məktublardan). - "Kommunist", 1926, № 55





downloaded from KitabYurdu.org

ması qaydalarını da pozur.

**4)** Ərəb əlifbasında istifadə olunan nöqtələr, hərflərin altında və üstündə qoyulan diakritik işarələr yazının gözəl görünməsinə xələl gətirir, yazı sürətini azaldır, əlifbanın qavranılmasına maneə törədir, mətbəə və çap işini çətinləşdirir.

**5)** Ərəb əlifbasından stenoqrafiya və teleqraf işində də istifadə olunması əlverişli deyildir. Ərəb əlifbası stenoqrafiya və teleqraf sahələrinin şərtinə, tələbinə cavab vermir.

**6)** Ərəb əlifbası sağdan sola doğru yazılır. Ancaq ərəblərin özləri riyazi əməlləri, kimyəvi formulları və s. - ni soldan sağa doğru yazırlar. Bu da yazı prosesində iki qaydanın yaranmasına gətirib çıxarır.

M.F.Axundovdan sonra yeni əlifba uğrunda mübarizə işini Ağabəy Yadigarov, Firidun bəy Köçərli, Məmmədağa Şaxtaxtinski və başqaları aparmışdır. XX əsrin əvvəllərində mətbuatda əlifba ilə bağlı xeyli müzakirə və təhlillər getmişdir. Məsələn, 1903-cü ildə Məmmədağa Şaxtaxtinskinin redaktorluğu ilə Bakıda çap olunan "Şərqi-Rus" qəzetində əlifba ilə bağlı ciddi müzakirələr aparılmışdır. 1919-cu il iyun ayının 17-də Bakı şəhərində müəllimlər yığıncaq çağırırlar. Onlar ərəb əlifbasının yaratdığı çətinliklərdən bəhs etməklə yanaşı, tərtib etdikləri əlifba layihələrinin müzakirəsini keçirirlər. Bu layihələrdən biri də Abdullabəy Əfəndizadəyə mənsub olmuşdur. Onun layihəsi Maarif Nazirliyi yanında yaradılmış hökumət komissiyası tərəfindən məqbul sayılaraq 1919-cu ildə nəşr olunmuşdur. Lakin bu əlifbanın tətbiqi işinə imkan və şərait yaradılmamışdır. 1920-ci il oktyabrın 14-də Bakıda keçirilmiş müəllimlər qurultayında yenidən əlifba məsələsi müzakirə obyekti olmuşdur. Bu zaman əlifba məsələsinə müxtəlif münasibətlər meydana çıxmışdır. Bəziləri ərəb əlifbasını saxlamaq, bir qismi ərəb əlifbasında müəyyən islahatlar aparmaq, digər bir qismi latın qrafikalı əlifbaya keçmək, dördüncü qrup isə kiril əlifbasına keçməyin tərəfdarı olmuşlar.

1922-ci ildə latın qrafikalı əlifba hökumət tərəfindən təsdiq



downloaded from KitabYurdu.org

olunduqdan sonra nəşr olunmuşdur. 1922-ci il iyulun 21-də yeni əlifbanı həyata keçirmək üçün tərkibi S.Ağamalıoğlu, Məlik Aslanov, A.Tağızadə, Ə.Pepinov və F.Ağazadədən ibarət xüsusi komitə təsis edilmişdir. Bu komitənin sədri S.Ağamalıoğlu olmuşdur.

Latın qrafikalı əlifbanın tətbiq olunması ilə bağlı görülmüş işlərin zirvəsi I Türkoloji Qurultayla bağlıdır. 1926-cı il fevralın 26-dan martın 6-na qədər Bakı şəhərində keçirilmiş bu tədbirdə **onuncu, on birinci, on ikinci** və **on üçüncü** iclaslar əlifba məsələsinə həsr olunmuşdur. Birinci Türkoloji Qurultayda latın qrafikalı əlifba ilə bağlı qətnamə qəbul edilmişdir:

"... ərəb əlifbasının islah edilməsi və yeni türk əlifbasının (latın qrafikalı əlifbanın) ərəb əlifbasından texniki cəhətdən mükəmməl olmasını təsdiq edir, o cümlədən yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə mütərəqqi mahiyyətini və mədəni-tarixi nüfuzunu qəbul edir. Qurultay hesab edir ki, yeni əlifbanın həyata keçirilməsi hər bir türk-tatar respublikasının, vilayətinin və xalqının işidir.

Bununla bağlı olaraq qurultay yeni əlifbanın həyata keçirilməsini müsbət hal kimi qiymətləndirir. Latın əlifbası əsasında yaranmış yeni türk əlifbasının qəti olaraq vilayətlərdə və respublikalarda (Azərbaycanda, Yakutiyada, Qırğızıstanda, İnquşiyada, Qaraçay-Çərkəzdə, Kabardində, Balkarda, Osetiyada, Çeçenistanda, Başqırdıstanda, Türkmənistanda, Özbəkistanda, Adıgey-Çərkəzdə) həyata keçirilməsini geniş bir hərəkat kimi qəbul edir.

Qurultay yuxarıda adları göstərilən vilayətlərdə və respublikalarda yeni türk əlifbasının (latın) həyata keçirilməsi ilə bağlı görülmüş müsbət işləri ürəkdən alqışlayır, məsləhət görür ki, bütün türk-tatar və başqa xalqlar yeni reformalar aparmaq üçün Azərbaycanın, eləcə də digər respublikaların təcrübəsindən, metodundan (üsulundan) istifadə etsinlər"[1].

Yuxarıda qeyd olunanları ümumiləşdirərək aşağıdakı nəticə-

1. Buludxan Xəlilov. Birinci Beynəlxalq Türkoloji Qurultay. "Elm", Bakı, 1999, s. 16.



downloaded from KitabYurdu.org

ləri söyləmək olar: Latın qrafikalı əlifba Azərbaycanda 1922-1940-cı illərdə tədbiq olunmuşdur. 1929-cu ildə latın əlifbasına qəti şəkildə keçirilmişdir. Belə ki, 1922-1929-cu illər arasında həm ərəb, həm də latın əlifbasından istifadə olunmuşdur.

1939-cu il iyulun 11-də latın əlifbasından kiril əlifbasına keçmək barədə Azərbaycan Respublikasının qanunu olmuşdur. Bu qanundan sonra 1940-1991-ci ilin dekabr ayının 25-nə qədər kiril əlifbasından istifadə edilmişdir. 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur. 1991-ci ildən 2001-ci il avqust ayının 1-nə qədər həm kiril, həm də latın əlifbası ilə kargüzarlıq işləri aparılmışdır. 2001-ci ilin 18 iyun tarixli fərmanında göstərilmişdir ki, 1 avqust 2001-ci ildən tam şəkildə latın qrafikalı əlifbaya keçirilsin. Həmin tarixdən Azərbaycanda latın qrafikalı əlifbadan istifadə olunur.

## Azərbaycan dilinin qrafikası

**Qrafika haqqında məlumat.** Dildəki səslərin yazıda hərflərlə əks olunma qaydasına qrafika deyilir. **Qrafika** sözü yunanca **grabphike** sözündən götürülmüşdür, mənası "yazıram, şəkil çəkirəm" deməkdir. Bu söz təkcə dilçilikdə deyil, təsviri incəsənətdə də işlədilir. Dildəki səslərin qrafik işarələri qrafik sistemi təşkil edir. Qrafik sistem yazıda istifadə olunan hərflərdir. Hərflər isə əlifbanı yaradır. Əlifba dəyişən zaman hərflər dəyişir, hərflər dəyişdikdə isə onların qrafikası dəyişir. *Məsələn, Azərbaycan əlifbası ərəb, latın, kiril qrafikası əsasında yaradılanda qrafik tələblərə riayət olunmuşdur.* Belə ki, hər bir əlifbanın qrafik işarəsi qrafik tələblərlə bağlı olmuşdur. Qrafikanın özünəməxsus tələbləri vardır və bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

**I.** Qrafika tələb edir ki, əlifbadakı hərflər dildəki bütün fonemləri əks etdirə bilsin;



downloaded from KitabYurdu.org

**II.** Qrafikanın mühüm tələblərindən biri də odur ki, hərflərin sayı fonemlərin sayından az olsun;

**III.** Qrafikanın tələblərinə görə bir hərfin bir fonemi ifadə etməsi məqbul bir haldır;

**IV.** Hər fonemin bir qrafik işarəsinin olması qrafikanın tələbləri sırasına daxildir;

**V.** Fonemlərin qrafik işarələri sadə olmalıdır. Yəni fonemlərin şəkilləri sadə, asan, yaddaqalan, görünüş baxımından göz oxşayan olmalıdır;

**VI.** Qrafikada bir-birindən fərqli işarələr nə qədər az olarsa, bir o qədər əlifbanı asanlıqla öyrənmək olar;

**VII.** Qrafikada yazı və çap hərflərinin uyğunluğu məsələsi də əsas götürülür. Belə ki, yazı və çap hərflərinin bir-birindən fərqlənməməsi və ya az fərqlənməsi əlifbanın daha asan öyrənilməsinə gətirib çıxarır;

**VIII.** Qrafikanın tələblərinə uyğun olaraq əlifbadakı hərflər müəyyən ardıcıllıqla düzülür;

**IX.** Qrafika vasitəsi ilə müəyyən olunur ki, əlifbadakı hərflər hansı səsi bildirir və səslər necə yazılır, necə oxunur;

**X.** Qrafika hərflərin quruluşunu, formasını, şəklini, yazılış qaydasını müəyyən edir. Ona görə də qrafikanın tələblərinə uyğun olaraq hərfləri yazdıqda, bir-birilə düzgün birləşdirdikdə yazı yaxşı görünür. Bu mənada hüsnxət qaydaları hər bir hərfin hissələrinin düzgün yazılışı, birləşməsi qaydalarını öyrədir. Hərflərin düzgün yazılış qaydaları qrafikanın tələbləri əsasında baş verir. Əlifbanı öyrənən hər bir kəs yaxşı yazmaq üçün kalliqrafiya (hüsnxət) qaydalarına riayət edir;

**XI.** Qrafika vasitəsilə aydınlaşdırmaq olur ki, əlifbadakı hərflər dilimizdəki səsləri necə əks etdirir. Əlifbadakı bəzi hərflər bir neçə səsi bildirir. *Məsələn, Azərbaycan əlifbasında **k** hərfi üç səsi bildirir:*

**a) K** hərfi **g** samitinin kar qarşılığı olan **k** səsini bildirir: **kino, kitab, kələm, kənd** və s.

**b) k** hərfi **ka** səsini bildirir: **kabinet, kafedra, komsomol,**



downloaded from KitabYurdu.org

**komitə** və s.

**c) k** hərfi **y** samitinin kar qarşılığı olan **x**[1] səsini bildirir: **çiçəx**[1] , **çörəx**[1], **inəx**[1] və s. Deməli, əlifbamızda olan **k** hərfi üç səsi ifadə edir. Yəni əlifbamızdakı **k** samitinin qrafik işarəsi üç səsi əks etdirir. Yaxud, əlifbamızdakı **q** hərfi iki səsi bildirir:

**a) q** hərfi cingiltili **q** samitini bildirir: **qol, qal, qul, qurd** və s.

**b) q** hərfi bəzi sözlərdə **q** samitinin kar qarşılığı olan **k**[1] səsini bildirir: **tok**[1]**qa** (toqqa), **dok**[1]**quz**, (doqquz), **hok**[1]**qa** (hoqqa) və s.

**Latın qrafikalı əlifbada qrafik tələblər.** Hal-hazırda Azərbaycan əlifbası latın qrafikalı əlifba əsasında yaradılmışdır. Bu qrafikanın tələbləri hələ I Türkoloji Qurultayda geniş şəkildə müzakirə olunmuşdur. Bu da onu göstərir ki, qrafik tələblərə həmişə üstünlük verilmişdir. Yeri gəlmişkən, latın qrafikalı əlifbada nəzərə alınmış qrafik tələbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**1)** Əlifbamızdakı 32 hərf, demək olar ki, dilimizin fonemlər sistemini əhatə edir.

**2)** Bir fonem bir hərflə ifadə olunur.

**3)** Hər bir hərf bir fonemi əks etdirir (k, q samitləri istisna olmaqla).

**4)** Əlifbadakı hərflər latın qrafikalı əlifba əsasında yaradılmışdır.

**5)** Əlifbadakı müəyyən hərflər fərqli işarələrlə bir-birindən seçilir: **o-ö, u-ü, ı-i, c-ç, s-ş, g-ğ** və s.

**6)** Hərflərin böyük və kiçik formaları, çap və əlyazma formaları vardır. Bu da hərflərin çap və əlyazma şəkillərini fərqləndirir.

**7)** Hərflərin sayı fonemlərin sayından azlıq təşkil edir. Belə ki, hər hansı bir hərf kiçik şəkil dəyişikliyi ilə başqa bir fonemi əks etdirir: **c-ç, o-ö, u-ü** və s.

**8)** Əlifbamızda dilimizin fonetik təbiətinə uyğun olmayan hərflər yoxdur. Bu da əlifbamızın qrafik üstünlüyü kimi sayılmalıdır. Müqayisə üçün qeyd edək ki, kiril əlifbasından istifadə




downloaded from KitabYurdu.org

olunan ilk dövrlərdə yazı sistemimizi çətinləşdirən ***ÿ, þ, ¸, ý, ö*** və s. spesifik hərflərdən istifadə olunmuşdur. Bu da yersiz olaraq dilimizdəki hərflərin sayını çoxaltmışdır.

**9)** Əlifbamızda hərflərin adı verilir. Bu da hərflərin qavranılması və oxu sürətinin artmasına köməklik göstərir.

**10)** Latın qrafikalı Azərbaycan əlifbasında 32 hərfdən istifadə olunur. Onlardan 9-u saitləri, 23-ü samitləri əks etdirir.

Yeri gəlmişkən onu da qeyd edək ki, dilimizdəki səslərə nisbətən hərflərin sayı azdır. Əgər dilimizdəki bütün səslərin və onların çalarlarının qrafik işarəsi olarsa, onda yazı prosesi ağırlaşar, oxu və imla prosesi çətinləşər. Odur ki, əlifbamızda dilin əsas səsləri (fonemləri) əks olunur. *Məsələn, saitlərin uzun və qısa tələffüz olunan variantlarının əlifbamızda qrafik işarəsi yoxdur.* Bunun üçün fonetik transkripsiya işarələrindən istifadə olunur. Yaxud, ***k*** və ***q*** hərflərinin əks etdirdiyi səslərin əlifbamızda qrafik işarəsi ilə qarşılaşmırıq. Bunun üçün də yenə fonetik transkripsiya işarəsi köməyimizə çatır. Bu, belə də olmalıdır. Əks təqdirdə əlifbanı öyrənmək çətin və ağır ola bilər.

***Qeyd:*** İstənilən əlifbada və onun qrafik işarələrinə verilən tələblərdə müəyyən qüsurlar tapmaq mümkündür. İdeal əlifba və qrafik işarə yoxdur. Bu mənada latın qrafikalı Azərbaycan əlifbası və onun qrafik işarələri də müəyyən qüsurlardan uzaq deyildir. Odur ki, əlifbamızın tarixinə diqqət yetirdikdə görürük ki, əlifba layihəsinə tarixən bir sıra gərəkli dəyişikliklər edilmişdir. Məsələn, 1954-cü ildəki əlifba layihəsindəki hərflərin adı 1958-ci ildə dəqiqləşdirilmiş və təkmilləşdirilmişdir:

| ***1954-cü ildə*** | | ***1958-ci ildə*** | |
|---|---|---|---|
| ***hərflər*** | ***hərflərin adı*** | ***hərflər*** | ***hərflərin adı*** |
| e | je | e | e |
| j | jom | j | je |
| *щ* | *щa* | *щ* | *щe* |
| k | ka | k | ke |
| *ф* | *eф* | *ф* | *фe* |
| x | xa | x | xe |
| h | haş | h | he |





downloaded from KitabYurdu.org

# Orfoqrafiya

***Orfoqrafiya haqqında məlumat.*** Orfoqrafiya sözü yunan mənşəli söz olub ***orthos*** və ***gropho*** hissələrindən ibarətdir. ***Orthos*** "düzgün", ***gropho*** "yazıram" deməkdir. Deməli, ***orfoqrafiya*** sözü "düzgün yazmaq" mənasını bildirir. Düzgün yazmağın özü də bir mədəniyyətdir. Hər bir mədəni insan düzgün yazmaq üçün orfoqrafiya qaydalarına riayət etməlidir.

Ədəbi dilin şifahi və yazılı qolunun hər biri müəyyən normaların, qaydaların tələblərinə cavab verməli, uyğunlaşmalıdır. Məhz ədəbi dilin yazılı qolu orfoqrafiya qaydalarına riayət etməlidir. Orfoqrafiya qaydaları bir sıra vacib tələblərlə bağlıdır:

**1)** Orfoqrafiya qaydaları vahid tələb kimi özünü göstərir. Yəni hər bir şəxs orfoqrafiya qaydalarına riayət etməyə məcburdur.

**2)** Orfoqrafiya qaydaları hər bir dilin nizamlanmasına xidmət göstərir. Belə ki, dilin fonetik, leksik və qrammatik quruluşu orfoqrafiya qaydalarının tələbləri üzərində tənzimlənir.

**3)** Dil dəyişir, inkişaf edir. Bu zaman dildəki bu dəyişiklik orfoqrafiya qaydalarında da öz əksini tapır. Yəni orfoqrafiya qaydaları daha çox sabit olsa da, dildəki dəyişikliklə bağlı olaraq inkişaf edir, dəyişir, təkmilləşir. Ancaq orfoqrafiya qaydalarının tez-tez dəyişdirilməsi onun yazıya tətbiq olunması işini çətinləşdirir. Düzgün yazı vərdişinin yaranmasına pis təsir gös-





downloaded from KitabYurdu.org

tərir.

4) Orfoqrafiya qaydaları təkcə dilimizin öz sözlərinə deyil, həm də alınma sözlərə tətbiq olunur.

Orfoqrafiya qaydaları aydın, dəqiq və səlis olmalıdır. Bununla bərabər, həm də dilin qrafik sistemini əhatə etməlidir. Orfoqrafiya qaydaları dövlət tərəfindən təsdiq olunur və ona riayət etmək məcburidir. Elə dillər var ki, onun orfoqrafiyasını öyrənmək çətindir. *Məsələn, ingilis dili belə dillərdən biridir.* İngilis sözlərinin orfoqrafiyası ilə orfoepiyası arasında fərqlər mövcuddur:

| ***Yazılır:*** | ***Tələffüz olunur:*** |
|---|---|
| snake (ilan) | sneyk (ilan) |
| tiger (pələng) | tayqa (pələng) |
| umbrella (çətir) | ambrella (çətir) |

İngilis dilində sözlərin yazılışı ilə tələffüzü arasında fərq orfoqrafiya ilə orfoepiya arasında uyğunsuzluq yaradır.

***Qeyd:*** Orfoqrafiya ilə qrafika arasında bağlılıq vardır. Qrafikada olan hər hansı bir dəyişiklik orfoqrafiyada da özünü göstərir. *Məsələn, Azərbaycan dilinin qrafikasında tarixən* ***y, u*** *səsləri* ***þ*** *kimi yazılmışdır.* Təbii ki, bu, orfoqrafiyada da belə olmuşdur. Sonradan bu hərf əlifbamızdan çıxarılmışdır. Ona görə də bu hərf orfoqrafiyamızdan da götürülmüşdür.

Onu da qeyd edək ki, orfoqrafiya ilə qrafika həm də bir-birindən fərqlənir. Əgər qrafikada hər hansı hərfin yazıda əks olunması tələb olunursa, orfoqrafiyada sözlərin orfoqrafiya qaydalarına görə yazılışı müəyyən olunur.

***Orfoqrafiya qaydalarının prinsipləri.*** Hər bir xalq düzgün yazmaq üçün orfoqrafiya qaydalarına riayət edir. Orfoqrafiya qaydalarında əhatə olunan məsələlər, əsasən, bunlardır: sözdə sait və samitlərin yazılışı, şəkilçilərin yazılışı, sözlərin bitişik, defislə və ayrı yazılışı, sözlərin baş hərflərinin yazılışı, köməkçi sözlərin yazılışı, ixtisarlar və onların yazılışı, sözlərin sətirdən-sətrə keçirilməsi qaydaları. Orfoqrafiya qaydalarının müəy-





downloaded from KitabYurdu.org

yən prinsipləri vardır. Başqa sözlə, orfoqrafiya müəyyən prinsiplərə əsasən yaradılır. Azərbaycan dilinin orfoqrafiyasında üç prinsipdən istifadə olunur: ***fonetik prinsip, morfoloji prinsip, tarixi-ənənəvi prinsip.***

***Qeyd:*** Ə.Dəmirçizadə orfoqrafiya qaydalarının prinsipləri əsasında ***fərqləndirici*** və ***etimoloji*** prinsipləri də göstərir[1].

***Fonetik prinsip.*** Fonetik prinsipə görə sözlər ədəbi tələffüzə uyğun olaraq yazılmalıdır. Bu prinsip yazı ilə ədəbi tələffüz arasında uyğunluğu təmin edir. Müasir Azərbaycan dilində söz köklərinin bir çoxu fonetik prinsipə uyğun olaraq yazılır. *Məsələn, **ana, ata, əl, qol, su, diz, üz, daş, dil, bil, gül, gəl, biz** və s.*

Fonetik prinsip o demək deyildir ki, hər bir kəs sözü necə tələffüz edirsə, elə də yazsın. Yaxud, öz dialekt və şivəsinə uyğun yazsın. Fonetik prinsip sözün ədəbi tələffüzə uyğun olan yazılmasını nəzərdə tutur.

Tələffüz zamanı bəzi səslərin səs variantları, çalarlıqları yaranır. Məsələn, ***a:lim, a:li*** və s. sözlərdə ***a*** saiti uzun tələffüz olunur. Yaxud, ***kitab, qutab*** sözlərində ***b*** samiti karlaşmış çalarlıqda tələffüz olunur. Belə olduqda yazı zamanı səs variantları, çalarları deyil, fonemlər əsas rol oynayır. Bu zaman fonetik prinsipin fonematik mənada işləndiyini də nəzərə almaq lazımdır. Ona görə də fonetik prinsiplə yanaşı, ***fonematik prinsip*** terminindən də istifadə olunur. Fonematik prinsip müxtəlif variantlarda və çalarlarda tələffüz olunan səslərin əsas hesab olunan fonemlərinin yazıdakı hərflə ifadəsi mənasında işlədilir.

Fonetik prinsipin bir sıra üstünlükləri vardır. Belə ki, bu prinsip düzgün tələffüz və düzgün yazılış qaydalarının asanlıqla mənimsənilməsində böyük rol oynayır. Fonetik prinsipin əhatə dairəsi müəyyən şərait və məqamlarla da bağlıdır. *Məsələn, kar samitin cingiltiləşməsi (çörək-çörəyin), sözlərə bitişdirici sa-*

1. Ə.M.Dəmirçizadə. Müasir Azərbaycan dili, I hissə (fonetika, orfoepiya, orfoqrafiya), "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 269.







downloaded from KitabYurdu.org

*mitlərin qoşulması (bibi-s-i, qapı-y-a), bəzi söz kökləri şəkilçi qəbul etdikdə ikinci hecadakı saitin düşməsi (boyun-boynu, oğul-oğlu), ahəng qanununa uyğun olaraq şəkilçilərin variantlarının tələffüzü və s. qeyd olunan bu hallarda sözdəki müəyyən dəyişiklik tələffüzdə də özünü göstərir.* Həm də söz tələffüzə uyğun olaraq yazılır. Fonetik prinsip Azərbaycan dilinin orfoqrafiyası üçün başlıca prinsip hesab olunsa da, sözlərin bir çoxu bu prinsipə uyğunlaşmır. Ona görə də təkcə bu prinsipi götürmək doğru deyildir. Təkcə fonetik prinsipə əsaslanmağın düzgün nəticə verməməsi barəsində M.Mahmudbəyov hələ 1911-ci ildə bəhs etmişdir[1]. O, qeyd etmişdir ki, tələffüz imlamız üçün əsas ola bilməz. Ona görə ki, hər yerdə özünəməxsus tələffüz var. Əgər bu tələffüzləri əsas götürsək, onda 40-50 cür imlamız olmalıdır. Bu da təlim, təhsil işində heç bir fayda verə bilməz. Deməli, fonetik prinsiplə tam şəkildə kifayətlənmək olmaz. Ona görə də morfoloji prinsipə də istinad etmək lazımdır.

**Morfoloji prinsip.** Sözlər və şəkilçilər müxtəlif şəkildə tələffüz oluna bilir. Bu zaman müxtəlif çalarlıqda tələffüz olunan dil vahidlərinin (sözlərin, şəkilçilərin) vahid qaydada yazılmasına ehtiyac yaranır. Belə olduqda morfoloji prinsipə istinad etmək lazım gəlir.

Deməli, morfoloji prinsip müxtəlif şəkildə tələffüz olunan sözlərin, şəkilçilərin vahid qaydada yazılmasını tələb edir.

Müxtəlif çalarlıqda tələffüz olunan dil vahidlərinin, yəni sözlərin və şəkilçilərin vahid formada yazılmasını tələb edən prinsip morfoloji prinsip adlanır. Bu prinsipin tələbinə görə, söz kökləri və şəkilçilər müxtəlif çalarlıqda tələffüz olunsa da, onların vahid orfoqrafiyası olur. Əgər bu prinsip nəzərə alınmazsa, onda dil vahidləri (söz kökləri və şəkilçilər) tələffüz olunduğu kimi yazılar. Nəticədə yazı öz mahiyyətini itirə bilər, vahid qaydalar sistemi pozular. Dil vahidlərinin (söz köklərinin, şəkilçilərin) müxtəlif çalarlıqda tələffüz olunması müəyyən məqam

1. Ə.M.Dəmirçizadə.Müasir Azərbaycan dili. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 269.



downloaded from KitabYurdu.org

və şəraitlə bağlı olur. Bu məqam və şərait aşağıdakı hallarda daha çox özünü göstərir:

**a)** Söz kökünün tərkibindəki müəyyən səslər şivə xüsusiyyətlərinin tələbindən asılı olaraq müxtəlif çalarlıqda tələffüz olunur. *Məsələn,* ***ev*** *sözü* ***öy, öv, əv, ev*** *kimi,* ***deyil*** *sözü* ***dəyil, degil, döyl, dö:l, deyil*** *kimi və s.*

Məhz morfoloji prinsipin tələbinə görə, bu variantlardan biri (ev, deyil) məqbul götürülür və yazıda sabitləşir. Morfoloji prinsipin tələbinə görə, müxtəlif çalarlıqla tələffüz olunan bu dil vahidlərinin yazılışında vahid qayda göstərilir.

**b)** Bəzi sözlərin orfoqrafik normaların tələbinə uyğun tələffüzü olur. *Məsələn,* ***keç-keş, qaç-qaş, uç-uş, kənd-kənt*** *və s.* Bu cür sözlər morfoloji prinsipin tələbinə görə, orfoqrafik normaya uyğun olaraq **keç, qaç, uç, kənd** kimi yazılır.

**c)** Bəzi sözlərə şəkilçi qoşulduqda tələffüzdə dəyişiklik yaranır. *Məsələn,* ***atlar-atdar, qızlar-qızdar, adamlar-adamnar, atlı-atdı, ondan-onnan*** *və s.* Belə sözlər morfoloji prinsipin tələbinə və orfoqrafik normaya uyğun olaraq **atlar, qızlar, adamlar, atlı, ondan** kimi yazılır.

**ç)** Müasir Azərbaycan dilində mövcud olan səsuyuşması, səsdüşümü, səsartımı, səsyerdəyişməsi, səsfərqləşməsi fonetik hadisələri sözlərin və şəkilçilərin müxtəlif variantlarda tələffüz olunmasına təsir göstərə bilir. Ancaq bu variantların hamısını yazıya köçürmək olmaz. Onu da deyək ki, fonetik hadisələr qanuniləşmir və hadisə kimi qalır. Hadisə kimi də onların hər biri orfoepik mahiyyət kəsb edir. Orfoqrafik mahiyyət kəsb edənlər isə qanun halında dildə sabitləşir. Eyni zamanda yazıda sabitləşir və yazıya köçürülür. *Məsələn:*

| **Yazılır:** | **Tələffüz olunur:** |
|---|---|
| biletlər | biletdər |
| sözlər | sözdər |
| məndən | mənnən |

Deməli, morfoloji prinsipin tələbi odur ki, müxtəlif çalarlıq-





downloaded from KitabYurdu.org

da tələffüz olunan dil vahidləri (söz kökləri və şəkilçilər) vahid qaydada yazılsın.

XX əsrin əvvəllərində M.Mahmudbəyov fonetik prinsipə nisbətən morfoloji prinsipə üstünlük vermişdir. A.Tağızadə isə fonetik və morfoloji prinsipin hər ikisini əlverişli prinsip kimi qiymətləndirmişdir. Hətta bunların içərisində fonetik prinsipi kütləvi, demokratik prinsip, morfoloji prinsipi tənzimedici prinsip, tarixi-ənənəvi prinsipi isə ən konservativ prinsip kimi şərh etmişdir[1].

**Tarixi - ənənəvi prinsip.** Bu prinsipin tələbi belədir ki, söz tarixən necə yazılmışdırsa, indi də həmin yazılış formasını saxlamalıdır. Tarixi-ənənəvi prinsipə görə əvvəlki dövrlərdə mövcud olmuş orfoqrafiya qaydaları qorunub saxlanmalı və yazıda tətbiq olunmalıdır. Bu prinsip özünü doğrultmasa da, hər halda Azərbaycan yazısında istifadə olunur. Tarixi-ənənəvi prinsip əsasında alınma söz və şəkilçilərin yazılış qaydaları müəyyənləşir.

Orfoqrafiya qaydaları əlifba ilə sıx bağlıdır. Cünki qrafikadakı hər hansı dəyişiklik orfoqrafiya qaydalarında da öz əksini tapır. Hələ ərəb, kiril əlifbalarından, eləcə də latın qrafikalı əlifbadan istifadə edərkən bir sıra dolaşıqlığı aradan qaldırmaq üçün orfoqrafiya məsələləri müzakirə obyekti olmuşdur. Məsələn, dilimizə ərəb və fars dillərindən keçmiş **adəm, toxm, cift, müğəyyəd, övrət, qaidə** və s. sözlər azərbaycanlaşdırılaraq **adam, toxum, cüt, muğayat, arvad, qayda** kimi yazılmışdır. Yaxud, rus dilindən dilimizə keçmiş bir sıra sözlərin Azərbaycan dilinin fonetik tərkibinə uyğun olaraq yazılması, yəni dilimizin fonetik tərkibinə uyğunlaşdırılması. *M*əsələn, **ö** hərfli sözlərin **s** hərfi ilə (do ent-dosent, kon ert-konsert), xüsusi isimlərdə **ts** ilə ( etkin-Tsetkin, Mo art-Motsart), **ý** hərfli sözlərin **e** ilə ( stetika-estetika, vrika-evrika) yazılması, bir sıra sözlərin Azərbaycan dilinin tələffüzünə uyğunlaşdırılması (qumanizm-humanizm, qimn- himn, Djambul-Cambul, qeneral-general, qimnasti-

---

1. Müasir Azərbaycan dili. I c., "Elm" nəşriyyatı, Bakı, 1978, s. 70.



downloaded from KitabYurdu.org

ka-gimnastika və s.).

Tarixi - ənənəvi prinsipdən bir sıra alınma sözlərin apostrofla yazılmasında da istifadə olunmuşdur. Apostrof işarəsi ərəb əlifbasındakı **ayn** hərfini və ya **həmzə** işarəsini əvəz etmişdir. *Məsələn, **e'lan, mə'lum, ə'la** və s.* Hazırda apostrof işarəsi əlifbamızdan çıxarılmışdır. Ona görə ki, belə apostroflu sözlər dilimizin qayda-qanunlarına uyğunlaşmışdır.

**Qeyd:** Apostrof sözü yunanca **apostrophes** sözündən götürülüb. Mənası "çevrilmiş", "çönük" deməkdir. Bu söz beynəlxalq termindir. Müasir Azərbaycan ədəbi dilində 2004-cü ilə qədər bir sıra ərəb mənşəli sözlərin yazılışında istifadə olunmuşdur. 2004-cü ildə çap olunmuş "Orfoqrafiya lüğəti"ndə bu işarə çıxarılmışdır. Hazırda apostrof işarəsindən istifadə olunmur. Apostrof işarəsi dilimizə keçmiş ərəb mənşəli sözlərdə aşağıdakı məqamlarda istifadə olunmuşdur:

**a)** İxtisara düşmüş boğaz səsindən əvvəlki incə **ə, e, ö** saitlərinin uzun tələffüzünü bildirmək üçün həmin incə saitlərin üstündə apostrof işarəsi qoyulmuşdur: **bə'zi, mə'lum, mə'na, tə'min, ə'la, rə'y; me'mar, me'yar, iste'fa, e'lan, e'tibar; şö'lə, şö'bə, mö'cüzə, mö'təbər** və s.

**b)** Sözün samitlə qurtaran birinci hecasından sonra saitlə başlayan ikinci hecadakı saitin uzun və aydın tələffüzünü bildirmək üçün saitdən əvvəlki samitin üstündə apostrof işarəsi qoyulmuşdur: **cüz'i, nəş'ə, cür'ət, sür'ət, ən'ənə, vüs'ət, məs'ud** və s. Deməli, ərəb dilindən alınmış sözlərin (aynlı, həmzəli sözlərin) ənənəvi yazılış qaydasını saxlamaq üçün apostrofdan istifadə olunmuşdur. Belə sözlər klassiklərimizin yaradıcılığında minə qədər olmuşdur. Çünki klassiklərimizin yaradıcılığında ərəb mənşəli sözlər çox işlənmişdir. Onlar da dilimizə aynlı və həmzəli samitləri gətirmişdir. Həmin samitlərin sözün əvvəlindəki, ortasındakı və sonundakı mövqeyi




downloaded from KitabYurdu.org

müxtəlif olmuşdur. Onlar sözün əvvəlində **a, ə, i, ö, ü, e** səslərimizlə əvəz edilmişdir: **alim, ədalət, əsər, ismət, iblis, üsyan, üfüq, övliya, öhtə, elm, ehya** və s. Sözün ortasında bəzi sözlərdə yox olmuş: **müəllim, zəif, sair, ailə** və s., bəzilərində **h** yaxud **y** samiti ilə əvəzlənmişdir: **layiq, layihə** və s. Sözün sonunda isə həmzəli samit işlənməmiş və klassiklərimizin yaradıcılığında da belə olmuşdur: **sənaye, tabe, mənafe, tale, səma, cəza, heca, imla** və s.

Deməli, Azərbaycn dilində ərəb dilindən keçmiş aynlı və həmzəli sözlər böyük dəyişikliyə uğramış, dilimizin qayda-qanunlarını qəbul etmişdir.

Apostrof işarəsinin işləkliyi əvvəllər geniş olmuşdur. Həttə XX əsrin 40-cı illərində apostrof işarəsi ərəb dilindən alınmış sözlərlə yanaşı, Avropa mənşəli sözlərdə də istifadə olunmuşdur. *Məsələn,* ***atel'e, kar'era, Mol'er, sub'ekt, fel'eton*** *və s. sözlər 1958-ci ilə qədər apostrofla yazılmışdır.*

Apostrofun müxtəlif dillərdə yerinə yetirdiyi funksiya eyni deyildir. Kürd, xantı, selkup, vyetnam, eskimos dillərində fonemfərqləndirici funksiya daşıyır və əlifbada da öz əksini tapır.

Türk dillərində apostrof sözü kök və şəkilçiyə ayırmaq, defis yerində işlənmək, sözü sətirdən-sətrə keçirmək məqsədilə istifadə olunmuşdur. Türk xalqlarından bir qismi - türkmənlər, tatarlar, başqırdlar, qazaxlar, yakutlar, xakaslar və digərləri apostrof işarəsini 1937-1940-cı illərdə öz əlifbalarından çıxartmışdır. Yalnız iki türk xalqının-Azərbaycan və özbəklərin əlifbasında bu işarə saxlanılmışdır. Özbəklər isə 1956-cı ildə öz əlifbalarında olan apostrof işərəsini islah etmişlər. Vaxtilə ukrayinlərin, taciklərin, abxazların, dunqanların əlifbasında da apostrof işarəsi olmuşdur. Sonralar onlar da bu işarəni əlifbalarından çıxarmışdır. Azərbaycanda latın qrafikalı əlifbanın yenidən bərpası barədə qərar olduqdan

downloaded from KitabYurdu.org

sonra (1991-ci ilin 25 dekabrında) apostrof işarəsi əlifbadan çıxarılmışdır. Hal-hazırda əlifbamızda apostrof işarəsi yoxdur və bu işarə islah olunmuşdur.

Apostrof işarəsinin əlifbamızda bir qrafik işarə kimi işlədilməsi mövqeyində olanlar, onun əhəmiyyətini əsaslandırmağa çalışanlar da olmuşdur. Apostrof işarəsini vacib sayanların fikirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

**I.** Bəzi saitlərin (ə, e, ö) uzun tələffüzünü təmin etmək üçün həmin saitlərin yanında apostrof işarəsinin yazılmasını vacib sayanlar. Bu fikirdə olanlar apostrofa orfoepik normanın tənzimləyicisi kimi baxırlar. Onlar orfoqrafiya ilə orfoepiya arasındakı fərqi süni olaraq şişirdirlər. Halbuki orfoqrafiya ilə orfoepiya arasında fərq nə qədər az olarsa, düzgün yazmaq bir o qədər asanlaşar. Yeri gəlmişkən, dildəki sözlərin tələffüzü ilə yazılış arasında tam eyniyyət ola bilməz. Əks təqdirdə orfoqrafiya qaydalarına da heç bir ehtiyac yaranmaz. Dilimizdə **adi, arif, alim, namus, şanı, iradə, epos, sima** və s. tipli sözlərdə uzun tələffüz olunan **a, e, i** saitləri apostrofsuz yazılır. Deməli, hər hansı bir səs uzun tələffüz olunursa, apostrofsuz yazıla bilər. Yəni orfoqrafiya ilə orfoepiya arasındakı fərq apostrofsuz da mümkündür. Apostrofun orfoepik mahiyyətini nəzərə alanlar bir məsələni unudurlar ki, orfoepik mahiyyətli bütün ünsürləri əlifbaya gətirmək olmaz. Əks təqdirdə (əlifbaya gətirilərsə) onda əlifbadakı qrafik işarələrin sayı artar. Bu da əlifbanın öyrədilməsində çətinlik yarada bilər. Odur ki, orfoepik mahiyyət kəsb edən bir sıra ünsürlərin (məsələn, uzanma, qısalma, karlaşma, cingiltiləşmə və s.) fonetik transkripsiyası olduğu halda, əlifbamızda qrafik işarəsi yoxdur. Bu mənada apostrof işarəsinin orfoepik mahiyyətini nəzərə alanlar onu fonetik transkripsiya ünsürü kimi məqbul götürsələr, nisbətən inandırıcı görünər. Fonetik transkripsiya işarələrini isə əlifbaya



downloaded from KitabYurdu.org

gətirmək olmaz. Dilimizdə mövcud olan fonetik transkripsiya işarələrinin heç biri əlifbaya gətirilməmişdir.

**II.** Apostrof işarəsinin işlənilməsini vacib sayanlar həm də belə hesab edirlər ki, apostroflu sözlərin yazılışı ənənəvi prinsipə əsaslanır. Odur ki, onların fikrincə, bu ənənəvi prinsipi saxlamaq lazımdır. Yəni apostrofun orfoqrafik vəzifəsinə üstünlük verilməli və ona əməl olunmalıdır. Ancaq bunu da inkar etmək mümkün deyildir ki, əvvəl apostrofla yazılan sözlərin bir çoxu sonradan apostrofdan imtina etmişdir. Belə sözlər yad dilə məxsus xüsusiyyəti dilimizin qayda-qanunları ilə əvəz etmişdir: **sənət, dəfə, cümə, cəmiyyət, moizə, təvazökar, xələt, həməsr, şən, məsələ, röya, dəb, dava, əyan, zəif, nal, nəleyn, qala, Cəfər, Şaban, tam, qəti** və s.

**III.** Apostrofun orfoqrafik mahiyyətindən biri kimi onun hecaayırmada rolunu da əsas götürürlər. Birincisi samitlə bitən, ikincisi saitlə başlanan hecalar arasında ayırıcılıq və saiti aydın tələffüz etmək üçün apostrof işarəsi qoyulduğunu əsas kimi diqqət mərkəzində saxlayırlar: **Kən'an, Sən'an, vüs'ət, ən'am, ən'ənə, məl'um, məs'ud, məs'ul, nəş'ə, nəş'ət, sün'i, sür'ət, hey'ət, cüz'i, cür'ət, məş'əl, məş'um, nəş'ədar, nəş'əbaz, rüf'ət, təl'ət, fövqəl'adə, şər'i, bey'ət, qət'a, qət'ən.** Yeri gəlmişkən qeyd edək ki, apostrofun bu cür samitdən sonra qoyulması və hecaayırıcı xüsusiyyəti təqribən 25-26 sözü əhatə edir. Həmin sözlər istisna hal kimi orfoqrafiya qaydalarında əks oluna bilər. Bu istisnalıq təşkil edən sözlərin necə hecaya ayrılmasını, sətirdənsətrə keçirilməsi qaydasını əzbərləyib yadda saxlamaq olar. Təbii ki, onları orfoqrafiya qaydalarına daxil etmək və izahını vermək mümkündür. Bundan başqa, heç kəs **vüs'ət, ən'ənə, sür'ət** və s. tipli sözləri tələffüz edərkən apostrof işarəsinin hecanı ayırmaq funksiyasını yadına salmır.



downloaded from KitabYurdu.org

**IV.** Azərbaycan dilində **bə'zən, mə'dəni** sözlərini nümunə gətirərək qeyd edirlər ki, bunların dilimizdəki apostrofsuz olanları başqa mənanı bildirir. Müqaysə et: **bəzən-bə'zən, mədəni-mə'dəni.** Ancaq nəzərə almaq lazımdır ki, bu cür sözlərin mənası cümlədə asanlıqla fərqlənir: **Mədəni adamlara hamı hörmət edir — Neft mədəninin sayı gün-gündən artır; Bəzən havalar sərin olur - Bəzən, sonra toya get.** Deməli, belə sözlər apostrofsuz yazılanda omonimləşir. Omonim sözlər də dilimizdə var və dilimizin lüğət tərkibinin zənginləşməsində heç də az rol oynamır. Onda apostrofun işlənməsinin tərəfdarı olanların fikrini nəzərə alsaq, dilin təbii inkişaf qanunauyğunluğundan, omonimləşmə yolu ilə dilin lüğət tərkibinin zənginləşməsindən imtina etməli oluruq. Bu isə heç bir əsası olmayan fikir kimi özünün təsdiqini tapmır. Həm də ərəb dilindən keçmiş apostrofla yazılan sözlər minillər boyu dilimizin qayda-qanununa uyğunlaşaraq getdikcə apastrof işarəsindən imtina etmişdir. Klassiklərimizin yaradıcılığında minlərlə apostroflu sözlər olduğu halda, sonrakı dövrlərdə onların sayı azalmışdır. Bu fərqi 1975-ci ildə çap olunmuş "Orfoqrafiya lüğəti"ndə də görürük (2004-cü ildə çap olunmuş son "Orfoqrafiya lüğəti"ni burada ona görə nəzərə almırıq ki, bu lüğətdə apostroflu sözlər yoxdur və apostrof işarəsi dildən çıxarılmışdır). Burada təqribən 300-dən çox apostroflu söz qeydə alınmışdır və bunlar, əsasən, aşağıdakı tərkibdədir:

**B**

bey'ət
bəde'tiqad
bərabərsür'ətli
bimə'na
bimə'rifət
bə'zən
bə'zi
bə'ziləri
bə'ziniz





downloaded from KitabYurdu.org

**V**
və'dəsiz
və'qə
və'dəbaşı
və'dələşmə
və'dəli
vüs'ət
vüs'ətli
və'dəxilaf
və'dəxilaflıq
və'də
və'z
və'd
və'dələşmək

**Q**
qət'a
qət'ən

**D**
dava-mə'rəkə
dava-mə'rəkəli
də'vət
də'vətli
də'vətnamə
dilli-fe'lli

**E**
e'dadi
e'dadiyyə
e'dam
e'zaz
e'zam
e'zamiyyə
e'zamiyyət
e'zamiyyətçi
e'lam
e'lamnamə
e'lan



downloaded from KitabYurdu.org

e’mal
e’malatxana
e’maledici
e’maletmə
e’tibar
e’tibarən
e’tibarilə
e’tibarlı
e’tibarlılıq
e’tibarnamə
e’tibarsız
e’tibarsızlıq
e’tibarsızca
e’tibarsızcasına
e’tiqat
e’tiqadınca
e’tiqatla
e’tiqatsızlıq
e’tiqatçı
e’tidal
e’tidalla
e’tila
e’timad
e’timadverici
e’timadkar
e’timadkarlıq
e’timadlı
e’timadlılıq
e’timadnamə
e’timadsız
e’timadsızlıq
e’tinasız
e’tinasızlıq
e’tinasızca
e’tinasızcasına
e’tiraz
e’tiraf





downloaded from KitabYurdu.org

**Ə**

ə’za, üzvlər
ə’zəm
ə’zəmi
ə’zəmiyyət
ə’zəmilik
ə’yan, zadəgan
ə’yanlıq
ə’la
ə’lalıq
ə’la-mə’rəkə
əl’an
ə’lahəzrət
ə’laçı
ə’laçılıq
ə’raf

**İ**

iste’dad
iste’dadlı
iste’dadlılıq
iste’dadsız
iste’dadsızlıq
iste’mal
iste’fa
iste’façı

**Y**

yə’ni
yə’s
yə’savər

**L**

layə’ləm
lə’l
lə’n
lə’nət
lə’nətləmə
lə’nətləmək
lə’nətləndirmək





downloaded from KitabYurdu.org

lə’nətlənmə
lə’nətlənmək
lə’nətlik
lə’nətullah
lə’nətçi

**M**

me’mar
me’marbaşı
me’rac
mə’bəd
mə’bədgah
mə’buz
mə’va
mə’qul
mə’də
mə’dəaltı
mə’dən
mə’dənarası
mə’dəni, mineral
mə’dənçi
mə’dənçilik
mə’dəncik
mə’dəüstü
mə’zun
mə’zuniyyət
mə’zuniyyətçi
mə’zur
mə’yus
mə’yusanə
mə’yuslanma
mə’yuslanmaq
mə’yuslaşma
mə’yuslaşmaq
mə’yusluq
mə’yus-mə’yus
mə’kulat
mə’kus
mə’lum
mə’lumat



downloaded from KitabYurdu.org

mə'lumatlılıq
mə'lumatsız
mə'lumatsızlıq
mə'lumatfüruş
mə'lumluq
mə'lum
məl'unanə
mə'lunluq
mə'mul
mə'mulat
mə'mur
mə'murbaşı
mə'murbaşılıq
mə'muriyyət
mə'murluq
mə'na
mə'nalandırma
mə'nalanma
mə'nalı
mə'nasız
mə'naca
mə'nəvi
mə'nəviyyat
mə'nəviyyatla
mə'nən
mə'rəkə
mə'rəkəli
mə'rifət
mə'rifətli
mə'rifətsiz
mə'ruz
mə'ruzə
mə'ruzəçi
mə'ruf
mə'rufluq
məs'ud
məs'ul
məs'uliyyət
mə'sum
mə'sumluq



downloaded from KitabYurdu.org

məʼsumanə
məşʼəl
məʼşuq
məʼşuqə
məşʼum
möʼmin
möʼminlik
möʼtəbər
möʼtəbərlik
möʼtədil
möʼtərizə

**N**

neʼmət
nəʼş
nəşʼə
nəşʼəbaz
nəşʼəverən
nəşʼədar
nəşʼələnmək
nəşʼəli
nəşʼət

**R**

rəʼd
rəʼy
rəʼyçi
rəʼna
rəʼşə
rəʼşələnmə
rəʼşələnmək
rəʼşəli
ricʼət
röʼya
rüfʼət
rüfʼətli

**S**

səʼy
səʼyli



downloaded from KitabYurdu.org

sə'ysiz
sə'ysizlik
sə'ylə
sün'i
sün'ilik
sür'ət
sür'ətlə
sür'ətli

**T**

tə'bir
tə'birincə
tə'birli
tə'bircə
tə'qib
tə'qibat
tə'qibçi
tə'diyə
tə'diyəli
tə'ziyə
tə'ziyədar
tə'ziyədarlıq
tə'ziyəli
tə'zim
tə'zimkar
tə'yin
tə'yinat
tə'yinetmə
tə'yinolunma
tə'kid
tə'kidən
tə'kidlə
tə'lət
tə'lətlik
tə'liqə
tə'lim
tə'limat
tə'limatçı
tə'lif
tə'lifat



downloaded from KitabYurdu.org

tə'mim
tə'mimnamə
tə'min
tə'minat
tə'mir
tə'mirat
tə'mirçi
tə'nəli
tə'nə
tə'rif
tə'rifnamə
tə'sir
tə'sirat
tə'sirbəxş
tə'siredici
tə'sis
tə'sisat
tə'sisedici
tə'til
tə'xir
tə'xiredilməz

**F**
fe'l
fe'lən
fe'li
fe'lli
fövqəl'adə

**H**
həmmə'na
həmmə'nalıq

**C**
cür'ət
cür'ətlə
cür'ətlənmək
cür'ətlilik





downloaded from KitabYurdu.org

**Ş**
şe'r
şe'riyyət
şe'rşünas
şe'rləşmək
şe'rşünaslıq
şə'ban
şərə'n
şər'i
şər'ilik
şö'bə
şö'lə
şö'ləndirilmə
şö'lənmək
şö'ləli
şö'ləcik

Bu sözlər klassik ədəbiyyatımızda işlədilmiş apostroflu sözlərlə say baxımından müqayisədə, demək olar ki, yazıda çox azalmışdır. Deməli, apostrof işarəsi getdikcə islah olunmuş və dil özü bu işarədən imtina etmişdir.

**V.** Klassik ədəbiyyatın düzgün oxunması və düzgün, dəqiq qavranılmasında da apostrofun rolunu əsas sayırlar. Doğrudan da, burada böyük bir həqiqət var. Ona görə də klassiklərin yaradıcılığının çapında apostrofu bir işarə kimi saxlamaq olar. Bəzən bunu da bir dildə iki imla qaydasının yaranması kimi qələmə verirlər. Ancaq nəzərə almırlar ki, klassik dilimizdə işlənmiş sözlər, şəkilçilər, izafət birləşmələri vardır ki, onlar müasir dilimizdə işlənmir və arxaikləşmişdir. Eyni zamanda onların müasir dilimizdə işlənməsi dilimizin iki lüğət tərkibini, və ya iki qrammatik quruluşunu yaratmır. Əslində dilimizin tarixində təbii olaraq baş vermiş bir proses kimi qiymətləndirilir. Bu mənada apostrof da belədir. Ona da dilimizin tarixində mövcud olmuş prosesin nəticəsi kimi yanaşmaq lazımdır.

**VI.** Apostrofun rolunu şişirdənlər onu da nəzə-



downloaded from KitabYurdu.org

rə almalıdırlar ki, o, imlamızda həm nəzəri, həm də praktik cəhətdən özünü doğrultmur. Belə ki, tədris prosesində hansı sözlərin apostrofla yazılmasını mənimsətmək, eləcə də mənimsəmək çətinlik törədir. *Məsələn,* ***məş'əl-mə'şuqə, məs'ul-mə'sum*** *kimi sözlər oxşar olduğundan onlarda apostrofun yerini müəyyən etmək çətinlik yaradır.* Bundan başqa, yad dilə məxsus ünsürün qrafik işarəsinin imlamızda olması artıq bir yük kimi görünür. Təbii ki, imlada belə artıq işarələrin olmaması yazı prosesini asanlaşdırar, nöqsanları aradan qaldırar. Başqa bir tərəfdən başqa dillərdən aldığımız sözlərin hamısı dilimizin qayda-qanununa uyğunlaşmışdır. Əgər belə olmazsa, onda gərək alınma sözlər yad dilə məxsus xüsusiyyətləri özləri ilə gətirib dilimizdə yaşatsınlar. Halbuki belə deyildir. Dilimizə daxil olan sözlər dilimizin qayda-qanunlarını qəbul edir, onun lüğət tərkibinə çevrilir. Bu mənada apostrofu işlətmək dilimizin qayda-qanunlarından irəli gəlmir. Apostrof işarəsi dilimizə məxsus heç bir səsi göstərmir. Başqa bir dilin (ərəb dilinin) səsini yaşatmağa xidmət edir.

Tarixi-ənənəvi prinsipdən öz sözlərimizin və şəkilçilərimizin yazılışında da istifadə olunur. *Məsələn, sonu həm **d,** həm də **t** ilə tələffüz olunan sözlər **d** ilə yazılır:* ***kənd, dörd, polad, bulud*** *və s. Yaxud,* ***-maq****$^2$**, -dıq**$^4$**, -lıq**$^4$ *şəkilçilərinin sonundakı* ***q, k*** *samitlərinin yazılması tarixi-ənənəvi prinsiplə bağlıdır.*

Tarixi - ənənəvi prinsipdən alınma sözlərin və şəkilçilərin yazılışında da istifadə olunur. *Məsələn, ərəb, fars, rus və avropa dillərindən alınmış sözlər tarixi-ənənəvi prinsipə əsaslanaraq Azərbaycan yazısına uyğun şəkildə yazılmışdır.* Ərəb, fars dilindən keçmiş bir cür yazılan **-i, -vi** və s. şəkilçilər dilimizdəki ahəng qanununa uyğunlaşmamış və tarixi-ənənəvi prinsipə əsaslanmışdır: **kütlə-vi, nümunə-vi, tarix-i, inqilab-i** və s.





downloaded from KitabYurdu.org

## Orfoqrafiya qaydaları[1]

**Saitlərin yazılışı**

**1. O** saitli alınma sözlər **a** və ya **o** ilə deyilməsindən asılı olmayaraq **o** ilə yazılır: avtomat, biologiya, velosiped, ensiklopediya, kollektiv, kombinat, laborant, obyekt, poeziya, poema, poçtalyon, problem, professor, solist, motor, polkovnik.

**2. Ü** saitli alınma sözlər **ü** ilə də yazılır: alüminium, bülleten, büro, jüri.

**3.** Aşağıdakı sözlər ədəbi tələffüzdə olduğu kimi iki heca ilə yazılır: qəbir, qədir, eyib, ətir, zehin, isim, nəsil, ömür, səbir, sətir, sinif, fəsil, şəkil, heyif, meyil, əsil, şeir.

**4.** Əslində sonu **a** ilə bitən alınma sözlərdən aşağıdakılar **a**-sız yazılır: anket, aptek, armatur, atmosfer, vitrin, qəzet, idiom, kayut, kaset, kontor, konfet, lent, maşın, perspektiv, pyes, planet, reklam, sistem, sitat.

**Samitlərin yazılışı**

**5.** Birinci hecasındakı samiti həm **n,** həm də **m** ilə deyilən sözlər **n** ilə yazılır: anbar, qənbər, zənbil, günbəz, sünbül, şənbə.

**Kombayn, kombinat, kömbə, pambıq** sözləri istisnadır.

**6.** Əslində sonu qoşa samitlə bitən iki və ya çoxhecalı sözlər bir samitlə yazılır: ekspres, kilovat, kiloqram, konqres, metal, mühüm, proses, sərhəd, hüsnxət.

**7.** Sonu **-iy, -skiy** ilə qurtaran xüsusi və ümumi alınma isimlərin sonundakı **y** yazılmır: Qorki, Yaroslavski, Mayakovski, ssenari, planetari, plofilaktori, sanatori.

1. Buradakı orfoqrafiya qaydaları 2004-cü ildə çap olunmuş axırıncı orfoqrafiya lüğətindən götürülmüşdür. Bax: Azərbaycan dilinin orfoqrafiya lüğəti. "Lider" nəşriyyatı, Bakı, 2004, s. 7-17.





downloaded from KitabYurdu.org

**Qeyd:** Kimyəvi element adları əslinə uyğun olaraq yazılır: **kalium, maqnezium, natrium.**

**8.** Rus dilində tərkibində **ц** olan ümumi isimlər **s** ilə yazılır: dosent, konsert, sex, sirk, sement, lisey.

**Vitse** sözü istisnadır.

Xüsusi isimlərdə sözün əvvəlində s, sözün ortasında və axırında ts yazılır: Setkin, Sialkovski, Vorontsov, Kuznetsov, Motsart, Muromets.

**9.** Rus dilində tərkibində **щ** olan alınma sözlərin əvvəlində və axırında bir **ş**, sözün ortasında isə iki **ş** (şş) yazılır: Şedrin, Şerba, şotka, borş, Vereşşagin, Quşşin, meşşan.

**10.** Əsli **h** samitli alınma sözlər **h** ilə yazılır: Heyne, hektar, Hegel, hegemon, hidrogen, himn, hospital, hotel.

**11.** Əsli **c** samitli alınma sözlər **c** ilə də yazılır: Cek London, cemper, Siciliya.

**12.** Əsli **q** samitli alınma sözlər incə saitli hecalarda **g** ilə yazılır: biologiya, dialektologiya, genezis, general, geologiya, gigiyena, gimnastika, gitara.



**Sözün müxtəlif yerlərindəki qoşa sait və samitlərin yazılışı**

**13.** Qoşa saitlə deyilən sözlər qoşa saitlə də yazılır: maaş, saat, camaat, bədii, əmtəə.

**14.** Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır: vatt, zənn, zidd, küll, rədd, sirr, fənn, xətt, haqq, hiss.

Bu sözlərə samitlə başlanan şəkilçi əlavə olunduqda söz kökündəki qoşa samitdən biri düşür: zid-dir, sir-daş, fən-lər, xət-siz, his-siz.

**15.** İki sait arasında gələn qoşa samitlər qoşa samitlə yazılır: ballada, kassa, şassi, vassal, kapella, klassik, libretto, operetta, nəqqaş, səyyar, kəmiyyət.



downloaded from KitabYurdu.org

**Qeyd:** **Qruppa, antenna, tonna, apparat, parallel** sözləri və **-ma** hecası ilə qurtaran sözlər aşağıdakı kimi yazılır: **qrup, anten, ton, aparat, paralel, diaqram, proqram, stenoqram, teleqram**.

**Şəkilçilərin yazılışı**

**16.** Sözdüzəldici şəkilçilər aşağıdakı kimi yazılır:

**1. Bir cür yazılan şəkilçilər:**

**1) -i** və ya **-vi** şəkilçisi: daxili, tarixi, həyati, cənubi, şimali, dairəvi, kimyəvi, kütləvi, Gəncəvi.

**2) -vari** şəkilçisi: buynuzvari, qalxanvari, yüngülvari, üzükvari.

**2. İki cür yazılan şəkilçilər:**

Kar samitlə bitənlərdə: **-qan, -kən;** cingiltili samitlə bitənlərdə **-ğan, -gən** şəkilçiləri: yapışqan, çalışqan, döyüşkən, sürüşkən, burulğan, deyingən.

**3. Dörd cür yazılan şəkilçilər:**

**1) -kı, -ki, -ku, -kü** şəkilçisi: axşamkı, bildirki, səhərki, onunku, gündüzkü, bugünkü;

**2)** Sifət və isim düzəldən **-ı, -i, -u, -ü** şəkilçisi: badımcanı, darçını, narıncı, ceyranı, dərbəndi, çərkəzi, novruzu, gümüşü;

**3)** Fel köklərindən isim və sifət düzəldən şəkilçilər:

Sonu kar samitlə bitənlərdə:

**a) -ki, -qı, -kü, -qu:** bıçqı, seçki, pusqu, sürtkü;

**b) -kin, -qın, -kün, -qun:** bitkin, satqın, ötkün, tutqun;

Sonu cingiltili samitlərlə bitənlərdə:

**a) -gi, -ğı, -gü, -ğu:** vergi, çalğı, bölgü, vurğu;

**b) -gin, -ğın, -gün, -ğun:** əzgin, qırğın, düzgün, yorğun.

**4) -ıstan, -istan, -ustan, -üstan** şəkilçisi samitlə bitən sözlərdə: Dağıstan, Türkmənistan, Monqolustan, Türküstan.

**Qeyd:** Saitlə bitənlərdə **-stan** yazılır.



downloaded from KitabYurdu.org

**Rəqəmlə yazılan**
**miqdar saylarında şəkilçilərin yazılışı**

17. Rəqəmlə yazılan miqdar saylarına mənsubiyyət və hal şəkilçiləri əlavə edildikdə şəkilçidən əvvəl defis qoyulur: 20-dən, 3-də, 2-yə, 6-nın, 5-i, 17-si.

Ərəb rəqəmlərindən sonra ahəngə görə sıra sayının şəkilçisi ixtisarla **(-cı, -ci, -cu, -cü)** yazılır: 6-cı, 2-ci, 10-cu, 3-cü.

**Mürəkkəb sözlərin yazılışı**

**18.** Bir vurğu ilə deyilən mürəkkəb sözlər bitişik yazılır: arabir, balacaboy, beşillik, beşmərtəbə, qalxanabənzər, qanunvericilik, qurultayqabağı, dilucu, günəbaxan, gülərüz, müxtəliftərəfli, özbaşınalıq, soyuqqanlı, ümumbəşəri, ucdantutma, bugünkü, hərgecəki, ilbəil, günbəgün, qaçaqaç, Bülbüloğlu, Qənbərqızı, Həsənoğlu, Çərkəzqızı, Əliağa.

**19.** Tərkibindəki sözlərin səciyyəsindən asılı olaraq aşağıdakı hallarda defisdən istifadə edilir:

**1)** Qoşa sözlərdə: adda-budda, az-maz, qara-qura, kağız-kuğuz, qarma-qarışıq, qonaq-qara, dedi-qodu, əzik-üzük, sür-sümük, aşıq-aşıq, top-top;

**2)** Tərkibində qeyri, əks, külli, anti, eks, vitse, kontr, ober, super sözləri işləndikdə: qeyri-adi, qeyri-iradi, əks-inqilab, əks-hücum, külli-ixtiyar, vitse-admiral, kontr-admiral, ober-leytenant, super-market;

**3)** İzafət tərkiblərində: tərzi-hərəkət, nöqteyi-nəzər, həddi-büluğ, tərcümeyi-hal;

**4)** Tərkibində mənaca bir-birinə yaxın və ya zidd sözlər işləndikdə: ab-hava, alış-veriş, ölüm-itim, kafe-restoran, kilovat-saat, cənub-qərb, şimal-şərq, az-çox, elə-belə, gec-tez, ağıllı-kamallı, ucsuz-bucaqsız, pis-yaxşı, fabrik-zavod, iki-üç, gedər-gəlməz, yazar-yazmaz, bitməz-tükənməz, dinməz-söyləməz.





downloaded from KitabYurdu.org

**Köməkçi sözlərin yazılışı**

**20. İdi, imiş, ikən** köməkçi sözləri adlardan (isim, sifət, say, əvəzlik) və saitlə qurtaran fellərdən sonra ayrı, samitlə bitən fellərdən sonra həm ayrı, həm də ilk saiti buraxılaraq, şəkilçiləşmiş variantlarda bitişik yazılır: ata idi, ata imiş, ata ikən, uşaq idi, uşaq imiş, uşaq ikən, gəlməli idi, gəlməli imiş, gəlməli ikən, gəlmişdi, gəlmişmiş, gəlirkən, gəlmiş imiş...

**21. Qoşmalar iki cür yazılır:**

**1)** Birhecalı qoşmalar **(-can, -cən, -dək, -tək)** aid olduqları sözə bitişik yazılır: dağacan, evəcən, küçəyədək, quştək.

**2)** İkihecalı qoşmalar **(qədər, kimi, ötrü, təki, təkin, üçün, ilə)** aid olduqları sözdən ayrı yazılır: evə qədər, adam kimi, ondan ötrü, sənin təki, şagird üçün.

**Qeyd:** **İlə** qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq **-la, -lə** şəklində bitişik yazıla bilər.

**22.** Mənşəcə mürəkkəb olan aşağıdakı bağlayıcılar bitişik yazılır: yainki, yaxud, nəinki, habelə, halbuki, həmçinin, hərgah, hərçənd, çünki.

**23.** İki sadə bağlayıcıdan və sadə bağlayıcı ilə başqa nitq hissələrindən əmələ gələn bağlayıcılar və bağlayıcı sözlər bir-birindən ayrı yazılır: belə ki, buna görə də, bununla da, bunun üçün, və ya, və yaxud, daha da, demək ki, yoxsa ki, guya ki, odur ki, ona görə, ona görə də, bununla da, onun üçün də, tutaq ki, həm də.

**24.** Ədatlar sözlərdən ayrı yazılır: di get, gör ha, dedim də, sən ki, daha gözəl, lap pis, ən yaxşı.

**-mı, -mi, -mu, -mü** və **-sana, -sənə** ədatları istisnadır. Onlar aid olduqları sözlərə bitişik yazılır: Qəşəngdirmi? Kitabdırmı? Oxudumu? A kos-kosa gəlsənə, torbanı doldursana?

**Qeyd:** **-mı, -mi, -mu, -mü** sual ədatı **-da, -də** ədatından ayrı yazılır: Sən də mi gedirsən? O yenə də mi danışacaq?



downloaded from KitabYurdu.org

**25.** Eyni nidanın təkrarından əmələ gələn nidalar defislə yazılır: **bəh-bəh, vay-vay, pəh-pəh, uy-uy, ha-ha-ha**.

**26.** Müxtəlif sözlərdən əmələ gələn nidalar ayrı yazılır: ay aman, ay haray.

**Birinci hərfi böyük yazılan sözlər**

**27.** Xüsusi isimlərin (yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: Səməd Vurğun, Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli, Uzun Həsən, Süleyman Rüstəm, Süleyman Sani, Bəxtiyar Vahabzadə, İsgəndərlər, Mehdi Hüseynzadələr, Nizamilər, Hacı Qaralar...

**28.** Bədii əsərlərdə heyvanlar və cansız əşyalar surət kimi işlədildikdə onların adlarının birinci hərfi böyük yazılır: Qırat, Alapaça, Bozdar, Məstan...

**29.** Tarixi hadisələrin, dövrlərin, sülalələrin, nomenklatur terminlə işlənən yer adlarının, eləcə də qədim yazılı abidələrin və s. adlarının birinci sözünün birinci hərfi böyük yazılır: Vətən müharibəsi, Yeddiillik müharibə, Versal sülhü, Dəmir dövrü, Orxon-Yenisey abidələri, Çaldıran döyüşü, Sasanilər dövrü, Səfəvilər sülaləsi, Xəzər dənizi, Azadlıq meydanı, Şuşa qalası...

Belə mürəkkəb adlara fərqləndirici söz əlavə olunduqda onun da birinci hərfi böyük yazılır: Orta Paleolit dövrü, Son Paleolit dövrü.

**30.** Ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Bakı Şəhər İcra Hakimiyyəti.

**31.** Yüksək dövlət vəzifələri (Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Milli Məclisinin Sədri), fəxri adlar, habelə nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, texnikum, teatr, filarmoniya, siyasi partiya, eləcə də tarixi günlərin və s. adlarının tərkibindəki bütün sözlərin (yardımçı söz-





downloaded from KitabYurdu.org

lərdən başqa) birinci hərfi böyük yazılır: Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Heydər Əliyev adına Bakı Beynəlxalq Aeroportu, Azərbaycan Dövlət Nəşriyyatı, M.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Beynəlxalq Qadınlar Günü, Ağstafa Rayon Təhsil Şöbəsi...

**32.** Orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran, düşərgə, yeməkxana, mağaza və s. adları dırnaqda və böyük hərflə yazılır: "İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Ata və oğul" povesti, "Yeddi gözəl" baleti, "Uzaq sahillərdə" filmi, "Azərbaycan" qəzeti, "Cücələrim" kafesi, "Bahar" mağazası, "Badamlı", "İstisu" mineral suları...

**Qeyd:** Dırnaqda yazılan belə adlara artırılan şəkilçi dırnaqdan kənarda yazılır: "Xalq qəzeti"nin bugünkü nömrəsi, "Yeddi gözəl"in ilk tamaşası...

**33.** Mirzə, hacı, şeyx, seyid, şah, soltan, ağa, bəy, bəyim, xan, xanım və s. sözləri rütbə, ləqəb və titul bildirib sözlərdən əvvəl gəldikdə böyük, sözlərdən sonra gəldikdə isə kiçik hərflə yazılır: Mirzə Fətəli, Hacı Qara, Şeyx Nəsrullah, Seyid Əzim, Şah İsmayıl, Soltan Mahmud, Abbas mirzə, Nadir şah, Abbasqulu ağa, Fətəli xan, Heyran xanım...

**İxtisarlar (abreviaturlar)**

**34.** İxtisarlar üç cür yazılır:

**a)** tam ixtisarlar aid olduqları sözlərə (xüsusi və ümumi isimlər) uyğun olaraq böyük və ya kiçik hərflə yazılır: AR (Azərbaycan Respublikası), BMT (Birləşmiş Millətlər Təşkilatı), MM (Milli Məclis), m. (metr), c. (cild)...





downloaded from KitabYurdu.org

**b)** yarımçıq ixtisarlar aid olduqları sözlərə uyğun olaraq, böyük və kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələri isə bitişik yazılır: akad. (akademik), prof. (professor), Azərkitab (Azərbaycan kitabı), AzərTAc (Azərbaycan Teleqraf Agentliyi)...

**c)** sözün orta hissəsinin düşməsi ilə yaranan ixtisarlar defislə yazılır: d-r (doktor), z-d (zavod)...

35. İxtisarlara əlavə edilən şəkilçilər onların son hecasına uyğun olaraq yazılır: MEA-dan, BMT-yə, MDB-nin...

**Sözün sətirdən-sətrə keçirilməsi**

**36.** Sözlər yeni sətrə hecalarla keçirilir: və-tən, mək-təb-li-lər...

Bir saitdən ibarət hecalar istisnadır: ai-lə-li...

**Qeyd:** Sözlərin sətirdən-sətrə keçirilməsində üç prinsipdən istifadə olunur: **heca vahidliyi prinsipi, söz kökü vahidliyi prinsipi, qrafik vahidlik prinsipi.**

**Heca vahidliyi prinsipi.** Bu prinsipdə sətirdən-sətrə keçmə zamanı sözün bölünən hissələri heca vahidləri ilə eyni olmalıdır. Heca vahidliyi prinsipi ilə sözlər sətirdən-sətrə aşağıdakı qaydalarla keçirilir.

**1.** Sözlər yeni sətrə ancaq bütöv hecalarla keçirilir: **qa-pı, qu-ru, dost-luq, yay-laq, çə-mən, kə-ləm, sə-rin** və s.

**2.** Sözün bircə saitdən ibarət olan ilk hecasını sətrin sonunda qoymaq olmaz. Ona görə də ikihecalı **a-da, a-na, a-ta, a-cı, a-çıq, ə-kin, ə-la, e-lan, e-tiraz, i-şıq, u-zun, ü-züm, ü-tü** tipli sözlərin ilk hecasını sətrin sonunda saxlamaq olmaz.

**3.** İki və çoxhecalı sözlərin bircə saitdən ibarət olan sonuncu hecasını yeni sətrə keçirmək olmaz: **bədi-i, vaqi-ə, əmtə-ə, iddi-a, mətbə-ə, müddə-a, nəş-ə, təbi-i, cüz-i, şü-a** tipli sözlərin son hecasını yeni sətrə keçirmək olmaz. Deməli, belə sözlər





downloaded from KitabYurdu.org

ikihecalıdırsa, bir sətirdə yerləşdirilməli və parçalanmamalıdır. Belə sözlər çoxhecalıdırsa, sözün sonundakı iki hecanı birlikdə yeni sətrə keçirmək lazımdır: **id-dia, mət-bəə, tə-bii** və s.

**4.** Tərkibində eynicinsli qoşa samit olan sözlərin saitdən əvvəlki iki samitini nə sətrin sonunda qoymaq olar, nə də o biri sətrə keçirmək olar. Bu sözləri yeni sətrə keçirərkən hər samit hecalardan birinə qoşulur.

| **Keçirmək olmaz:** | **Keçirmək olar:** |
|---|---|
| a-ddım, add-ım | ad-dım |
| do-qquz, doqq-uz | doq-quz |
| sə-kkiz, səkk-iz | sək-kiz |
| rə-ssam, rəss-am | rəs-sam |
| sə-hhət, səhh-ət | səh-hət |
| xa-mmal, xamm-al | xam-mal |

**5.** Vaxtilə apostrofla yazılan **Kən'an, Sən'an, vüs'ət, ən'am, ən'ənə, mə'lum, məs'ud, məs'ul, nəş'ə, nəş'ət, sün'i, sür'ət, hey'ət, cüz'i, cür'ət, məş'əl, məş'um, nəş'ədar, nəş'əbaz, rüf'ət, təl'ət, fövqəl'adə, şər'i, bey'ət, qət'a, qət'ən** tipli sözlər apostrofla hecalara bölünərək yeni sətrə keçirilir. Düzdür, hazırda apostrof işarəsi işlənmir. Ona görə də 2004-cü ildə çap olunmuş "Orfoqrafiya lüğəti"ndə belə sözlərin sətirdən-sətrə keçirilməsi qaydasından bəhs olunmamışdır. Buna baxmayaraq, dilimizdə bu qəbildən olan sözlərin sayının çox olmamasını (təqribən 25-26) nəzərə alaraq istisna hal kimi orfoqrafiya qaydalarında (apostrofsuz yazmaqla) əks etdirmək olar. Belə sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını tədris prosesində əzbərlətməklə yadda saxlamaq mümkündür.

**6. Qaçaqaç, tutatut, kəsəkəs** tipli sözlərdə **a(ə)** bitişdiricisi birinci sözün son samitinə qoşulub, heca təşkil edərək ya sətrin sonunda qala bilər, ya da yeni sətrə keçirilə bilər.

| **Keçirmək olmaz:** | **Keçirmək olar:** |
|---|---|
| qaç-aqaç | qaça-qaç, qa-çaqaç |
| tut-atut | tuta-tut, tu-tatut |
| kəs-əkəs | kəsə-kəs, kə-səkəs |





downloaded from KitabYurdu.org

**7. -stan** şəkilçili sözlər (məs.: Dağı**stan,** Hindi**stan,** Monqolu**stan**) aşağıdakı şəkildə hecalara bölünərək yeni sətrə keçirilir.

| **Keçirmək olmaz:** | **Keçirmək olar:** |
|---|---|
| Dağı-stan | Da-ğıstan |
| Dağ-ıstan | Dağıs-tan |
| Hindi-stan | Hin-distan |
| Hind-istan | Hindis-tan |
| Monqolu-stan | Monqo-lustan |
| Monqol-ustan | Monqolus-tan |

Misallardan göründüyü kimi, köklə şəkilçi arasına əlavə edilən **ı, i, u, ü** saitlərindən biri kökün son samiti və şəkilçinin ilk samiti ilə birlikdə heca təşkil edərək ya sətrin sonunda qoyula bilər, ya da yeni sətrə keçirilə bilər.

**8. Diaqram, proqram, teleqram, stenoqram** tipli sözlərdə **qram** hissəciyindəki **q** samitini və **bioqrafiya**, **monoqrafiya** tipli sözlərdə **qrafiya** hissəciyindəki **q** samitini özündən əvvəlki saitlə qoşub, sətrin sonunda qoymaq olmaz.

| **Keçirmək olmaz:** | **Keçirmək olar:** |
|---|---|
| diaq-ram | dia-qram |
| proq-ram | pro-qram |
| stenoq-ram | steno-qram |
| teleq-ram | tele-qram |
| bioq-rafiya | bio-qrafiya |
| monoq-rafiya | mono-qrafiya |

**9. Sentyabr, oktyabr, noyabr, dekabr** tipli ikihecalı sözləri aşağıdakı şəkildə sətirdən-sətrə keçirmək olar: **sen-tyabr, ok-tyabr, no-yabr, de-kabr.**

**Söz kökü vahidliyi prinsipi.** Bu prinsipdən mürəkkəb sözlərin tərkib hissələrini sətirdən-sətrə keçirdikdə istifadə olunur.





downloaded from KitabYurdu.org

| **Keçirmək olmaz:** | **Keçirmək olar:** |
|---|---|
| di-lucu, dilu-cu | dil-ucu |
| əvə-zedilməz, əvəze-dilməz | əvəz-edilməz |
| əvə-zolunmaz, əvəzo-lunmaz | əvəz-olunmaz |
| kəkli-kotu, kəkliko-tu | kəklik-otu |
| Gü-lağa, Güla-ğa | Gül-ağa |

**Qrafik vahidlik prinsipi.** Qrafik vahidlik prinsipi ixtisarla yazılan sözlərin, qısaltmaların, rəqəmlərin, durğu işarələrinin və elmin müxtəlif sahələrinə aid spesifik işarələrin sətirdən-sətrə keçirilməsində istifadə olunur. Bu prinsipdə aşağıdakı qaydalara riayət olunur.

**1.** Ad və ata adının qısaltması sətrin sonunda qoyula bilməz. **İ.M.Səlimov** misalındakı nə **İ.**, nə də **İ.M.** qısaltmalarını **Səlimov** sözündən ayırıb, sətrin sonunda qoymaq olmaz. Bunların hamısı bir sətirdə yazılmalıdır.

**2.** Mürəkkəb qısaltma növləri tərkibindəki hərfin birini (və ya bir neçəsini) sətrin sonunda qoymaq, digərini (və ya digərlərini) isə yeni sətrə keçirmək olmaz. Məsələn, **ADPU** qısaltmasını A-DPU, AD-PU kimi parçalayıb sətirdən-sətrə keçirmək olmaz. Belə qısaltmalar bir sətirdə yazılmalıdır.

**3.** Ancaq yazıda işlənib bir neçə sözdən ibarət olan ixtisarın bir hissəsini sətrin sonunda qoymaq və başqa hissəsini yeni sətrə keçirmək olmaz. Bunlar bağlı olduqları sözün yanında yazılır: **m.v.** (müxtəlif vərəqi), **və s.** (və sairə), **və b.** (və başqaları), **c.v.** (çap vərəqi), **e.ə.** (eradan əvvəl).

**4.** Durğu işarələri yeni sətrə keçirilmir.

**5.** Açılan mötərizə və dırnağı sətrin sonunda saxlamaq, bağlanan mötərizə və dırnağı isə yeni sətrə keçirmək olmaz.

**6.** Rəqəmlə yazılan saylardan sonra gəlib, defislə ayrılan sıra say şəkilçisinin ixtisarını **(-cı, -ci, -cu, -cü)** və hal şəkilçisini rəqəmdən ayırıb, yeni sətrə keçirmək olmaz. Bunlar bir sətirdə yazılmalıdır: **1956-cı, 4-cü, 5-ə, 3-də** və s.

**7.** Rəqəmlə yazılan miqdar sayının yanındakı ixtisarı və faiz əlamətini yeni sətrə keçirmək olmaz. Bunlar bir sətirdə yazılmalıdır: **5 kq, 170 km, 5%, 6 ha.**





downloaded from KitabYurdu.org

## Orfoqrafiya lüğətinin quruluşu

**1.** Lüğətdə sözlər əlifba sırası ilə verilmişdir.

**2.** Lüğətdə müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinə daxil olan sözlər salınmışdır ki, onları başlıca olaraq aşağıdakı qruplara ayırmaq olar:

**a)** dilimizin lüğət tərkibinin ayrılmaz hissəsini təşkil edən xüsusi terminlər (minimum orta məktəb dərslikləri həcmində);

**b)** vaxtilə dilimizin lüğət tərkibinə girmiş, indi isə yalnız keçmiş həyatın müxtəlif cəhətlərini əks etdirmək üçün lazım olan, müxtəlif ədəbiyyatda işlədilən köhnəlmiş sözlər *(məs.: yüzbaşı, biyar, qoçu, baqqal və s.);*

**c)** dünya xalqlarının və başqa xalq və tayfaların adları;

**ç)** tarixi və əsatiri şəxsiyyət adlarından yalnız məcazi və simvolik mənalarda işlənilənləri, *məs.: Əflatun, Loğman, Hatəm və s., habelə adam adlarından, ya familyalarından düzəldilmiş əşya və s. adları; məs.: qalife, frenç, mauzer, dizel və s. (bunlar kiçik hərflə yazılır);*

**d)** məhəlli sözlərdən (dialektizmlərdən) şifahi xalq yaradıcılığında ən çox yayılmış, buradan da ümumxalq dilinə keçmiş, habelə termin kimi qəbul edilmiş və ədəbi dildə qarşılığı olmayan sözlər: bitki, heyvan, balıq və s. adları;

**e)** defislə yazılan mürəkkəb sözlər - isimlər, *məs.:* ***arvad-uşaq, dağ-daş, gecə-gündüz və s. zərflər,*** *məs.:* ***gülə-gülə, tez-tez, yavaş-yavaş*** *və s.;*

**ə)** mətbuat və ədəbiyyatda geniş yayılmış, həmçinin canlı dildə işlənən mürəkkəb ixtisar sözlər, məs.: raykom, komsomol, kolxoz, sovxoz və s.;

**f)** isim və sifətlərin ən çox işlənən kiçiltmə və oxşama formaları, *məs.: atacan, nənəcik, quşcuq, quşcuğaz, uşaqcığaz və s.;*

**g)** müxtəlif şəkildə düzəldilmiş səs təqlidi sözlər, *məs.: gu-*





downloaded from KitabYurdu.org

*rultu, şaqqıltı, myov-myov, cik-cik və s.*

**3.** Lüğətə coğrafi adlar, adam adları, müasir ədəbi dildə işlənməyən qəliz ərəb və fars sözləri, yalnız bir məhəllə və məhdud peşəkarlar dairəsində işlənən sözlər (arqotizmlər) daxil edilmir.

**4.** Mənası geniş oxucu kütləsi üçün aydın olmayan bəzi söz və terminlərin qarşısında aşağıdakı kimi qısa izah və ya üslubi işarələr (izahlar kursivlə, terminlər isə mötərizədə) verilir; *məs.:*

***anadil,*** *quş*
***ağzımvay,*** *key*
***dizmarı,*** *üzüm*
***edikt*** *(tar.)*
***esperanto*** *(dilç.)*
***ələvi,*** *bitki*
***karbürator*** *(tex.)*
***qır-qırat,*** *oyuncaq*
***qoşulan*** *(riyaz.)*
***yegan*** *(mus.)*

**5.** Tək işlənməyən sözlər tərkib daxilində verilir; bunların ikinci hissəsi kursivlə verilir; *məs.:*

***cərgəli*** *əkin*
***onikibarmaq*** *bağırsaq*
***sinov*** *bitki*
***şollar*** *suyu*
***varid*** *olmaq*
***vaz*** *keçmək*

**6.** Tələffüzcə yaxın olan, lakin yazılış və mənaca fərqlənən sözlərə aşağıdakı kimi izah verilir; *məs.:*

***taskabab,*** *xörək*
***taskababı,*** *qab*
***yeyə,*** *alət*
***yiyə,*** *sahib*

**7.** Mənası yalnız vurğu ilə dəyişilən sözlərin yazılışı bir variantda verilir; *məs.:*



downloaded from KitabYurdu.org

***akademik***
***elektrik***

**8.** Omonimlər ayrı-ayrı sözlər kimi deyil, bir söz kimi verilir.

**9.** İsimlər adlıq halda verilir (əl, pambıqçı, dostluq, ər-arvad, dağ-daş, əlüzyuyan, taxılbiçən, təhər-töhür...).

**10.** İsimlərin kiçiltmə və oxşama şəkilləri lüğətdə ayrıca söz kimi verilir (evcik, qızcığaz, kişiciyəz, adamcığaz...).

**11.** Xalq, tayfa və sülalə adları, eləcə də cəm halda işlədilən elmi terminlər aşağıdakı kimi verilir:

**ağqoyunlu (- lar)**
**ayağıpərdəli (-lər)**
**azərbaycanlı (-lar )**
**kəsrani (-lər)**
**qırğız(-lar)**
**rus(-lar)**

**12.** Bütün feli isimlər lüğətdə verilir (qazma, daşma, döymə...).

**13.** İşarə adları olan sözlər aşağıdakı kimi verilir:

**faiz,%**
**iks, x**
**iqrek, y**
**paraqraf, §**

**14.** Əsli (qara, ağ, böyük...), düzəltmə (kəskin, iqtisadi, naməlum...) və mürəkkəb (uzaqvuran, uzunsaçlı, çoxmərtəbəli...) sifətlər lüğətə daxil edilir.

**15.** Sifətin **-raq//-rək; -ımtıl//-umtul//-ümtül; -sov; -mtraq...** şəkilçilərinin qoşulması ilə düzələn azaltma (yaxşıraq, gödərək, ağımtıl, göyümtül, uzunsov, göyümsov, sarımtraq...) və **m, p, r** ünsürlərinin köməyi ilə düzələn şiddətləndirmə dərəcəsi (yamyaşıl, qıpqırmızı, tərtəmiz...) lüğətdə verilir.

**16.** Feli sifətlərdən yalnız substantivləşmiş (isimləşmiş) sözlər lüğətdə verilir (çalan, oxuyan...).





downloaded from KitabYurdu.org

## Say

**17.** Yalnız bir kökdən ibarət olan miqdar (bir, iki, otuz, yüz, min...) və qeyri-müəyyən (az, çox...) saylar lüğətə daxil edilir.

**18.** Sıra sayları aşağıdakı kimi verilir:

**beşinci, 5-ci, V**
**birinci, 1-ci, I**
**ikinci, 2-ci, II**
**iyirminci, 20-ci, XX**
**onuncu, 10-cu, X**
**otuzuncu, 30-cu, XXX**

**19.** Şəxs, işarə, sual, qayıdış, qeyri-müəyyən və təyini əvəzliklər (mən, o, hansı, öz, kimisi, kimsə, bütün...) lüğətdə verilir. Ayrı yazılan əvəzliklər (nə isə, heç nə...) lüğətdə verilmir.

## Fel

**20.** Sadə və düzəltmə, məlum (oxumaq, yazmaq, getmək, demək...); məchul (yazılmaq, oxunmaq, deyilmək...); qayıdış (yuyulmaq, açılmaq, görünmək, süzülmək...); qarşılıq (yazışmaq, deyişmək, boğuşmaq...); və icbar (yazdırmaq, yazdırtmaq, oxutmaq, oxutdurmaq, açdırmaq, dedirtmək...) felləri lüğətdə ayrıca söz kimi verilir.

**21. Atıb-tutmaq, aşıb-daşmaq, deyib-gülmək** kimi mürəkkəb fellər əlifba sırası ilə verilir.

## Zərf

**22.** Sadə, düzəltmə və mürəkkəb zərflər (tez, gec, qəhrəmancasına, tez-tez, şirin-şirin, dalbadal, qabaq-qabağa...) lüğətdə verilir.



downloaded from KitabYurdu.org

**23. ilə (-lə)** qoşması ilə düzələn zərflər (vaxtilə, tamamilə...) lüğətdə verilir.

**Köməkçi nitq hissələri**

**24.** Bütün qoşmalar lüğətə daxil edilir (bəri, üçün, görə...).

**25.** Yalnız sadə (həm, və, əgər...) və bitişik yazılan mürəkkəb (hərgah, hərçənd, nəinki...) bağlayıcılar lüğətə daxil edilir.

**26.** Yalnız sadə (bəh, eh, ha...) və təkrar yolu ilə düzələn mürəkkəb (bəh-bəh, hay-hay...) nidalar lüğətə daxil edilir.

**27.** Yalnız təktərkibli ədatlar (axı, barı, görəsən...) lüğətdə verilir.

**LÜĞƏTDƏ GEDƏN ŞƏRTİ İXTİSARLAR**

| | | | |
|---|---|---|---|
| anat. | - anatomiya | hərb. | - hərbi |
| astr. | - astoronomiya | hüq. | - hüquq |
| bayt. | - baytarlıq | id. | - idman |
| biol. | - biologiya | inc. | - incəsənət |
| bot. | - botanika | k.t. | - kənd təsərrüfatı |
| coğr. | - coğrafiya | kim. | - kimya |
| dan. | - danışıqda işlənən söz | memar. | - memarlıq |
| dəniz. | - dənizçilik | meşəç. | - meşəçilik |
| d.y. | - dəmir yol | mətb. | - mətbəəçilik |
| dilç. | - dilçilik | miner. | - mineralogiya |
| elektr. | - elektrik | mus. | - musiqi |
| əcz. | - əczaçılıq | müh. | - mühasibat |
| ədəb. | - ədəbiyyatşünaslıq | ped. | - pedaqogika |
| əkin. | - əkinçilik | psix. | - psixologiya |
| fəls. | - fəlsəfə | riyaz. | - riyaziyyat |
| fiz. | - fizika | tar. | - tarix |
| fiziol. | - fiziologiya | sənət. | - sənətşünaslıq |
| folk. | - folklor | şahm. | - şahmat |
| fotoq. | - fotoqrafiya | tex. | - texnika |
| geod. | - geodeziya | tib. | - tibb |
| geol. | - geologiya | zool. | - zoologiya |





downloaded from KitabYurdu.org

## Azərbaycan dili orfoqrafiyasının tarixi barədə məlumat

Azərbaycan dilinin orfoqrafiyası əlifba dəyişikliyi və dilin inkişafı ilə bağlı olaraq bir sıra dəyişikliyə uğramışdır. Orfoqrafiyadakı dəyişikliklər əlifbada və dildə olan dəyişikliklərlə sıx bağlıdır.

Azərbaycan yazısı ərəb əlifbası üzərində qurulduğu dövrdə orfoqrafiyamızda olan çətinliklər ziyalılarımızın diqqət mərkəzində olmuşdur. *Məsələn, M.F.Axundov XIX əsrin ikinci yarısında orfoqrafiyamızdakı çətinlikləri bir sistemə salmaq uğrunda da mübarizə aparmışdır.* O, ərəb və fars dillərindən dilimizə keçən sözlərin Azərbaycan tələffüzünə uyğun şəkildə orfoqrafiya qaydalarına uyğunlaşdırılmasını əsas götürmüşdür. M.F.Axundov fonetik prinsipə üstünlük verərək **adəm, toxm, cift, müğəyyət, övrət, qaidə** və s. sözlərin dilimizin tələffüzünə uyğun olaraq **adam, toxum, cüt, muğayat, arvad, qayda** kimi yazılmasını məqsədəuyğun saymışdır. Bununla da M.F.Axundov yazı qaydalarının sadələşməsinin və Azərbaycan dilinin tələbinə uyğunlaşdırılmasının tərəfdarı olmuşdur.

Orfoqrafiya məsələləri XX əsrin əvvəllərində də əhəmiyyətli bir iş kimi diqqət mərkəzində olmuşdur.

1908-ci ildə Mahmudbəy Mahmudbəyov (beş nəfər müəllimlə birlikdə) "İkinci il" dərsliyini və 1911-ci ildə "İmlamız" kitabını çap etdirmişdir. O, bu kitablarda orfoqrafiya qaydalarına aid qiymətli fikirlər söyləmişdir. M.Mahmudbəyov morfoloji prinsipə əsaslanmağı daha vacib saymışdır.

Orfoqrafiya məsələləri I Türkoloji Qurultayda da geniş müzakirə obyekti olmuşdur. Qurultayda orfoqrafiya barədə qətnamə qəbul olunmuşdur. Qətnamədə türk dillərinin hər birində orfoqrafiya lüğətlərini yaratmaq vacib sayılmışdır.

Azərbaycan dilinin orfoqrafiya qaydaları 1925-ci ildə, ilk or-



downloaded from KitabYurdu.org

foqrafiya lüğəti isə 1929-cu ildə V.Xuluflunun müəllifliyi ilə çap olunmuşdur. Bu lüğətdə dialektizmlərə, ərəb, fars sözlərinə, qəliz tərkiblərə və onların yazılış formalarına (dialektə müvafiq yazılışa) lüzumsuz olaraq geniş yer verilmişdir. Bu da lüğətin qüsurları kimi qiymətləndirilməlidir.

1939-cu ildə kiril əlifbasına keçməklə bağlı olaraq, orfoqrafiya qaydalarında da müəyyən dəyişikliklər edilmişdir. Ona görə də 1940-cı ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun elmi əməkdaşları tərəfindən hazırlanmış yeni orfoqrafiya lüğəti çap olunmuşdur. Bu lüğət 21 mindən artıq sözü əhatə etmişdir.

Bu lüğət özündən əvvəl çap olunmuş orfoqrafiya lüğətindən təkcə həcminə görə fərqlənməmişdir. Həm də ədəbi dildə hüquq qazanmış ərəb, fars sözlərini, ictimai-siyasi, mədəni, iqtisadi həyatla bağlı olan terminləri əhatə etməsinə görə fərqlənmişdir.

Azərbaycan dilinin növbəti orfoqrafiya lüğəti 1960-cı ildə nəşr olunmuşdur. Bu lüğət 1940-cı ildə çap olunmuş lüğətin təkmilləşməsi ilə yaranmış və buradakı sözlərin sayı 40 minə çatdırılmışdır.

Elmin, texnikanın, mədəniyyətin inkişafı ilə bağlı olaraq dilimizin lüğət tərkibi zənginləşmişdir. Ona görə də 1975-ci ildə "Azərbaycan dilinin orfoqrafiya lüğəti" 58 min sözü əhatə etməklə yenidən çap olunmuşdur. Bu lüğət Azərbaycan SSR Nazirlər Sovetinin 1958-ci il 24 iyul tarixli, 497 nömrəli və 1959-cu il 6 aprel tarixli, 268 nömrəli qərarları ilə təsdiq olunmuş "Azərbaycan dilinin orfoqrafiya qaydaları"na uyğun şəkildə tərtib edilmişdir. Azərbaycan dilinin axırıncı orfoqrafiya lüğəti 2004-cü ildə çap olunmuşdur. Bu lüğətdə 80 minə yaxın sözün düzgün yazılışı göstərilmişdir. 2004-cü ildə çap olunmuş orfoqrafiya lüğəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 2004-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

2004-cü ildə "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin çap olunması obyektiv tələbatla bağlı olmuşdur. Belə ki, 1975-ci ildə çap olunmuş orfoqrafiya lüğətindən xeyli müddət keçmişdir. Bu müddət ərzində dilimizin lüğət tərkibində, tələffüz və yazı



downloaded from KitabYurdu.org

normalarında təbii inkişaf prosesi getmişdir. Bununla bərabər, latın qrafikalı Azərbaycan əlifbasının qəbul olunması yeni orfoqrafiya lüğətinin çap olunmasına olan ehtiyacı daha da artırmışdır. Odur ki, 2004-cü ildə çap olunmuş orfoqrafiya lüğəti dövrümüzün dil mənzərəsini, lüğət tərkibindəki sözləri, terminləri əks etdirir. Ancaq dil, məlum olduğu kimi, lüğət tərkibi daim inkişafda olur və dəyişir. Ona görə də bu orfoqrafiya lüğəti çap olunduqdan sonra da dilimizdə yeni sözlər yaranacaq, lüğət tərkibinə yeni-yeni sözlər daxil olacaqdır. Bütün bunlar imkan yaradacaqdır ki, gələcəkdə də yazı dili normalarını təsbit edən orfoqrafiya lüğətinin nəşr olunması təmin olunsun.

2004-cü ildə çap olunmuş "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə apostrofla bağlı bölmə yoxdur. Azərbaycan dilinin latın qrafikalı əlifbasına apostrof ( **'** ) işarəsi salınmamışdır. Ona görə də yeni orfoqrafiya lüğətində apostrof işarəsi nəzərə alınmamış, kiril əlifbasında apostrofla yazılan sözlər indi apostrofsuz verilmişdir. Yeni çap olunmuş orfoqrafiya lüğətində apostrof işarəsi yoxdur və hazırda bu işarədən istifadə olunmur. Yeri gəlmişkən onu da qeyd edək ki, bəzi sözlərin yazılışında dəyişiklik edilmişdir. *Məsələn, 1975-ci ilin orfoqrafiya lüğətində* ***şe'r*** *kimi yazılan söz hazırda* ***şeir*** *kimi yazılır.*

Beləliklə, Azərbaycan dilinin indiyə qədər çap olunmuş orfoqrafiya lüğətlərini aşağıdakı kimi sadalamaq olar:

**1)** 1929-cu ildə çap olunmuş orfoqrafiya lüğəti;
**2)** 1940-cı ildə çap olunmuş orfoqrafiya lüğəti;
**3)** 1960-cı ildə çap olunmuş orfoqrafiya lüğəti;
**4)** 1975-ci ildə çap olunmuş orfoqrafiya lüğəti;
**5)** 2004-cü ildə çap olunmuş orfoqrafiya lüğəti.





downloaded from KitabYurdu.org

# Orfoepiya

**Orfoepiya haqqında məlumat. Orfoepiya** sözü yunan sözüdür. Mənası "düzgün nitq" deməkdir. **Orthos** "düzgün", **epos** "nitq" mənasındadır. Deməli, **orfoepiya** sözü **orthos** və **epos** sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Yazılı ədəbi dilin normaları olduğu kimi, şifahi ədəbi dilin də normaları vardır. Buna ədəbi tələffüz normaları da demək olar.

**Tələffüz** sözü ərəb dilində "söz" mənasında olan **ləfz** sözündən götürülmüş və "söyləmək" mənasını bildirir. İstənilən bir səsi və sözü düzgün tələffüz etmək olduqca vacibdir. Belə olmazsa, onda bir-birinə yaxın olan səsləri, eləcə də səs tərkibində cüzi dəyişiklik olan sözləri fərqləndirmək olmaz. *Məsələn, **ax-ağ, at-ad, bax-bağ** və s.* Ona görə də hər bir səs və söz ədəbi tələffüzün normalarına uyğun olaraq tələffüz olunmalıdır. Yeri gəlmişkən qeyd edək ki, orfoepiya təkcə səslərin, sözlərin deyil, həm də ifadələrin, qrammatik vasitələrin (qrammatik formaların, şəkilçilərin) tələffüzünü öyrənir.

Tələffüz sözü "söyləmək" mənasını bildirən ifadə kimi geniş mənada başa düşülür. Ancaq tələffüzün konkret sahə və istiqaməti vardır. *Məsələn, **ədəbi tələffüz, məhəlli tələffüz,***





downloaded from KitabYurdu.org

***dialektal tələffüz*** *və s.* Bu mənada orfoepiyada tələffüz dedikdə məhəlli, dialektal tələffüzdən yox, ədəbi tələffüzdən söhbət gedir. Məsələn, orfoqrafik normaya uyğun olaraq yazılan **gedəcək** sözü dialekt və şivələrimizdə **ge:cax, ge:cix**[1], **geycəx**[1], **gedəjək** və s. kimi variantlarda tələffüz olunur. Ədəbi tələffüz norması isə **gedəcəx**[1] variantında olan tələffüzü daha məqbul sayır.

Yazılı ədəbi dilimizin normaları tam müəyyənləşdirilmiş və bu sahədə xeyli işlər görülmüşdür. Odur ki, yazılı ədəbi dilimizin qarşısına qoyulan tələblər yerinə yetirilir və buna əməl olunur. Ancaq şifahi ədəbi dilimizin normalarına riayət etmək, bu sahədə bir qayda-qanun yaratmaq olduqca vacibdir. Nəzərə alsaq ki, radioda, televiziyada, çıxış və məruzələrdə, monoloji və dialoji nitqdə ədəbi tələffüz normalarına əməl olunmaması halları ilə qarşılaşırıq, onda bu sahədə müəyyən işlərin görülməsinə ehtiyac olduğunu bir daha hiss etmiş oluruq. Orfoepiya qaydaları nə qədər sistemli işlənib hazırlanarsa, bir o qədər ədəbi tələffüz normaları qaydasına düşər.

Azərbaycan ədəbi dilinin orfoepiya normaları heç kəs tərəfindən pozula bilməz. Ancaq bəzən ədəbi dilin orfoepiya normaları pozulur. Bunun əsas səbəbi onunla bağlı olur ki, danışan şəxs sözləri öz dialektində tələffüz edir. Yaxud, bəzən sözü necə yazılırsa, o cür də tələffüz etməyi məqbul sayır ki, bu da düzgün deyildir.

Ədəbi tələffüz normalarına əməl edən şəxslərin nitqi kamil, nitq mədəniyyətinin səviyyəsi isə yüksək olur.

Sual oluna bilər ki, Azərbaycan ədəbi tələffüzünün əsasını nə təşkil edir? Cavab belədir: Azərbaycan ədəbi tələffüzünün əsasını Azərbaycan ziyalılarının danışığı təşkil edir. Ədəbi tələffüz bu ziyalıların danışığı üzərində qurulur. Ümumiyyətlə, ziyalılarımızın dili ədəbi tələffüzdə əsas norma götürülür. Ziyalılarımız Azərbaycanın müxtəlif rayonlarında, kəndlərində və şəhərlərində yaşamasına baxmayaraq, onlar yazılı ədəbi dilin təsiri altında vahid ədəbi dildə danışırlar. Onlar buna əməl etmədikdə nitq prosesindəki nöqsanlar, qüsurlar üzə çıxır və orfoepiya qaydalarının pozulduğu müşahidə olunur.



downloaded from KitabYurdu.org

## Orfoqrafiya ilə orfoepiya arasında yaxın və fərqli cəhətlər

Müasir Azərbaycan dilinin orfoqrafiyası ilə orfoepiyası arasında yaxın və fərqli cəhətlər mövcuddur. Orfoqrafiya ilə orfoepiya arasındakı yaxın cəhətlər aşağıdakılardır:

**I.** Müasir Azərbaycan ədəbi dilinin orfoqrafiyası üçün qəbul edilmiş qaydalar bəzən həm də orfoepiya qaydaları kimi məqbul götürülür. Ona görə ki, ədəbi dilimizin orfoqrafiya qaydaları şifahi danışıq dili üzərində seçmə və əvəzetmə prinsipi üzərində qurulur.

**II.** Şifahi ədəbi dilin formalaşması imkan verir ki, yazılı ədəbi dilin normaları da yaransın və ona əməl olunsun. Bu da nəticədə şifahi ədəbi dillə yazılı ədəbi dil arasındakı fərqi qismən olsa da, aradan götürə bilir.

Orfoqrafiya ilə orfoepiya arasında fərqli cəhətlər də mövcuddur. Bunlar aşağıdakılardır:

**I.** Orfoqrafiyada sözlərin düzgün yazılışı, orfoepiyada isə düzgün tələffüzü öyrənilir. Odur ki, dilimizdəki bütün sözlər yazıldığı kimi tələffüz olunmur. *Məsələn, orfoqrafiyada* ***ola idi, çala idi, alsa idi*** *yazıldığı halda, orfoepiyada* ***olaydı, çalaydı, alsaydı*** *kimi tələffüz olunur.* Məhz bu cür tələffüz orfoepiyanın öz tələbindən irəli gəlir. Orfoepiyanın tələbi nəticəsində danışıq asanlaşır, zərifləşir və incə bir formaya düşür.

**II.** Orfoepiyada ümumxalq danışıq dilinin xüsusiyyətləri nəzərə alınaraq orfoepik normalara diqqət yetirilir. Burada məhəlli və dialektal xüsusiyyətlər nəzərə alınmır. Ancaq orfoqrafiyada isə ümumxalq danışıq dilinin xüsusiyyətləri nəzərə alınmır. *Məsələn,* ***məndən*** *sözü orfoepiyada* ***mənnən*** *kimi tələffüz olunur və burada ümumxalq danışıq dilinin xüsusiyyəti (elmi dildə desək assimilyasiya hadisəsi) nəzərə alınır.* Ancaq orfoqrafiyada isə bu söz **məndən** kimi yazılır. Yeri gəlmişkən qeyd edək





downloaded from KitabYurdu.org

ki, ümumxalq danışıq xüsusiyyəti daşıyan və assimilyasiyaya uğrayan sözlər orfoepik normaya daxil olur, yəni ədəbi tələffüzün tələblərinə cavab verir. Dialektal və məhəlli xüsusiyyət daşıyan və assimilyasiyaya uğrayan sözlər isə orfoepik normaya daxil olmur və ədəbi tələffüzün tələblərinə cavab vermir. *Məsələn,* ***qızlar, adamlar*** *sözləri assimilyasiyaya uğrayaraq* ***qızdar, adamnar*** *şəklinə düşür.* Bu isə daha çox dialektal xüsusiyyət daşıdığından orfoepik tələblərə cavab vermir və belə sözlər yazıldığı kimi də (yəni qızlar, adamlar kimi) tələffüz olunur.

**III.** Azərbaycan ədəbi dilinin orfoepiyasında saitlərin adi, uzun və qısa tələffüzü mühüm rol oynaya bilir. *Məsələn,* ***ana*** *sözündəki* ***a*** *saiti adi,* ***alim*** *sözündəki* ***a*** *saiti uzun tələffüz olunur.* Göründüyü kimi, bu sözlərdə **a** saitinin orfoepiyada tələffüz fərqləri özünü göstərir. Bu vəziyyət digər adi, uzun və qısa tələffüz olunan saitlərə də aiddir. Ancaq orfoqrafiyaya gəldikdə isə saitlərin adi, uzun və qısa tələffüzü nəzərə alınmır, onlar xüsusi əhəmiyyət kəsb etmədən yazılır. *Məsələn,* ***ana*** *və* ***alim*** *sözlərindəki* ***a*** *saiti orfoqrafiyada xüsusi əhəmiyyət kəsb etmədən a kimi yazılır.* Yəni orfoqrafiyada **ana** sözündəki **a**-nın adi, **alim** sözündəki **a**-nın isə uzun tələffüzü əhəmiyyət daşımır.

**IV.** Orfoqrafiyada şəkilçilərin ahəng qanununa tabe olması əsas götürülür və buna riayət olunur. Orfoepiyada isə bəzi şəkilçilərin tələffüzündə ahəng qanununun pozulması halları müşahidə olunur. *Məsələn, felin arzu şəkli keçmiş zaman şəkilçisindən əvvəl gəldikdə tələffüz zamanı yazıdan fərqli olaraq sözün ahənginə tabe olmur.* Belə ki, orfoqrafiyada **alaydı, gedəydi, oxuyaydı, görəymiş** və s. kimi yazılan sözlər orfoepiyada ahəng qanununa tabe olmayaraq **aleydi, gedeydi, oxuyeydi, göreymiş** kimi tələffüz olunur. Yaxud, felin şərt şəkli keçmiş zaman şəkilçisindən əvvəl gəldikdə tələffüz zamanı yazıdan fərqli olaraq sözün ahənginə tabe olmur. Yəni orfoqrafiyada **alsaydı, gəlsəydi, görsəydi** və s. kimi yazılan sözlər orfoepiyada ahəng qanununa tabe olmayaraq **alseydi, gəlseydi, görseydi** kimi tələffüz olunur.

**V.** Orfoqrafiyadan fərqli olaraq orfoepiyada şifahi dilin xüsusiyyətləri ilə bağlı olan fonetik hadisələr (məsələn, səsartımı,



downloaded from KitabYurdu.org

assimilyasiya, dissimilyasiya, səs düşümü və s.) mühüm yer tutur. *Məsələn:*

***Səsartımı:*** **stəkan** (orfoqrafiyada) - **istəkan** (orfoepiyada), **Rəhim** (orfoqrafiyada) - **İrəhim** (orfoepiyada) və s.

***Assimilyasiya:*** **məndən** (orfoqrafiyada) - **mənnən** (orfoepiyada), **səndən** (orfoqrafiyada) - **sənnən** (orfoepiyada) və s.

***Dissimilyasiya:*** **içdi** (orfoqrafiyada) - **işdi** (orfoepiyada) - **qaçdı** (orfoqrafiyada) - **qaşdı** (orfoepiyada), **keçdi** (orfoqrafiyada) - **keşdi** (orfoepiyada) və s.

***Səsdüşümü:*** **dostlar** (orfoqrafiyada) - **doslar** (orfoepiyada), **rast gəlmək** (orfoqrafiyada), **ras gəlmək** (orfoepiyada), **neftçi** (orfoqrafiyada) - **nefçi** (orfoepiyada) və s.

**Tələffüzün üslubları.** Danışan hər bir şəxs öz məqsədini dinləyiciyə çatdırmaq üçün müxtəlif vasitə və imkanlardan istifadə edir. Nitqin hansı məqsədlə ifadəsi və hansı şəraitlə bağlı olması dilin üslubunu yaradır. Bu üslub səsləri, sözləri, ifadələri, qrammatik vasitələri əhatə etdiyindən geniş mənada başa düşülür. Həm də dilin üslubu ifadəsi ilə yanaşı nitqin üslubu ifadəsi də işlənir.

Ə.Dəmirçizadə L.V.Şerbaya və R.İ.Avanesova əsaslanaraq üç üslubdan bəhs etmişdir[1]:

**1.** Kitab üslubu;

**2.** Danışıq üslubu;

**3.** Sadə nitq üslubu.

Bu üslublar ümumiləşərək iki üslubu formalaşdırır: **tam üslub, sərbəst üslub.**

**Tam üslubun** mahiyyəti belədir ki, hər bir danışan şəxs sözləri, onları təşkil edən səsləri, hecaları, cümlələri yerli-yerində dürüst şəkildə tələffüz etməlidir. Başqa sözlə, tam üslubda ədəbi tələffüz normalarına riayət edilməlidir. Tam üslubdan natiqlər, aktyorlar, müəllimlər, ziyalılar daha çox istifadə edirlər və bu üsluba əməl edirlər.

1. Ə.M.Dəmirçizadə. Müasir Azərbaycan dili. "Maarif" nəşriyyatı, Bakı, 1984, s. 175-176.





downloaded from KitabYurdu.org

**Sərbəst üslubda** danışan şəxs səsləri, hecaları, sözləri, ifadələri, cümlələri sərbəst şəkildə tələffüz edir. Bu üslubda danışan şəxs həm də dialekt və şivə sözlərindən, alınma sözlərdən sərbəst şəkildə istifadə edir. Tələffüz normalarına uyğun olmayan şivəçilik, köhnəlik, əcnəbilik sərbəst üslubda az-çox istifadə olunur. *Məsələn,* ***mənə*** *sözü şivəyə məxsus çalarlıqda* ***mana, qapını*** *sözü* ***qapıyı, qardaş*** *sözü* ***qərdeş*** *və s. kimi tələffüz olunur.* Göründüyü kimi, belə sözlər şivəçilik çalarlığı ilə bağlıdır. Bəzən **köhnəlik** çalarlığında tələffüzə də yol verilərək f**ayda, qayda, kimi, adam, salam** və s. tipli sözlər **faidə, qaidə, kibi, adəm, səlam** kimi tələffüz olunur. Vaxtilə bu cür tələffüz məqbul hesab olunsa da, müasir dilimizdə ədəbi tələffüz normalarına uyğun deyildir.

Sərbəst üslubda bəzən əcnəbilik çalarlığına da yol verilərək başqa dillərdən alınmış sözlər alındığı dilə məxsus tələffüz qaydasını qoruyur. *Məsələn,* ***qəzet, stəkan, folklor*** *və s. sözlər* ***qazet, stakan, falklor*** *kimi tələffüz olunur.*

Hər iki üslub – tam və sərbəst üslub istifadə olunur. Ancaq bunlar arasındakı fərq ondadır ki, tam üslubdan radioda, televiziyada, mühazirələrdə, rəsmi danışıqlarda; sərbəst üslubdan isə adi söhbətlərdə, məişətdə, ailədə istifadə olunur. Həm də tam üslubda danışan şəxs ədəbi tələffüz normalarına riayət etmək məcburiyyətində olsa da, sərbəst üslubda isə tam sərbəstlik özünü göstərir. Onu da qeyd edək ki, hər iki üslubun imkanlarından istifadə olunur. Bu, danışan şəxsin məqsədindən, olduğu mühitdən və şəraitdən daha çox asılı olur.

## Ədəbi tələffüzün mənbələri

**Ədəbi tələffüzün mənbəyi barədə.** Ədəbi tələffüz şifahi ədəbi dillə bağlıdır. Yəni şifahi ədəbi dil ədəbi tələffüz vasitəsilə öz ifadəsini, təzahürünü tapır.

Ədəbi dil seçmə və əvəzetmə yolu ilə yarandığı kimi, ədəbi



downloaded from KitabYurdu.org

dilin normaları da seçmə və əvəzetmə yolu ilə müəyyən olunur. Bundan başqa, şifahi ədəbi dilin normaları da belə müəyyənləşir. Onda istər-istəməz sual yaranır. Ədəbi tələffüz normalarını seçmə və əvəzetmə yolu ilə müəyyənləşdirərkən hansı mənbələrə istinad olunur? Həmin mənbələr bunlardır: **şivələr, yazı, ənənəvi** və **əcnəbi mənbələr.**

**Şivə** ədəbi tələffüzün mənbələri sırasında mühüm rola malikdir. Hər hansı şivədəki sözü ədəbi tələffüz üçün norma, məqbul sayanda seçmə və əvəzetmə prinsipi əsas götürülür. *Məsələn, **ana, ciji, mama, nənə** sözləri müxtəlif şivələrdə **"ana"** mənasını bildirsə də, ədəbi tələffüz üçün bunlardan **ana** variantı məqbuldur.*

Şivə sözlərini seçmə və əvəzetmə prinsipi ilə ədəbi dilimiz üçün məqbul götürərək bir neçə pilləli əməliyyat aparılır. **Əvvəlcə,** rayon və şəhər ətrafındakı şivə sözləri toplanır, ümumiləşir. Məsələn, *Gəncə ətrafı Gəncədə, Lənkəran ətrafı Lənkəranda, Qazax ətrafı Qazaxda, Bakı ətrafı Bakıda və s.* Sonra isə ikinci pillə başlayır. **İkinci pillədə** toplanmış şivə sözləri mərkəzi şəhərdə ümumiləşir. Deməli, ikinci pillədə şivə sözləri mərkəzləşdirmə yolu ilə ədəbi tələffüz normasına uyğun variantda seçilir. Burada mərkəzin şivəsi yox, mərkəzdə yaşayan ziyalıların ədəbi tələffüz norması əsas götürülür. Məsələn, *Bakı paytaxt olsa da, toplanmış şivə sözləri içərisində Bakı şivəsi yox, Bakıda yaşayan ziyalıların ədəbi tələffüz normaları əsas götürülür.*

**Yazı** da ədəbi tələffüz normalarının müəyyənləşməsində istifadə olunan mənbələrdən biridir. Belə ki, bir sıra sözlərin ədəbi tələffüz normaları yazıya istinad etməklə müəyyənləşir. Bu zaman həmin sözlərin necə yazılması, daha doğrusu, orfoqrafiyası köməyimizə çatır. Yazının bir mənbə rolunu oynaması aşağıdakı hallarda özünü göstərir:

**1)** Dilimizdə bir qisim sözlər vardır ki, onların tələffüz norması yazıya əsaslanmaqla müəyyən olunur. Məsələn, *vaxtilə dilimizə keçən **adam, qayda, toxum, fayda** və s. tipli sözlərin yazılışı Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşdırılaraq*



downloaded from KitabYurdu.org

*belə yazılmışdır.* Bu cür sözlərin ədəbi tələffüz normalarını müəyyənləşdirərkən yazıya, yazılı abidələrə müraciət etməli oluruq.

Deməli, bir qisim sözlərin ədəbi tələffüz normalarını müəyyənləşdirərkən yazıdan, orfoqrafiyadan bir mənbə kimi istifadə olunur.

**2)** Azərbaycan dilində mövcud olan bir sıra sözlər yazı ilə ədəbi tələffüz arasındakı fərqləri aradan götürür. Məsələn, ***de, yaz, gör, sən, mən, at, it, get, ana, ata*** *və s. tipli sözlər necə yazılırsa, eləcə də tələffüz olunur.* Bu da bir daha ədəbi tələffüzdə yazının mənbə olduğunu təsdiq edir.

**3)** Azərbaycan dilindəki onomastik vahidlərin bir qismi necə yazılırsa, o cür də tələffüz olunur. Məsələn, ***Şəki, Bakı, Quba, Qazax*** *və s.*

**4)** Dilimizdəki terminlərin və alınma sözlərin bir qismi yazıya köçürüldüyü kimi də tələffüz olunur.

Ədəbi tələffüzün mənbələrindən biri də **ənənəvi** və **əcnəbi** mənbədir. Burada alınma sözlərin ədəbi tələffüzü əsas götürülür. Belə ki, alınma sözlərin bir qismi ənənəvi olaraq alındığı dilin tələffüz norması ilə əlaqəli olur. Məsələn, *dilimizə keçən* ***komsomol, kolxoz, kommunist, kosmos, kollektiv*** *və s. sözlər rus dilinin ədəbi tələffüz normalarına uyğun olaraq tələffüz olunur.* Yəni, **kom, kol, kos** hecalarındakı **o** saiti **a** çalarlığında tələffüz edilir.

## Tələffüz şəraiti

Orfoepiyada tələffüz normaları nəzərdə tutulur. Konkret desək, **orfoepiyada** səslərin, sözlərin, söz birləşmələrinin, cümlələrin orfoepik normalara uyğun tələffüzü başa düşülür.

Orfoepiyada tələffüz şəraiti də mühüm şərtlərdən biridir. Dil vahidlərinin tələffüzündə üç şərait əsas götürülür. Buraya **lüğəvi, qrafik** və **qrammatik** şəraitdə tələffüz daxildir.



downloaded from KitabYurdu.org

**Lüğəvi şəraitdə tələffüz.** Sözlərin fonetik tərkibi müxtəlifdir. Fonetik tərkibin müxtəlif olması sözlərin məna cəhətdən fərqlənməsində mühüm rol oynayır. Sözün tərkib hissəsində olan hər bir səsin düzgün tələffüz qayda-qanunları lüğəvi şəraitdə tələffüzü təşkil edir.

Söz sait və samit səslərdən ibarət olur. Sözün tərkibindəki bu səslərin tələffüzü lüğəvi şəraitdəki tələffüzlə bağlı olur. Ona görə də lüğəvi şəraitdə tələffüz saitlərin və samitlərin tələffüzü kimi başa düşülür.

**Saitlərin tələffüzü.** Saitlərin tələffüzündə ən xarakterik məqam və şəraiti nəzərdən keçirək:

**a** saitinin uzun tələffüzü aşağıdakı məqam və şəraitdə mövcuddur:

**1)** Ərəb və fars dilindən alınmış sözlərin tərkibində **a** saiti uzun tələffüz olunur. *Məsələn,* ***a:lim, a:ləm, ka:tib, a:gah, a:sudə*** *və s.*

**2)** Dilimizə fars dilindən keçmiş bəzi sözlərdə **ba-, na-, la-** şəkilçilərinin tərkibindəki a saiti bir az uzun tələffüz olunur. *Məsələn,* ***ba:məzə, na:dan, na:xələf, la:məkan*** *və s.*

**3)** Ərəb dilindən alınmış **saat, maaş, camaat, maarif** və s. tipli sözlər orfoqrafiyada qoşa **a** saiti ilə yazıldığı halda, orfoepiyada bir **a** saitinin uzadılması ilə tələffüz olunur. Məsələn, ***sa:t, ma:ş, cama:t, ma:rif*** *və s.*

**4)** Sual intonasiyası ilə yaranan sual cümlələrində xəbərin son hecasındakı **a** saiti uzun tələffüz olunur. Məsələn, ***Sən baxırsa:n? Sən alarsa:n?*** *və s.*

**I saitinin tələffüzü.** Bu saitlə başlanan sözlər Azərbaycan dilində işlənmir. **I** saitinin dilimizdə işlənməsi də məhduddur.

**I** saitinin uzun tələffüzü aşağıdakı məqam və şəraitdə mövcuddur:

**1)** Söz təkidlə sadalandıqda onun son hecasındakı **ı** saiti uzun tələffüz olunur. Məsələn, ***yı:ğ, yaşı:l, qı:r*** *və s.*

**2)** Sual intonasiyası ilə yaranan sual cümlələrində xəbərin son hecasındakı ı saiti uzun tələffüz olunur. Məsələn, ***Dostum məqalə yazı:r? Sən kitabı tapdı:n?*** *və s.*





downloaded from KitabYurdu.org

**I** saitinin qısa tələffüzü aşağıdakı məqam və şəraitdə mövcuddur:

**1)** Bir qisim ikihecalı sözlərə saitlə başlanan şəkilçi qoşulduqda ikinci hecadakı **ı** saiti qısa tələffüz olunur. Məsələn, ***alın-alnı, ağız-ağzı*** *və s.*

**2)** Dilimizdə ikinci hecasında ı saiti olan bəzi sözlərə saitlə başlanan şəkilçi qoşulduqda ı saiti qısa tələffüz olunur. **Məsələn, *balıq-balı.ğa, qadın-qadı.na, çadır-çadı.ra*** *və s.*

**O saitinin tələffüzü.** O saiti aşağıdakı məqam və şəraitdə uzun və uzadılaraq tələffüz olunur:

**1)** Azərbaycan dilində **dovşan, dovğa, sovqat, çovdar** və s. sözlər ədəbi tələffüz prosesində **v** samitinin düşməsi nəticəsində **o** saitinin uzun tələffüzü ilə müşahidə olunur: **do:şan** (dovşan), **do:ğa** (dovğa), **so:qat** (sovqat), **ço:dar** (çovdar) və s.

**2)** Azərbaycan dilində bir qisim sözlərin sonu **ov** fonetik tərkibi ilə bitir: **plov, alov, buzov, qırov** və s. Belə sözlərin ədəbi tələffüzündə sondakı **v** samiti düşür, **o** saiti **ou** çalarlığında uzadılaraq tələffüz olunur: **pl$\widehat{ou}$, buz$\widehat{ou}$** və s.

**3)** Dilimizdə alınma beynəlxalq terminlər vardır ki, onlarda o saiti uzun tələffüz olunur. Məsələn, ***filoloq, texnoloq, leksikoloq*** *və s. Sözlərdə* ***loq*** *hecasından əvvəldə olan* ***o*** *saitinin tələffüzü uzun olur:* ***fil$\bar{o}$loq, texn$\bar{o}$loq, leksik$\bar{o}$loq*** *və s.*

**4)** Təkidlə sadalanan sözlərdə o saiti uzadılaraq tələffüz olunur: **yo:d, yo:l, qo:l, qo:n, so:l** və s.

> **Qeyd:** Dilimizə rus dilindən keçmiş bir sıra sözlərdəki **o** saiti ədəbi tələffüzdə **a** saiti kimi tələffüz olunur: **kalxoz** (kolxoz), **savet** (sovet), **kallektiv** (kollektiv) və s.

**U saitinin tələffüzü. U** saiti aşağıdakı məqam və şəraitdə uzun tələffüz olunur:

**1)** Azərbaycan dilinə ərəb və fars dillərindən keçmiş bəzi sözlərdə incə saitlə formalaşan hecadan əvvəlki hecada olan **u** saiti uzun tələffüz olunur: **Füzu:li, nümu:nə, ümu:mi** və s.





downloaded from KitabYurdu.org

**2)** Sual intonasiyası ilə yaranan sual cümlələrinin xəbərindəki sonuncu hecada olan **u** saiti uzun tələffüz olunur: **Hava soyuq olu:r?, Sən kitabı oxudu:n?** və s.

**3)** Təkidlə sadalanan sözlərin son hecasındakı **u** saiti vurğulu olur və uzun tələffüz olunur: **du:z, quzu:, quru:, soyu:q** və s.

**U** saiti aşağıdakı məqam və şəraitdə qısa tələffüz olunur:

Bir qrup ikihecalı sözlərin ikinci hecasında **u** saiti olur və bu qəbildən olan sözlərə saitlə başlayan şəkilçi qoşulduqda ikinci hecadakı **u** saiti düşsə də, ədəbi tələffüzdə qısa tələfüz olunur: **boyun-onun boynu** (boyu.nu), **burun-onun burnu** (buru.nu) və s.

**Ə saitinin tələffüzü. Ə** saiti aşağıdakı məqam və şəraitdə uzun tələffüz olunur:

**1)** Ərəb dilindən alınmış və vaxtilə apostrofla yazılmış **əla, bəzi, bəzən, nərə, təmir, təlim** və s. sözlərdə **ə** saiti uzun tələffüz olunur: **ə:la, bə:zi, bə:zən, nə:rə** və s.

Təkhecalı alınma sözlərdə vaxtilə apostroflu olan **ə** saiti uzun deyil, adi məxrəcdə tələffüz olunur: **rəy, ləl, vəd, səy** və s.

**2)** Sual intonasiyası ilə qurulan sual cümlələrinin xəbərlərinin sonuncu hecasındakı **ə** saiti uzun tələffüz olunur: **Biz gedə:k? Sən bilirsə:n?** və s.

**3)** Təkidlə sadalanan sözlərin son hecasındakı **ə** saiti uzun tələffüz olunur: **Əhmə:d, dələ:, sə:n, mə:n** və s.

**E saitinin tələffüzü. E** saiti aşağıdakı məqam və şəraitdə uzun tələffüz olunur:

**1)** Ərəb dilindən alınmış bəzi sözlərdə (vaxtilə apostroflu sözlər) **e** saiti uzun tələffüz olunur: **me:yar, e:lan, e:tibar, ne:mət, iste:dad, iste:fa** və s.

**2)** Bəzi alınma sözlərdə vurğulu heca **e** saitinin üzərində olur və uzun tələffüz olunur: **e:tika, e:ra, e:pos, este:tika** və s.

**3)** Sual intonasiyası ilə qurulan sual cümlələrinin xəbərinin sonuncu hecasındakı **e** saiti uzun tələffüz olunur: **O, sənə dedi ki, sən buradan ge:t?**

**4)** Bəzi təkhecalı alınma sözlərdə vaxtilə apostroflu **e** saiti **ei**



downloaded from KitabYurdu.org

çalarlığında tələffüz olunur: **şeir, feil** və s.

**5)** Təkidlə sadalanan sözlərin son hecasındakı **e** saiti uzun tələffüz olunur: **be:l, se:l, te:l, e:l** və s.

**Qeyd: E** saiti sözlərin tərkibində adətən adi kəmiyyətdə tələffüz olunur: **et, get, sel, bel** və s.

**İ saitinin tələffüzü.** Müasir Azərbaycan dilində **i** saiti adətən adi kəmiyyətdə tələffüz olunur. Bu saitin uzun tələffüzü aşağıdakı məqam və şəraitlə bağlı olur:

**1)** Dilimizə fars dilindən keçmiş **bi-** ön şəkilçisinin tərkibindəki i saiti uzun tələffüz olunur: **bi:xəbər, bi:hal, bi:vəfa, bi:savad** və s.

**2)** Müasir Azərbaycan dilindəki **i:di, i:miş, i:sə, i:kən, i:lə** köməkçi sözlərində i saiti uzun tələffüz olunur.

**3)** Dilimizə keçmiş bəzi alınma sözlərdə **i** saiti uzun tələffüz olunur: **əqi:də, si:ma, şi:və** və s.

**4)** Təkidlə sadalanan sözlərdə i saiti uzun tələffüz olunur: **əmi:, Əli:, dəli:, si:z** və s.

**İ saiti** aşağıdakı məqam və şəraitdə qısa tələffüz olunur:

**1)** Azərbaycan dilində bəzi birhecalı alınma sözlər vardır ki, onlarda **r** samitindən əvvəl **i** saiti qısa tələffüz olunur: **əmi.r, sədi.r, cəbi.r** və s. Halbuki belə sözlər orfoqrafiyada **əmr, sədr, cəbr** kimi yazılır.

**2)** Bəzi alınma ikihecalı sözlərə saitlə başlanan şəkilçi qoşulduqda ikinci hecadakı **i** saiti düşsə də, qısa tələffüz olunur: **fikir-fiki.ri, şəkil-şəki.li, qəbir-qəbi.ri, qisim-qisi.mi** və s.

**Ö saitinin tələffüzü. Ö** saiti adətən adi kəmiyyətdə tələffüz olunur: **özbək, özgə, örtmək, ölçü** və s. Bu sait aşağıdakı məqam və şəraitdə uzun tələffüz olunur:

**1)** Ərəb dilindən alınmış və vaxtilə apostrofla yazılan bəzi sözlərdə **ö** saiti uzun tələffüz olunur: **rö:ya, mö:təbər, şö:lə, şö:bə** və s.

**2)** Müasir Azərbaycan dilində bir qisim sözlərdə **öv** səslərindəki **v** samiti tələffüz zamanı düşür, **ö** saiti isə uzun tələffüz olu-



downloaded from KitabYurdu.org

nur: **kövrək-kö:ürək, tövbə-tö:übə, növbə-nö:übə, kösöv-kö-sö:ü, bülöv-bülö:ü** və s. Bu cür sözlərdə tələffüz zamanı **ö:ü** çalarlığında olan diftonq səslər yaranır.

**3)** Təkidlə sadalanan sözlərdə **ö** saiti uzun tələffüz olunur: **gö:z, sö:z, dö:z, ö:z** və s.

**Ü saitinin tələffüzü. Ü** saiti adətən adi kəmiyyətdə tələffüz olunur. Bu sait aşağıdakı məqam və şəraitdə uzun tələffüz olunur:

**1)** Təkidlə sadalanan sözlərdə **ü** saiti uzun tələffüz olunur: **sürü:, hörgü:, bölgü:** və s.

**2)** Sual intonasiyası ilə yaranan sual cümlələrində xəbərin sonuncu hecasındakı **ü** saiti uzun tələffüz olunur: **Dərzi parçanı ölçü:r?**

**Ü** saiti aşağıdakı məqam və şəraitdə qısa tələffüz olunur:

**1)** Müasir Azərbaycan dilindəki **ömür, üfüq** tipli sözlərə saitlə başlayan şəkilçi qoşulduqda ikinci hecadakı **ü** saiti orfoqrafiyada da, ədəbi tələffüzdə də düşür: **ömür-ömrü, üfüq-üfqi.** Ancaq **üfüq** sözünə saitlə başlayan şəkilçi qoşulduqda orfoqrafiyada **ü** saiti yazılsa da (üfüqə, üfüqün və s.), tələffüzdə **ü** saiti düşür, yaxud qısa tələffüz olunur: **üfqə, üfqün** və s.

**2) Üçün** qoşmasının şəkilçiləşmiş **"çün"** variantında **ü** saiti qısa tələffüz olunur: **sənin üçün -səninçün, bizim üçün-bizimçün** və s.

**Yanaşı gələn saitlərin tələffüzü.** Azərbaycan dilinin təbiəti belədir ki, söz köklərində və şəkilçilərdə iki sait yanaşı gələ bilmir. Ona görə də söz kökü saitlə qurtardıqda ona saitlə başlanan şəkilçi artırılarsa, onda iki sait arasında samit gəlir və buna bitişdirici samit deyilir. Buna baxmayaraq, dilimizin lüğət tərkibində bir qisim alınma sözlər vardır ki, onlarda iki sait səs yanaşı gəlir. Belə sözlərdə yanaşı gələn saitlər ya eyni, ya da müxtəlif saitlər olur. Məhz bunu nəzərə alaraq sözlərdə yanaşı gələn saitləri iki yerə ayırmaq mümkündür: **eyni saitlərin yanaşı gəlməsi, müxtəlif saitlərin yanaşı gəlməsi.**

**Eyni saitlərin yanaşı gəlməsi** müasir Azərbaycan dilindəki sözlərin ortasında və sonunda müşahidə olunur. Dilimizdə aşa-



downloaded from KitabYurdu.org

ğıdakı eyni saitlər yanaşı gəlir:

**aa.** Bu sait qoşa işləndikdə tələffüz zamanı bir saitin uzun kəmiyyətdə tələffüzü ilə müşahidə olunur: **maarif-ma:rif, saat-sa:t, maaş-ma:ş** və s.

**əə.** Bu saitin qoşa işlənməsi sözün ortasında və sonunda mövcuddur. Ədəbi tələffüzdə isə bir **ə** saitinin uzun kəmiyyətdə tələffüzü ilə müşahidə olunur: **təəssüf-tə:ssüf, təəccüb-tə:ccüb, əmtəə-əmtə:, mətbəə-mətbə:** və s.

**ii.** Bu saitin qoşa işlənməsi sözün sonunda mövcud olur, ədəbi tələffüzdə isə iki sait arasında **y** samiti gəlir, eyni zamanda hər iki sait qısa tələffüz olunur: **bədii-bədi.yi, təbii-təbi.yi** və s.

**oo.** Bu saitlərin qoşa işlənməsi dilimizə daxil olmuş alınma terminlərdə özünü göstərir. **oo** saitinin tələffüzü iki çalarlıqda özünü göstərir:

**1)** Əgər qoşa **oo** saitinin ikincisi vurğuludursa, onda **o** saitindən biri uzun tələffüz olunur: **zooloq-zo:loq.**

**2)** Əgər qoşa **oo** saiti vurğusuzdursa, onda ədəbi tələffüzdə saitlərdən biri düşür, o biri isə **a** çalarlığında uzun tələffüz olunur: **kooperativ-ka:perativ, koordinator-ka:rdinator** və s.

**Müxtəlif saitlərin yanaşı gəlməsi** dilimizdə aşağıdakı saitlərlə bağlı olur:

**ai.** Bu saitlər yanaşı gəldikdə onların arasına **y** samiti artırılır və **y** samitindən əvvəlki **a** saiti uzun, sonrakı **i** saiti isə qısa tələffüz olunur: **aid-a:yid, ailə-a:yilə, dairə-da:yirə** və s.

**ae.** Azərbaycan dilində tərkibində **ae** qoşalığı olan sözlərin sayı bir neçədir: **aeroport, aerostat, aerologiya** və s. Belə sözlərdə **ae** qoşalığı **ay** kimi tələffüz olunur: **ayroport, ayrostat, ayrologiya** və s.

**əi.** Tərkibində **əi** saitinin qoşa olduğu sözlər azdır: **zəif, məişət** və s. Bu sözlərdə **əi** qoşalığı arasında **y** samiti artırılaraq tələffüz olunur: **zəyif, məyişət.**

**ia.** Azərbaycan dilində **ia** qoşalığı sözlərin əvvəlində *(məsələn, iaşə, ianə və s.)* ortasında *(məsələn, riayət, dialekt, diaqram, diametr, biabır və s.),* sonunda *(məsələn, iddia)* işlənir.



downloaded from KitabYurdu.org

Sözlərin əvvəlində **ia** qoşalığı arasına **y** samiti əlavə olunmadan **a:** saiti bir az uzun tələffüz olunur: **ia:şə, ia:nə.** Bu qoşa sait sözün ortasında gəldikdə onların arasına **y** samiti əlavə olunaraq tələffüz olunur: **diyalekt, diyaqram, diyametr, biyabır** və s. Sözün sonu **ia** qoşalığı ilə qurtardıqda araya **y** samiti artırılaraq tələffüz edilir: **iddiya.**

**io.** Tərkibində **io** qoşalığı olan sözlərdə araya **y** samiti artırılaraq tələffüz olunur: **aksiom-aksiyom, radio-radiyo** və s. **Pioner, biologiya** tipli sözlərdə **io** qoşalığı arasına **y** samiti əlavə olunaraq **iya** çalarlığında tələffüz olunur: **piyaner, biyalogiya** və s.

**iu.** Tərkibində **iu** qoşalığı olan sözlər **iyu** çalarlığında tələffüz olunur və burada **i** saiti qısa məxrəcdə özünü göstərir: **radius-radi.yus, radium-radi.yum** və s.

**iə.** Bu qoşalıq **iyə** çalarlığında tələffüz olunur. Eyni zamanda **iə** çalarlığında **i** saiti qısa məxrəcli olur: **təbiət-təbi.yət, şəriət-şəri.yət, müdafiə-müdafi.yə, faciə-faci.yə** və s.

**ei.** Bu qoşalıq sözlərin tərkibində **eyi** çalarlığında tələffüz olunur: **ateist-ateyist** və s.

**ea.** Bu qoşalıq sözlərin tərkibində **iya** çalarlığında tələffüz olunur. Bu çalarlıqda i saiti qısa məxrəcdə özünü göstərir: **teatr-ti.yatr, real-ri.yal, reaksiya-ri.yaksiya** və s.

**eo.** Bu qoşalıq sözlərin tərkibində **eyo** çalarlığında tələffüz olunur. Bu çalarlıqda e saiti qısa məxrəcdə özünü göstərir: **teorem-te.yorem, feodal-fe.yodal** və s.

**oe.** Bu qoşalıq **oye** çalarlığında tələffüz olunur: **poema-poyema, poeziya-poyeziya, poetika-poyetika** və s.

**oi.** Bu qoşalıq **ayi** çalarlığında tələffüz olunur: **eqoist-eqayist.**

**ue.** Bu qoşalıq **uye** çalarlığında tələffüz olunur: **duel-duyel, duet-duyet** və s.

Müasir Azərbaycan dilində sait qoşalarının bəziləri diftonq çalarlığında tələffüz olunur. Bunlar, əsasən aşağıdakılardır:

**au.** Bu qoşalıq **au** diftonqu çalarlığında tələffüz olunur. Bu diftonqda **a** saiti qısa məxrəcdə özünü göstərir: **fauna-fa͡.una,**





downloaded from KitabYurdu.org

**kauçuk-ka.uçuk, lauriyat-la.uriyat** və s.

**ao.** Bu qoşalıq **ou** diftonq çalarlığında tələffüz olunur: **kakao-kakou** və s.

**aə.** Bu qoşalıq **aə** diftonqu çalarlığında **a**-nın azacıq uzun, **ə**-nin azacıq qısa tələffüzü ilə özünü göstərir: **şücaət-şüca:ət, bəraət-bəra:ət, itaət-ita:ət** və s.

**əa.** Bu qoşalıq **əa** diftonqu çalarlığında tələffüz olunur. Bu diftonqda **ə** saiti azacıq qısa, **a** saiti isə azacıq uzun məxrəcdə özünü göstərir: **səadət-sə.a:dət, fəaliyyət-fə.a:liyyət** və s.

**üu.** Bu qoşalıq **üu** diftonqu çalarlığında tələffüz olunur: **şüur-şüür** və s.

**üa.** Bu qoşalıq **üa** diftonqu çalarlığında tələffüz olunur. Bu diftonqda **ü** saiti qısa, **a** saiti uzun məxrəcdə özünü göstərir: **müasir-mü.a:sir, müalicə-mü.a:licə, müavin-mü.a:vin, müayinə-mü.a:yinə** və s.

**üə.** Bu qoşalıq **üə** diftonqu çalarlığında tələffüz olunur. Bu diftonqda **ü** saiti qısa məxrəcdə, **ə** saiti adi məxrəcdə müşahidə olunur: **müəmma-mü.əmma, müəllim-mü.əllim, müəllif-mü.əllif** və s.

## Samitlərin tələffüzü

Müasir Azərbaycan dilində samitlər kar və cingiltili olduğundan onların tələffüzünü də iki qrup üzrə nəzərdən keçirmək lazımdır: **kar samitlərin tələffüzü, cingiltili samitlərin tələffüzü.**

**Kar samitlərin tələffüzü.** Burada bütün kar samitlərdən deyil, müxtəlif çalarlıqda tələffüz olunan bir qisim kar samitlərdən bəhs olunacaqdır.

**P samiti.** Bu samit saitlər arasında və saitlə samit arasında işləndikdə öz məxrəcində tələffüz olunur: **qapı, qapaq, köpük, ipək, arpa, qarpız, kirpi, körpü** və s.

**P** samiti **t, d, s, z, ş, ç** samitlərdən əvvəl gəldikdə **f** çalarlı-



downloaded from KitabYurdu.org

ğında tələffüz olunur: **tapdıq-tafdıq, tapşırıq-tafşırıq** və s.

**P** samiti bəzi sözlərin əvvəlində və sonunda nəfəsli tələffüz olunur: **pul-pʰul, ip-ipʰ, sap-sapʰ** və s.

**P** samiti söz daxilində qoşa işləndikdə birinci **p** adi məxrəcdə, ikinci **p** isə cingiltiləşmiş halda tələffüz olunur: **tappıltı-tappıltı, guppultu-guppultu, hoppanmaq-hoppanmaq** və s.

**F samiti.** Bu samit əsasən sözün əvvəlində, ortasında və sonunda öz məxrəcinə uyğun tələffüz olunur: **fil, fırça, fayda, foto, fleksiya, üfüq, tüfəng, tələffüz, şəffaf, saf, şərəf** və s.

**K samiti.** Bu samit qalın saitlərdən əvvəl gəldikdə **ka** məxrəcində tələffüz olunur: **kombayn-kambayn, kombinat-kambinat, konsert-kansert, kommunist-kammunist, konyak-kanyak** və s.

**T samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda əsasən öz məxrəcində tələffüz olunur: **teatr, ata, qatar, tut, avtomat, dövlət** və s.

**T** samiti kar samitlərdən sonra onunla yanaşı gəldikdə cingiltiləşmiş şəkildə tələffüz olunur: **dəftər-dəftər, həftə-həftə, məktəb-məktəb, usta-usta** və s.

Söz ortasında qoşa **t** samiti gəldikdə ikinci **t** samiti cingitiləşmiş halda tələffüz olunur: **hətta-hətta, ittiham-ittiham, əlbəttə-əlbəttə** və s.

Söz sonunda **t** samiti **st, şt, ft, pt** səs birləşmələrində öz məxrəcində deyil, özündən əvvəlki samitin məxrəcində tələffüz olunur: **dost-doss, rast-rass, üst-üss, dəst-dəss; güzəşt-güzəşş, behişt-behişş; şrift-şriff, neft-neff; resept-resepp** və s.

**S** samiti. **S** samiti sözün hər yerində öz məxrəcinə uyğun tələffüz olunur: **saz, söz, əsər, əsgər, his, irs, kurs** və s.

**S** samiti bəzi sözlərdə qoşa yazılsa da, təkcə bir **s** kimi tələffüz olunur: **rejissor-rejisor, komissar-komisar, rəssam-rəsam** və s.

**Ke samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda **k** samitinin kar qarşılığı kimi tələffüz olunur: **kitab, kələm, kotan, kol, çəkic, iki, zəka, tək, tik, tük** və s.

Bəzi sözlərdə **ke** samiti azacıq cingiltiləşərək tələffüz olu-




downloaded from KitabYurdu.org

nur: **təşkil-təşkil, ötkün-ötkün, küskün-küskün, əskik-əskik** və s.

Müasir Azərbaycan dilində söz ortasında qoşa gələn **ke** samitindən ikincisi azacıq cingiltili tələffüz olunur: **hikkə-hikkə, mütəkkə-mütəkkə, sikkə-sikkə, Məkkə-Məkkə** və s.

**Ke** samiti bəzi sözlərdə y samitinin kar qarşılığı olan **x**[1] çalarlığında tələffüz olunur: **çiçək-çiçəx**[1], **ərik-ərix**[1], **çörək-çörəx**[1], **təklif-təx**[1]**lif** və s.

**X samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda işlənir, öz məxrəcinə uyğun tələffüz olunur: **xına, xiyar, xüsusi; axın, çuxa, yuxu; çox, çıx, tox** və s.

**H samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda işlənir, öz məxrəcinə uyğun tələffüz olunur: **həvəs, hikkə, hoqqa; zehin, möhür, mühit, tənha, məşhur; ah, gah** və s.

**H** samiti söz sonunda samitlə yanaşı gəldikdə zəif tələffüz olunur: **səth, mədh, fəth** və s. Ancaq saitlə yanaşı gəldikdə yarım məxrəcdə tələffüz olunur: **gah, agah, segah, ah** və s.

**Ç samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda öz məxrəcinə uyğun tələffüz olunur: **çöl, çək, çadır; qaçaq, açar; aç, iç, üç** və s.

Bəzi sözlərdə **ç** samiti azacıq olsa da, **ş** çalarlığında tələffüz olunur: **keçmiş-keşmiş, qaçqın-qaşqın** və s.

**Ş samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda öz məxrəcinə uyğun tələffüz olunur: **şir, şair, şad; döşək, qoşun, axşam; qardaş, gümüş, xoş** və s.

**Cingiltili samitlərin tələffüzü.** Burada bütün cingiltili samitlərdən deyil, müxtəlif çalarlıqda tələffüz olunan cingiltili samitlərdən bəhs olunacaqdır.

**B samiti.** Bu samit sözün əvvəlində, ortasında və sonunda öz məxrəcinə uyğun tələffüz olunur: **buz, bəzək, bərk, beş, böl; qab, dib; sünbül, anbar** və s.

İkinci hecası **t, f, k, x, c, ş** kar samitləri ilə başlayan sözlərin əvvəlində gələn b samiti karlaşmış halda (p çalarlığında) tələffüz olunur: **bıçaq-bıçaq, buxov-buxov, bütöv-bütöv, biçin-biçin, bişirmək-bişirmək** və s.



downloaded from KitabYurdu.org

**B** samiti **kitab, qutab, şərab, qərb, mübtəda, həbs** və s. sözlərdə də azacıq karlaşmış halda (yəni p çalarlığında) tələffüz olunur.

Müasir Azərbaycan dilində **qabıq, oba, baba** və s. sözlərdə **b** samiti **v** çalarlığında tələffüz olunur: **qavıq, ova, bava** və s.

Müasir Azərbaycan dilində tərkibində qoşa **b** samiti olan şəxs adlarında hər iki b samiti adi halda tələffüz olunur: **Abbas, Cabbar** və s.

**V samiti.** Bu samit sözün əvvəlində, ortasında, sonunda işlənir və öz məxrəcində özünü göstərir: **ver, vur; hava, dəvə, əvvəl; üzv, həcv, növ, plov, buzov, buxov, alov** və s.

Müasir Azərbaycan dilində bir sıra məqam və şəraitdə **v** samiti **f** çalarlığında tələffüz olunur: **avtobus-aṿtobus, avtomat-aṿtomat, məhv-məhṿ, Əhmədov-Əhmədoṿ, obyektiv-obyektiṿ, subyektiv-subyektiṿ, aktiv-aktiṿ** və s.

Dilimizdə elə sözlər var ki, onlarda **v** samitindən əvvəl **o** saiti, sonra isə **u** saiti gəlir. *Məsələn, **ovuşdurmaq, qovurma, sovurmaq** və s.* Belə sözlərdə **ovu** birləşməsi **ou** çalarlığında diftonqlaşmış halda tələffüz olunur: **o͡uşdurmaq, qo͡urma, so͡urmaq** və s.

Dilimizdəki bir sıra sözlərdə v samitindən əvvəl o saiti, sonra isə istənilən bir samit gəlir. Bu zaman **ov** birləşməsi **ou** çalarlığında tələffüz olunur: **dovşan - do͡uşan, çovğun - ço͡uğun, dovğa - do͡uğa, ovxalamaq - o͡uxalamaq** və s.

Dilimizdəki sözlərin bəzisində **v** samitindən əvvəl **ö** saiti, sonra isə samitlər gəlir. Bu zaman **öv** birləşməsi **ö͡ü** çalarlığında diftonq kimi tələffüz olunur: **bənövşə - bənö͡üşə, mövsüm - mö͡üsüm, cövhər - cö͡ühər, tövbə - tö͡übə, kövrək -kö͡ürək, lövbər -lö͡übər, növbə - nö͡übə** və s.

**Q samiti.** Bu samit sözün əvvəlində, ortasında, əsasən öz məxrəcinə uyğun tələffüz olunur: **qeyrət, qəlb, qiyam, qol, qüvvə; məqam, naqis, vaqon, əqrəba** və s.

**Q** samiti bir sıra sözlərdə başqa çalarlıqda tələffüz olunur. *Məsələn, bəzi sözlərdə karlaşmış halda: **nöqtə - nöq̣tə, nöqsan-nöq̣san, rəqs - rəq̣s, irq - irq̣, məşq - məşq̣, tədqiq - tədqiq̣, fi-***





downloaded from KitabYurdu.org

***loloq-filoloq*** *və s.; qoşa yazıldığı sözlərdə birinci* ***q*** *karlaşmış halda:* ***toqqa-toqqa, çaqqal-çaqqal, baqqal-baqqal*** *və s.; bəzi sözlərin sonunda x çalarlığında:* ***çıraq-çırax, çanaq-çanax, aşıq-aşıx, torpaq-torpax, papaq-papax*** *və s. tələffüz olunur.*

**D samiti.** Bu samit sözün əvvəlində, ortasında, sonunda öz məxrəcində tələffüz olunur: **dən, döşək, duz, adam, adil, od, öd, yod** və s.

**D** samiti bir sıra sözlərdə karlaşmış halda tələffüz olunur: **kənd-kənḍ, dörd-dörḍ, azad-azaḍ, igid-igiḍ, övlad-övlaḍ** və s.

**Z** samiti. Bu samit sözün əvvəlində, ortasında, sonunda öz məxrəcində tələffüz olunur: **zil, zirvə, gözəl, üzük, gəz, iz, göz** və s.

**Z** samiti bəzi sözlərdə karlaşmış halda tələffüz olunur: **almaz-almaẓ, bəkməz- bəkməẓ, nüfuz- nüfuẓ** və s.

**G samiti.** Bu samit sözün əvvəlində, ortasında, əsasən öz məxrəcində tələffüz olunur: **göz, gur, gül, günəş, nərgiz, zəngin, güzgü** və s. Dilimizdə bir sıra sözlərdə **g** samiti iki sait səs arasında gəldikdə **y** çalarlığında tələffüz olunur: **əgər-əyər, məgər-məyər, şagird-şayird** və s.

Dilimizdə sonu **g** samiti ilə qurtaran bir qisim sözlərdə **g** samiti **k** çalarlığında tələffüz olunur: **nəhəng-nəhənk, qəşəng-qəşənk, külüng-külünk, cəng- cənk** və s.

**C samiti.** Bu samit sözün əvvəlində, ortasında öz məxrəcinə uyğun tələffüz olunur: **ceyran, cıdır, corab, gecə, qoca, bucaq, ancaq, tərcümə** və s.

**C** samiti bəzi sözlərin ortasında və sonunda **j** çalarlığında tələffüz olunur: **əcdad-əjdad, səcdə-səjdə, iclas-ijlas; güc-güj, uc-uj, ac-aj** və s.

**C** samiti bəzi təkhecalı sözlərin sonunda karlaşmış çalarlıqda **ç** kimi tələffüz olunur: **ağac-ağaç̣, çəkic-çəkiç̣, qorxunc-qorxunç̣, dinc-dinç̣, tunc-tunç̣** və s.

**Qeyd:** Müasir Azərbaycan dilindəki **n, l, r, ğ, y, j** samitləri, əsasən öz məxrəcində tələffüz olunur.



downloaded from KitabYurdu.org

## Qrafik şəraitdə tələffüz

Qrafik şəraitdə tələffüz dedikdə qısaltmaların tələffüz qaydaları başa düşülür. Burada müxtəlif idarə, təşkilat adlarını bildirən söz birləşmələrinin, mürəkkəb adların tələffüzü (qısaldılmış tələffüzü) nəzərdə tutulur. Belə sözlərin böyük bir qismi şifahi ədəbi dildə öz işləkliyi ilə seçilir.

Qrafik şəraitdə tələffüz olunan qısaltma sözlərin hamısı eyni qaydada formalaşmır və eyni qaydada da tələffüz olunmur. Buna görə də qrafik şəraitdə tələffüz olunan qısaltma sözlər öz növbəsində aşağıdakı tələffüzlərə bölünür:

**a)** Əsli əsasda tələffüz olunan qısaltma sözlər;

**b)** Hecai əsasda tələffüz olunan qısaltma sözlər;

**c)** Hərfi əsasda tələffüz olunan qısaltma sözlər;

**ç)** Müxtəlif normaların birikməsi əsasında tələffüz olunan qısaltma sözlər.

**a) Əsli əsasda tələffüz olunan qısaltma sözlər.** Əsli əsasda tələffüz zamanı qısaltmaları təşkil edən sözlərin ilk hissələrinin, ilk hecalarının bitişdirilməsi ilə düzəldilmiş tələffüz başa düşülür. *Məsələn, **rayon komitəsi** ifadəsini təşkil edən sözlərin birinci **ray** və **kom** hissəsi (hecası) birləşərək **raykom** sözünü düzəldir ki, bu da əsli əsasda tələffüz deməkdir.* Əsli əsasda tələffüz olunan qısaltmalar aşağıdakı yollarla yaranır:

**1)** Hər hansı ifadənin ilk hissələrinin birləşdirilməsi ilə düzələn qısaltmalar: **raykom, partkom** və s.

**2)** Hər hansı ifadənin ilk hissəsi ilə ikinci sözün kökünün birləşməsindən düzələn qısaltma sözlər: **Azərkitab, Azərsu, Azərneft** və s.

**3)** Hər hansı ifadənin ilk hissəsi ilə digər sözlərin baş hərfləri əsasında düzələn qısaltma sözlər: **Nax. MR, AzərTAc** və s.

**b) Hecai əsasda tələffüz olunan qısaltma sözlər.** Belə qısaltma sözlər sözlərin (ilk hərflərinin) baş hərflərinin birləşmə-





downloaded from KitabYurdu.org

si nəticəsində tələffüz olunur. Bu zaman sözlərin baş hərflərindəki saitlər və samitlər birləşir və bu birləşmədə saitlər hecanın sayının təzahür forması olur. *Məsələn,* ***ADPU*** *qısaltması* ***Azərbaycan Dövlət Pedaqoji Universiteti*** *adını təşkil edən sözlərin ilk səsləri əsasında yaranmışdır.* Bu səslərin birləşməsi isə iki hecada təzahür edir: **AD-PU.**

Hecai əsasda tələffüz olunan qısaltmalar əsasən aşağıdakı yollarla yaranır:

**1)** Bir heca halında formalaşan qısaltmalar birhecalı söz kimi tələffüz olunmalıdır: **TEC** (Tələbə Elmi Cəmiyyəti), **RƏF** (Respublikalar Əlyazmalar Fondu), **ABŞ** (Amerika Birləşmiş Ştatları), **BDU** (Bakı Dövlət Universiteti), **SDU** (Sumqayıt Dövlət Universiteti), **ŞEC** (Şagird Elmi Cəmiyyəti) və s.

**2)** İki heca halında formalaşan qısaltmalar ikihecalı söz kimi tələffüz olunmalıdır: **ADPU** (Azərbaycan Dövlət Pedaqoji Universiteti), **ADDU** (Azərbaycan Dövlət Dillər Universiteti), **ADTU** (Azərbaycan Dövlət Tibb Universiteti) və s.

**c) Hərfi əsasda tələffüz olunan qısaltma sözlər.** Hərfi əsasda tələffüz dedikdə sözlərin, ilk səslərinin, hərflərinin adlarının birləşməsindən yaranmış tələffüz nəzərdə tutulur. *Məsələn,* ***Bakı komitəsi*** *ifadəsini təşkil edən sözlərin ilk səslərinin birləşməsindən* ***BK*** *qısaltması yaranır.* Bu qısaltma **Be** və **Ka** hərflərinin adından düzələn vahid **BeKa** kimi tələffüz olunur.

Hərfi əsasda tələfüz olunan qısaltma sözlər əsasən aşağıdakı yollarla yaranır:

**1)** Yalnız sait səsləri bildirən hərflərdən ibarət qısaltmalar: **AAÖ** (Asiya-Afrika Ölkələri), **EA** (Elmlər Akademiyası). Misallardan görünür ki, bunlar sait səsləri bildirən hərflərin adına uyğun tələffüz olunur.

**2)** Yalnız samitləri bildirən hərflərdən ibarət qısaltmalar: **BMT-BeeMTe** (Birləşmiş Millətlər Təşkilatı), **VDR-VeDeeR** (Vyetnam Demokratik Respublikası), **DQMV-DeQeeMVe** (Dağlıq Qarabağ Muxtar Vilayəti) və s. Göründüyü kimi, belə qısaltmalar da samit səsləri bildirən hərflərin adına uyğun tələffüz olunur.





downloaded from KitabYurdu.org

**ç) Müxtəlif normaların birikməsi əsasında tələffüz olunan qısaltma sözlər.** Bir qisim qısaltma sözlərin tələffüzündə bir neçə əsasda tələffüzdən istifadə olunur. Burada müxtəlif normaların birləşməsi əsasında qısaltmalar tələffüz olunur. Yəni müxtəlif normaların birikməsi əsasında tələffüzdə həm hecai, həm hərfi tələffüzdən istifadə olunur. *Məsələn, **Almaniya Demokratik Respublikası** ifadəsinin qısalmış **ADR-ADeeR** forması qismən hecai, qismən də hərfi əsasda tələffüz olunur.* Belə ki, **A** hecai (həm də hərfi), **De** hərfi, **eR** hərfi əsasda tələffüz olunmaqla müxtəlif normaları birikdirmiş **ADeeR** şəklində tələffüzü yaratmışdır. Müxtəlif normaların birikməsi əsasında tələffüz olunan qısaltma sözlərə misal olaraq göstərmək olar: **VVAQ-VeVAQ** (Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı), **ALDP-AeLDeP** (Almaniya Liberal Demokratik Partiyası), **ATS-ATeeS** (Avtomat Telefon Stansiyası) və s.

## Qrammatik şəraitdə tələffüz

Qrammatika morfologiya və sintaksis şöbələrini özündə birləşdirir. Qrammatik şəraitdə tələffüz dedikdə morfoloji və sintaktik şəraitdə tələffüz nəzərdə tutulur. Bu mənada qrammatik şəraitdə tələffüz iki yerə ayrılır: **Morfoloji şəraitdə tələffüz; sintaktik şəraitdə tələffüz.**

**Morfoloji şəraitdə tələffüz.** Morfoloji şəraitdə tələffüz dedikdə sözlərə şəkilçilərin qoşulması ilə yaranmış tələffüz nəzərdə tutulur. Bu şəraitdə olan tələffüz iki yerə ayrılır: **Sözlərə şəkilçi qoşulduqda sözün sonuncu səsinin tələffüzü; sözlərə qoşulan şəkilçilərin tələffüzü.**

**Sözlərə şəkilçi qoşulduqda sözün sonuncu səsinin tələffüzü** əsasən aşağıdakı çalarlıqda olur:

**a)** Sonu **a** saiti ilə qurtaran ikihecalı sözlərə saitlə başlayan şəkilçi qoşulduqda y bitişdirici samitindən əvvəlki **a** saiti **ı** saiti çalarlığında tələffüz olunur: **ata-y-a — atıya, ana-y-a — anıya** və s.





downloaded from KitabYurdu.org

b) Sonu **ə** saiti ilə qurtaran ikihecalı sözlərə saitlə başlayan şəkilçi qoşulduqda **y** bitişdirici samitindən əvvəl **ə** saiti **i** çalarlığında tələffüz olunur: **nənə-y-ə — nəniyə, işlə-y-ir — işliyir** və s.

c) Sözlərə bitişdirici **s, n** samitləri qoşulduqda sözlərin yazılışı ilə tələffüzündə heç bir fərq olmur:

**-n: qapının, əminin, əlinin** və s.

**-s: dədəsi, əmisi, atası** və s.

**ç)** Sonu qapalı saitlə qurtaran bir sıra sözlərə **III** şəxsin mənsubiyyət şəkilçisi qoşulduqda qapalı sait azacıq olsa da, qısa tələffüz olunur: **əmisi-əmi.si, dayısı-dayı.sı, bibisi-bibi.si** və s.

**d)** Sonu saitlə qurtaran sözlərə samitlə başlayan şəkilçi qoşulduqda söz yazıldığı kimi tələffüz olunur: **ananın, atanın, atada, əmidə, dayıda** və s.

**e)** Sözün sonu cingiltili samitlə qurtardıqda ona samitlə başlayan şəkilçi qoşularsa, onda sözün kökünün sonundakı cingiltili samit karlaşır: **buludsuz, qanadlı, kitabda, məktəbli, qılınçsız, kəndli, dinclik, rəngli** və s.

**Qeyd:** Sonu **b, d, g, c** cingiltili samitləri ilə qurtaran sözlərə samitlə başlayan şəkilçi qoşulduqda **b, d, g, c** samitləri karlaşmış çalarlıqda tələffüz olunur.

**ə)** Soyadını bildirmək üçün şəxs adlarına qoşulan **-ov, -yev** şəkilçilərinin sonundakı **v** samiti karlaşmış çalarlıqda tələffüz olunur: Soyadını yaradan **-ov, -yev** şəkilçilərinə samitlə başlanan şəkilçi əlavə olunduqda **v** samiti yenə də karlaşmış çalarlıqda tələffüz olunur: **Əhmədov—Əhmədovdan, Məmmədov—Məmmədovdan** və s.

**f)** İki və çoxhecalı alınma sözlərin sonundakı **v** samiti karlaşmış çalarlıqda tələffüz olunur. Belə sözlərə samitlə başlanan şəkilçi qoşulduqda yenə də v samiti karlaşmış çalarlıqda tələffüz olunur **Subyektiv-subyektivlik, obyektiv-obyektivlik, aktiv-aktivlik** və s.

**g)** Dilimizdəki bəzi alınma sözlərin sonundakı **q** samiti karlaşmış çalarlıqda tələffüz olunur. Belə sözlərə samitlə başlanan





downloaded from KitabYurdu.org

şəkilçi qoşulduqda yenə də **q** samiti karlaşmış çalarlıqda tələffüz olunur: **məntiq-məntiqsiz, ittifaq-ittifaqda, müttəfiq-müttəfiqlər** və s.

**ğ)** Sonu **z** samiti ilə qurtaran bəzi sözlərə samitlə başlanan şəkilçi qoşulduqda **z** samiti karlaşmış çalarlıqda tələffüz olunur: **almaz-almazdan, ulduz-ulduzdan** və s.

**h)** Sonu **k, q, ç, c, p** samiti ilə qurtaran sözlərə samitlə başlanan şəkilçi qoşulduqda **k, q, ç, c, p** samitləri başqa məxrəcdə tələffüz olunur: **çiçək-çiçəx'li, külək-küləx'li, qonaq-qonaxda, otaq-otaxda; qaç-qaşdı, aç-aşdı; güc-güjlü; sap-safla, çöp-çöfsüz** və s.

Müasir Azərbaycan dilində sözlərin sonunda gələn **v, ğ, y, h, j, n, l, m, r, s, t, p, f, x** samitlərindən sonra samitlə başlanan şəkilçi gəldikdə bu samitlər öz məxrəcinə uyğun tələffüz olunur: **ovçu, evli; yağlı, bağlı; göydə, haraydan; günahkar, qədəhdən; qarajdan, tirajda** və s.

Bundan başqa, sonu **b, v, ğ, d, j, z, y, k, g, l, m, n, p, r, s, t, f, x, h, ç, c, ş** samitləri ilə qurtaran sözlərə saitlə başlayan şəkilçi qoşulduqda qeyd olunan samitlər öz məxrəcində tələffüz olunur: **qutabı, alova, qanadın, saraya, əkizin, oğlanın, ipin** və s.

Müasir Azərbaycan dilində sonu **k, q** samitləri ilə qurtaran **çiçək, ələk, mələk, otaq, qonaq** və s. sözlərin sonuna saitlə başlayan şəkilçi qoşulduqda **k, q** samitləri başqa samitə keçir və başqa məxrəcdə tələffüz olunur: **çiçək-çiçəyin, ələk-ələyin, qonaq-qonağın** və s.

**Sözlərə qoşulan şəkilçilərin tələffüzü,** əsasən aşağıdakı çalarlıqda olur.

**a)** Sonu **m, n** samitləri ilə qurtaran sözlərə çıxışlıq hal şəkilçisi **-dan, -dən** qoşulduqda bu şəkilçi **-nan, -nən** çalarlığında tələffüz olunur: **atamdan-atamnan, qandan-qannan, kətandan-kətannan** və s.

**b)** İkinci şəxsin cəmini bildirən **-sınız, -siniz, -sunuz, -sünüz** xəbər şəkilçisi tələffüzdə **-sız, -siz, -suz, -süz** variantlarında olur. Bu variantların tələffüzü iki çalarlıqda olur:

**1)** **-sız, -siz, -suz, -süz** variantlarındakı saitlər **n** burun sono-





downloaded from KitabYurdu.org

runun uzadılmış çalarlığında tələffüz olunur: **gəlirsiniz-gəlirsi:z, görürsünüz-görürsü:z** və s.

**2) -sız, -siz, -suz, -süz** variantlarının sonundakı **z** samiti karlaşmış çalarlıqda tələffüz olunur: **bilirsiz̤, gülürsüz̤, görürsüz̤** və s.

**c)** Fellərdə qəti gələcək zaman şəkilçisindən sonra **I** şəxsin təkinin və cəminin şəkilçisi gəldikdə zaman şəkilçisinin sonundakı **q, k** saṃiti tələffüzḍə düşụ̈r: **gələcəyəm-gələcəm, deyəcəyəm-deyəcəm, alacağıq-alacayıq** və s.

**ç)** II şəxsin tək və cəmini bildirən mənsubiyyət şəkilçisindəki **n** samiti sağın 7 samiti kimi tələffüz olunur: **sənin kitabın-sənin kitabı7, sənin dostun-sənin dostu7, sizin dostunuz-sizin dostu7uz, sizin kitabınız-sizin kitabı7ız** və s.

**d)** III şəxsin tək və cəminin mənsubiyyət şəkilçisi və ona qoşulan şəkilçi adi halda tələffüz olunur: **onun dostuna, onun müəlliminə** və s.

**e)** Sözdə nəqli keçmiş zaman şəkilçisindən sonra **II** şəxs tək və cəminin şəxs şəkilçisi işlənərsə, onda nəqli keçmiş zaman şəkilçisindəki **ş** samiti ixtisar olunur: **keçmişsən-keçmisən, almışsan-almısan** və s.

**ə)** İndiki zaman inkarda olduqda inkar şəkilçisindəki sait səs ixtisar olunaraq tələffüz olunur: **gəlməyir-gəlmir, deməyir-demir, içməyir-içmir** və s.

**Qeyd:** İndiki zamanın inkarında inkar şəkilçisindəki sait qapalı sait çalarlığında da tələffüz oluna bilir: **gəlməyir-gəlmiyir, deməyir-demiyir, baxmayır-baxmıyır** və s.

**Sintaktik şəraitdə tələffüz.** Sintaktik şəraitdə tələffüz dedikdə sözlərin yanaşması, birləşməsi və qoşulması şəraitindəki tələffüz başa düşülür. Sintaktik şəraitdə tələffüzü iki yerə ayırmaq daha düzgündür: **Yanaşı işlənən müstəqil sözlərin son və ilk səslərinin tələffüzü və qısaltmaların bitişən səslərinin tələffüzü.**





downloaded from KitabYurdu.org

**Yanaşı işlənən müstəqil sözlərin son və ilk səslərinin tələffüzü** aşağıdakı şəraitdə tələffüzlərə ayrılır:

**1)** Saitlərin yanaşı işlənməsi şəraitində tələffüz;

**2)** Saitlə samitin yanaşı işlənməsi şəraitində tələffüz;

**3)** Samitlə saitin yanaşı işlənməsi şəraitində tələffüz;

**4)** Samitlərin yanaşı işlənməsi şəraitində tələffüz.

**1) Saitlərin yanaşı işlənməsi şəraitində tələffüz.** Saitlərin yanaşı işlənməsi şəraitində tələffüz, əsasən, aşağıdakı çalarlıqda olur:

**a)** Tam üslubda tələffüz olunduqda yanaşı saitlər öz məxrəclərində tələffüz olunur: **ana alır, dənizdə üzür, gəmidə axtarır** və s.

**b)** Sərbəst üslubda tələffüz olunduqda yanaşı saitlərdən əvvəlincisi bir az qısadılaraq sonrakı (yəni sonrakı sözün başlanğıcındakı) saitilə qovuşmuş şəkildə tələffüz olunur: **ana.alır, dənizdə.üzür, gəmidə.axtarır** və s.

**c)** Sonu saitlə qurtaran sözlər saitlə başlayan köməkçi sözlərlə (idi, imiş, üçün, ilə, isə, ikən) yanaşı işləndikdə yanaşı saitlərdən ikincisi (yəni köməkçi sözün əvvəlindəki sait) qısa tələffüz olunur: **əmi idi - əmi i.di, bibi idi - bibi i. di, dostu ilə- dostu i.lə, hamısı imiş - hamısı i. miş, bağda imiş - bağda i. miş** və s.

**ç)** Qoşa yazılan sözlərdə yanaşı gələn saitlərdən birincisi qısa məxrəcdə və ikincisi ilə qovuşaraq tələffüz olunur: **ata-ana– ata.ana, iki-iki – iki.iki, yaza-yaza – yaza.yaza** və s.

**d)** Mürəkkəb sözlərdə və sabit söz birləşmələrində yanaşı gələn saitlərdən birincisi qısalaraq, ikincisi ilə qovuşaraq tələffüz olunur: **zəhlə aparmaq - zəhlə.aparmaq, istiot - isti.ot, suiti - su.iti, əmioğlu -əmi.oğlu** və s.

**Qeyd:** Mürəkkəb sözlərin əksəriyyəti sərbəst üslubda tələffüz olunduqda birinci tərəfin son saiti ixtisar olaraq ikinci tərəfin saiti ilə qovuşmuş şəkildə tələffüz olunur: **Hacı Əli - Hacəli, Əli ağa - Əla-**





downloaded from KitabYurdu.org

**ğa, isti ot - istot, əmi oğlu - əmoğlu, Mirzə əli - Mirzəli** və s.

**2) Saitlə samitin yanaşı işlənməsi şəraitində tələffüz.** Saitlə samitin yanaşı işlənməsi şəraitində yanaşı gələn sait də, samit də öz məxrəcində tələffüz olunur: **yazı yazmaq, dilə gəlmək, ələ baxmaq, Mirzə Möhsün** və s.

**Qeyd:** Müasir Azərbaycan dilində sərbəst üslubda **Əliheydər, Mirzə Həsən** və s. sözlər tələffüz olunduqda ikinci tərəfin əvvəlindəki samit düşür: **Əleydər, Mirzəsən** və s.

**3) Samitlə saitin yanaşı işlənməsi şəraitində tələffüz.** Samitlə saitin yanaşı işlənməsi şəraitində samitlə sait öz məxrəclərinə uyğun və qovuşmuş şəkildə tələffüz edilir: **ət almaq - ətalmaq, ağ eləmək - ağeləmək, sənin üçün - səninüçün** və s.

**Qeyd:** İkinci tərəf **ilə, imiş, isə, idi, üçün** qoşmalarından ibarət olduqda bu qoşmalar şəkilçiləşmiş variantda tələffüz olunur: **alim üçün - alimçün, dostum ilə - dostumla, sənin imiş- səninmiş** və s.

**4) Samitlərin yanaşı işlənməsi şəraitində tələffüz.** Tərəflər müstəqil cümlə üzvləri və söz birləşmələrinin tərəfləridirsə, onda yanaşı samitlər müstəqil sözlərin tərkibində tələffüz olunur: **mən gəldim, yaşıl yarpaq** və s. Yanaşı samitlər mürəkkəb sözlərin tərkibində işlənirsə, onda onlar qovuşmuş halda tələffüz olunur: **dilbir, canbir, yüzbaşı** və s.

**Qısaltmaların bitişən səslərinin tələffüzü.** Qısaltma sözlər bitişik halda müvafiq şəkilçiləri qəbul edərək tələffüz olunur: **ADPU-nun, BDU-nun, SDU-nun, TEC-in** və s.





downloaded from KitabYurdu.org

## Ədəbi tələffüzün pozulma mənbələri

Ədəbi tələffüzə riayət etmək hər bir şəxsin borcudur. Lakin bəzən ədəbi tələffüzün normaları pozulur. Ədəbi tələffüzün normalarının pozulmasında mühüm mənbələr vardır. Bu mənbələrə **şivələr, yazı** və **əcnəbi dillər** daxildir.

**Şivələr.** Ədəbi dil ümumxalq dili üzərində qurulmasına baxmayaraq, şivə xüsusiyyətlərinin yaşamasına imkan vermir. Daha doğrusu, ədəbi tələffüz normalarına riayət edən şəxslərə imkan vermir ki, onlar öz şivələrinə məxsus olan tələffüz çalarlığından istifadə etsinlər. *Məsələn, **hava** əvəzinə **hova, alsın** əvəzinə **alsun, gedək** əvəzinə **gedax, açar** əvəzinə **haçar, asan** əvəzinə hasan və s. işlətsinlər.* Ona görə ki, **şivə** sözləri çox məhdud dairədə işlənir ki, onu ədəbi tələffüz üçün məqbul saymaq olmaz. Odur ki, şivələr ədəbi tələffüz normalarının formalaşmasına mənfi təsir göstərir.

**Yazı.** Yazının ədəbi dildə oynadığı rol böyükdür. Bu mənbə orfoqrafiya qaydalarının tənzimlənməsində böyük rol oynadığı kimi, ədəbi tələffüzün tənzimlənməsində də əhəmiyyəti az deyildir. Belə ki, elə sözlər vardır ki, onlar necə yazılırsa, elə də tələffüz olunur. Bununla bərabər, bəzi sözlər ədəbi tələffüzdə müxtəlif variantlarda tələffüz olunduğuna görə yazıda da müxtəlif variantlarda yazılmışdır. Bunun nəticəsində də yazı hansı variantın ədəbi tələffüz üçün məqbul olması işinə maneçilik göstərmişdir.

*Məsələn, **məktəb** sözü tarixən ərəb əlifbası ilə **mektəb, mktəb** və s. variantlarında yazılmışdır.* Bu da hansı variantın ədəbi tələffüzdə məqbul götürülməsinə maneəçilik yaratmışdır. Bəzən isə elə sözlər vardır ki, onlar necə yazılırsa, elə də tələffüz olunmalıdır. *Məsələn, **məndən, səndən** və s. Yaxud, **çiçək, çörək, inək kommunist, komsomol, fonetika** və s.* Ona görə də bu qəbildən olan sözlərin tələffüzündə yazı aldadıcı rol oynayır,





downloaded from KitabYurdu.org

yəni ədəbi tələffüzün pozulmasında bir mənbə kimi çıxış edir.

**Əcnəbi dillər.** Bu, daha çox ikinci bir dildə danışan, yazıb-oxuyan adamların dilində müşahidə olunur. Onlar ikinci bir dildə yazdıqları və danışdıqları üçün tələffüz zamanı bəzi sözlərin variantlarının yaranmasına şərait yaradırlar. Belə ki, hər hansı bir sözü yazdığı, danışdığı ikinci dilin tələffüz normalarına uyğunlaşdırırlar. Bu da nəticə etibarı ilə ədəbi tələffüzün pozulmasına gətirib çıxarır. *Məsələn, vaxtilə rus dilinin, indi isə ingilis dilinin orfoepik qaydasına uyğun tələffüzün mövcud olması buna misal ola bilər.* Hər halda buna qarşı mübarizə aparmaq lazımdır. Belə olarsa, əcnəbi dillərin tələffüz qaydası dilimizin ədəbi tələffüzünə təsir göstərə bilməz.





downloaded from KitabYurdu.org

## İstifadə olunmuş ədəbiyyat

**a) Azərbaycan dilində:**

Axundov A. Azərbaycan dilinin fonetikası. "Maarif" nəşriyyatı, Bakı, 1984

Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. "Maarif" nəşriyyatı, Bakı, 1973.

Axundov A. Azərbaycan dilinin tarixi fonetikası. Bakı, 1973.

Axundov A. Müasir Azərbaycan dilinin fonemlər sistemi. - S.M.Kirov adına ADU-nun "Elmi əsərləri" (Dil və ədəbiyyat), Bakı, 1968, № 2.

Axundov A. Dilçilikdə fonem problemi və Azərbaycan dilinin fonetik quruluşu. - Ali məktəblərin filoloji və pedaqoji problemlərinə həsr edilmiş I respublika elmi konfransının materialları (V.İ.Lenin adına APİ). Bakı, 1964.

Axundov A. Azərbaycan dili saitlərinin statistik təhlili təcrübəsindən. - "ADU-nun elm əsərləri (Dil və ədəbiyyat)", 1963, № 5.

Axundov A. Azərbaycan dilində işlənin ərəb sözlərinin fonetik xüsusiyyətləri haqqında. - "ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)", 1963, № 3.

Axundov A. Müasir Azərbaycan dilinin fonemlər sistemi (oppozisiya üçün materiallar). - "ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)", 1968, № 2.

Axundov A. Azərbaycan dili samitlərində nitq axını zamanı özünü göstərən bəzi qanunauyğunluqlar haqqında. - "S.M.Kirov adına ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)", 1963, № 6.

Axundov A. Azərbaycan dili fonemlərində özünü göstərən bəzi qanunauyğunluqlar haqqında. - "S.M.Kirov adına ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)", 1963, № 6.

Abdullayev A. Fonetika tədrisinin metodikası. - "Azərbaycan dili və ədəbiyyatın tədrisi", II buraxılış, 1954.

Abdullayev Ş. Azərbaycan dilində söz vurğusunun təbiəti. - "ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)", 1964, № 5.

Ağayeva F. Azərbaycan dilinin intonasiyası. Bakı, 1978.

Ağayeva F. Şifahi nitqin sintaksisi. Bakı, 1975.

Axundov C. Azərbaycan dilində sual kateqoriyasının ifadə yolları. - "V.İ.Lenin adına APİ-nin elmi əsərləri". XI seriya, № 5, 1966.

Axundov C. Azərbaycan dilində ritorik sual haqqında. - "M.F.Axundov adına APİ-nin aspirantlarının elmi konfransının tezisləri". Bakı, 1967.

Axundov C. Azərbaycan dilində təkrar sual haqqında. - "Professor-



downloaded from KitabYurdu.org

müəllim heyətinin 1967-ci il üçün elmi tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi konfransın materialları", 1968.
Axundov C. Əvəzlikli və əvəzliksiz xüsusi sual cümlələrinin intonasiya xüsusiyyətləri (eksperimental tədqiqat əsasında). - "1968-ci il elmi konfransının materialları". Bakı, 1969.
Axundov C. Müasir Azərbaycan dilində əmr sualları. - "M.F.Axundov adına APDİ-nin elmi əsərləri", Seriya XII, 1971, № 1.
Axundov C. Təkrar suallar haqqında. - "Azərbaycan dili və ədəbiyyat tədrisi". 1974, № 1.
Axundov C. Sual cümlələrinin təsnifi. - "M.F.Axundov adına APDİ-nin elmi əsərləri", XII seriya, 1976, № 1.
Axundov C. Azərbaycan dilində sual cümlələri (eksperimental-fonetik tədqiq). "Elm", Bakı, 1998.
Abdullayev N. Orfoepiya və orfoqrafiya təlimi məsələləri. Bakı, 1985.
Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 1975.
Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 2004.
Azərbaycan dilinin tarixi fonetikasına dair seminar məşğələləri. Bakı, 1979 (tərtib edəni: dos. Bilal İbrahimov).
Azərbaycan dilindən öyrədici və yoxlayıcı proqramlar (fonetika). APİ-nin nəşri, Bakı, 1980.
Bəşirova A. Azərbaycan dilçiliyində vurğu məsələləri. - "Gənc elmi iş-çilərin XI elmi konfransının materialları". Bakı, APİ nəşri, 1964.
Bəşirova A. Birinci növ təyini söz birləşmələrində vurğu. - "V.İ.Lenin adına APİ-nin elmi əsərləri". Bakı, 1965, XI seriya, № 4.
Bəşirova A. İkinci növ təyini söz birləşmələrində vurğu. - "V.İ.Lenin adına APİ-nin elmi əsərləri". Bakı, 1965, № 6.
Bəşirova A. Azərbaycan dilində vurğu. Bakı Universiteti nəşriyyatı, 1994.
Budaqova Z., Rüstəmov R. Azərbaycan dilində durğu işarələri. Bakı, 1965.
Bir daha apostrof haqqında. - Ədəbiyyat və incəsənət qəzeti. 1976, 27 noyabr.
Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, 1970.
Cəlilov F. Azərbaycan dilində cingiltili samitlərin karlaşması. - "ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)", 1975, № 3.
Cəlilov F. Bağlayıcısız tabeli mürəkkəb cümlənin müəyyənləşdirilmə-sində intonasiyanın rolu. - "ADU-nun elmi əsərləri" (Dil və ədəbiy-yat), 1978, № 5.
Cəlilov F. Azərbaycan dilinin morfonologiyası. "Maarif" nəşriyyatı, Bakı, 1988.



downloaded from KitabYurdu.org

Cəlilov F. Apostrof lazımdırmı? - Ədəbiyyat və incəsənət qəzeti. 1976, 2 oktyabr.
Cəlilov F. Azərbaycan dilinin səs quruluşu. Bakı, 1983.
Çobanzadə B. Türkcənin səs uyuşması qanunu. - "Yeni yol", 7 noyabr, 1924, № 36-37.
Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin inkişaf yolları. Bakı, 1958.
Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1959.
Dəmirçizadə Ə. Müasir Azərbaycan dilinin fonetikası. Bakı, 1960.
Dəmirçizadə Ə. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, 1969.
Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Fonetika. Bakı, 1972.
Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, 1972.
Əzizov E. Azərbaycan dili dialekt və şivələrində saitlər ahəngi (nam. diss.), Bakı, 1974.
Əzizov E. Ahəng qanunu və Azərbaycan dili quruluşunda onun yeri haqqında. - "ADU-nun elmi əsərləri (Dil və ədəbiyyat)". 1972, № 5.
Əfəndizadə Ə. Fonetik təhlil haqqında. - "Azərbaycan məktəbi", 1954, № 8.
Əfəndiyev Ə. Düzgün yazı təliminin elmi əsasları. Bakı, 1957.
Əfəndizadə C. Müasir Azərbaycan dilində sual cümlələrində məntiqi vurğu və intonasiya. Ədəbiyyat və Dil İnstitutu, Əsərləri, 8-ci cild, 1975.
Ələkbərli Q. Azərbaycan və rus dillərində vurğu (namizədlik dissertasiyası), 1947.
Əlizadə S. Azərbaycan sözlərinin sonunda samitlərin düşməsinə dair ("Fonetik hadisələr" silsiləsindən). - "ADU-nun elmi əsərləri "Dil və ədəbiyyat)", 1970, № 2.
Ferdinand de Sössür. Ümumi dilçilik kursu. Bakı, 2003.
Həsənov H. Azərbaycan dilinin fonetikası. Bakı, 1999.
Hidayətzadə. T. Azərbaycan dilindəki bəzi damaq samitləri haqqında, - "ADU-nun elmi əsərləri (dil və ədəbiyyat)", 1965, № 2.
Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2000, 2007; II hissə, Bakı, 2003, 2007.
Xəlilov B. Azərbaycan dili: dünən, bu gün. "Adiloğlu" nəşriyyatı, Bakı, 2004.
Xəlilov B. Türkologiyaya giriş. Bakı, 2006.
Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1967.
Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 2003.
Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962.
Mirzəyev H. Müasir Azərbaycan dilindən ixtisas kursu. Bakı, 1972.
Mahmudov Ə. Müasir Azərbaycan dlində kar və cingiltili samitlər,





downloaded from KitabYurdu.org

ADU, elmi sessiyadakı məruzələr, 1948.
Mahmudov Ə. Azərbaycan dilində kar və cingiltili samitlər. - “Azərbaycan dili və ədəbiyyat tədrisi”, II buraxılış, 1960.
Müasir Azərbaycan dili. “Elm” nəşriyyatı. Bakı, 1978.
Mehdiyev N.Azərbaycan dilində əmr intonasiyasının eksperimental tədqiqi. - “S.M.Kirov adına ADU-nu elmi əsərləri (Dil və ədəbiyat)”, 1971.
Mehdiyev N. Cümlələrin təsnifində fonetik prinsip. - “Azərbaycan SSR EA aspirantlarının elmi konfransının materialları. İctimai elmlər”. Bakı, 1972.
Mehdiyev N. Əmr çalarlarının intonasiya ilə ifadəsi. - “S.M.Kirov adına ADU-nun elmi əsərləri (Dil və Ədəbiyyat)”, 1973, № 1.
Müasir Azərbaycan ədəbi dilindən çalışmalar (fonetika). (tərtib edən: A.Bəşirova). APİ-nin nəşri, Bakı, 1981.
Sultanov R. Dil vahidləri və onların xarakterik xüsusiyyətləri haqqında. ADU, elmi əsərləri, 1956, № 1.
Sultanov R. Dil vahidləri və onların xarakterik xüsusiyyətləri cədvəli haqqında bəzi qeydlər. - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin elmi əsərləri, 1956, № 9.
Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968.
Şərif Ə. Türk dillərində sinharmonizm məsələləri. - “Azərbaycanı öyrənmə yolu”, 1931, № 1.
Şərif Ə. İltisaqi dillərdə sinharmonizm məsələsi. - “Azərbaycanı öyrənmə yolu”, 1931, № 2-3.
Yusifov M. Oğuz qrupu türk dillərinin müqayisəli fonetikası. “Elm”, Bakı, 1984.

**b) Rus dilində:**

Аралбаев Ж.А. Вокализм казахского языка. Алма-Ата, 1970.
Асланов В.И. Из этюдов по исторической фонетике азербайджанского языка (о фонеме h). - “Изв. АН Азерб. ССР, серия лит-ры, языка и искусствоведения, 1967, № 1.
Алекберли Г. Азербайджанское и русское ударение, его природа и функции. - “В помощь учителю и русском языке в нерусской школе”, 1947, декабрь.
Баскаков Н.А. Уйгурский вокализм. -“Исследования по сравнительной грамматике тюркских языков. 1. фонетика”. М., 1955.
Баскаков Н.А. Структура слога в тюркских языках.-“Исследования по сравнительной грамматике тюркских языков, 1, фонетика”. Москва, 1955.
Биишев А. Соответствие -р//-з в алтайских языках. - “Исследования по



downloaded from KitabYurdu.org

уйгурскому языку”, I, Алма-Ата, 1965.
Биишев А. “Первичиные” долгие гласные в тюркских языках. Уфа, 1963.
Вернер Г.К. Проблема происхождения фарингализации в тувинском и тофаларском языках. - “Советская тюркология”, 1972, № 5.
Гаджиев Н.З., Серебренников Б.А. Быль ли начальный ж в тюркских языках первичным? - “Советская тюркология”, 1974, № 3.
Трубецкой Н.С. Основы фонологии. М., 1960.
Дмитриев Н.К. Фонетические закономерности начала и конца тюркского слова. - “Исследования по сравнительной грамматике тюркских языков”. 1. фонетика. М., 1955.
Дмитриев Н.К. Долгие гласные в тюркменском языке. - “Исследования по сравнительной грамматике тюркских языков”. 1, фонетика. М., 1955.
Дмитриев Н.К. Вторичные долготы в тюркских языках. - Там же.
Джунисбеков А. Гласные казахского языка. Алма-Ата, 1972.
Зиндер Л.Р. Общая фонетика. Л., 1960.
Исаев М.Фразовые модификации гласных в структуре казахского слова. - “Вопросы казахской фонетика и фонологии”. Алма-Ата, 1979.
Исхаков Ф. Общая характеристика тюркского воколизма. - “Исследования по сравнительной-грамматике тюркских языков”. I ч., фонетика. М., 1955.
Исхаков Ф. Характеристика отдельных гласных в современных тюркских языках - “Исследования по сравнительной грамматике тюркских языков”. I ч., фонетика. М., 1955.
Исхаков Ф. Долгие гласные в тюркских языках. - Там же.
Исенгельдина А.А. Вопросы слога. - “Республиканская межвузовская конференция по вопросам методики преподования и теории иностранных языков”. Алма-Ата, 1966.
Иванов Вяч.Вс. О происхождении ларингализации-фарингализации в енисейских языках. - “Фонетика, фонология. Грамматика. К семидесятилетии А.А. Реформатского”. Москва, 1971.
Кязимов Ф. Система согласных фонем современного Азербайджанского литераурного языка. - Уч. Зап. АПИИЯ, 1958, вып. I.
Кязимов Ф.А. Классификация азербайджанских согласных. - “Методика и лингвистика”. Баку, 1971.
Кязимов Ф.А. Длительность азербайджанских согласных. - “Методика и лингвистика”, вып. 2, Баку, 1976.
Махмудов А. Дистрибуция согласных фонем в узбекском языке. - “Советская тюркология и развитие тюркских языков в СССР”. Алма-Ата, 1976.
Пальмбах А.А. Долгие и полудолгие гласные тувинского языка. -



downloaded from KitabYurdu.org

"Исследования по сравнительной грамматике тюркских языков. I, фонетика". М., 1955.
Пинес В.Я. О фонеме к в азербайджанском языке. - "Советская тюркология", 1973, № 4.
Раимович А.И. Сочетаемость согласных в казахском языке. - "Советская тюркология", 1970, № 5.
Севортян Е.В.Фонетика турецкого литературного языка. М., 1955.
Севортян Е.В. Ассимиляция и диссимиляция согласных в южных тюркских языках. - "Исследования по сравнительной грамматике тюркских языков", I. Москва, 1955.
Сыдыков Ж. Экспериментально-фонетическое исследования безударных гласных киргизского языка. - "Советская тюркология". 1972, № 5.
Сыдыков Ж. Безударный вокализм в киргизском языке. Фрунзе, 1976.
Талипов Т. Гласные звуки уйгурского и казахского языков. Алма-Ата, 1968.
Талипов Г. К вопросу о генезисе звука **h** в современнов уйгурском языке. - "Исследования по тюркологии". Алма-Ата, 1969.
Татубаев С. Тайны свука. Алма-Ата, 1978.
Чанков Д.И. Согласные хакасского языка. Абакан, 1957.
Черкасский М.А. Тюркский вокализм и сингармонизм. М., 1965.
Чумакаев М. Долгие гласные алтайского языка. - "Советская тюркология и развитие тюркских языков в СССР". Алма-Ата, 1976.
Чумакаева М.Ч. Фонемный состав алтайского литературного языка. - "Вопросы Алтайского языкознания". Горно-Алтайск, 1976.
Ширалиев М. Носовые гласные (на матириалам диалектов и говоров азербайджанского языка). - "Тюркология". Л., 1976.
Ширалиев М. О звуке **h** в азербайджанском языке. - "Труды АГУ им. С.М. Кирова, серия филолог., вып. 2, 1949.
Шербак А.М. О происхождении первычных долгих гласных в тюркских языках. - "Вопросы языкознания", 1967, № 6.
Щербак А.М. Слог и его структура (на материале тюркских языков). - "Вопросы тюркологии". Баку, 1971.
Щербак А.М. Сравнительная фонетика тюркских языков. Ленинград, 1970.

**c) Türk dilində:**

Caferoğlu A. Kuzey Doğu ellerimiz ağızlardan toplamalar. İstanbul, 1946.
Emre A.Ç. Türkçede uzun vokaller. - "Türk dili" seri III, İstanbul, № 10-11.
Korkmaz L. Batu Anadolu agezlarında asli vokal uzunluqlari hakkında. - "Türk Dili Araştermaları yilligi". Ankara, 1953.
Ozdarandeli M. Türkcede uzun ünlüler. - "Türk Dili" v, 54, Ankara, 1956.



downloaded from KitabYurdu.org

## MÜNDƏRİCAT

**Giriş ........................................................................................ 3**

**Fonetikaya giriş ........................................................................... 15**

**Azərbaycan dilinin fonetik quruluşu ............................................ 23**

**Azərbaycan dilinin fonemlərini müəyyənləşdirməyin**
**üsul və vasitələri ............................................................................ 26**

**Fonetik transkripsiya .................................................................... 32**

**Səs ................................................................................................... 39**
*Səsin fiziki (akustik) əlamətləri ............................................ 43*
*Səsin fizioloji mənbələri və əlamətləri .................................. 47*
*Səsin ictimai əlamətləri ........................................................ 55*
*Danışıq səslərinin təsnifi ...................................................... 63*

**Azərbaycan dilinin saitlər sistemi ................................................. 66**
*Saitlərin əsas xüsusiyyətləri ...................................................77*
*Azərbaycan dilindəki saitlər sisteminin qarşılığı .................... 87*

**Azərbaycan dilinin samitlər sistemi .............................................. 89**
*Azərbaycan ədəbi dilindəki samitlərin əsas xüsusiyyətləri ...... 94*

**Nitqin fonetik parçaları ............................................................... 110**
*Heca .................................................................................. 112*
*Heca tiplərində saitlər və samitlər ...................................... 118*
*Heca üçbucaqları ............................................................... 123*
*Nitq axınının hecalanma meyarı ......................................... 128*

**Azərbaycan dilində fonetik hadisə və qanunlar ........................... 132**
*Fonetik hadisələr ............................................................... 133*
*Ahəng qanunu .................................................................... 147*



downloaded from KitabYurdu.org

**Nitq parçalarının mənalı (fonosemantik) səslənməsi .................. 158**
*Vurğu ................................................................................ 159*
*Heca vurğusu .................................................................... 162*
*Heca vurğusu sözlərdə və şəkilçilərdə ................................ 165*
*Azərbaycan dilində vurğunun güc, qüvvət dərəcəsi .............. 173*
*Məntiqi vurğu .................................................................... 177*
*Həyəcanlı vurğu ................................................................ 179*
*Avazlanma (intonasiya) ..................................................... 181*
*Avazlanmanın (intonasiyanın) tipləri ................................. 184*
*Sadə cümlələrin avazlanması (intonasiyası) ........................ 188*
*Mürəkkəb cümlələrin avazlanması (intonasiyası) ................ 193*
*Durğu ................................................................................ 197*

**Yazı, əlifba, qrafika ..................................................................... 211**
*Yazı .................................................................................... 211*
*Azərbaycan əlifbası ........................................................... 217*
*Azərbaycan dilinin qrafikası ............................................... 227*

**Orfoqrafiya .................................................................................. 231**
*Orfoqrafiya qaydaları ........................................................ 252*
*Orfoqrafiya lüğətinin quruluşu ........................................... 263*
*Azərbaycan dili orfoqrafiyasının tarixi barədə məlumat ........ 268*

**Orfoepiya ..................................................................................... 271**
*Orfoqrafiya ilə orfoepiya arasında*
*yaxın və fərqli cəhətlər ....................................................... 273*
*Ədəbi tələffüzün mənbələri ................................................ 276*
*Tələffüz şəraiti .................................................................. 278*
*Samitlərin tələffüzü ........................................................... 286*
*Qrafik şəraitdə tələffüz ...................................................... 291*
*Qrammatik şəraitdə tələffüz ............................................... 293*
*Ədəbi tələffüzün pozulma mənbələri .................................. 299*

**İstifadə olunmuş ədəbiyyat .......................................................... 301**
*a) Azərbaycan dilində ........................................................ 301*
*b) Rus dilində .................................................................... 304*
*c) Türk dilində ................................................................... 306*



downloaded from KitabYurdu.org

D ə r s l i k

**Buludxan Əziz oğlu Xəlilov**

**MÜASİR AZƏRBAYCAN DİLİ:**
***fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya*** (dərslik)

**Bakı - 2013**



downloaded from KitabYurdu.org

Dizayneri:
**İ. Nizamioğlu**

Operator:
**Mələk Əliyeva**

Korrektor:
**Gülarə Balayeva**

Çapa imzalanmışdır: 08.II.2013
Formatı 60x90 1/16. Həcmi: 19,3 ç.v.  Sayı: 1000
Sifariş: 40.  Qiyməti müqavilə yolu ilə.



downloaded from KitabYurdu.org